AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NƏSİMİ ADINA DİLÇİLİK İNSTİTUTU

NƏRGİZ MUSA QIZI HACIYEVA

# AZƏRBAYCAN DİLİNİN PARONİMLƏR LÜĞƏTİ

BAKI - 2018

*Lüğət Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının 07 iyun 2017-ci il tarixli iclasının 8 №-li protokolunun qərarı ilə nəşr olunur.*

Elmi redaktorlar: fil.e.d.,prof. T.M.Hacıyev
fil.e.d.,prof. İ.O.Məmmədli

Rəyçilər: fil.e.d.,prof. Q.İ.Məşədiyev
fil.ü.fəl.d.,dos. İ.S.Salehova

**Nərgiz Musa qızı Hacıyeva.** Azərbaycan dilinin paronimlər lüğəti. "Elm və təhsil", Bakı, 2018, 279 səh.

Lüğətdə Azərbaycan dilində olan paranomlər, paronimiya hadisələri ilə uyğunlaşan sözlər və frazeoloji vahidlər toplanmış onların hər birinin izahı verilmişdir. Eyni və müxtəlif köklü sözlər olub səslənməsinə görə yaxın olan bu söz və ifadələr dildə geniş işləkliyə malikdir. Xüsusən bədii əsərlərdə xarakter yaradıcılığında bu vahidlərdən ətraflı istifadə olunur. Onlar məqsədli və ya bilməyərəkdən nitqdə bəzən dolaşıq salınır. Fikrin səlis və düzgün verilməsində bu dil vahidlərini bilmək gərəklidir.

Lüğət geniş oxucu kütləsi üçün nəzərdə tutulsa da, elmi tədqiqatlarda da istifadə oluna bilər.

# ÖN SÖZ

Dil insanlar arasında ən mühüm ünsiyyət vasitəsi olub, ictimai həyatda mühüm rol oynayır. Cəmiyyət inkişaf etdikcə dil də inkişaf edir, onun cəmiyyətdəki rolu yüksəlir, bu da nitq mədəniyyəti qarşısında yeni tələblər qoyur. Nitq mədəniyyətinin tədqiq etdiyi məsələlərdən biri sözlərin düzgün tələffüz edilməsi, orfoepiya normalarına dəqiq əməl olunmasıdır. Bunun üçün hər bir kəs dilin qanunlarını bilməli, ondan yerli-yerində istifadə etməlidir. Sözlər çoxmənalılığa, omonimliyə, sinonimliyə, antonimliyə malik olub, hər biri məna özəlliyi ilə fikrin ifadəsində xüsusi rol oynayır. Bu cərgədə paronimlik məsələsindən yan keçmək olmaz.

Dilçilikdə həddən artıq mübahisə doğuran məsələlərdən biri paronimlərdir. Qeyd edək ki, dilimizdə olan bir sıra milli və alınma sözlərin tələffüzündə meydana çıxan problemlər bilavasitə paronimlər məsələsinə təsirini göstərmiş olur. Paronimlər maraqlı dil-nitq faktı olub, obrazlı-emosuional fikrin ifadəsində mühüm rola malikdir. Elə buna görə də paronimlər tədqiqatdan kənarda qalmamışdır. Paronim dil faktı kimi ilk dəfə Aristotelin "Kateqoriyalar"[1]əsərində qeyd olunmuşdur. Paronimlərin termin kimi tədqiqinə rus dilçiliyində XIX əsrin sonlarında başlanmış, bir sıra lüğətlər tərtib olunmuşdur. XIX əsrin I yarısında sözlərin səhv yazılışına dair bir sıra lüğətlər mövcud olmuşdur. Bu cəhətdən 1827-ci ildə V.İ.Çernışevin çap olunan lüğətini[2] göstərmək olar. N.İ.Qreçin lüğətində[3] də alınma sözlərin düzgün yazılışı və oxunuşuna dair fikirlər yer alır. 1909-cu ildə nəşr olunan V.Dolopçevin kitabında[4] tələffüzündə qarışıqlıq görünən elə sözlər ayrılır ki, bunlar sonradan paronim adlanır. Bu kitablarda qeyd olunur ki, sözlərdə vurğunun yerini dəyişməklə bir sıra sözlərin anlaşılmasında çətinliklər yaranır, dialekt sözlər ədəbi dilə təsir edib onun fonetik tərkibini necə dəyişə bilir, habelə

---

[1]Аристотель. Категории. С приложением «Введения» Порфирия к «Категориям» Аристотеля. Государственное экономическое издательство, М., 1939, с.38 (84 с.).

[2] В.И.Чернышев. Прпвильность и чистота русской речи. Опыт словаря стилистической грамматики. М., «Книга по требованию», 1827, 264 с.

[3] Н.И.Греч. Практическая русская грамматика. 2-ое издание, Санкт-Петербург, 1834, 615 с.

[4] В.Долопчев. Опыт словаря неправильностей в русской разговорной речи (1909). Кн.2., М., «Книга по требованию», 2011, 694 с.

mənasına görə müxtəlif olan sözlərin tələffüzündə qarışıqlıqlar haqqında məlumat verilir.

Paronimlər haqqında göstərilir ki, “Paronimika, paronimiya yunan sözü olub, para(yanında) və onuma (ad) deməkdir. Sözlərin düzəldilməsi, habelə mənası, tələffüzünə görə eyni olan, yazılışına görə müxtəlif olan, mənaca müxtəlif olan sözlərdir “.[5]

XX əsrdə paronimliyə maraq daha çox nitq mədəniyyəti istiqamətində artmışdır. Bu zaman bir sıra əsərlərdə paronimlik nitq mədəniyyəti nöqteyi-nəzərindən tədqiq olunmuşdur. Paronimliyin tədqiqində müasir tendensiyalar O.S.Axmanova, Y.A.Belçikov, O.V.Vişnyakova, A.İ.Qvozdyev, N.P.Kolesnikov, L.P.Krısin, M.S.Panyuşeva, T.Q.Ponomarenko, D.İ.Rozental, L.İ.Skvortsov, M.A.Telenkova, N.M.Şanskiy, D.N.Şmelyovun fikirlərində özünü göstərir. Bu dövrdə bir sıra paronimlər lüğəti çap olunmuşdur. Bu cərgədə L.P.Krısin və L.İ.Skvortsovun[6], N.P.Kolesnikovun[7], O.V.Vişnyakovanın[8], Y.A.Belçikov və M.S.Panyuşevanın[9], D.E.Rozental və M.A.Telenkovanın[10] əsərlərini göstərmək olar.

XX yüzilliyin II yarısında paronimliyə müraciət artdı və sferası genişləndi; nitq mədəniyyəti sahəsindən dilçilik tədqiqatlarına yönəldi. Lakin paronimlərin öyrənilməsində mübahisəli məsələlər hələ də qalmaqdadır.

Bu mövzu ilə bağlı əsas problemlərdən biri – “paronim” termininin müəyyən olunmasıdır. Rus dilində olan “slovar-spravoçnik”lərdə, əsasən, nitq mədəniyyəti məsələləri işıqlandırılır, lakin müəlliflər paronim terminindən istifadə etmirlər. Belə ki, L.P.Krısin və L.İ.Skvortsov öz əsərində[11] rus dilində eyniköklü sözlərin qarışdırılması qeydləri ilə məhdudlaşırlar. Y.A.Belçikov və M.A.Panyuşevanın əsərində ilk dəfə olaraq eyniköklü sözlər paronim adlandırılır.[12] Bu fakt lüğətin

---

[5] А.Михелсон. Объяснительный словарь иностранных слов. М., «Русская типография», 188, 172 с.
[6]Л.П.Крысин, Л.И.Скворцов. Словарь-справочник: Правильность русской речи. М., «АН СССР», 1965, 232 с.
[7] Н.П.Колесников. Словарь паронимов русского языка. Тбилиси, «ТГУ», 1971, 346 с.
[8] О.В.Вишнякова. Словарь паронимов русского языка. М., «Русский язык», 1984, 352 с.
[9] Ю.А.Бельчиков, М.С.Панюшева. Словарь паронимов русского языка. М.: АСТ, «Астрель», 1994, 458 с.
[10] Д.Э.Розенталь, М.А.Теленкова. Словарь трудностей русского языка. М., «Айрис Пресс», 2003, 832 с.
[11]Л.П.Крысин, Л.И.Скворцов. Словарь-справочник: Правильность русской речи. М., «АН СССР», 1965, с.5(232 с.)
[12] Ю.А.Бельчиков, М.А.Панюшева. Трудные случаи употребления однокоренных слов. М, «Советская энциклопедия», 1968, с.4 (297 с.).

adında da ifadəsini tapır; müəlliflər paronimlərə eyniköklü sözləri aid edirlər. O.S.Axmanova paronimlərə belə tərif verir: "Paronimlər – səslənməsində oxşarlığına və morfem tərkibinin çox vaxt uyğunluğuna görə ya səhvən, ya da kalambur məqsədilə nitqdə işlənir".[13]

D.E.Rozental və M.A.Telenkova isə paronimləri belə müəyyən edir: "Paronimlər – eyniköklü sözlər olub, səslənməsinə görə yaxın və öz mənasında çox vaxt üst-üstə düşən sözlərdir"[14] . Bu lüğətləri fərqləndirərək qeyd etmək olar ki, D.E.Pozentalın lüğətində paronimlərə yalnız eyniköklü sözlər kimi baxılırsa, O.S.Axmanovanın lüğətində bu fikir yoxdur. Qeyd edək ki, bütün müəlliflər bu nöqteyi-nəzərə tərəfdar deyillər.

N.P.Kolesnikov lüğətində yazır: "Paronimiya" terminini nitqdə elə hadisə adlandırmaq olar ki, iki söz hər hansı dərəcədəsə oxşar səslənməyə, lakin müxtəlif mənaya malikdir, səhvən biri digərinin yerində işlənir. Bu cütləri təşkil edən sözlər paronimlər adlanır. Bir sözün digərinin yerində, oxşar səslinin yerində işlənməsi, onların nəinki səslənməsinin oxşarlığı ilə, həm də bir çox halda onların məna yaxınlığı ilə izah olunur, başlıca olaraq, sözlərdən birinin, bəzən hər ikisinin mənasının anlaşılmaması, danışanın sözün haradan gəldiyini bilməməsi səlahiyyəti ilə əlaqədardır"[15].

Digər əsərlərində də müəllif paronimləri belə müəyyən edir.[16]

İlk dəfə olaraq paronimləri nitq hadisəsi kimi deyil, dil hadisəsi kimi nəzərdən keçirən O.V.Vişnyakova 1974-cü ildə nəşr etdirdiyi kitabında[17] nəzəri bölmədən əlavə, leksikoqrafik material da təqdim edir. Müəllifin 1981-ci ildə nəşr etdirdiyi kitabında[18] leksik paronimlərin nəzəri məsələləri tədqiq olunur. Kitabda paronimlərə belə tərif verilir: "Paronimlər yaxın, lakin səslənməsinə görə yaxın olmayan eyniköklü sözlər olub, vurğusu eyni hecaya düşür, eyni qrammatik

---

[13] О.С.Ахманова. Словарь лингвистических терминов. М., «Советская энциклопедия», 1969, с.313 (607 с)
[14] Д.Э.Розенталь, М.А.Теленкова. Словарь лингвистических терминов. М.. «Просвещение», 1972, с.212 (543 с).
[15] Н.П.Колесников. Словарь паронимов русского языка. Тбилиси, «ТГУ», 1971, с.3 (346 с.)
[16] Н.П.Колесников. Паронимия в современном русском языке. РЖИ, 1961 №3, с.52-54; Паронимасия как стилистическая фигура. РЯШ, 1973№3, с.86-89.
[17] О.В.Вишнякова. Паронимы русского языка. М., «Высшая школа» 1974, 192 с.
[18] О.В.Вишнякова. Паронимы современного русского языка. М., «Высшая школа» 1981, 128 с.

kateqoriyaya aid olur: eyni nitq hissəsinə və eyni cinsə (əgər feildirsə, növə) aid olur və müxtəlif məna incəliklərini ifadə edir”. Bununla yanaşı, kitabda müxtəlif köklü sözlərə də baxılır. Əsərinin 1984-cü il nəşrində O.V.Vişnyakova paronimləri belə müəyyən edir: ”Paronimlər mənasına görə müxtəlif sözlər olub, tələffüzünə görə yaxın sözlərdir, leksik-qrammatik mənsubluğuna və köklərin qohumluğuna görə yaxındır, səslənməsində oxşarlıq onların nitqdə qarışmasına səbəb olur”.[19] Deməli, müəllif ayrı-ayrı əsərlərində paronimliyi müxtəlif cür izah edir. 1981-ci il nəşrində O.V.Vişnyakova paronimlərin əsas əlamətini onların qrammatik xüsusiyyəti hesab edir, onların nitqdə qarışma imkanlarına diqqət etmirsə, 1984-cü il nəşrində terminin izahında ona diqqət verilir ki, paronimlərin səslənməsində oxşarlıq onların nitqdə qarışmasına səbəb olur, həm də qeyd olunmur ki, bunlar eyniköklü sözlərdir. Bu isə onun paronimlər barədə vahid fikirdə olmadığını, bu faktı hələ dəqiqləşdirə bilmədiyini göstərir.

Baxılan problemin təhlili göstərir ki, “paronim” termininin iki nəşrdə identik izahına rast gəlmək mümkün deyil. Belə müxtəliflik ona gətirib çıxarır ki, dərsliklərdə bu termin eyni cür izah olunmur. P.A.Lekantın redaktəsi ilə ali məktəblər üçün çap olunmuş kitabda paronim termini belə izah olunur: ”Paronimlər – oxşar, lakin səslənməsinə görə eyni olmayan sözlərdir. Paronimlərin iki növü ayrılır: eyniköklü və müxtəlifköklü...”.[20]

M.İ.Fominanın xarici dil tələbələri üçün nəzərdə tutulmuş dərsliyində oxuyuruq: ”Paronimlər mənasına görə müxtəlif, tələffüzünə görə oxşar, leksik-qrammatik mənsubluğuna görə oxşar və bir qayda olaraq, köklərinin qohumluğu olan sözlərdir”.[21] Deməli, müəllif eyniköklü deyil, kökünə görə qohum olan sözləri paronimlərə aid edir.

XX əsrin 80-90-cı illərində paronimlərlə yanaşı, “paronimik attraksiya”, “paronimasiya” terminləri də işlədilməyə başladı, bəzən də paronimlik bu hadisələrlə eyniləşdirilirdi. L.Q.Yarkova namizədlik dissertasiyasında nisbi və

---

[19] О.В.Вишнякова. Паронимы современного русского языка. М., «Русский язык» 1984, с.3 (352 с.).
[20] П.А.Лекант. Современный русский литературный язык. М. «Высшая школа», 1982, с.140 ( 399 с.).
[21] М.И.Фомина. Современный русский язык. Лексикология. М., «Высшая школа», 1983, с.103 (336 с.).

mütləq paronimləri ayırır[22]. O, paronimliklə yanaşı, dildə paronimasiya termininin də mövcud olduğunu yazaraq, bu üslubi fiquru paronimlərin mətndə bilərəkdən yaxınlaşması kimi qeyd edir, ekplisit və implisit paronimasiyanı ayırır. L.P.Tkaçenko paronimasiyaya müxtəlif köklü paronimləri aid edir və sintaktik paronimlik, adi və söz birləşmələrindən düzələn paronimləri tədqiq edir. O qeyd edir ki, paronim və paronomaslarla yanaşı, annominasiya və tavtologiya hadisələri söz oyununda iştirak edir, buna görə müəllif bu hadisələri "paronimik attraksiya" termini adı altında ümumiləşdirir.[23] Rus sovet poeziyasında paronimik attraksiya R.Q.Kadimov tərəfindən araşdırılmışdır.[24]

Bəzi dilçilər paronimasiyaya müxtəlif köklü paronimləri, bəziləri həm eyniköklü, həm də müxtəlif köklü paronimləri aid edir, bəziləri isə üslubi fiqur kimi paronimlərin üslubi xüsusiyyətlərini araşdırırlar. İ.N.Kuznetsova haqlı olaraq paronimaziyanı belə müəyyən edir: "Paronimlərin üslubi məqsədlərlə işlənilməsi paronimaziya adlanır; o, bədii ədəbiyyatda geniş işlənir".[25] V.D.Qorkinskiy namizədlik dissertasiyasında mütləq feili paronimlərdə parooppozisya münasibətindən bəhs edir və onlar arasında sinonimlik və antonimliyi ayırır[26]. L.F.Minayeva və V.B.Fedenev dil və nitqdə paronimliyi paronimlərə aid yazılmış lüğətlər üzrə araşdıraraq qeyd edir ki, bu lüğətlərdə qarşılaşdırılan sözlər mahiyyətinə görə müxtəlifdir; belə ki, hər bir konkret halda biz dildə "dil qanununun" pozulması ilə qarşılaşırıq. Qarşılaşdırılan sözlərdə elə söz kateqoriyaları var ki, bunlar sözlərin variantları, qeyri-omoqrafik omonimlər, kvazi-omonimlər, eyniköklü sözlər, sinonim kimi dəyərləndirilən mənasına görə oxşar sözlər və s. kimi təqdim edilir. Bütün bu cütlərdə uyğun sözlərin semantik yaxınlığı və oxşarlığı bu və ya digər dərəcədə bir-birindən asılıdır, lakin birmənalı-qarşılıqlı uyğunluq münasibətinə malik deyillər.

---

[22] Л.Г.Яркова. Паронимия в современном немецком языке. АР канд.дисс., М., 1979, 16 с

[23] Л.П.Ткаченко. Паронимическая аттракция в русском языке и ее место в курсе лексической стилистики для иностранных стуентов-филологов. АР канд.дисс., М., 1982, 22 с.

[24] Р.Г.Кадимов. Паронимическая аттракция в русской советской поэзии. АР кнд.дисс., М., 1985, 22 с

[25] И.Н.Кузнецова. Паронимия в современном французском языке. АР канд.дисс., М.. 1977, 277 с.

[26] В.Д.Горкинский. Абсолютная глагольная паронимия современного польского литературного языка. АР канд.дисс., Л.,1978, 15 с.

Paronimləri təhlil edərək müəlliflər bu nəticəyə gəlirlər ki, dil hadisəsi kimi paronimliyin nitqdə üzə çıxması, dilin ümumi leksik sistemində sistem altının yaranması fikri natamamdır. Belə ki, paronimləri sözlərin variantlarından, qeyri-omoqrafik omonimlərdən, eyniköklü sinonimlərdən və b.-dan ayrılmasında bir sıra çətinliklər vardır, belə ki, paronimlər kifayət qədər sabit əlamətə malik deyillər, buna görə onları sistemaltı kimi ayırmaq düz deyil.[27] Paronimlərin nəzəri məsələləri Y.S.Stepanov tərəfindən işlənmişdir.[28] Başqa bir əsərində Y.S.Stepanov yazır: "Paronimlik – dilin mühüm obyektiv xüsusiyyətidir. O, nəinki danışanların nitqindəki səhvdir, həm də dilin leksik sistemində mövcud olan informasiyanın tənzimlənmə vasitəsidir. Paronimlik – geri lüğətlər adlanan lüğətlərin əsaslarından biridir ki, burada əlifba sırası ilə sözün hərfləri axırdan əvvələ kimi qurulur. Geri lüğətlər öz növbəsində – dil informasiyasının maşın işlənməsində mühüm vasitədir".[29] T.V.Verakşanın 2000-ci ildə yazdığı doktorluq dissertasiyasında rus dilində paronimlərin nəzəri məsələlərindən bəhs edilmiş və tədqiqat tarixinə nəzər salınmışdır.[30]

Paronimlərin rus dilində izahlı lüğəti V.İ.Krasnıx tərəfindən tərtib olunmuşdur.[31] Rus və slavyan-kilsə dillərində paronimlərin tədqiqi barədə əsər yazılmışdır.[32] Paronimlərin dillərarası tədqiqi də dilçiləri maraqlandıran məsələlərdən biri olmuşdur.[33]

Paronimlərin öyrənilməsinə XX əsrin əvvəllərində başlanılsa da, Şərqdə, ərəb ədəbiyyat nəzəriyyəsində bu hadisə iştiqaq, iqtizab, məqlub terminləri ilə ifadə olunmuş, XV-XVI əsrdə yaşamış klassik Azərbaycan şairlərinin əsərlərində bədii üslubi vasitə kimi işlənilmişdir. Bu bədii fiqur haqqında M.Adilovun "M.Füzulinin poetik dili və üslubu" əsərində məlumat verilir.[34] Burada həmin dil hadisələrinin

---

[27] Л.В.Минаева, В.Б.Феденев. Паронимия в языке и речи. «Вопросы языкознания», 1982№2, с.90-96.
[28] Ю.С.Степанов. Методы и принципы современной лингвистики. М., «Наука», 1975, 311 с.
[29] Ю.С.Степанов. Основы общего языкознания. М., «Просвещение», 1975, с.36 (271 с.).
[30] Т.В.Веракша. Лингвистическая природа паронимов русского языка.АР докт.дисс.. Санкт-Петербург, 2000.
[31] В.И.Красных. Толковый словарь паронимов русского языка. М., «АСТ: Астрель», 2003.
[32] О.Седакова. Церковно-славяне русские паронимы. М., «Греко-латинский кабинет Ю.А.Сичалина», 2005, 432 с.
[33] А.В.Потанина. Семантические и словообразовательные особенности межъязыковых субстантивных паронимов в русском и немецком языках. АР канд.дисс. Казань, 2006, 22 с.
[34]M.İ.Adilov. M.Füzulinin poetik dili və üslubu. Bakı, "Maarif", 1996, 544 s.

M.Füzulinin qəzəllərində yüksək səviyyədə işləndiyi qeyd olunmaqla bərabər, İ.Nəsimi yaradıcılığında da özünü göstərdiyi vurğulanır.

Hələ 1926-cı ildə keçirilən I Türkoloji qurultaydakı çıxışında görkəmli dilçilərimizdən biri olan Bəkir Çobanzadə digər məsələlərlə yanaşı, türk dillərinin müqayisəli iştiqaq lüğətinin hazırlanmasının vacib məsələlərdən olduğunu qeyd etmişdir.[35]

Türkologiyada da paronimliklə bağlı müəyyən tədqiqat sərləri vardır. A.Marifevin "Paronimlər lüğəti. Tələffüzü yaxın sözlər" kitabında özbək dilində paronimlər araşdırılır.[36] Başqırd dilində Z.Q.Uruzbayevanın[37], K.İ.İşbayev və Z.Q.İşkildinanın[38] lüğətləri bu sahədə atılmış uğurlu addımlardandır. Karaçay-balkar dilində T.Qelyastanovanın əsəri[39] və V.İ.Serqeyevin "Müasir çuvaş dilində paronimlər[40] məqaləsi paronimlərin tədqiqinə həsr olunmuşdur.

Azərbaycan dilçiliyində Ə.Əfəndizadə 1964-cü ildə çap olunan "Yazılışı və tələffüzü çətin olan sözlər" adlı monoqrafiyasında[41] bilavasitə paronimlik məsələsinə toxunur. Azərbaycan dilçiliyində paronimlər barədə ilk məlumata isə A.Qurbanovun "Müasir Azərbaycan dili" əsərində[42] rast gəlirik. V.Aslanov və A.Ələkbərov "Azərbaycan dilində paronim feillər"[43] adlı məqaləsində paronim feillər haqqında qısa məlumat vermişlər.

A.Qurbanovun "Müasir Azərbaycan dili" kitabının 1985-ci il nəşrində paronimlər belə müəyyən olunur: "Dildə səslənmə cəhətdən bir-birinə yaxın, müxtəlif məna ifadə edən və nitqdə səhvən biri digərinin yerində işlənən sözlərə

---

[35]B.Çobanzadə. Seçilmiş əsərləri, I cild, Bakı, "Şərq-Qərb", 2007, s.190 (336 s.)
[36]A.Marifev. Paronimlər lüğəti. Talaffüzi yaxın sözler. Taşkent, "Ukitivçi", 1974, 70 s
[37] З.Г.Урузбаева. Словарь паронимов башкирского языка Уфа, 2004.
[38] К.И.Ишбаев, З.Г.Ишкильдина. Словарь паронимов башкирского языка. Уфа, 2013, 312 с.
[39] Т.Гелястанова. Паронимы в карачаево-балкарском языке. Нальчик, «М.И. и В. Котляровы», 2007, 144 с.
[40] В.И.Сергеев. Паронимы в современном чувашском языке. В кн: Советская тюркология и развитие тюркских языков в СССР, Алма-Ата, 1976, с.284-286.
[41] Ə.Əfəndizadə. Yazılışı və tələffüzü çətin olan sözlər. Bakı, "Azərnəşr", 1964, 58 s.
[42]A.Qurbanov. Müasir Azərbaycan dili. Bakı, "Elm", 1967, s.169 (401 s.).
[43] В.Асланов, А.Алекперов. Глагольные паронимы в Азербайджанском языке. В кн: Советская тюркология и развитие тюркских языков в СССР, Алма-Ата, 1976, с.243-244.

paronim deyilir."[44] M.M.Adilov "Metateza nitq hadisəsi kimi və paronimlik" məqaləsində[45] paronimlərin metateza ilə fərqli cəhətlərindən bəhs edir.

Daha sonra H.Həsənov "Azərbaycan dilinin paronimlər və paronimasiya lüğəti"ndə[46] və "Müasir Azərbaycan dilinin leksikası"[47]əsərində paronimləri geniş tədqiq etmişdir.

Qeyd edək ki, tədqiqatlarda yalnız paronim sözlər deyil, habelə paronim frazeologizmlər də diqqətdən yayınmır. Rus dilində frazeoloji paronimlər E.Q.Baqaturova[48] tərəfindən tədqiq olunmuşdur. Frazeoloji paronimlərin məna növləri ilə bağlı da müxtəlif fikirlər vardır. O.V.Rotkonun məqaləsində[49] frazeoloji paronimlər struktur oxşarlıqda məna növlərinə görə ayrılır. İngilis və Azərbaycan dillərini müqayisə edən Ə.Hacıyeva daha çox ingilis dilində işlənən paronimlər, xüsusən frazeoloji paronimlər barədə məlumat verir.[50] İngilis dili paronimləri üzərində tədqiqat aparan S.Əliyeva da ingilis dili üzrə ismi və feili frazeoloji paronimləri ayırır.[51]

Son illərdə Azərbaycan dilçiləri digər dillər üzrə tədqiqat apararaq paronimləri müəyyənləşdirirlər. Bu cəhətdən X.Əsgərovanın "Müasir alman dilində paronimlər və onların struktur-semantik xüsusiyyətləri" adlı namizədlik dissertasiyası[52] və Məhərrəmova Səadət Məhərrəm qızının rus dili üzrə yazdığı "Sifət paronimlərinin bəzi xüsusiyyətləri" məqaləsi[53] bunlara misal ola bilər. Müasir fransız dilində paronimlərin tədqiqinə dair İ.N.Kuznetsovanın namizədlik dissertasiyası yazılmışdır[54]. Burada sinonim, kontakt və distant paronimlər ayrılmış, paronimlər

---

[44]A.Qurbanov. Müasir Azərbaycan dili. Bakı. "Maarif", 1985, s.315-318 (408 s.).
[45].M.Adilov. Metateza nitq hadisəsi kimi və paronimlik.–Azrbaycan ədəbi dilində norma və normalaşma məsələləri. Bakı, "Elm", 1991, s.44-46.
[46]H.Həsənov. Azərbaycan dilinin paronimlər və paronimasiya lüğəti. Bakı "Maarif", 1991, 108 s.
[47]H.Həsənov. Müasir Azərbaycan dilinin leksikası. Bakı, "BDU", 2001, 399 s
[48] Э.Г.Багатурова. Паронимия в сфере фразеологии (Приминительно к фразеологическому словарю). В кн: Вопросы семантики фразеологических единиц. Новгород, ч.1, 1971, с.350-358.
[49] О.В.Ротко. Паронимия фразеологических единиц: семантические различия при структурном сходстве. – Южный Федеральный Университет иностранных языков Педагогического Института, 2010, с.82-90.
[50]Ə.Hacıyeva. Müxtəlif sistemli dillərdə somatik frazeoloji birləşmələr. Bakı, "Nurlan", 2007, 347 s.
[51]S.A.Əliyeva. İngilis dilində paronimlər. AR nam.diss., Bakı, 2010, 3 s
[52]X.Əsgərova. Müasir alman dilində paronimlər və onların struktur-semantik xüsusiyyətləri. AR nam.diss., Bakı, 2014, 21 .
[53]S.M.Məhərrəmova. Sifət paronimlərinin bəzi xüsusiyyətləri.– Sumqayıt Dövlət Universiteti. Elmi Xəbərlər, Sosial və humanitar elmlər bölməsi, 2014№ 1, 10-cu cild.
[54] И.Н.Кузнецова. Паронимика в современном французском языке. АР канд.дисс., МГУ, 1977, 26 с.

geniş tədqiq olunmuşdur. L.V.Balaxonskaya paronim attraktantlarda antonimliyin olduğunu qeyd edir.[55] N.A.Yanko-Trinitskaya mətni və ya poetik və lüğəvi paronimlər ayırır.[56] O.V.Vişnyakova tam, yarımçıq və hissəli paronimlər olduğunu qeyd edir.[57] L.N.Fedotova morfoloji, sintaktik və leksik paronimləri, eyni zamanda distant, qeyri-distant, kontakt paronimləri tədqiq edir.[58] O.D.Prokopçik də ingilis dilində distant, qeyri-distant və kontakt paronimləri ayırır.[59] E.D.Panfilov ispan dilinin materialları əsasında sintaktik paronimliyi tədqiq edir.[60]

Paronimlik çox mürəkkəb və özünəməxsus dil hadisəsidir ki, mahiyyəti ahəngdar sözlərin ikitərəfli, yəni fonetik və semantik qarşılıqlı əlaqəsində özünü göstərir. Paronimlik hadisəsi çox zaman sinonimlik, omonimlik, antonimliklə eyniləşdirilmişdir. Öz təbiətinə görə paronimlik özündə omonimlik və sinonimliyin əlamətlərini daşıyır, bununla belə, hər iki dil hadisəsindən fərqlənir. Paronimlərin bu dil hadisələri ilə qarşılaşdırılması təsadüfi deyil. Belə ki, onları yaxınlaşdıran və fərqləndirən cəhətlər var. Paronimliklə omonimlik səs münasibətində heç bir yaxınlığı olmayan müxtəlif semantikalı sözlər kimi qarşılaşdırılır. Əgər omonimlər səs cəhətdən iki sözün tam eyniliyinə əsaslanırsa, paronimlərə fonetik ahəngdarlıq xasdır, heç bir vaxt paronimlər fonetik cəhətdən eyni ola bilməzlər. Paronimlər tam leksik omonimlərə deyil, fonetik omonimlərə və ya omofonlara yaxındır, omofonlar müxtəlif yazılışa və ümumi tələffüzə malik sözlərdir. Hər iki söz qrupu mənasına, yazısına görə müxtəlif, eyni səs oxşarlığına malik sözlərdir. Lakin omofonların tələffüzündə ümumilik struktur oxşarlıqla deyil, təsadüflə əlaqədardırsa, dildə fonetik qanunlarla yaranırsa (saitlərin reduksiyası, samitlərin assimilyasiyası və s.), paronimlərin səs oxşarlığı daha çox morfemlərin ümumiliyi

---

[55] Л.В.Балахонская. Паронимические аттрактанты с антонимическими отношениями компонентов как фоносемантическое средство в поэзии А.Вознесенского. – Проблемы фоносемантики, М., Пензенский Государственный Педагогический Институт им. В.Г.Белинского, 1989, с.99-101.
[56] Н.А.Янко-Триницкая. К изучению паронимов. «Русский язык в школе», 1979 №5, с.98-101.
[57] О.В.Вишнякова. Словарь паронимов русского языка. М., «Русский язык», 1984, 354 с.
[58] Л.Н.Федотова. Паронимия в современном английском языке: структура и функции. АР канд.дисс., Минск, 1989, 17 с.
[59] О.Д.Прокопчик. Семантические механизмы и прагматческие функции паронимии АР канд.дисс, Санкт-петебург, 2005.
[60] Э.Д.Панфилов. О синтактической паронимии (на материале испанского языка). «Вопросы языкознания», 1961 :, с.90-92.

ilə əhatə olunur. Bizim fikrimizcə, omofonlar kimi ayrılan dil hadisəsi paronimlərin özüdür.

Paronimlərin sinonimlərlə fərqi onlar arasında əlaqəni göstərir. Həm sinonim, həm paronim eyni nitq hissəsinə aid olur. Əgər sinonimlər mənalarına görə yaxın sözlər olub, çox zaman bir-biri ilə əvəz olunursa, paronimlər əhəmiyyətli dərəcədə semantik əlaqələrinin müxtəlifliyi ilə fərqlənirlər, onlar arasında nəinki sinonimik, həm də məna qarışıqlıqlarını ayırmaq olar, habelə nitqdə reallaşan uzuzal və okkazional əlaqələri ayırmaq olar. Sinonimlər kimi paronimlər də məzmun planında qarşılaşırlar, lakin sinonimlərin semantik yaxınlığı əsasdır, fərq yalnız məna çalarlarında özünü göstərir, paronimlərdə semantik əlaqələr əhəmiyyətsizdir. Paronimlər daha çox eyniköklü sinonimlərə yaxınlaşırlar.

Həm antonim, həm paronim gerçəkliyin müxtəlif hadisələrini əks etdirir, lakin antonimlər ziddiyyətli leksik mənaya malikdir, paronimlər bu xüsusiyyətə malik deyil.

Paronimlərin ahəngdarlığı fonetik transformasiya anlayışında üzə çıxır. Fonoloji səviyyədə vokal, konsonant əsaslı və kombinə olunmuş paronimləri O.D.Prokopçik ayırmış və onlar arasındakı münasibətlərin transformasiya cəhətdən əvəzetmə, yerdəyişmə, genişlənmə və sıxılma hadisələrində üzə çıxdığını göstərmişdir.[61] L.N.Fedotova da ingilis dili paronimlərini tədqiq edərək dörd əsas transformasiya növü ayırır: substitusiya, yerdəyişmə-transpozisiya, silmə-deletion və əlavə etmə-addition.[62]

Tərtib etdiyimiz bu lüğət H.Həsənovun tərtib etdiyi lüğət əsasında formalaşsa da, həcminə görə daha genişdir. Əgər H.Həsənov 402-yə yaxın paronim cütlüyü təqdim edirsə, bizim lüğətimizdə 1600-dən çox söz göstərilmiş, mənaları açıqlanmışdır. Lüğətə ilk dəfə olaraq Azərbaycan dilində olan frazeoloji paronimlər, o cümlədən somatik frazeoloji paronimlər daxil edilmişdir. Lüğətə daxil edimiş bir sıra sözlər müasir ədəbi dilimizdə fəal deyil. Buraya bəzi

---

[61] О.Д.Прокопчик. Семантические механизмы и прагматческие функции паронимии АР канд.дисс, Санкт-петебург, 2005.

[62] Л.Н.Федотова. Паронимия в современном английском языке: структура и функции. АР канд.дисс., Минск, 1989, 17 с.

köhnəlmiş sözlər və ədəbi dildən çıxan alınmalar daxildir, lakin həmin sözlərə bədii əsərlərin dilində rast gəlinir.

Lüğət iki hissədən ibarətdir. Birinci hissədə əlifba sırası ilə paronim cütlüklər göstərilmiş və mənası açıqlanmış, ikinci hissədə paronim frazeologizmlər və somatik frazeoloji paronimlər verilmişdir. Lüğətdə "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndən, "Azərbaycan dilinin izahlı lüğəti"ndən, "Azərbaycan dilinin frazeologiya lüğətləri"ndən istifadə olunmuşdur. Bizim tərtib etdiyimiz lüğətdə paronim sözlər  yalnız eyniköklü və müxtəlifköklü sözlər kimi təsnif olunmur, ümumiyyətlə, tələffüzünə görə oxşar sözlər kimi tədqiq olunur, yəni burada tələffüz məsələləri əsas götürülür.

# PARONİMLƏR LÜĞƏTİ

## A

Abadlıq-avadanlıq

**ABADLIQ –** 1. Hər hansı bir yerdə əhalinin yaşayışına lazım olan hər cür şərait və vəsait; 2. Abad yer, yaşayış yeri, yaşayış üçün yararlı yer, şenlik.

**AVADANLIQ** – 1. Ev şeyləri, müxəlləfat, dir-dirrik; 2. Bir iş üçün lazım olan təchizat və ləvazimat; maşınlar, alətlər, cihazlar, mexanizmlər, qurğular və s.

Abdal – abdar

**ABDAL –** 1. Qədim türk tayfası. Azərbaycanın Ağdam rayonunda kənd; 2. "Axmaq adam" mənasında işlənir; 3. Sərsəri, avara, dərbədər; 4. Dərviş, qələndər.

**ABDAR** – 1. Sulu, şirəli, təravətli; 2. Mənalı, təsirli, gözəl, ifadəli; 3. Möhkəm və iti.

Aberrasiya-abreviasiya

**ABERRASİYA –** 1. Həqiqətdən yayınma; 2. Göz aldanması.

**ABREVİASİYA (dilç.) –** Sözün baş hərflərini və ya hissələrini saxlamaqla düzəldilmiş mürəkkəb qısaltmalar, ABŞ.

Abgül-abgün

**ABGÜL – 1.** Abü-gil (farsca) – aləm, dünya; 2. Suda açan gül.

**ABGÜN** – 1. Abı, mavi, göy; 2. Maye, duru.

Ablyasiya-obliqasiya

**ABLYASİYA –** 1. İsti qazın axını ilə bərk cismin səthindən maddələrin aparılması; 2. Buzlağın və qar örtüyünün əriməsi və buxarlanması nəticəsində kütləsinin azalması.

**OBLİQASİYA** – Qiymətli kağız olub, eminentdən müəyyən müddətə faiz və nominal qiymət almaq hüququ verən təhlükəsizlik.

Abonoment-abonent

**ABONOMENT** – Abunə, müəyyən müddət kitabxanadan, teatr, kino və s. istifadə etmək hüququ.

**ABONENT** – Abunəçi, abonomenti olan şəxs.

Abort-aport

**ABORT** – Hamiləliyin təbii və ya süni surətdə dayandırılması**.**

**APORT** – Alma ağacı növü və bu ağacın çox qalan turşməzə-şirin iri alması.

Abses-absis-abzas

**ABSES (tibb.)** – İltihab nəticəsində yaranmış irin topası.

**ABSİS (riyaz.)** – Riyazi termin olub, latın dilindən tərcümədə "kəsilmiş", "ayrılmış" mənalarını verir. Koordinat sistemini təşkil edən vertikal düz xətdir.

**ABZAS** – 1. Sətirbaşı; 2. Mətnin bir sətirbaşından o biri sətirbaşına qədər olan hissəsi.

Abraziya-avrasiya

**ABRAZİYA (geol.)** – Dalğanın və yaxud ləpədöyənlərin təsiri ilə iri su hövzələrinin (dəniz, göl, su anbarı) sahillərinin və sahilyanı dib hissəsinin dağılıb uçulması.

**AVRASİYA** – Avropa ilə Asiyanı birləşdirən Yer kürəsinin ən böyük materiki.

Acar-açar

**ACAR**(lar) **–** Cənubi Qafqazda yaşayan xalqlardan birinin adı, həmin xalqa mənsub olan adam.

**AÇAR –** Qıfılı açmaq və ya bağlamaq aləti.

Açıq-acıq

**AÇIQ –** Hirs, hiddət, kin, qəzəb.

**ACIQ –**Qapalı olmayan, örtülü olmayan**.**

Adax-adaq

**ADAX –**Nişan, deyik.

**ADAQ –1.** Uşağın ilk addımı, ilk yerişi. Adaq durmaq, adaq yerimək; 2. Adaq eləmək, adaxlamaq.

Adekvat-advokat

**ADEKVAT** – Eyni, uyğun, mütabiq.

**ADVOKAT** – Məhkəmədə bir tərəfə xidmət göstərən hüquqşünas.

Adət-ədat

**ADƏT –** 1. Hər hansı bir xalqın həyatında qədimdən bəri qəbul edilmiş və kök salmış ənənə, rəsm; 2. Bir adam üçün adi hal almış qayda, üsul, hərəkət tərzi, təmayül, vərdiş.

**ƏDAT –** 1. Müstəqil mənası olmayan, lakin cümlədə müxtəlif məna çalarları əmələ gətirən söz, hissəcik; 2. Alət, avadanlıq, ləvazimat.

Adı-adi

**ADI (danışıq.) –** Qətiyyən, əsla, heç yerli-dibli.

**ADİ** – Adət halına keçmiş, gündəlik, hər vaxtkı. Adi hal. Adi işlər. Adi qayda. Həmişəki. Sadə, başqalarından fərqlənməyən.

Adresat-adresant

**ADRESAT –**Adına məktub, teleqram və s. göndərilən şəxs.

**ADRESANT** – Poçtla teleqraf, aviapoçta ilə məktub və ya bağlama göndərən şəxs.

Adsorbent-absorbent

**ADSORBENT –**Qazın tutulması üçün maye yanacağın udulması.

**ABSORBENT** – Adsorbentin sinonimi olub, adsorbsiyanın baş verdiyi sahədə uducu.

Adsorber-absorber

**ADSORBER** – Kimyəvi reaksiya ilə müşayiət olunmayan əridilmiş və ya qazabənzər, adsorbent adlanan maddələrin udulması üçün işlədilən aparat. Kimya, neftçıxarma və digər sənaye sahələrində işlədilir. Bu aparatın tərkibində baş verən proses adsorbsiya adlanır.

**ABSORBER –** Qazın, buxarın udulması üçün olan aparat. Qaz qarışığının bir və ya bir neçə komponentinin maye halına keçməsi absorbent (uducu) adlanır. Kimya, neftçıxarma və sənayenin digər sahələrində işlənir.

Adsorbsiya-absorbsiya

**ADSORBSİYA** – Qaz və ya məhluldan hər hansı maddənin, maye və ya bərk cismin (adsorbentlərin) sərt təbəqə ilə udulması prosesi.

**ABSORBSİYA –** Mayenin qaz qarışığından hər hansı bir maddəni udması prosesi.

Aerobios-aerobioz-aerobus

**AEROBİOS –** Aerobiontların (bədənləri hava ilə əhatə olunmuş orqanizmlərin) cəmi olub, yerdə yaşayan orqanizmlərdir.

**AEROBİOZ –** Orqanizmi əhatə edən bioloji və fiziki şəraitdə azad kislorodla əhatə olunmuş həyat.

**AEROBUS** – Dünyada nəhəng aviatikinti kampaniyasıdır. 1960-cı ilin sonundan dünyada bir neçə Avropa aviasənaye sahələrinin birləşməsi ilə yaranmışdır.

Aerofiltr-aerofit(lər)

**AEROFİLTR –** Havanı təmizləyən cihaz, filtr.

**AEROFİT**(lər) – Bütün lazımi qidalandırıcı maddələri havadan alan bitki. Yaxşı havalanmış yerdə inkişaf edən bitki.

Aeroqraf-avtoqraf

**AEROQRAF –** İngilis dilindən tərcümədə "hava fırçası" adlanır. Maye materialın pnevmatik səpilmə yolu ilə havadan aparılması. Havanın təzyiqi ilə bu dəmir alətdən rəng səpilir.

**AVTOQRAF** – 1. Bir müəllifin özü tərəfindən yazılmış əlyazması; 2. Bir şəxsin öz xətti ilə imzası.

Aeron-ayran

**AERON –** Dərman vasitəsi olub, dəniz və hava nəqliyyatında qusmaya qarşı istifadə olunur.

**AYRAN** – Yağı alınıb su qatışdırılmış qatıq.

Aerotank-aerotenk

**AEROTANK –** Axar suların bioloji təmizlənməsi üçün tikilən xüsusi rezervuar. Burada axar maye hava üfürülməsi vasitəsilə kompressorların basılması ilə hava kameralarına üfürülür.

**AEROTENK** – Axar suların bioloji təmizlənməsi üçün, aerotenkin dibində aktiv lilin tərkibində olan mikroorqanizmlərin orqanik çirklənmələrdən təmizlənməsi üçün olan rezervuar.

Afat-afət-afiyət

**AFAT –** Bəla, fəlakət, bədbəxtlik, müsibət, ziyan, zərər.

**AFƏT** – Son dərəcə gözəl qız, qadın, dilbər haqqında.

**AFİYƏT** – Can sağlığı, sağlamlıq, səhhət.

Affekt-effekt

**AFFEKT –** İnsanın əhvaldan və ehtirasdan fərqli olaraq güclü, coşqun baş verən və nisbətən qısa müddətli olan emosional həyəcanı, qəzəbi, dəhşəti və s.

**EFFEKT** – Hər hansı hərəkətin təsiri, nəticəsi.

Ağca-axça

**AĞCA –** Ağ sifətli şəxs.

**AXÇA –** Pul, pulcuq.

Ağdaş-ağdiş

**AĞDAŞ –**1. Tabaşir; 2. Tikintidə istifadə edilən daş növü**;** 3. Azərbaycanın rayonlarından birinin adı.

**AĞDİŞ** – Məməlilərin cücüyeyənlər dəstəsinə mənsub, ev siçanından kiçik heyvan.

Ağıl-axır-ağır

**AĞIL** – 1**.** İnsanda düşünmə və dərketmə qabiliyyəti, idrak; 2**.** İçərisində mal-qara və qoyun saxlamaq üçün ətrafı tikan və ya ağac ilə hasarlanmış üstüaçıq yer.

**AXIR –**Son, nəhayət.

**AĞIR** – 1. Böyük çəkisi, vəzni olan; 2. Güclü, şiddətli, təsirli; 3. Çox çətin, böyük zəhmət tələb edən; 4. Bərk, dərin; 5. Dözülməz; 6. Sərt, çox ciddi, şiddətli, amansız.

Ağız-ağuz

**AĞIZ** – 1. İnsan və heyvanların üzlərinin alt tərəfində, alt və üst çənələri arasında yerləşən, yeyib-içməyə və səs çıxarmağa məxsus üzv; 2. Qabların və s. şeylərin açıq tərəfi.

**AĞUZ** – Sağmal heyvanlar doğduqda məmələrindən çıxan ilk süd.

Ağlaşmaq-ağnaşmaq-axnaşmaq

**AĞLAŞMAQ –** Birlikdə ağlamaq, ağız-ağıza verib ağlamaq, bir-birinə qoşulub ağlamaq.

**AĞNAŞMAQ** – Bir yerdə ağnamaq, birgə ağnamaq.

**AXNAŞMAQ –** Axışıb gəlmək, izdihamla gəlmək, axışmaq.

Ağnağaz-ağnavaz

**AĞNAĞAZ** – Ehtiyacı ödəmək üçün üyüdülən azacıq dən.

**AĞNAVAZ** – Ağarmış, solğun.

Ahəng-əhəng

**AHƏNG –**1. Səslər, rənglər və s. arasında uyğunluq, müvafiqət; 2 Gözəl səs, avaz.

**ƏHƏNG –** Əhəngdaşını yandırmaqla əldə edilən ağ rəngli, kəsək halında material.

Ahəstə-arəstə

**AHƏSTƏ** – Asta, yavaş, ağır, üsullu.

**ARƏSTƏ** – Bəzənmiş, bəzəkli, düzəlmiş.

Axım-axın-akın

**AXIM –** Axma, axıntı.

**AXIN –** 1**.** Sürətlə axan su, sel; 2. Məftildə elektrik cərəyanının hərəkəti; 3. Hücum, basqın, həmlə; 4. Qərarsızlıq, tez-tez dəyişmə; 5. Gediş, cərəyan.

**AKIN** – Qazax və qırğızlarda xalq aşığı, ozan.

Axmaq-ağnaq

**AXMAQ –** 1**.** Bir istiqamətdə getmək, cərəyan etmək; 2. Ağılsız, səfeh, gic**.**

**AĞNAQ –** 1. Heyvanın ağnadığı yer; 2. Dağlarda su yuyub aparmış yer; 3. Bir yerə yığılıb iylənən palçıqlı su.

Axır-axur

**AXIR –** 1. Son, nəhayət, bir şeyin son nöqtəsi, qurtaracağı; 2. Aqibət, nəticə, son; 3. Axırda, nəticədə, nəhayətdə; 4. Ölüm, son nəfəs.

**AXUR** – 1. Heyvanlara yem tökmək üçün taxtadan, daşdan və s.-dən qayrılan divara yapışıq qab, qutu; 2. İçində üzümü əzib suyunu çıxarmaq üçün içərisi yonulub dərinləşdirilmiş tava daşı.

Axta-axtı

**AXTA –** 1. Erkəkliyi alınmış canlı; 2. Tumu, çəyirdəyi çıxarılmış; 3. Yəhər qaltağının üstünə çəkilən gön.

**AXTI** – Dağıstanda çay adı.

Akkuşa-akuşka

**AKKUŞA** – Salyan rayonunda çay adı.

**AKUŞKA –** Pəncərə.

Aksent-aksept

**AKSENT –** 1. Danışanın öz doğma ana dilində deyil, yad dildə tələffüz xüsusiyyəti; 2. Vurğunun ifadə etdiyi işarə; 3. Musiqidə səs və akkordun dinamik gücü.

**AKSEPT –** Razılaşmaq, tamamilə qəbul etmək.

Akula-akulə

**AKULA** (lar) **–** Yırtıcı köpək balığı.

**AKULƏ** – İri dənəli düyü növü.

Aqar-aqrar

**AQAR** – Sakit okeanda, Ağ dənizdə qırmızı və boz yosunlardan alınan maddə.

**AQRAR** –Torpağa aid olan. Aqrar məsələ. Aqrar islahatı.

Ala-bəzək-alabəzgək

**ALA-BƏZƏK –** Müxtəlif rənglərdən ibarət, ala-bula.

**ALA-BƏZGƏK** – Dovdaqlar fəsiləsinə mənsub, çöldə yaşayan köçəri quş.

Alabuğa-alabula

**ALABUĞA** – Qanadı pərdəli bir cücü.

**ALABULA** – Rəngbərəng xallardan, zolaqlardan ibarət, cürbəcür rənglərə boyanmış, müxtəlif rəngli.

Ala-bulalıq-ala-bulanlıq

**ALA-BULALIQ** – Ala-bula şeyin halı, alabəzəklik.

**ALA-BULANLIQ** – Yarı bulanıq, bir yeri bulanıq, bir yeri duru.

Alacaq-alaçıq

**ALACAQ –** Alınacaq borc, birinə çatacaq pul, tələb.

**ALAÇIQ –** Çubuqdan qurulub üstü keçə ilə örtülən köçəri mənzili, çadır.

Alaf-əlif

**ALAF –** Heyvan yemi, ot, saman.

**ƏLİF –** 1. Ərəb əlifbasının birinci hərfinin adı; 2. Yağlı boya hazırlamaq üçün süni surətdə hazırlanmış yağ**.**

Alagüllük-alakülüng

**ALAGÜLLÜK –** Rəngi ala-bula uzunsov bir cücü.

**ALAKÜLÜNG –** Əkin yerlərində və çöllərdə bitən çiçəkli bitki.

Alaq-araq

**ALAQ** – Tarlada, bostanda və s.-də bitən və becərilən bitkilərin inkişafına mane olan bitki.

**ARAQ** – Meyvədən və s.-dən çəkilən spirtli içki.

Alaqçı-alaqçin-araqçın

**ALAQÇI –** Alaq vuran, alaq edən.

**ALAQÇİN** – Alaq vurmaq üçün alət.

**ARAQÇIN** – Qiymətli parçadan, çox vaxt tirmədən və s.-dən tikilib üstü güləbətin (zərli) və ya ipək sapla naxışlanmış baş geyimi, təsək.

Ala-qolay-ala-qora

**ALA-QOLAY**– Ala-babat, yüngülvari, azca.

**ALA-QORA**–Ala-dəymiş, ala-yetişmiş, lazımınca dəyməmiş, şirinləşməmiş.

Alaman-alman-əlaman

**ALAMAN** – Çapqın, soyğun, talan.

**ALMAN –** Almaniyanın əsas hissəsini təşkil edən xalq və bu xalqa mənsub adam.

**ƏLAMAN** – 1. Yardıma, imdada, köməyə çağırış bildirən nida; 2. İmdad, nicat.

Alanqu-ələngə

**ALANQU** – Balaca alovlu ocaq, balaca tonqal.

**ƏLƏNGƏ** – Quru sümük.

Alaş-alış

**ALAŞ** – Qarışıq rəngli, tükünün bir hissəsi ağ, o biri hissəsi başqa rəngdə olan.

**ALIŞ** – Almaq işi, alma, qəbul etmə.

Alazlanmaq-avazlanmaq

**ALAZLANMAQ** – Alışmaq, qızarmaq, alışıb-yanmaq (kömür).

**AVAZLANMAQ**– Tələffüz tərzi, səsin tonu, yüksəlib-enməsi; intonasiya.

Alban-alpan

**ALBAN –** 1. Albaniya Xalq Respublikasının əsas əhalisinin adı və bu xalqa mənsub adam; 2. Azərbaycanın şimal hissəsində yaşamış qədim xalqın adı.

**ALPAN –** İgid deməkdir. Həyatsevər və ünsiyyətcil, tez kontakta girən adam**.**

Albinos-albatros

**ALBİNOS (biol.)** – Piqment azlığı nəticəsində dərisi və saçları ağ və gözləri qırmızı adam və ya heyvan.

**ALBATROS** – Qanadları 3,5 metrə çatan nəhəng dəniz quşu, qağayı.

Alça-alçı

**ALÇA –** Cır və peyvənd cinsləri olan çəyirdəkli turş və ya şirin yumru bir meyvə.

**ALÇI –** Aşıq-aşıq oyununda: aşığın bir üzü, toxan üzün arxa tərəfi.

Alçaqlıq-alçalıq

**ALÇAQLIQ** – 1. Alçaq şeyin halı; 2. Boy qısalığı; 3. Pislik, xarablıq, keyfiyyətsizlik; 4. Rəzillik, şərəfsizlik, namərdlik, alçaq hərəkət.

**ALÇALIQ** – Cır və peyvənd cinsləri olan çəyirdəkli turş və ya şirin yumru bir meyvə olan bağçalıq. Alça ağaclarından ibarət bağ yeri.

Aldanmaq-allanmaq

**ALDANMAQ** – 1. Hiyləyə uymaq, yalan vədlərə uymaq, yalan sözü doğru saymaq, başdan çıxmaq; 2. Ümidi boşa çıxmaq, yanılmaq.

**ALLANMAQ** – Al rəngə boyanmaq, qızarmaq, al çiçək açmaq.

Aləm-ələm

**ALƏM –** Kainat, dünya, yer üzü.

**ƏLƏM –** 1**.** Dərd, qəm, kədər, qüssə; 2. Bayraq**.**

Alfa-arfa-arva

**ALFA –** Yunan əlifbasının birinci hərfinin adı.

**ARFA –** Üzərinə simlər çəkilmiş, böyük üçbucaq çərçivə şəkilli, barmaqla (mizrabsız) çalınan musiqi aləti, cəng.

**ARVA** – İçinə şey qoyulan və ya tökülən qabların boş çəkisi, yeri; tara.

Alıcı-arıçı

**ALICI –** 1. Müştəri, mal alan, şey alan; 2. Yırtıcı, ovçu; 3. İtigörən, sayıq.

**ARIÇI –** Arı saxlayan, arıçılıqla məşğul olan adam.

Alıq-arıq

**ALIQ –** Öküz, kəl və başqa yük heyvanlarının belinə palan əvəzinə qoyulan çul, keçə və s. yumşaq şey.

**ARIQ** – Cılız, sısqa, zəif, cansız, ətsiz-yağsız.

Alım-alın-alim

**ALIM –** Alacaq, tələb.

**ALIN –** 1**.** Üzün saç ilə qaş arasında olan ön hissəsi; 2. Bir şeyin ön tərəfi.

**ALİM –** Hər hansı bir elm sahəsində mütəxəssis olan adam.

Aliment-element

**ALİMENT –** Övlad və ya qohumluq əlaqəsinə görə verilməli olan məbləğ, dolanışıq haqqı, xərci.

**ELEMENT –** Adi kimyəvi üsullarla öz tərkib hissələrinə ayrıla bilməyən, digər mürəkkəb maddələrin isə tərkib hissəsi olan bəsit maddə.

Allaşdırmaq-əlləşdirmək

**ALLAŞDIRMAQ** – Al rəngə boyamaq, al etmək, qızartmaq.

**ƏLLƏŞDİRMƏK** – 1. Əllə yoxlamaq, əl sürtüb baxmaq, əl sürtmək, əl vurmaq, əl toxundurmaq; 2. Əllə qarışdırmaq, yoxlamaq, axtarmaq, tərpətmək; 3. Dalaşdırmaq, vuruşdurmaq, qapışdırmaq.

Alleqoriya-alleqri-alleqro

**ALLEQORİYA –** 1. Hər hansı bir mücərrəd məfhumun, fikrin, ideyanın konkret bir surətdə əyani ifadəsi; 2. Rəmz, kinayə, təşxis, məcaz.

**ALLEQRİ –** 1. Lotereya bileti alınan kimi uduş keçirilən yer; 2. Yeni, böyük olmayan; 3. Acların xeyrinə; düzəltmək, keçirmək.

**ALLEQRO** – 1. Tez, iti, cəld (musiqi əsərinin ifasının tempi haqqında); 2. Bu tempdə ifa edilən musiqi əsəri və ya onun bir hissəsi.

Allıq-əllik

**ALLIQ** – Al rəngli şeyin halı, qırmızılıq.

**ƏLLİK** – 1. Əlcək; 2. Bir şeyin əllə tutulan yeri, tutacaq, qulp, dəstə və s.

Alliterasiya-alterasiya

**ALLİTERASİYA –** Avaz yaratmaq məqsədilə eyni səsin təkrar edilməsi. Şeirdə bədii vasitələrdən biri.

**ALTERASİYA (mus.) –** Musiqi kökündə əsas səsin yarım ton, yaxud bütöv ton zilləşdirilməsi(yüksəldilməsi), ya da əksinə, bəmləşdirilməsi (aşağı salınması).

Almacıq-alnıaçıq

**ALMACIQ** – Gözlərin altında, üst çənənin üstündəki çıxıq, yanaq sümüklərinin dik yeri.

**ALNIAÇIQ** – Vicdanı təmiz, utanılacaq işi olmayan, namuslu.

Almaq-anmaq

**ALMAQ –** 1. Əlinə götürmək, əl ilə qaldırmaq; 2. Satın almaq.

**ANMAQ –** Yada salmaq, xatırlamaq, yad etmək, yada gətirmək.

Alpinizm-altruizm

**ALPİNİZM** – (Alp dağları adından) Dağ turizmi; uca dağların təpəsinə, buzlaqlara çıxmaqdan ibarət idman növü.

**ALTRUİZM** – Başqasının naminə, təmənnasız olaraq, öz mənafeyini qurban verməkdən ibarət olan əxlaqi prinsip.

Alterativ-alternativ

**ALTERATİV –** Orqan, toxuma, hüceyrələrin həyat fəaliyyətinin pozulması ilə strukturunun dəyişməsi.

**ALTERNATİV –** Bir-birini istisna edən imkanlardan hər biri.

Alternat-alternit-alterit

**ALTERNAT (hüq.)** – Tərəflər arasında növbəti beynəlxalq müqavilənin imzalanması.

**ALTERNİT –** Bir-birini izləyən, əvəz edən, variant, başqa, digər, mütənasib, sırayla olan və s.

**ALTERİT –** Müxtəlif mineralların qarışığından yaranmış məhlul.

Altıgüllük-altıgünlük

**ALTIGÜLLÜK** – Yer altında yuva tikən göy rəngli bir quş.

**ALTIGÜNLÜK** – 1. Altı gün sürən və ya sürmüş; 2. Altı gündən ibarət müddət.

Altılıq-altlıq

**ALTILIQ** – 1. Ölçüsü (eni, hündürlüyü, qalınlığı) altı düymə (və s.) olan; 2. Oyun kağızlarında altı xalı olan vərəq, yaxud altı nömrəli şey.

**ALTLIQ** – 1. Bir şeyi saxlamaq üçün onun altına qoyulan şey, dayaq və s.; 2. Bünövrə, əsas, dayaq, bir şeyin aşağı hissəsi, altı.

Amac-anac

**AMAC** – Nişanə, hədəf, nişangah.

**ANAC** – 1. Dəfələrlə bala doğub, yaxud bala yetişdirib qartlaşmış (heyvan haqqında); 2. Bir işdə qocalıb təcrübə qazanmış.

Amal-aman-əməl

**AMAL –** Qayə, məqsəd, arzu, ümid, dilək.

**AMAN –** 1. Əmin-amanlıq, əmniyyət, təhlükəsizlik, qorxusuzluq; 2. Möhlət, macal, imkan.

**ƏMƏL –** İş, rəftar, hərəkət.

Ambıl-ambır-abır

**AMBIL –** Xışa qoşulmuş öküzlərin birinci cütü.

**AMBIR –** Dəmirçilərin, nalbəndlərin işlətdikləri iri kəlbətin.

**ABIR –** Həya, heysiyyət, şərəf, hörmət, qədir-qiymət.

Ambivalent-ambivallit

**AMBİVALENT –** Subyektin obyektə ikili, ziddiyyətli hiss və duyğuları.

**AMBİVALLİT –** Duyğuları çarpışan, qərarsız, ziddiyyətli hisslərə malik olan, qarışıq hisslər bəsləyən.

Amfora-anafora

**AMFORA** – Yağ və şərab saxlamaq üçün iki şaquli qulplu yumurta formalı qab.

**ANAFORA** – Misraların əvvəlində eyni səsin və ya eyni sözün təkrarı.

Amil-amin-amir

**AMİL –** Bir prosesin, hadisənin hərəkətverici qüvvəsi.

**AMİN –** Qəbul olsun, arzun yerinə yetsin, olsun (Adətən dua və sənaların axırında söylənilir).

**AMİR** – Buyuran, əmr edən, hökm edən, başçı, böyük.

Amiliya-amimiya-anemiya

**AMİLİYA –** İdealistik baxışları olan şəxs, hər şeydə “etalon” axtaran adam,

**AMİMİYA** – Öz fikir və emosiyalarını üz, göz və jestlərin köməyi ilə ifadə etmək.

**ANEMİYA –** Qanazlığı. Hemoqlobinin konsentrasiyasının aşağı düşməsi, eyni zamanda eritrosidlərin azlığı.

Amilnitrat-amilnitrit

**AMİLNİTRAT –** Kiçik şüşə kapsulalarda olan tünd kimyəvi məhlul. İnqalyasiya zamanı və ürək tutmalarında istifadə olunur.

**AMİLNİTRİT –** Sinil turşusu və duzları ilə zəhərlənmə zamanı onu müalicə edən vasitə.

Amma-anma-əmma

**AMMA –** 1**.** Cümlələri, cümlə üzvlərini (əsasən həmcins üzvləri) birləşdirərək qarşılıq bildirir; 2. Təəccüb, mübaliğə, istehza, kinayə bildirir.

**ANMA –** Yada salmaq, xatırlamaq, yad etmək, yada gətirmək.

**ƏMMA –** Bir şeyə mane olan, əngəl törədən hal, səbəb, keyfiyyət.

Ammonium-alüminium

**AMMONIUM** – Bir çox duzların tərkibində olan, sərbəst halda tapılmayan, tərkibi azot və hidrogendən ibarət olan atomlar qrupu (texnika və kənd təsərrüfatında işlədilir).

**ALÜMINIUM** – Çəkic altında asan döyülüb yayıla bilən gümüşü rəngli yüngül metal.

Amper-ampir

**AMPER –** Elektrik cərəyanı gücünün ölçü vahidi.

**AMPİR (memar.) –** Napoleonun imperatorluğu dövründə Fransada arxitektura və incəsənətdə meydana gəlmiş bədii üslub.

Amplua-ampul

**AMPLUA –** Aktyorun xüsusiyyətinə görə ifa etdiyi müəyyən rollar dairəsi.

**AMPUL –** İçində dərman maddələri saxlamaq üçün hər tərəfi qapalı şüşə borucuq.

Anonim-omonim

**ANONİM –** Əsərlərində, məktublarında adını gizlədən müəllif, müəllifin adı göstərilməyən əsər, məktub.

**OMONİM –** Forma, yazılış və tələffüzcə eyni, mənaca müxtəlif sözlər.

Antarktida-Antarktika

**ANTARKTİDA –** Yer kürəsinin qitələrindən birinin adı, materik.

**ANTARKTİKA –** Yer kürəsinin cənub qütbü sahəsi.

Antihidrat-antihidrid

**ANTİHİDRAT –** Suyu digər vasitələrdən, hidratlardan ayıran və yaranmasına mane olan maddələr.

**ANTİHİDRİD –** Su ilə birləşdikdə turşu hasil edən oksid.

Antimoniya-antinomiya

**ANTİMONİYA –** Boş-boş danışmaq, boşboğazlıq etmək**.**

**ANTİNOMİYA (hüq.) –** Mühakimənin gedişində bir-birinə zidd, lakin eyni dərəcədə əsaslandırılmış hökmün meydana gəlməsi.

Antiteza-antitezis

**ANTİTEZA** – Təzad, zidlik, əkslik.

**ANTİTEZİS** – İnkişaf prosesində əsas müddəanın inkarı; tezisə qarşı qoyulan müddəa.

Antrakt-kontrakt

**ANTRAKT –** Tamaşanın pərdələri, yaxud konsertin hissələri arasında fasilə, tənəffüs.

**KONTRAKT –** Müqavilə, bağlaşma.

Aorta-aortit

**AORTA –** Ürəyin sağ hissəciyindən çıxan və bədənin bütün üzvlərini arterial qanla təchiz edən ən böyük qan damarı; şah damar.

**AORTİT –** Aortanın iltihabı.

Aparat-preparat

**APARAT –** Alət, cihaz, qurğu**.**

**PREPARAT –** Tədqiqat, müşahidə və ya tədris məqsədi ilə hazırlanmış heyvan və ya bitki orqanizmi hissəsi. Anatomik preparat. Tədqiqat üçün hazırlanmış kimyəvi maddə. Radioaktiv preparat. Vitaminli preparatlar. Yodlu preparat.

Apatit-apatiya-apartrid

**APATİT –** Mineral.

**APATİYA –** Süstlük, keylik**.**

**APATRİD**(lər) **–**Vətəndaşlığı olmayan şəxs, vətəndaşlığa aid heç bir sənədi olmayan şəxs.

Apelyasiya-aplikasiya

**APELYASİYA** – Məhkəmənin qanuna minməmiş qərarlarından yuxarı instansiyaya şikayət vermə qaydası.

**APLİKASİYA** – Qurama, ornamentlərin yaradılması üsulu.

Apostrof-apostrofa

**APOSTROF –** Sözlərdə buraxılan sözü əvəz etmək üçün hərflərin arasında üstdə qoyulan vergül şəkilli işarə.

**APOSTROFA –** Ritorik fiqur**.**

Araçı-arıçı

**ARAÇI** – Ara düzəldən adam, dəllal.

**ARIÇI** – Arı saxlayan, arıçılıqla məşğul olan adam.

Aralanmaq-avaralanmaq

**ARALANMAQ** – 1. Bir-birindən ayrılmaq, uzaqlaşmaq; 2. Çatlamaq, aralar əmələ gəlmək; 3. Başqası tərəfindən ayrılmaq.

**AVARALANMAQ** – Avara-avara gəzmək, veyillənmək, xeyirli bir işlə məşğul olmamaq, vaxtını boş-boşuna keçirmək.

Aralıq-aranlıq

**ARALIQ –** İki şey arasındakı boşluq, boş yer; iki yerin arası, ortalıq, orta, ara.

**ARANLIQ –** Aran yerlər.

Aram-aran

**ARAM –** Sakitlik, qərar, rahatlıq, dinclik, sükut, səbr, dözüm.

**ARAN –** Azərbaycanda: yaylaq yerlərə nisbətən alçaq və iqlimcə iti olan yerlər.

Arat-ayat

**ARAT** – 1. Şumlanıb sulanmış, toxum səpilmiş yer; 2. Monqol köçəri kəndlilərinin sosial-ictimai cəmiyyəti.

**AYAT** – Ayə sözünü cəmi.

Arğac-arxac

**ARĞAC –** Xalçada, gəbədə və ümumiyyətlə toxunan şeylərdə eninə gedən ip.

**ARXAC –** Qoyun, mal yatağı; ilin isti aylarında sürü və naxırların çöldə istirahət etdiyi yer.

Arqan-arqon-arqo

**ARQAN** – Marokkonun cənub-qərbində yarımsəhrada bitən bitkidən alınan yağ.

**ARQON** – Kimyəvi elementlər cədvəlinin 18-ci qrupuna aiddir. Göyümtül işıq verən qaz.

**ARQO –**Yalnız bir məhdud və peşəkar qrupun və s. işlətdiyi və başqalarının başa düşmədiyi şərti ifadə və sözlər.

Arı-ari

**ARI –** Zərqanadlılar fəsiləsindən bal hasil edən cücü.

**ARİ –** Bəli, hə, həri; 2. Çılpaq, boş, məhrum.

Ariozo-arizə

**ARİOZO** – Həcmi etibarilə ariyadan kiçik, musiqi quruluşu cəhətdən nisbətən sərbəst tərzdə bəstələnmiş musiqi əsəri.

**ARİZƏ** – 1. Maneə, çətinlik, əngəl; 2. Hadisə, qəza; 3. Ariz olan hal, sonradan əmələ gəlmiş hal, nöqsan və s.

Arkkosekans-arksekans-arksinus

**ARKKOSEKANS –** Riyazi termin olub, kosekans funksiyasına nəzərən tərs funksiyadır.

**ARKSEKANS –** Sekans funksiyasına nəzərən tərs funksiyadır**.**

**ARKSİNUS –** Sinus funksiyasına nəzərən tərs funksiyadır.

Arsen-arşın

**ARSEN (kimy.)** – Asan əyilən, kövrək, boz, ya sarı rəngli qeyri-metal; kimyəvi element

**ARŞIN** – Metrik ölçü sistemi qəbul olunanadək işlədilən uzunluq ölçüsü (0,71 metrə bərabərdir).

Arterial-arteriya

**ARTERİAL –** Arteriyaya aid olan, arteriya ilə əlaqədar olan.

**ARTERİYA –** Qanı ürəkdən bədənin müxtəlif yerlərinə aparan damar**.**

Artikl-artikul

**ARTİKL –** Qrammatikada müəyyənlik, qeyri-müəyyənlik və bəzən də cins anlayışını bildirən hissəcik.

**ARTİKUL –** Malın, məmulatın tipi, müqavilə, sənədlərdə bənd.

Asar-hasar

**ASAR** – 1. Əlamət, əsər, nişanə; 2. Əsərlər; 3. Qalıq.

**HASAR** – 1. Daşdan, kərpicdən və s.-dən tikilən hasar, barı, sədd; 2. Hasarı, çəpəri xatırladan adam , ya şeylər sırası.

Asırqal-asırqan

**ASIRQAL –** Qarğıdalı şaxına oxşar yarpaqları olan acı ot.

**ASIRQAN** – Paltar və ya başqa şeylər asılan taxta və ya dəmir mebel.

Asiman-azman

**ASİMAN** – Göy, səma.

**AZMAN** – Çox böyük, çox iri, çox yekə, əzəmətli, heybətli.

Asma-astma

**ASMA –** Bir yerdən asılan, sallanan. Asmalıq. Qarmaq, paltarasan.

**ASTMA –** Bəzi ürək və bronxit xəstəlikləri nəticəsində əmələ gələn təngnəfəslik, sinəgir xəstəliyi.

Asor-assur

**ASOR** – Əsas kütləsi Türkiyədə və İranda yaşayan və süryani dili ləhcələrindən birində danışan kiçik bir xalqın adı və bu xalqa mənsub olan adam.

**ASSUR** – Eramızdan əvvəl III minilliyin axırından VII əsrin axırına qədər Qərbi Asiyanın ən qədim dövlətlərindən biri olan Assuriyanın əhalisi.

Aspirant-aspirat

**ASPİRANT –** Elmi-tədqiqat fəaliyyəti üçün hazırlaşan şəxs.

**ASPİRAT –** Nəfəsli tələffüz olunan samitlər, nəfəsli səslər.

Astar-astat

**ASTAR –** Paltarın və ya başqa bir şeyin iç tərəfinə tikilən və ya çəkilən parça.

**ASTAT –** Yunan sözü olub, qeyri-sabit deməkdir. Halogenlər qrupundan olub kimyəvi elementdir. Radioaktiv, qısa ömürlüdür.

Astronim-astronom

**ASTRONİM –** Müəllif adının bir tipoqrafik işarə ilə ifadə olunması**.**

**ASTRONOM –** Astronomiya ilə məşğul olan alim.

Aşbaz-aşpaz

**AŞBAZ –** Xörək həvəskarı, düşkünü**.**

**AŞPAZ –** Xörək bişirən, xörək hazırlayan usta.

Aşıq-aşiq

**AŞIQ –** 1**.** Xalq xanəndəsi, həm oxuyan, həm çalan; 2. Diz qapaqlarından çıxan oynaq sümüyü.

**AŞİQ –** Birisinə məhəbbət bağlamış, vurulmuş, bənd olmuş adam, vurğun.

Aşıqlamaq-aşılamaq

**AŞIQLAMAQ** – Aşiq etmək, bənd etmək, məftun etmək.

**AŞILAMAQ –** 1. Bir xəstəliyin qabağını almaq, ya başlamış xəstəliyi sağaltmaq üçün bədənə aşı maddəsi yeritmək, aşı vurmaq, peyvənd etmək; 2. Dərini, gönü aşıya qoymaq; 3. Bir adəti, xasiyyəti, əqidəni müxtəlif üsullarla başqalarına mənimsətmək, öyrətmək.

Aşınmaq-aşırmaq

**AŞINMAQ –** Kimyəvi üsulla, yaxud sürtülüb oyulmaq nəticəsində çuxurlanmaq, naxış açılmaq.

**AŞIRMAQ** – Qaldırıb qoymaq, yükləmək; üzərindən atmaq.

Aşina-aşna

**AŞİNA –** Məlumatlı, tanış, vaqif, xəbərdar, bələd.

**AŞNA**– Dost, yaxın, tanış, tanış-biliş, yoldaş.

Aşqal-aşqar-aşkar

**AŞQAL –** Arıq, döllüyə yaramayan qoyun.

**AŞQAR –** Müəyyən məqsədlə bir şeyə əlavə edilən, qatılan başqa maddə; bir şeyin tərkibinə daxil olan maddə, ünsür.

**AŞKAR** – Açıq, aydın, göz qabağında olan, bəlli, məlum.

Atavizm-ateizm

**ATAVİZM** –Çox uzaq əcdadında olmuş xassə və əlamətlərin nəsildə görünməsi.

**ATEİZM** – Allahın varlığını, fövqəltəbii qüvvələri və dinləri elmi biliklərə əsasən inkar etmə; allahsızlıq.

Atcıl-atçı

**ATCIL –** Atı, at saxlamağı həddindən artıq sevən.

**ATÇI** – Ata baxan. Atı saxlayan

Atçılıq-atıcılıq

**ATÇILIQ** – At saxlama, at yetişdirmə.

**ATICILIQ** – 1. Yaxşı tüfəng atmaq, nişan vurmaq qabiliyyəti; mahir nişançılıq; 2. Yun atmaq, pambıq atmaq sənəti; həllaclıq.

Atəşkeş-atəşkəs

**ATƏŞKEŞ** – Ocaqdan od çəkmək üçün dəmir alət.

**ATƏŞKƏS** – Müharibə aparan tərəflər arasında atəşin müvəqqəti dayandırılması.

Atıl-atil

**ATIL** – Atılıb-düşmək, çalışıb-çapalamaq, bir şeyin üstündən hoppanmaq.

**ATİL** – Tənbəl, ətalətli, fəaliyyətsiz.

Atlamaq-atlanmaq

**ATLAMAQ –** Aşmaq, aşıb keçmək, üstündən keçmək.

**ATLANMAQ** – 1. Ata minmək; 2. Tullanmaq, sıçramaq; 3. Döyünmək, çırpınmaq.

Atlas-atlaz

**ATLAS (xəritə) –** Müəyyən sistem üzrə toplanmış xəritələr toplusu**.**

**ATLAZ (parça) –** Üzü hamar, parlaq, ipək parça növü**.**

Atrofiya-atropin

**ATROFİYA –** Həyat qabiliyyətini, duyğusunu itirmə.

**ATROPİN –** Təbabətdə ağrı kəsən dərman və s. kimi işlənilən alkaloidlərdən biri.

Avar-avara-avariya

**AVAR –** 1. Qayığı sürmək üçün kürək, qayıqçı kürəyi; 2. Qədim türkdilli tayfalardan birinin adı; 3. Qaba quru ot.

**AVARA** – 1. Heç bir işlə məşğul olmayıb boş-boş gəzən, işsiz-gücsüz adam; 2. Camış balası, ikiyaşar kəlçə.

**AVARİYA** – Maşınların toqquşması nəticəsində insanların və maşınların zədə alması.

Avaz-ayaz

**AVAZ** – Səs, səda.

**AYAZ** – Qışda buludsuz, aylı gecələrdə quru soyuq, şaxta; ümumiyyətlə, bərk soyuq.

Avazımaq-ayazımaq

**AVAZIMAQ** – Rəngi qaçmaq, rəngi solmaq

**AYAZIMAQ –** 1. Göy üzü açılmaq, buluddan, dumandan təmizlənmək, aydınlaşmaq; 2. Gecə ayazında bərk üşümək, soyuqdan donmaq; 3. Ağır xəstəlikdən ayılmaq, bir az yüngülləşmək, rəngi özünə gəlmək, bənizi açılmaq.

Avizə-avizo

**AVİZƏ** – 1. Çilçıraq, qəndil; 2. Sırğa.

**AVİZO** – Qarşılıqlı bank hesablaşmalarındakı dəyişikliklər haqqında göndərilən bildiriş vərəqəsi.

Avtoportret-avtoritet

**AVTOPORTRET –** Rəssamın özü tərəfindən çəkilmiş şəkli

**AVTORİTET** – Nüfuz, etibar, səlahiyyət.

Aya-ayə

**AYA (əlin içi; görəsən) –** 1. Barmaqlar daxil olmadan əlin içi, açıq yeri; 2. Yarpağın üzü; 3. Sual və təəccüb ilə bərabər təmənna və ümid bildirir.

**AYƏ – 1.** Quran surələrinin müstəqil mənası olan cümələrindən hər biri; 2. Hökm, ehkam, qanun, əmr.

Ayaqcıq-ayaqçı

**AYAQCIQ –** 1. Kiçik ayaq; 2. Çiçək və meyvənin saplaqcığı.

**AYAQÇI** – 1. Qapı-qapı gəzib mal satan adam, çərçi; 2. Keçmişdə: şərab paylayan, qədəh gəzdirən, saqi.

Ayaqlamaq-ayaqlaşmaq

**AYAQLAMAQ –** Tapdalamaq, tapdalayıb əzmək, ayaqları ilə əzib məhv etmək.

**AYAQLAŞMAQ –** Biri ilə ayaq-ayağa, birgə getmək.

Ayaqyeri-ayaqyolu

**AYAQYERİ** – 1. Quyuya düşmək üçün divarlarında ayaq keçirmək üçün açılan oyuq; 2. Faytonda, karetdə və s.-də minmək üçün düzəldilmiş ayaq yeri.

**AYAQYOLU** – Təbii ehtiyacları rəf etmək üçün yer; abdəstxana, rahatxana.

Aynacıq-aynaçı

**AYNACIQ** – Kiçik ayna, balaca güzgü.

**AYNAÇI** – 1. Şüşəsalan, aynasalan, aynasaz; 2. Keçmişdə: zadəgan ailələrində xanım geyinərkən onun qabağında ayna tutan adam.

Ayrı-əyri

**AYRI** – 1. Xüsusi, tək, başqası ilə bağlı olmayaraq, müstəqil, özbaşına; 2. Başqa, əlahiddə, qeyri, digər; 3. Qoşma mənasında.

**ƏYRİ** – 1. Düz istiqamətdə olmayan, düz xətt təşkil etməyən; 2. Sözündə, hərəkətində düz olmayan, yalançı, fırıldaqçı.

Ayrıc-ardıc

**AYRIC –** Bir neçə yolun ayrıldığı və ya bir yolun bir neçə tərəfə haçalandığı yer.

**ARDIC** – Sərv ağacı fəsiləsindən olub, çox zaman qayalıqlarda bitən iynə yarpaqlı həmişəyaşıl kol, ya ağac.

Azan-ozan-ozon

**AZAN –** Müsəlmanları namaza çağırmaq üçün azançının səhər, günorta və axşamüstü minarədən ucadan oxuduğu təkbir.

**OZAN –**El şairi, aşıq.

**OZON –** Oksigenin dəyişilmiş şəkli olub, qüvvətli oksidləşdirici və zərərsizləşdirici xassəyə malik qaz.

Azar-azər-həzər

**AZAR** – 1. Xəstəlik, naxoşluq; 2. Əziyyət, əzab; 3. Bəhanə, ürəyindən keçən arzu, məqsəd.
**AZƏR –** 1. Azərbaycanlı; 2. Oda xidmət göstərən mələk; 3. İranda günəş təqvimində ilin 9-cu ayı (22 noyabr - 1 dekabr).
**HƏZƏR** – Saqınma, uzaq olma, ehtiyat etmə, çəkinmə, özünü gözləmə.
Azğın-azqan-əzgin
**AZĞIN –**1. Azmış, yolunu itirmiş; 2. Qudurmuş, vəhşi, yırtıcı, önüalınmaz, sərt, şiddətli; 3. Pozğun, namussuz.
**AZQAN** – Qanı az olan, solğun adam.
**ƏZGİN** – Əzinik, yorğun, halsız, taqətsiz.
Azıx-azıq
**AZIX –** Azərbaycanın Füzuli rayonunda yerləşən Azıx mağarası.
**AZIQ** – Azuqə.
Azim-əzim
**AZİM –** Getmək, üz tutmaq**.**
**ƏZİM** – Böyük, ulu, yüksək.
Azadə-azürdə
**AZADƏ** – Azadlıqdan istifadə edən, başqasından asılı olmayan, sərbəst.
**AZÜRDƏ** – İncimiş, əzab çəkmiş, əziyyət çəkmiş.

**B**

Baca-bacı
**BACA** – 1. Tüstü çıxmaq üçün ocağın üstündə kərpicdən hörülən və ya dəmirdən qayrılan içi boş boru; 2 İşıq və hava gəlmək üçün bəzən kənd evlərinin və anbarlarının damında pəncərə əvəzinə qoyulan dəlik.
**BACI** – 1. Bir ata-anadan, yaxud bir ata və ya bir anadan olan qızların bir-birinə və ya qardaşlarına olan qohumluq münasibəti; 2. Tanış olmayan qadına, qıza ehtiramla müraciət.
Bacaq-bacanaq

**BACAQ –** Qıç**.**

**BACANAQ –** Bacıların ərlərinin bir-birinə qohumluq münasibəti**.**

Bacalıq-bacarıq-bacılıq

**BACALIQ –** Damda baca üçün hazırlanmış yer.

**BACARIQ –** Bilik, bacarıq, təcrübə, vərdiş nəticəsində əldə edilmiş işgörmə qabiliyyəti.

**BACILIQ –** 1**.** Ögey bacı; 2. Rəfiqə, yoldaş, dost.

Badaq-badalaq-balaq

**BADAQ –** 1. Sınmış ağacı bərkitmək üçün ona keçirilən dəmir halqa; 2. Ev quşlarının ayaqlarına bağlanan ip, halqa; 3. Yastıbaşlı, itiuclu dəmir və ya ağac mıx, mismar, gülmıx.

**BADALAQ –** 1. Sərbəst güləşmə zamanı müvafiq tərəfi yıxmaq üçün ayağını onun ayağına dolaşdırıb burma; 2. Hiylə, kələk, fırıldaq mənasında.

**BALAQ –** 1. Tumanın, şalvarın, dizliyin ayağa düşən tərəfi; 2. Camış balası, körpə kəlçə; 3. Qamışabənzər, içi boş, yemlik bitki.

Badamcan-badımcan-badamça

**BADAMCAN** – Dağlarda bitən cır ərik.

**BADIMCAN** – Tünd-bənövşəyi rəngli tərəvəz bitkisi.

**BADAMÇA** – Badam ağacına bənzər xırda və çiçəkli bir ağac; dəli badam.

Badar-padar

**BADAR** – 1. Kiçicik əkin yeri; 2. Dağınıq, pozuq.

**PADAR** – Türk tayfalarından birinin adı və həmin tayfaya mənsub olan adam.

Badban-bağban

**BADBAN** – Ensiz nazik taxta çərçivəyə yapışdırılmış və uzun sapa bənd edilərək havaya uçurulan kağız, çərpələng.

**BAĞBAN** – Bağa baxan, bağa qulluq edən adam, bağ yetişdirməklə, bağçılıqla məşğul olan adam; bağçı.

Badə-badı

**BADƏ** – 1. Şərab, çaxır; 2. Şərab piyaləsi.

**BADI** – Saxsı nimçə, dövrə.

Badış-badkeş

**BADIŞ** – 1. Toyuqların ayağına nişan üçün tikilən əski, çit parçası; 2. Sapdan toxunma halqa.

**BADKEŞ** – 1. Xalq təbabətində müalicə məqsədilə işlədilən küpə, banka, stəkan və s.; həcəmət; 2. Dəmkeş, külbə.

Badya-badyan

**BADYA** – İçinə süd sağmaq, yaxud maye tökmə üçün midən, saxsıdan və s.-dən qayrılan altı gen böyük qab.

**BADYAN** – Kolluqlarda, zibilli yerlərdə bitən zəhərli bitki.

Bafa-vəfa

**BAFA –** Dərz bağlamaq üçün biçinçinin biçib bağladığı sünbül toplusu.

**VƏFA –** Sədaqət, etibar.

Bağacıq-bağalıq

**BAĞACIQ** – Taxıl bitkilərinə zərər vuran cücü.

**BAĞALIQ** – Atın dırnaqlarının üst (tük qurtaran) tərəfi.

Bağanaq-boğanaq

**BAĞANAQ** – Qıçların hövsələ sümüyünə bitişən yeri.

**BOĞANAQ –** Boğunuq hava, havası boğuq olan yer.

Bağancaq-bağancanaq

**BAĞANCAQ** – Atın dırnağı ilə topuğu arasındakı hissə, buxovluq.

**BAĞANCANAQ** – Heyvanların ayağının yerə dəyməyən hissəsi.

Bağara-mağara

**BAĞARA** – 1. Sap, iplik və s. sarınan çarx; 2. Dayaz quyulardan dol ilə su, neft çəkmək üçün qurğu.

**MAĞARA** – 1. Sap çarxı, qarqara; 2. Dağ və qayanın içinə doğru uzanan, yaxud yer altında olan geniş oyuq, zağa, kaha.

Bağça-boğça

**BAĞÇA** – 1. Kiçik bağ, həyət bağı; 2. Güllük, çiçəklik; 3. Məktəb yaşına çatmamış uşaqlar üçün tərbiyə, əyləncə müəssisəsi.

**BOĞÇA** – İçinə dəyişək, parça və s. qoyulub bükülmüş bağlama (böyük yaylıq).

Bağdad-bağdati

**BAĞDAD** – Yaxın Şərqin ən iri şəhərlərindən biri. İraqın paytaxtı.

**BAĞDATİ** – 1. Suvaqla suvanmış tavan, səqf; 2. Suvağı saxlamaq üçün arakəsmə divarlara və tavana vurulan ensiz taxtalar.

Bağırdağ-bağırsaq

**BAĞIRDAĞ** – Beşikdə uşağı bağlamaq üçün bağ; beşik bağı.

**BAĞIRSAQ** – 1. Həzm prosesində mühüm rol oynayan bədən üzvü, selikli, elastik borular şəklində olur; 2. İçərisindən su axıtmaq üçün rezin boru və ya şlanq.

Bağırqan-baldırqan

**BAĞIRQAN** – Çox bağırqan, qışqırıqçı, ağlayan.

**BALDIRQAN** – İriyarpaqlı uzunboy zəhərli bir bitki.

Bahar-bəhər

**BAHAR** – 1. İlin qış, yay arasında olan fəsli; yaz; 2. Gənclik; 3. Yaz havasını xatırladan mülayim, ılıq, açıq hava haqqında.

**BƏHƏR** – 1. Meyvə, məhsul, bar, bəhrə; 2. Xeyir, səmərə.

Bahəm-bərhəm

**BAHƏM** – Bir yerdə, birlikdə, birgə, bərabər.

**BƏRHƏM** – Pozmaq, dağıtmaq, bərbad etmək.

Baxt-bəxt

**BAXT –** 1. Uduzma, baxtalama; 2. İtki, zərər.

**BƏXT –** Tale, səadət.

Baxta-baxya-bayka

**BAXTA –** Meşə göyərçini.

**BAXYA –** Xırda, sıx tikiş.

**BAYKA –** Yundan və ya pambıqdan toxunan yumşaq xovlu parça**.**

Bakirə-basirə

**BAKİRƏ** – Qızlıq, saflıq, təmizlik.

**BASİRƏ** – Görmə qüvvəsi, görmə qabiliyyəti.

Bais-vaiz

**BAİS** – Səbəb, səbəbkar.

**VAİZ** – Vəz və nəsihət edən, moizə edən.

Bala-belə-bəla

**BALA –** Övlad, uşaq, oğul.

**BELƏ –** Bu cür, bu təhər, bu kimi, bu sayaq.

**BƏLA –**Uğursuzluq, bədbəxtlik, müsibət, fəlakət, afət.

Balaban-baraban

**BALABAN** – Nəfəslə çalınan, ağacdan, qamışdan qayrılan sadə çalğı aləti; düdük.

**BARABAN** – İki üzünə dəri çəkilmiş, içi boş, enli, silindrşəkilli, ağacla vurularaq çalınan çalğı aləti; təbil, nağara.

Balaq-balıq-baliq

**BALAQ –** 1. Tumanın, şalvarın, dizliyin ayağa düşən tərəfi; 2. Camış balası; 3. Qamışabənzər, içi boş, buğumlu yemlik bitki.

**BALIQ –** Qəlsəmə ilə tənəffüs edən, temperaturu dəyişən, üzgəclə hərəkət edən su heyvanı.

**BALİQ –** Yetişmiş, hədd-büluğa çatmış.

Balaqan-balaxon

**BALAQAN** – Keçmişdə kütləvi teatr tamaşaları üçün açıq havada taxtadan düzəldilən müvəqqəti yüngül tikili.

**BALAXON** – Çox geniş uzun xalat, ümumiyyətə, çox enli uzun paltar haqqında.

Balata-balta-palata

**BALATA** – Maya, xəmrə, acıtma.

**BALTA** – Odun doğramaq, ağac kəsmək və s. üçün işlədilən saplı, enli və itiağızlı dəmir alət.

**PALATA** – 1. Xəstəxanalarda və müalicə müəssisələrində xəstələr yatan otaqlardan hər biri; 2. Bəzi ölkələrdə nümayəndəlik orqanlarının adı; 3. Müəyyən işlə məşğul olan bəzi dövlət idarələrinin adı.

Balba-banbal

**BALBA** – Cincilim, keşniş, qazayağı və bu kimi bitkilərdən hazırlanan yemək, sıyıq.

**BANBAL** – İri barama.

Balıqçı-balıqiçi

**BALIQÇI** – 1. Balıq ovlayan, balıq tutmaqla məşğul olan adam; 2. Balıq satan.

**BAIQİÇİ** – Bişirilən balığın qarnına doldurulan qoz, soğan və kişmişdən ibarət iç.

Balkan-balkon

**BALKAN –** Balkan yarımadası Cənub və Cənub-Şərqi Avropada mədəniyyət mərkəzi olaraq, adını Balkan dağlarından götürmüşdür. Serb-bolqar mərkəzindən Qara dənizə qədər uzanır.

**BALKON** – Evlərin, binaların qabaq tərəfində tikilən artırma, üstü açıq, ya örtülü məhəccərli meydança.

Balkar-bulqar

**BALKAR(**lar) –Şimali Qafqazda yaşayan türkdilli xalq və bu xalqa mənsub adam

**BULQAR** – İdil bulqarları xanlığının paytaxtı. Sonra Qızıl Ordanın böyük şəhərlərindən biri. İndi Tatarıstanın Çerdaklı stansiyasından 100 km aralıda yerləşir.

Bambuk-pambıq

**BAMBUK (ağac)** – 1. İsti ölkələrdə bitən, içi boş, çox bərk, yüngül, yoğun, qamışabənzər bitki; 2. Bu ağacdan qayrılmış.

**PAMBIQ** – Qozalarının içindəki liflərdən iplik hazırlanan kolşəkilli birillik cənub bitkisi, həmçinin bu bitkinin ağ rəngli lifləri.

Banda-panda

**BANDA** – Cinayətkarlar, qatillər güruhu, dəstəsi.

**PANDA** – Böyük panda, bambuk ayısı. Ayıkimilər fəsiləsinə aid məməli heyvan növü. Vətəni mərkəzi Çin hesab olunur və Çinin meşələrində yaşayır.

Bandaj-bandaq

**BANDAJ –** Qarının divarlarını normal vəziyyətdə saxlamaq üçün elastik kəmər.

**BANDAQ –** Saxlanmaq üçün saplağından dəstə ilə uzun ipə bağlanmış meyvələr və bu meyvələrin bağlandığı ip.

Bank-banka-bankə

**BANK –** Pul vəsaitini toplayan və ya təqsim edən kredit idarəsi.

**BANKA –** 1**.** Silindrşəkilli şüşə və ya saxsı qab; 2. Qayıqda avarçəkənlər üçün qoyulmuş oturacaq.

**BANKƏ** – Dənizin dayaz yerlərindən ibarət olan sahə.

Banknot-bankrot-bloknot

**BANKNOT –** Dövlət bankı tərəfindən buraxılan və tədavüldə pul kimi işlənilən biletlər.

**BANKROT –** Müflis, iflas etmiş.

**BLOKNOT –**Qopardılan ağ kağız vərəqələrindən ibarət dəftər**.**

Baptist-batist

**BAPTİST –** Baptizm təriqətinə mənsub adam.

**BATİST –** Nazik və bir qədər parlaq parça növü.

Bar-var

**BAR** – 1. Meyvə, məhsul; 2. Yük, ağırlıq; 3. Ayaq üstə duraraq yemək yeyilən, ya içki içilən kiçik yeməkxana.

**VAR** – 1. Olan, mövcud olan; 2. Dövlət.

Barak-bardaq

**BARAK –** Taxtadan tikilən müvəqqəti, yüngül yaşayış binası**.**

**BARDAQ –** Su və ya başqa mayelər tökmək, yaxud içində piti bişirmək üçün saxsıdan, çinidən və s. qayrılmış qulplu və ya qulpsuz darboğaz qab.

Barat-bəraət

**BARAT** – 1. Bank və s. maliyyə müəssisəsi və ya poçt vasitəsilə göndərilən pul; 2. Qəbz, vəsiqə, təhvil sənədi.

**BƏRAƏT** – Təmizə çıxma; günahsız, təqsirsiz olduğu meydana çıxma; müqəssirin günahsız olduğunu, cəzaya layiq olmadığını etiraf edən məhkəmə qərarı.

Barbar-bərbər

**BARBAR –** Vəhşi, kobud. Faşist barbarları.

**BƏRBƏR –** Baş və üz qırxmaq peşəsi ilə məşğul olan adam.

Barə-bərə

**BARƏ –** Adətən nisbət şəkilçiləri ilə işlənir – xüsusda, xüsusunda, haqqında**.**

**BƏRƏ –** Ov gözlənilən yer, pusqu, marıq.

Barı-bəri

**BARI** – 1. Hasar, divar, sədd; 2. Heç olmasa.

**BƏRİ** – Bu tərəfə, bu yana, yaxına.

Barıt-barit

**BARIT** – Odlu silahlardan ötrü patron, mərmi hazırlamaq üçün partlayıcı maddə.

**BARİT** – Barium-sulfat; ağ boyalar və kimyəvi maddələr hazırlamaq üçün sənayedə və s.-də işlədilən açıq rəngli ağır şpat.

Bariz-varis

**BARİZ** – Aşkar, aydın, əyani, qabarıq, gözəçarpan.

**VARİS** – Bir şəxsin ölümündən sonra, yaxın qohumluq və ya vəsiyyət yolu ilə onun var və mülkünə sahib olan adam; vərəsə, xələf.

Basabas-basbas

**BASABAS** – Basırıq, qələbəlik, tünlük; sıxıntıda bir-birini basma, sıxma, sıxçalama.

**BASBAS** – Yaş meyvələri, ya yağlı dənləri sıxıb, suyunu və ya yağını çıxaran alət; çənçərə.

Basil-babasil-vasil

**BASİL**(lər) – Çöpşəkilli bakteriya.

**BABASİL –** Düz bağırsağın aşağı hissəsindəki qan damarlarının şişməsi nəticəsində tez-tez qanayan düyünlərin əmələ gəlməsindən ibarət xəstəlik.

**VASİL** – Çatdırmaq, qovuşdurmaq, yetişdirmək, nail olmaq.

Başaq-vaşaq

**BAŞAQ –** Biçin zamanı yerə tökülən sünbül qırıntıları; sünbül.

**VAŞAQ –** Pişiklər fəsiləsindən çox itigözlü yırtıcı heyvan.

Bataq-batıq

**BATAQ –** Lığ, lehmə, palçıq.

**BATIQ –** Çuxura düşmüş, dərinə düşmüş, çökmüş.

Batin-batil-bətn

**BATİL –** Yalan, əsilsiz, doğru olmayan, həqiqətə uyğun olmayan.

**BATİN –** Daxili, iç, iç üz.

**BƏTN –** Qarın, gödən.

Bazar-bezar

**BAZAR** – 1. Alış-veriş yeri; 2. Həftənin şənbədən sonra gələn istirahət günü.

**BEZAR** – Usanmış, bezmiş, çiyrinmiş, təngə gəlmiş.

Bazı-bazu

**BAZI – 1.** Xışın, cütün ulamadan kötüyə qədər olan hissəsi; qol; 2. İki zəmi, tarla arasında mərz; 3. Halqa, dairə.

**BAZU –** Qolun çiyindən dirsəyə qədər olan hissəsi; qol.

Beca-beçə

**BECA** – Yersiz, münasibətsiz, mənasız.

**BEÇƏ** –1. Bala; 2. Körpə, cavan xoruz; 3. Bal arısı.

Bemba(lar)-bomba

**BEMBA**(lar) **–** Cənubi Afrikada yaşayan xalq.

**BOMBA –** İçərisinə partlayıcı maddələr doldurulub, əl və ya silah vasitəsilə, ya da təyyarədən atılan mərmi, qumbara.

Benuar-penuar

**BENUAR** – Teatr zalında patrer ilə bir səviyyədə olan loja.

**PENUAR** – 1. Bərbərxanada saç kəsilərkən paltarın üstünə düşməsin deyə üstdən salınan ağ parça; 2. Yüngül qadın paltarı, kapot, xalat, paltar.

Benzin-benzol

**BENZİN** – Əsasən neftdən və daş kömür kitrəsindən distillə yolu ilə, yaxud süni surətdə alınan rəngsiz, tezalışan uçucu maye.

**BENZOL** – Daş kömür kitrəsindən, neftdən və s. distillə yolu ilə hasil edilən rəngsiz maddə.

Beton-bidon

**BETON –** Çınqıl, xırda çaydaşı, qum və sement məhlulu və s. qatışığından ibarət tikinti materialı.

**BİDON –** Hər hansı mayeni saxlamaq üçün işlədilən ağzı bağlı qab.

Beşik- beşlik

**BEŞİK –** Körpə uşaqlara məxsus yırğalanan kiçik yatacaq.

**BEŞLİK –** Beş manatlıq pul.

Beyət-beyt

**BEYƏT –** Birinin hakimiyyətini qəbul edərək ona tabe və sadiq olma.

**BEYT –** İki misradan ibarət olan şeir parçası**.**

Bəbir-bədr

**BƏBİR –** Məməli heyvanların yırtıcılar dəstəsinə mənsub pələngəoxşar heyvan.

**BƏDR –** On dörd gecəlik ay.

Bədahət-bidət

**BƏDAHƏT** – Aşkarlıq, aydınlıq, əyanilik; dəlilə, sübuta ehtiyacı olmama; 2. Birdən-birə, fikirləşmədən söz söyləmə və bu cür söylənilən söz, şeir və s.

**BİDƏT** – Hamı tərəfindən qədimdən bəri qəbul edilmiş qayda və adətə, yaxud dinə zidd olan şey.

Bədaye-bədöy

**BƏDAYE** – İncəsənətə, bədiiyyata aid olan.

**BƏDÖY** – Sağlam, qaçağan və köhlən at.

Bədəfkar-bədəhval

**BƏDƏFKAR** – Sui-qəsdçi, cinayətkar, cani.

**BƏDƏHVAL** – Əhvalı pis, halı pis, halı pozğun.

Bədəl-bədən-bədəməl

**BƏDƏL** – 1. Bir şeyin yerini tutan və ya tuta bilən, bir şeyi əvəz edə bilən şey; 2. Tay, bərabər, misl; nümunə, timsal.

**BƏDƏN –** İnsan və ya heyvanın vücudu, gövdə.

**BƏDƏMƏL** – Pis işlərlə məşğul olan, pis iş görən; əxlaqsız.

Bədfal-bədhal

**BƏDFAL** – Uğursuzluq, bədbəxtlik, fəlakət əlaməti.

**BƏDHAL** – Halı pis, halı ağır, vəziyyəti ağır.

Bədgu-bədxu

**BƏDGU** – Başqaları haqqında pis danışan, qeybət edən.

**BƏDXU** – Bədxasiyyət.

Bədhaq-bədxab-bədxah

**BƏDHAQ –** Aldığı borcunu qaytarmaq istəməyən, haqq verməz.

**BƏDXAB –** Yuxusu pis.

**BƏDXAH –** Başqasının pisliyini istəyən, heç kəsin yaxşılığını istəməyən, qərəzkar.

Bədiə-bədihə

**BƏDİƏ** – Misli-bərabəri görünməmiş şey; diqqəti cəlb edən yeni icad olunmuş şey; nadir gözəl şey.

**BƏDİHƏ** – Fikirləşmədən, qabaqcadan hazırlaşmadan söylənilən söz, şeir; hazırcavab.

Bədihi-bədii

**BƏDİHİ** – Aşkar, bəlli, aydın.

**BƏDİİ** – Estetik zövqə, incəsənət tələblərinə cavab verən; gözəl, qəşəng, incə, estetik.

Bədnal-bədnam

**BƏDNAL –** Özünü nallamağa qoymayan (at, qatır və s.).

**BƏDNAM –** Pislikdə adı çıxmış, adı ləkəli, pis ad qazanmış, rüsvayçı, biabırçı**.**

Bədrənc-bədrəng

**BƏDRƏNC (bitki)** – Ətirli efir yağlarına malik bitki.

**BƏDRƏNG** –Xoşa gəlməyən rəngdə olan, pis rəngli, çirkin rəngli.

Bəhrə-bəhri

**BƏHRƏ** – 1. Keçmiş zamanlarda mülkədarların kəndlilərdən aldıqları natural vergi; 2. Meyvə, məhsul, bar, bəhrə.

**BƏHRİ** – Dənizə, gəmiçiliyə və ya hərbi donanmaya aid olan.

Bəkarət-vəkalət

**BƏKARƏT** – 1. Bakirəlik, qızlıq; 2. Təmizlik, ismət.

**VƏKALƏT** – 1. Bir işi görmək üçün birisinə verilən hüquq; vəkillik; 2. Nazirlik, nəzarət, vükəlalıq.

Bələk-bilək

**BƏLƏK** – 1. Körpə uşağı bələməyə məxsus sarğı, qundaq; 2. Bələkdən: lap körpəlikdən.

**BİLƏK** – Qolun dirsəkdən ələ qədər olan hissəsi.

Bəlgə-bəlkə-bölgə

**BƏLGƏ –** 1. El arasında evlənən oğlan tərəfindən qız evinə göndərilən birinci nişan – üzük və örpək; 2. Əkin yerlərinin hüdudunu göstərən nişan, mərz; 3. Bəhanə, səbəb, dəlil, tutaraq; 4. Vuruşma zamanı qorunmaq üçün qola sarınan sarğı.

**BƏLKƏ –** Ola bilər, ola bilsin, ehtimal, şayəd, ola ki, olsun ki.

**BÖLGƏ – 1.** Nərə balığının bir növü, beluqa; 2. Müəyyən əlamətə görə seçilən ərazi sahəsi.

Bəm-bən

**BƏM** – Musiqidə yoğun səs.

**BƏN** – 1. Danışan adamı bildirən birinci şəxs əvəzliyinin təki; 2. Qadağan, yasaq; buraxmama, yol verməmə, qoymama.

Bəndəm-bəndər

**BƏNDƏM** – 1. Meyvə saplağı; 2. Dərz bağlamaq üçün otdan, küləşdən eşilən bağ.

**BƏNDƏR –** 1. Keçid, yol; 2. Ticarət limanı.

Bəndivan-nərdivan

**BƏNDİVAN** – 1. Məəttəl, bənd: 2. Məəttəl olmaq, bənd olmaq; 3. Qonmaq.

**NƏRDİVAN** – Bir yerə qalxmaq və ya enmək üçün ağacdan, dəmirdən, ipdən və s.-dən düzəldilmiş pilləli vəsait.

Bənək-bəng

**BƏNƏK** – 1. Üzdə, ya bədənin başqa yerində nöqtə şəklində kiçik xal, nişan; 2. İt adı.

**BƏNG (həşiş)** – Toxumunda narkotik maddələr olan bitki; bəng otu.

Bəngi-dəngil

**BƏNGİ** – Bəng düşkünü, bəng çəkən, həşiş çəkən adam.

**DƏNGİL** – Xal-xal, xallı.

Bəniz-dəniz

**BƏNİZ** – Üz, çöhrə, sifət.

**DƏNİZ** – 1. Yer kürəsinin acı-duzlu su örtüyü olan və az-çox quru və əhatə olunmuş böyük sahəsi, okeanın bir hissəsi; dərya; 2. Təşbehlərdə, müqayisələrdə çoxluq, nəhayətsizlik, intəhasızlıq bildirir.

Bənna-bina

**BƏNNA** – Binanın daş, kərpic hissəsini tikən usta.

**BİNA** – 1. Tikili, mülk, ev; 2. Bünövrə, özül, təməl, əsas.

Bənzər-mənzər

**BƏNZƏR** – Oxşar, oxşayan, bənzər, tay, uyğun.

**MƏNZƏR** – 1. Qadın şəxs adı; 2. Təbiəti əks etdirən lövhə.

Bərabər-bərадər

**BƏRABƏR** – Başqası ilə tən, bir boyda, bir ölçüdə olan.

**BƏRADƏR** – Qardaş.

Bərbad-bərbət-bərpa

**BƏRBAD –** Dağılmış, dağınıq, pozğun, pərişan, uçmuş, pozulmuş; çox pis, çox xarab, çox yaman.

**BƏRBƏT –** Uda oxşar qədim çalğı aləti.

**BƏRPA –** Əvvəlki normal halına salma**.**

Bərəçi-bərəyəçi

**BƏRƏÇİ** – Bərəni idarə edən şəxs, salçı.

**BƏRƏYƏÇİ** – Silahı hazır vəziyyətdə tutaraq bərədə durub ovu gözləyən ovçu.

Bərg-bərk-bərq

**BƏRG** – Yarpaq.

**BƏRK** – 1. Mayelərdən və qazaoxşar cisimlərdən fərqli olaraq, öz şəkil və ölçüsünü mühafizə edən; 2. Sərt, qatı; 3. Bədəncə möhkəm, sağlam, davamlı, güclü, dözümlü; 4. Sürətli, iti, cəld, yeyin.

**BƏRQ** – Şimşək.

Bəsait-vəsait

**BƏSAİT –** Bəsit, sadə cisimlər**.**

**VƏSAİT –**1**.** Ləvazimat, pul, kredit; 2. Ehtiyat qüvvələri; 3. Dərslikdən əlavə tədris üçün lazım olan kitab.

Bəsarət-bəsirət

**BƏSARƏT** – Qafil olmaq, həqiqəti görməmək, gözü bağlanmaq, başa düşməmək, gözü bağlı olmaq.

**BƏSİRƏT** – Bir şeyi dərindən və tez anlama qabiliyyəti, gələcəyi görmə qabiliyyəti.

Bəsit-bəsti

**BƏSİT –** Tərkibi bir ünsürdən ibarət olan; mürəkkəb olmayan, sadə.

**BƏSTİ (saxsı qab) –** Kiçik küp, küpə.

Bəstə-bəstər

**BƏSTƏ** – 1. Bağlı; 2. Bir qədər alçaq.

**BƏSTƏR** – Yataq, yorğan-döşək

Bəşarət-bəşaşət

**BƏŞARƏT** – Muştuluq, müjdə, xoş xəbər, gözaydınlığı.

**BƏŞAŞƏT –** Gülərüzlülük, üzüaçıqlıq, sevinc**.**

Bəşərə-bəşəri-bəşərti

**BƏŞƏRƏ –** Bədəni örtən dərinin xarici təbəqəsi**.**

**BƏŞƏRİ –** İnsana, bütün insanlara aid olan; insana məxsus olan; insana xas olan; insani.

**BƏŞƏRTİ –** Bu şərtlə, bu şərtlə ki.

Bəyəm-bəyim

**BƏYƏM** – Məgər.

**BƏYİM** – "Bəy" sözünün qadın forması, xanım

Bəzək-bərzəx

**BƏZƏK –** Bəzəyən şey, gözəllik verən şey; zinət, yaraşıq**.**

**BƏRZƏX** – İki qitəni bir-birinə, yaxud qitəni yarımada ilə birləşdirən dar torpaq zolağı.

Bəzərək-bəzgək

**BƏZƏRƏK** – Kətan toxumu.

**BƏZGƏK** – Dovdaqlar fəsiləsinə mənsub çöldə yaşayan köçəri quş.

Bəzl-bəzr-vəzir

**BƏZL** – Bağışlamaq, əsirgəməyib vermək.

**BƏZR** – 1. Toxum əkiləcək dən; 2. Kətan toxumu.

**VƏZİR** – Keçmişdə şahın məsləhətçisi.

Bıçaq-bıçqı

**BIÇAQ** – Kəsmək üçün alət.

**BIÇQI** – Mişar.

Bılina-balina

**BILİNA** – Rus xalq ədəbiyyatında folklor janrı, dastan.

**BALİNA** – Bədəncə balığa oxşar çox iri dəniz məməlisi; kit.

Biar-biyar

**BİAR –** Arsız, arı-həyası olmayan adam.

**BİYAR –** Aprel işğalından əvvəl mülkədarların kəndlilər üçün məcburi və müftə olaraq icra etməli olduqları mükəlləfiyyət, iş.

Bibar-bibər

**BİBAR –** 1. Yarpaqsız; 2. Kasıb, yoxsul.

**BİBƏR –** Yeyilən istiot növü**.**

Bicək-biçənək

**BİCƏK** – 1. Rəsmi nikah olmadan doğulan uşaq; 2. Hiyləgər, fəndgir; 3. Noxud; 4. Daha kiçik yaşda doğan düyə, erkən doğan düyə.

**BİÇƏNƏK** – Biçiləcək yer, otlaq, çəmənlik.

Biçim-biçin

**BİÇİM – 1.** Biçilmək tərzi; paltarın forması, fasonu, ülgüsü**;** 2. Bədən, boy-buxun, qamət mənasında.

**BİÇİN –** Otu, taxılı oraqla, maşınla və s. ilə biçmək işi.

Bidad-bidar

**BİDAD** – 1. Zülm, əzab, əziyyət; 2. Amansız, rəhmsiz.

**BİDAR** – Oyaq, ayılmış, yuxusuz.

Bidərd-bidət

**BİDƏRD** – Dərdsiz.

**BİDƏT** – Hamı tərəfindən qədimlərdən bəri qəbul edilmiş qayda və adətə, yaxud dinə zidd olan şey, keyfiyyət.

Bihudə-bihüdud

**BİHUDƏ** – Boş-boşuna, əbəs, nəticəsiz, mənasız, faydasız.

**BİHÜDUD** – Hüdudsuz, nəhayətsiz, ucsuz-bucaqsız.

Bixəbər-bixətər

**BİXƏBƏR** – Xəbərsiz.

**BİXƏTƏR** – Xətərsiz, qorxusuz, təhlükəsiz.

Bikam-bikar

**BİKAM** – Kamına çatmamış, arzusuna nail olmamış muradına çatmamış, istədiyinə qovuşmamış, nakam.

**BİKAR** – 1. İşsiz, peşəsiz, məşğuliyyətsiz; 2. Əkilməmiş, toxum atılmamış, ağac əkilməmiş boş yer.

Bilavasitə-bilvasitə

**BİLAVASİTƏ –** Vasitəsiz olaraq, arada heç bir vasitə olmadan; iştirak etmədən, birbaşa.

**BİLVASİTƏ –** Arada vasitə olmaq üzrə; başqasının iştirakı ilə, köməkliklə.

Bilək-pilək-bilik

**BİLƏK (əl darağı, tibb.)**– Qolun dirsəkdən ələ qədər olan hissəsi.

**PİLƏK –** 1. Kiçik yastı düymə; 2. Boyunbağı, qolbaq və s.-də sallanan kiçik hissəcik.

**BİLİK –** Oxumaq və ya təcrübə nəticəsində əldə edilən məlumat, elm.

Billə-pillə

**BİLLƏ** – Uşaqlara verilən hər cür meyvə, şirniyyat və s. dadlı şeylər.

**PİLLƏ** – Pilləkənin çıxarkən və ya düşərkən ayaq qoyulan üfüqi hisslərindən hər

biri.

Billion-bulyon

**BİLLİON** – Rus, fransız və Amerika hesab sistemində min milyona (bir milyarda), yaxud alman və ingilis sistemlərində bir milyon milyona (min milyarda) bərabər olan say.

**BULYON** – Bişmiş mal, qoyun əti, toyuq və ya balığın suyu.

Bilyard-milyard

**BİLYARD** – 1. Üzərinə mahud çəkilmiş xüsusi miz üstündə şarlarla oynanılan oyun; 2. Bu oyun üçün bortları və yanlarında kisəcikləri olan miz.

**MİLYARD** – 1.000.000.000. sayı.

Biməkan-biməqam

**BİMƏKAN** – Məkansız, yersiz-yurdsuz.

**BİMƏQAM** – Yersiz, münasibətsiz.

Bina-binə

**BİNA –** Tikili, mülk, ev.

**BİNƏ (yurd) –** Köçərilərin mal-qara ilə köçüb kənddən kənarda məskən saldıqları yer; yurd, köç.

Bint-vint

**BİNT** – Tənzifdən hazırlanmış çeşidli endə sarğı.

**VİNT** – 1. Burğulu mıx, burğu şəklində olan mıx; 2. Gəmi, yaxud təyyarəni hərəkətə gətirən mexanizmin fırlanan vala bənd edilmiş burğu şəkilli hissəsi; pər, pərvanə.

Birəli-birəlli

**BİRƏLİ** – Birə basmış, birə daraşmış, birə olan.

**BİRƏLLİ** – 1. Bir əli olmayan, bir əli kəsik; 2. Təkqulplu qab, birqulplu su qabı.

Birhədli-birxətli

**BİRHƏDLİ** – Bir həddən ibarət olan cəbri ifadə.

**BİRXƏTLİ** – Bir xətt çəkilmiş.

Birinc-bürünc

**BİRİNC** – Düyü.

**BÜRÜNC** – 1. Mis, sink, qalay xəlitəsindən ibarət metal; 2. Bürüncdən qayrılmış.

Birtonlu-birtumlu

**BİRTONLU** – Bir tonda olan, yeknəsəq, yekrəng.

**BİRTUMLU** – 1. Bir cür toxum əkilmiş; 2. Tək çəyirdəkli.

Birun-burun-burum

**BİRUN** – Çöl, bayır, dişarı.

**BURUN** – 1. İnsan və heyvanın üzündə iybilmə və tənəffüs orqanı; 2. Qurunun, dənizin içinə girən dağlıq, qayalıq hissəsi; 3. Müxtəlif şeylərin, alətlərin və s.-nin uc tərəfi, irəli çıxan hissəsi.

**BURUM –** Burula-burula çıxan şarşəkilli kütlə**.**

Bisavad-bisəbat

**BİSAVAD** – Savadsız.

**BİSƏBAT** – Səbatsız, davamsız; müvəqqəti, ötəri, keçici.

Bitik-bitki-bitkin

**BİTİK – 1.** Məktub, kağız; 2. Dua yazılmış kağız parçası.

**BİTKİ –** Göyərti, nəbatat; ağac, ot, çiçək və s. kimi torpaqda bitən hər şey.

**BİTKİN**–Bitmiş, qurtarmış, tamamlanmış halda olan.

Bivəhm-bifəhm

**BİVƏHM –** Qorxusuz, qorxmayan.

**BİFƏHM** – Fəhmsiz, qavrayışı olmayan.

Biyan-biyar

**BİYAN** – Kökündən boya və xalq təbabətində dərman hazırlanan şirinköklü bir bitki.

**BİYAR** – 1. Aprel işğalından əvvəl kəndlilərin ülkədarlar üçün məcburi və müftə olaraq icra etməli olduqları mükəlləfiyyət; 2. Ümumiyyətlə, zor və cəbr ilə, könülsüz halda görülən iş haqqında.

Biz-bis

**BİZ** – 1. Danışan şəxs özü ilə bərabər bir neçə nəfər və ya çox adam olduğunu bildirir; 2. Bəzən "mən" əvəzində deyilir; 3. Deşik açmaq üçün ucu şiş metal alət.

**BİS** – İkinci dəfə, bir də təkrar (teatrda, konsertdə artistə öz çıxışını təkrar etdirmək üçün tamaşaçıların işlətdiyi nida).

Bizon-bozon

**BİZON –** Şimali Amerika vəhşi öküzü.

**BOZON –1.** Kürək;2. Kvant fizikasında işlənən termin.

Bolt-volt

**BOLT**– Maşın və s. hissələrini bir-birinə bənd etmək üçün bir başına qayka keçirilən metal ox.

**VOLT**– Elektrik cərəyanı gərginliyinin ölçü vahidi.

Bor-bur

**BOR –** 1. Diş müalicəsində işlədilən polad burğu. 2. Bir neçə mineralın tərkinbinə daxil olan tünd boz rəngli kimyəvi element.

**BUR –**Texnikada: torpağı və süxurları tədqiq etmək məqsədilə müxtəlif quyular qazmaq üçün işlədilən burğu aləti.

Bordaq-bərdək

**BORDAQ (k.t.)** – Bəslənmiş, yaxşı yedirilib kökəldilmiş, kök (ev heyvanları haqqında).

**BƏRDƏK**– Bir yerə toplanmış dərzlər qalağı.

Bosman-losman

**BOSMAN –** Gəmi komandasının təsərrüfat cəhətdən tabe olduğu şəxs.

**LOSMAN –** Yerli üzüş şəraitini, yerli su yollarını yaxşı bilən və gəmiləri həmin yerlərdən keçirməyi yaxşı bacaran gəmi işçisi.

Bostan-boston-bustan

**BOSTAN –** Qovun, qarpız, xiyar, badımcan kimi tərəvəz bitkiləri yetişdirilən yer.

**BOSTON (parça) –** Əla yundan toxunma parça növü.

**BUSTAN** – Çiçək bağçası, çiçəklik, güllük.

Botanika-botinka

**BOTANİKA** – Bitkilər haqqında elm, nəbabat elmi.

**BOTİNKA** – Alçaq boğazlı, ya boğazsız qadın, kişi və uşaq ayaqqabısı.

Boyaq-bayaq

**BOYAQ** – Bir şeyə müəyyən rəng vermək, bir şeyi boyamaq, yaxud rəsm çəkmək üçün işlədilən rəng maddəsi.

**BAYAQ** – Bir az bundan əvvəl, qabaqca.

Boyler-broyler

**BOYLER –** İsti suyu özündə saxlayan qızdırıcı vasitə**.**

**BROYLER –** Ətlik çolpa.

Bozax-bozaq

**BOZAX** – Qoyun.

**BOZAQ** – Bitki.

Bozalaq-bozaraq

**BOZALAQ** – Baldırı enli, yarpağı bozumtul alaq otu.

**BOZARAQ** – Boz sifətinin azaltma dərəcəsi; Boz, bozumtul.

Bozarma-bozartma

**BOZARMA –** Boz rəng almaq, bozlaşmaq**.**

**BOZARTMA –** Yağlı ətdən bişirilən sulu qovurma; boz qovurma.

Böhran-böhtan-bürhan

**BÖHRAN –** Xırda istehsalçıların iflasına, istehsalın azalmasına səbəb olan dövraşırı nisbi həddən artıq əmtəə istehsalı.

**BÖHTAN –** Birini ləkələmək üçün nahaqdan ona pis bir şey isnad etmə; iftira, şər.

**BÜRHAN** – Dəlil, sübut.

Böyələk-böyrək

**BÖYƏLƏK –** Heyvanların qanı və bitkilərin şirəsi ilə dolanan iri çibin.

**BÖYRƏK –** İnsan və heyvanların sidik ifraz edən bədən üzvü.

Böyəmək-böyənmək-böyümək

**BÖYƏMƏK** – Suyu göllәndirmək üçün arxın, suyun qabağını kəsmək.

**BÖYƏNMƏK –**Yığılıb qalmaq, qabağı kəsilmək.

**BÖYÜMƏK** – Həcmcə və ya miqdarca artmaq, genişlənmək.

Braulyoz-bruselyoz

**BRAULYOZ –** Qanadsız milçək brauladan arılara keçən xəstəlik.

**BRUSELYOZ –** Mal-qaradan insanlara keçən brusel mikroorqanizmlərinin yoluxucu xəstəliyi.

Brom-bron

**BROM –** Qırmızı rəngli maye halında kəskin qoxulu kimyəvi element.

**BRON –** Hüquqi şəxsin adının bron edilməsi.

Bulama-bulanma

**BULAMA –** Mayenin içinə qaşıq və s. salıb onu qarışdırmaq.

**BULANMA –** Duruluğunu, saflığını, şəffaflığını, bərraqlığını itirmək.

Bufer-bufet

**BUFER –** Dəmiryol vaqonarında, avtomobillərdə və s. toqquşma zamanı zərbənin, təkanın gücünü azaltmaq üçün yaylı qurğu.

**BUFET –** İçində qab-qacaq, yemək, içki və s. saxlanılan böyük şkaf.

Buket-buklet

**BUKET**– Gül, çiçək dəstəsi.

**BUKLET** – Mətn və şəkillərlə müşayiət edilən informasiya materialından ibarət iri formalı çap məhsulu; şəkilli broşüra.

Bunker-bankir

**BUNKER** – 1. Kombaynın içərisində müvəqqəti olaraq dən saxlanılan yeşik şəkilli hissəsi; 2. Müxtəlif istehsalatlarda, gəmidə və s.-də içərisində səpələnən materialları saxlamaq üçün xüsusi qurğuları olan iri yeşik.

**BANKİR** – Bank sahibi və ya səhmdarı, bankir.

Burxuq-buruq-büluğ

**BURXUQ –** Burulub zədələnmə, sərpmə, yerindən oynama.

**BURUQ** – 1. Burulmuş; 2. Neft, qaz, mədən suları çıxarmaq üçün xüsusi üsullarla qazılan quyu; 3. Boruda axan mayenin, qazın və s.-nin yolunu açıb-bağlamaq üçün qurğu, kran.

**BÜLUĞ** – 1. Yetkinlik, yetişmə, həddi-büluğa çatma; 2. Oğlan uşağının özünü tanıması.

Buz-büğz

**BUZ** – 1. Donmuş su; 2. Çox soyuq, sərin şey haqqında.

**BÜĞZ** – Kin, ədavət, acıq, nifrət.

Buzə-busə

**BUZƏ (içki)** – Turşumuş darı xəmirindən hazırlanmış içki, kvas.

**BUSƏ** – Öpüş.

Bülöv-bütöv

**BÜLÖV –** Bıçaq və başqa kəsərləri itiləmək üçün daş.

**BÜTÖV –** Bir küll halında olan; yarım, ya parça halında olmayan; kəsilməmiş, qırılmamış, dağılmamış; yekparə, tam.

Bürran-büryan

**BÜRRAN**–Kəsən, iti.

**BÜRYAN**–Odda qovrulan, odda yanan.

**C**

Cabir-cəbr

**CABİR –** Cəbr edən, zor işlədən**,** zülmkar.

**CƏBR –** 1**.** Zor, zor işlətmə, zülm; 2. Riyaziyyatın, ədədi qiymətlərindən asılı olmayaraq, kəmiyyət üzərində aparılan əməliyyatları öyrənən sahəsi.

Cadar-cidar

**CADAR –** Bataqlıq yerin quruyandan sonra çox və xırda çatlaması**.**

**CİDAR –** Divar, arakəsmə.

Cacıq-cocuq

**CACIQ –** Oynaq.

**COCUQ –** Uşaq.

Cağ-çağ

**CAĞ –** 1. Çəpər; 2. Arabanın yan taxtaları, araba yanı

**ÇAĞ –** Vaxt, zaman.

Cahıl-cahil

**CAHIL –** Cavan, gənc.

**CAHİL –** Oxumamış, savadsız, avam, nadan, anlamaz, qanmaz, heç şeydən xəbəri olmayan.

Caiz-cehiz-ceviz

**CAİZ –** Hər hansı bir baxımdan edilməsinə, görülməsinə, işlənməsinə icazə verilən; icazəli, rüsxətli, ən münasib, ən uyğun.

**CEHİZ –** Ərə gedərkən ata evindən qıza verilən əşyalardan ibarət hədiyyə.

**CEVİZ –** Qərzəkli meyvə olan qoz.

Calal-camal

**CALAL** – Böyüklük, ululuq, əzəmət, cəlal.

**CAMAL** – 1. Gözəllik; 2. Gözəl üz, qəşəng sifət.

Calğa-çalğı

**CALĞA –** Calaq, peyvənd.

**ÇALĞI – 1.** Nazik çubuqlardan, tikan və s.-dən düzəldilən uzundəstəli süpürgə; 2. Musiqi, musiqi aləti.

Cam-can

**CAM – 1.** Vaxtı ilə misdən, indi isə müxtəlif materiallardan hazırlanan piyalə, qədək, kasa; 2. Şüşə.

**CAN –** Dini etiqada görə ölümlə vücuddan ayrılan qeyri-maddi varlıq; ruh.

Came-camə

**CAME –** 1. Toplayan, cəm edən; 2. Toplanma yeri.

**CAMƏ –** Paltar, camaşır.

Canavar-canazar

**CANAVAR –**İt cinsindən dərisi boz, yırtıcı heyvan; qurd.

**CANAZAR –** Cansız, arıq, zəif, sısqa.

Canəfza-canfəza

**CANƏFZA –** Canlandıran, canlandırıcı, ruhlandırıcı.

**CANFƏZA –** Ürəkaçan, fərəhverən, könülaçan.

Caydaq-caynaq-çaylaq

**CAYDAQ –** Uzun, arıq, uzundraz.

**CAYNAQ –**Bir çox heyvan və quşların barmaqlarının qarmaqvari iti ucları.

**ÇAYLAQ** – Quru çay yatağı.

Cecə-gecə

**CECƏ** – Bəzi yağlı bitkiləri sıxıb suyunu çıxardıqdan sonra qalan toxumu, qalıqları. Meyvənin yeyilməyən iç hissəsi.

**GECƏ** – Günün günbatandan günçıxana qədər, axşamdan səhərə qədər olan hissəsi.

Cehiz-cövüz

**CEHİZ** – Qız ərə gedərkən ata evindən əşyalardan ibarət verilən hədiyyə.

**CÖVÜZ** – Qoz.

Cəbəl-çəpəl-çəpər

**CƏBƏL** – Dağ, çətin qalxılan yer.

**ÇƏPƏL** – Həyasız, utanmaz.

**ÇƏPƏR** – Bir yerin və ya bir şeyin ətrafına taxtadan və ya başqa materiallardan çəkilən divar, hasar.

Cədd-cədid

**CƏDD –** Ata və ya ananın atası; baba; əcdad**.**

**CƏDİD –** Yeni, təzə**.**

Cəhd-cəhət

**CƏHD –** 1. Çalışma, səy; 2. Danma, inkar etmə.

**CƏHƏT –** 1. Tərəf, yön, səmt; 2. Bir şeyin tərkib hissəsi, elementi; 3. Bir şeyə aid olan, onu səciyyələndirən keyfiyyət, əlamət, xüsusiyyət.

Cəfəng-cəhəng

**CƏFƏNG –** Mənasız, boş, dəyərsiz**.**

**CƏHƏNG –** Ağızın küncü.

Cəlb-cəld

**CƏLB –** Özünəçəkmə, cəzbetmə.

**CƏLD –** Tez, iti, yeyin, dərhal**.**

Cələ-cəli

**CƏLƏ –** At quyruğu qılından ilmək şəklində düzəldilən tələ; duzaq.

**CƏLİ** –Açıq, aydın, aşkar, zahir**.**

Cəhalət-cərahət

**CƏHALƏT** – Avamlıq, nadanlıq, mədəni gerilik, mədəniyyətsizlik, elm və mərifətin olmadığı hal.

**CƏRAHƏT –** Yara.

Cəng-çəng-cing

**CƏNG–**1.Müharibə, döyüş; 2**.** Paxır, pas.

**ÇƏNG – 1.**Qıc olmaq, keyləşmək, hərəkətdən düşmək, hissizləşmək; 2. Formaca arfaya oxşayan, qədim Şərq musiqi alətlərindən biri.

**CİNG** – Mis, dəmir, şüşə kimi şeylərin başqa bir şeyə və ya bir-birinə dəyib toxunmasından hasil olan spesifik səs.

Cəngi-çəngə-çəngi

**CƏNGİ** – Qəhrəmanlıq və cəngavərlik ruhunda hava.

**ÇƏNGƏ –** Bir ovucluq.

**ÇƏNGİ**–Dəf çalıb oxuyan rəqqasə.

Cəngəl-çəngəl

**CƏNGƏL** – Sıx, qalın ağac, kol-kos, ot basmış yer.

**ÇƏNGƏL** – Yeyilən şeyin parçasını götürmək üçün bir neçə uzun dişi olan alət.

Cərcənəg-çərpələng

**CƏRCƏNƏG –** Omba sümüklərini birləşdirən buğum.

**ÇƏRPƏLƏNG –** Ensiz nazik taxta çərçivəyə yapışdırılmış və uzun sapa bənd edilərək, havaya uçurulan kağız.

Cəridə-cərimə

**CƏRİDƏ –** Qəzet.

**CƏRİMƏ –** Pulla ödənilən cəza növü.

Cəsamət-cəsarət

**CƏSAMƏT –** Böyüklük, irilik, yekəlik.

**CƏSARƏT –** Qorxmazlıq, hünər, cürət.

Cəsim-cisim

**CƏSİM** – Böyük, iti, yekə, əzəmətli, cəsamətli.

**CİSİM** – Fəzanın müəyyən bir qismini dolduran maddə, materiya, şey; fəzada

ayrıca şey.

Cəzb-cəzm

**CƏZB –** Özünə tərəf çəkmək**.**

**CƏZM –** 1. Kəsmə, qət etmə; 2. Qəti surətdə qərarlaşdırma.

Cıdır-cığır

**CIDIR –** At yarışı.

**CIĞIR –** Gediş-gəlişdən əmələ gələn ensiz, dar yol.

Cığa-cıqqa-cıqqı

**CIĞA –** 1. Başın ön və yan tərəfinə tökülən tellər; 2. Qoşmada hər bəndin 2-ci və 3-cü misraları arasına salınan bənd.

**CIQQA –** Tacşəkilli, daş-qaşlı qadın başlığı.

**CIQQI –** Azacıq.

Cıqqır-cınqır-cındır

**CIQQIR –** Səs-səmir**.**

**CINQIR –** Qətiyyən səs çıxarmamaq, susmaq.

**CINDIR –** Tamam köhnəlib yaramaz hala gəlmiş cırıq-cırıq olmuş, geyilməsi qalmayan, yıpranmış.

Cılğa-cılxa

**CILĞA (lümlüt) –** 1. Cığır; 2. Lüt.

**CILXA –** Tamam, tamamilə, lap.

Cırıq-cırlıq

**CIRIQ –** Bir və ya çox yerdən cırılmış, parça-parça olmuş, yırtıq.

**CIRLIQ –** Cır ağac və kollar basmış yer.

Cırmaq-cırnaq

**CIRMAQ –** Kağız, parça kimi şeyləri qıraqlarından dartaraq parça-parça, doğram-doğram etmək**.**

**CIRNAQ – 1.** Bir çox heyvan və quşların barmaqlarının qarmaqvari iti ucları; 2. Zarafat götürməmək, hirslənmək.

Cidal-cidar-çidar

**CİDAL** – Dava, döyüş, qovğa, vuruş.

**CİDAR** – Divar, arakəsmə.

**ÇİDAR** – Atı çidarlamaq, bir yerə bağlamaq.

Cif-cift

**CİF** –1**.** Cüt, qoşa, tay, yoldaş; 2. Sıxlıq, kiplik.

**CİFT –** Bir yerdə işlənən və bir bütövü təşkil edən iki eyni şey.

Cil-çil-şil

**CİL (ot) –** Bataqlıqlarda bitən çoxillik ot olub, kökəbənzər gövdəsində aşı maddəsi vardır.

**ÇİL (xal, ləkə) –** Dəridə, əksərən üzdə əmələ gələn qəhvəyi və ya sarımtıl rəngli xırda ləkələr, çillər; xal, çil.

**ŞİL –** Çolaq, qolsuz, əlsiz-ayaqsız, əlil.

Cilov-çilov

**CİLOV** – Qoşqu ləvazimatının ağlılığa bənd edilmiş uzun hissəsi; qayışdan ibarət olan və qoşulmuş atı idarə etməyə yönələn hissəsi.

**ÇİLOV** – Lobya, mərci, əriştə və düyüdən bişirilmiş plov, aş.

Cim-cin

**CİM** – Ərəb əlifbasında hərfin adı.

**CİN** – 1. Nağıllar və bəzi inanclara görə gözə görünməyən, mövhumi bir varlıq; 2. Giləmeyvələrdən çəkilmiş ingilis arağı.

Cimbildətmək-çimdikləmək

**CİMBİLDƏTMƏK –** Oğurlamaq.

**ÇİMDİKLƏMƏK –** İki barmağın ucu ilə birinin əlini tutub sıxmaq, incitmək, çimdik götürmək, çimdik almaq**.**

Cincar-cindar-çidar

**CİNCAR (ot)** – Gicitkən bitkisi.

**CİNDAR –** Cinləri özünə tabe edib onların şərini aradan qaldıra bilən adam; cinqovan.

Cirə-cür-cürə

**CİRƏ –** 1. Xırda ağ ləçəkləri olan birillik bitki; 2. Ərzaq payı, pay**.**

**CÜR –** Növ, çeşid, qisim. Hər cür.

**CÜRƏ –**1**.** Bir qurtum içki, su; bir udumda içiləcək maye; 2. Çox balaca, xırdaca, çox kiçik; 3. Qızılquş növündən kiçik alıcı quş.

Civə-ciyə

**CİVƏ** – Gümüşü-ağ rəngdə ağır duru metal; kimyəvi element.

**CİYƏ** – Nazik, möhkəm ip

Cövhər-gövhər

**CÖVHƏR –** Hər hansı bir üzvi maddənin distillə və s. kimyəvi üsulla ayrılan yığcam məhlulu, şirəsi**.**

**GÖVHƏR –** Qiymətli daş, cavahir**.**

Cübbə-qübbə

**CÜBBƏ –** Keçmişdə: üstdən geyilən uzun ətəkli, enli düyməsiz geyim.

**QÜBBƏ –** Yarımkürə şəklində dam, günbəz.

Cücə-cüclə-cücü

**CÜCƏ** – Toyuq balası.

**CÜCLƏ** – Müqəvva.

**CÜCÜ** – Milçək, arı, qarışqa kimi buğumayaqlılara verilən ad; böcək.

Cünb-cüng

**CÜNB** – Yan, yan tərəf, nəzd.

**CÜNG** – Şairlərin seçmə əsərləri, yaxud beytlərin əlyazma toplusu.

## Ç

Çadır-çadra

**ÇADIR** – Su buraxmayan parçadan düzəldilən müvəqqəti yaşama, daldalanma yeri.

**ÇADRA** – Qadınların başdan topuğacan bədənlərini örtmək üçün işlətdikləri bürüncək; çarşab.

Çağla-çalxa

**ÇAĞLA –** Çəpər çəkmək, çəpərləmək, hasarlamaq.

**ÇALXA** – İçindəki mayenin hissəciklərini qarışdırmaq və ya həll etmək üçün qarışdırmaq, silkələmək.

Çağlı-cağlı-çalğı

**ÇAĞLI** – Şən, hallı-əhvallı adam.

**CAĞLI** – Cağ vurulmuş, çəpərli, hasarlı.

**ÇALĞI** – 1. Musiqi, musiqi aləti; 2. Nazik çubuqlardan, tikan və s. düzəldilən nazik dəstəli süpürgə.

Çahar-caxır

**ÇAHAR** – Nərd oyununda dörd rəqəmini bildirir.

**ÇAXIR** – Şərab.

Çaxmaq-caxnaq

**ÇAXMAQ** – Odlu silahlarda zərb mexanizminin hissəsi, yay.

**ÇAXNAQ** – Aranı qarışdırmaq, qarışıqlıq salmaq, bir-birinə vurdurmaq, çaxnaşma salmaq.

Çalbaş-Çaldaş

**ÇALBAŞ** – Ağsaçlı, saçlarına dən düşmüş adam.

**ÇALDAŞ (su)** – Çaldaş məbədi qədim Albaniya abidəsi olub, maddi mədəniyyət abidəsidir. Çaldaş bulağı Gədəbəy rayonunda yerləşir.

Çalov-calpov-çilpov

**ÇALOV** – Səpələnən və ya un kimi şeyləri götürmək üçün yanları azacıq yuxarı əyilmiş, bir tərəfi açıq, qısadəstəli alət.

**ÇALPOV** –Suyun iti axan yeri.

**ÇİLPOV**– Şaxta, boran, qar.

Çalpanaq-çalpapaq

**ÇALPANAQ (talaşa)** – Odun və s. qırıntısı; talaşa.

**ÇALPAPAQ** – Başında çal rəngli papaq olan, başına çalpapaq qoymuş.

Çamır-çəmir-çumur

**ÇAMIR** – Palçıq, lil, lehmə.

**ÇƏMİR** – Duman, çən.

**ÇUMUR (oyun)** – Kiçik qum təpəciyindəki qumu hərə barmaqla öz tərəfinə çəkməkdən ibarət olan uşaq oyunu.

Çanaq-çaylaq-cinaq

**ÇANAQ –** İçi oyulmaqla taxtadan hazırlanan qab növü.

**ÇAYLAQ –** Quru çay yatağı.

**CİNAQ –**Kürəklə döş qəfəsini birləşdirən sümük.

Çapaq-çapıq

**ÇAPAQ (balıq) –** Çoxalmaq, bəzən də qışlamaq üçün çaylara keçən bədəni yanlardan basıq balıq.

**ÇAPIQ –** Bədənin hər hansı bir yerində sağalmış zədə yeri, yara yeri, yarıq izi.

Çar-car

**ÇAR –** Padşah, rus padşahı.

**CAR –** Car çəkmək, cərəyan etmək, axmaq, tökülmək.

Çardaq-çərdək

**ÇARDAQ** – 1. Günəşdən, yağışdan qorunmaq üçün dirəklər üzərində qurulmuş üstüörtülü kölgəlik, talvar; 2. Evin girəcəyində qapıya yapışıq üstüörtülü yer.

**ÇƏRDƏK** – Alça, albalı, ərik, zoğal və s. meyvələrin tumu.

Çarıq-çarpıq

**ÇARIQ –** Keçmişdə: kəndlilərin geydiyi aşılanmış göndən tikilən ayaqqabı.

**ÇARPIQ (xalç.)** – 1.Zərblə, şiddətlə toxunmaq, dəymək, vurmaq; 2. Xalçaçılıqda işlənən alət.

Çaşı-çaşır

**ÇAŞI –** Çəp, əyri.

**ÇAŞIR –** Çətirçiçəklilərdən ot bitkisi.

Çataq-çatıq

**ÇATAQ –** Bir-birini kəsib keçən, xaçvarı, çataq.

**ÇATIQ –** Çatılmış, ucları qovuşuq, bir-biri ilə bitişik.

Çayan-çiyan

**ÇAYAN –** Əqrəb.

**ÇİYAN –** Çoxayaqlılar sinfindən kiçik, zəhərli heyvan; skolopendra.

Çəkəcək-çəkələk

**ÇƏKƏCƏK –** Siyirtmə.

**ÇƏKƏLƏK –** Yüngül ev ayaqqabısı, şapşap**.**

Çəkik-çökük

**ÇƏKİK –** Bir yana doğru çəkilmiş, dartılmış kimi olan**.**

**ÇÖKÜK** – Çökəyə düşmüş, çökmüş, içəri batmış, çuxurlaşmış.

Çəkil-çəlik-çəltik

**ÇƏKİL –** Əsasən yarpağı baramaqurduna yedirtmək üçün əkilən tut ağacı növü.

**ÇƏLİK –** 1**.** Möhkəm dəmir, polad; 2. Əl ağacı, əsa; 3. Əkilmək üçün qısa kəsilmiş budaq, qələm.

**ÇƏLTİK –** Qabığı çıxarılmamış düyü.

Çəkilmək-çəkinmək

**ÇƏKİLMƏK –** Durduğu, dayandığı yerdən başqa bir şeyin yanına, yaxud başqa bir tərəfə hərəkət edib durmaq.

**ÇƏKİNMƏK –** Hər hansı bir səbəbə görə bir şeyi etməyə əli getməmək.

Çələng-çəllək

**ÇƏLƏNG –** Gül və ya bitkilərdən dairə şəklində hörülmüş zinət, bəzək.

**ÇƏLLƏK –** İçində maye şeylər saxlamaq və daşımaq və s. məqsədlər üçün işlədilən yastıdibli, ortası enli, ətrafına çənbər çəkilmiş taxtadan qayrılmış iri qab.

Çəm-cəm-çən

**ÇƏM –** Qayda, üsul, yol.

**CƏM –** Bir çox şeyin toplusu, cəmi.

**ÇƏN –** İçində maye, qaz və s. saxlanılan çox yekə qab; rezervuar.

Çəpəl-çəpər

**ÇƏPƏL –** Həyasız, utanmaz.

**ÇƏPƏR –** Bir yerin və ya bir şeyin ətrafına taxtadan və ya başqa materiallardan çəkilən divar, barı, hasar.

Çərək-çörək

**ÇƏRƏK –** Arşının dörddə birinə bərabər uzunluq ölçüsü.

**ÇÖRƏK –** Undan bişirilən qida məhsulu.

Çərtik-çəltik-çəpik

**ÇƏRTİK** – Çərtilmiş yer.

**ÇƏLTİK –** Qabığı çıxarılmamış düyü qabığı.

**ÇƏPİK**– Alqış, əl çalmaq.

Çətən-çətin

**ÇƏTƏN –** Qarğıdan, ağac çubuqlarından hörülmüş çəpər, hörgü.

**ÇƏTİN** – İcrası, həyata keçirilməsi, aradan qaldırılması, həlli, başa düşülməsi və s. çox böyük zəhmət, səy, gərginlik tələb edən.

Çətil-çətir

**ÇƏTİL –** Yerə salınan həsir.

**ÇƏTİR –** Günəşdən, yağışdan qorunmaq üçün əllə baş üstündə tutulan günlük; yağmurluq, zontik.

Çıldaq-cılpaq

**ÇILDAQ –** Dini müalicə üsulu.

**ÇILPAQ –** Əynində heç bir paltarı olmayan, bədəni heç bir şeylə örtülməmiş, paltar geyməmiş, soyunmuş, lüm-lüt.

Çırpıq-çırtıq

**ÇIRPIQ –** Bir şeylə vurulmaq.

**ÇIRTIQ –** Bir və iki əlin bir neçə barmağını zərblə bir-birinə vurub çırt səsi çıxarma; çırtmıq.

Çırpılmaq-çırpınmaq

**ÇIRPILMAQ –** Bir şeylə vurularaq tozu çıxarılmaq.

**ÇIRPINMAQ –** Bərk döyünmək, oynamaq, titrəmək, vurmaq.

Çiban-çibin-çoban

**ÇİBAN –** Dərinin tük kisəciyinin və piy vəzisinin irinli iltihabı.

**ÇİBİN –** Milçək.

**ÇOBAN –** Qoyun-keçi sürüsünü otaran adam.

Çilə-çillə-şilə

**ÇİLƏ –** Kotanın bıçaq, qoşqu qarmağı və s. bərkidilən uzun tirdən ibarət hissəsi.

**ÇİLLƏ –** Doğuşdan, toydan və ya ölümdən keçən müddət.

**ŞİLƏ–** Yemək növü, qırmızı saya parça.

Çiləgən-çiləkən

**ÇİLƏGƏN –** Suvağı saxlamaq üçün onun altına vurulan nazik, ensiz taxta.

**ÇİLƏKƏN –** Maye çiləmək üçün cihaz.

Çilik-çiling

**ÇİLİK –** Parça-parça, tikə-tikə.

**ÇİLİNG –** Çilingağac oyununda pəli vurmaq üçün ağac parçası.

Çim-çin

**ÇİM –** Xalis, qatışığı olmayan və ya çox az olan.

**ÇİN** – Taxıl, ot və s. biçmək üçün qısadəstəli, dişli, yarımdairəvi kənd təsərrüfatı aləti; dişli oraq.

Çisək-çiçək-çitək

**ÇİSƏK –** Tutqun havada narın yağış.

**ÇİÇƏK –** Çılpaqtoxumlu və örtülü toxumlu bitkilərin ləçək tacından və erkəkciklə dişicikdən ibarət çoxalma orqanı.

**ÇİTƏK –** Yamaq.

Çolaq-çoluq

**ÇOLAQ –** Bir qıçı qısa və ya şikəst olan; axsaq, topal.

**ÇOLUQ –** Çoluq-cocuq, övladlar, uşaqlar.

Çopur-çotur

**ÇOPUR –** Çiçək xəstəliyindən üzdə qalan kələ-kötür, nahamvarlıq, dəlmə-deşik.

**ÇOTUR –** Kələ-kötür, nahamar.

Çəpik-çöpük-çöplük

**ÇƏPİK –** Alqış, əl çalmaq.

**ÇÖPÜK –** Yunun, kətanın arıtlanandan və daranandan sonra qalan hissəsi.

**ÇÖPLÜK –** Çoxlu çöp.

Çudu-kudu

**ÇUDU** – Lay-lay xəmirdən ətli və ya qozlu qoğal.

**KUDU** – Ağ və yaşıl rəngli qabaq.

Çuğul-çuxur

**ÇUĞUL –** Xəbərçi, şeytanlıq edən adam.

**ÇUXUR –** Yer səthindən aşağı çökmüş, oyulmuş yer; oyuq, çala.

Çul-çur

**ÇUL** – Üstündə oturmaq və ya soyuqdan qorunmaq üçün atın və bəzi heyvanların dalına salınan qıldan və ya yundan toxunan qalın örtük.

**ÇUR** – Özünə tay, bərabər; yoldaş, həmtay, bir yerdə oturub-duran yoldaşlardan hər biri.

**D**

Dağal-dağar-daxal

**DAĞAL –** Cığal, davakar**.**

**DAĞAR –** Qaramal dərisindən hazırlanan torba.

**DAXAL (daxma) –** Qarğıdan, qamışdan düzəldilmiş daxma.

Dağdağa-dağdağan-dığdığa

**DAĞDAĞA** – 1. Bihudə təlaş və qorxu, həyəcan, gurultu-patıltı, dərd, başağrısı, ağrı, əndişə; 2. Kiçik taxta parçasından qayrılan və fırladarkən uğultulu səs çıxardan uşaq oyuncağı.

**DAĞDAĞAN** – Bərk oduncağı olan, meşələrdə bitən kol və ya ağac.

**DIĞDIĞA** – Çox deyingənli.

Daxıl-daxil-dəxil-dəxli

**DAXIL –** Mağaza, dükan və s. də pulların yığıldığı yeşik, sandıqça; kassa.

**DAXİL –** İçəri, iç tərəf, bir şeyin içərisi.

**DƏXİL** – Sığınan, himayə axtaran, kömək istəyən.

**DƏXLİ** (olmaq) **–** Əlaqə, münasibət, aidiyyət.

Dam-dan

**DAM** –1. Ev, bina, tikili; 2. Heyvanları saxlamaq üçün qapalı yer.

**DAN** – Günün doğmasına azca qalmış havanın işıqlanması, sabah açılarkən günəşin üfüqdə ilk ağarması.

Dama-dana

**DAMA** – Şahmat taxtası üzərində qara və ağ daşlarla oynanılan oyun.

**DANA** –1. Alim, bilici; 2. Bir yaşdan iki yaşa qədər olan inək balası.

Damad-dəmət

**DAMAD –** Qızın əri, kürəkən, giyov.

**DƏMƏT –** Çiçək dəstəsi, güldəstə.

Damaq-dimağ

**DAMAQ –** 1. Ağız boşluğunun üst tərəfi; 2. Kef, əhval, həvəs.

**DİMAĞ –** Beyin.

Dammaq-danmaq

**DAMMAQ –** Damcı-damcı axmaq, düşmək, tökülmək**.**

**DANMAQ –** İnkar etmək, boynuna almamaq, boynundan atmaq.

Danqıl-danqır-dınqır

**DANQIL –** Danqıltı çıxartmaq.

**DANQIR –** Çox çılpaq, daz, keçəl.

**DINQIR** – 1. Qavala oxşayan çalğı aləti; 2. Kiçik qutu.

Dansaq-dansıq

**DANSAQ** – Danlaq, töhmət, məzəmmət, tənə.

**DANSIQ** – Abır-həya.

Dar-dor

**DAR –** Ensiz.

**DOR –** Müxtəlif məqsədlər üçün gəmilərin ortasında dikəldilən uzun dirək.

Daraq-duraq

**DARAQ –** Saç darayıb düzəltmək üçün dişli alət.

**DURAQ** – Duracaq, dayanacaq yer.

Daramaq-darımaq-darılmaq

**DARAMAQ** –Daraqla tükləri bir-birindən ayırıb nizama salmaq.

**DARIMAQ** – 1. Yırtmaq, dağıtmaq, cırmaqlamaq; 2. Arxasınca danışmaq, paxıllıq etmək.

**DARILMAQ** – Acığı tutmaq, hirslənmək, hiddətlənmək, hövsələdən çıxmaq.

Darğan-dargın

**DARĞAN** – Qışın son on günü.

**DARĞIN** – 1. İncik, dərdli, küskün, pərişan, pərt; 2. Hiddətli, qəzəbli.

Daşmaq-daşımaq-daşınmaq

**DAŞMAQ –** Kənarlarından çıxaraq ətrafı basmaq (su haqqında).

**DAŞIMAQ –** Bir yerdən başqa bir yerə aparmaq, nəql etmək.

**DAŞINMAQ** – Məqsədindən, fikrindən və ya etmək istədiyi bir işdən və s.-dən vaz keçmək, əl çəkmək.

Davar-divar-diyar

**DAVAR** – Qoyun-keçi, xırdabuynuzlu mal-qara.

**DİVAR** – Binaların üstünü saxlamaq və daxilini bölmələrə ayırmaq üçün müxtəlif tikinti materiallarından çəkilən sədd.

**DİYAR** – Ölkə, məmləkət.

Davat-dəvət-dəmət

**DAVAT** – Mürəkkəb qabı.

**DƏVƏT** – Hörmətli bir yerə çağırma, çağırış.

**DƏMƏT** – Çiçək dəstəsi, güldəstə.

Dayılıq-daylaq

**DAYILIQ** – Ögey dayı.

**DAYLAQ** – Altı aylıqdan iki yaşa qədər olan at balası.

Debet-debit-debüt

**DEBET –** Mühasibat dəftərində: bir idarə və ya müəssisənin gəlirini, eləcə də xərc və borclarını göstərən hesab.

**DEBİT –** Bir zaman vahidi ərzində su, neft, qaz və s. mənbəyinin verdiyi suyun, neftin, qazın və s.-nin miqdarı.

**DEBÜT –** Artistin və ya idmançının ilk çıxışı.

Deduksiya-induksiya

**DEDUKSİYA –** Mühakimə prosesində ümumi müddəalardan xüsusi nəticəyə gəlmə: hər hansı bir ümumi fikirdən məntiqi yolla yeni müddəa çıxarma.

**İNDUKSİYA –** Ayrı-ayrı, xüsusi təsadüflərdən yaradılıb idarə edildiyini iddia edən dini-mistik ehkam.

Defekt-effekt

**DEFEKT –** Nöqsan, qüsur, eyib, zədə.

**EFFEKT –** Təsir, nəticə.

Defis-deviz

**DEFİS –** İki söz arasında və ya söz hecalarını sətirdən-sətrə keçirdikdə qoyulan kiçik xətt.

**DEVİZ –** Şüar, çağırış, işarəetmə.

Deizm-teizm

**DEİZM –** Allahı dünyanın yaradıcısı hesab edən, lakin onun cəmiyyət və təbiət həyatına müdaxiləsini inkar edən, XVII-XVIII əsrlərdə Avropada yayılmış dini-fəlsəfi cərəyan.

**TEİZM –** Dünyanın, əql və idraka malik bir şəxsiyyət kimi təsəvvür edilən allah tərəfindən yaradılıb idarə edildiyini iddia edən dini-mistik ehkam.

Deklamasiya-diklomasiya

**DEKLAMASİYA –** Şeir və nəsri həyəcanlı səs və hərəkətlə söyləmə; bədii oxu məharəti.

**DİKLOMASİYA** – Əmr etmək, hökm etmək, buyurmaq.

Deklarasiya-dekorasiya

**DEKLARASİYA** – Hökumət və ya partiyanın bildirişi, bəyanatı.

**DEKORASİYA –** Əhvalatın vaqe olduğu yerin və şəraitin teatr səhnəsində rəssamlıq, yaxud memarlıq cəhətdən təsviri: səhnə tərtibatı.

Dekorativ-dekorator

**DEKORATİV –** Bəzək üçün düzəldilmiş, bəzək üçün olan, bəzəməyə xidmət edən, zahirən effektli.

**DEKARATOR –** Dekorasiya rəssamı, bəzək mütəxəssisi.

Despot-disput

**DESPOT** – 1. Dövləti qanun əsasında deyil, öz istədiyi kimi idarə edən zülmkar; müstəbid hökmdar, hakimi-mütləq; 2. Başqalarını öz iradəsinə tabe edən, onların arzu və istəyini tapdayan adam.

**DİSPUT** – Elmi, ədəbi və s. mövzuya dair açıq mübahisə.

Dermantin-dermatit

**DERMANTİN –** Dəriyə oxşar parça, müşənbə.

**DERMATİT –** Tibbdə dəri iltihabı.

Devalvasiya-deviasiya

**DEVALVASİYA –** Qiymətdən düşmüş kağız pulların tədavüldən götürülərək sabit kağız pullarla əvəz edilməsindən ibarət pul islahatı.

**DEVİASİYA –** Normalardan kənara çıxma.

Deyilmək-deyinmək

**DEYİLMƏK –** Xəbər verilmək, bildirilmək, çatdırılmaq.

**DEYİNMƏK –** Söylənmək, donquldanmaq, şikayətlənmək.

Devr-deyr

**DEVR** – Dolanma, hərlənmə, fırlanma, bir şeyin öz oxu ətrafında hərlənməsi.

**DEYR –** Monastr, kilsə.

Dəbir-dərban-dərbar

**DƏBİR** – 1. Kargüzar; 2. Xəttat, kalliqraf; 3. Müəllim; 4. Mühasib.

**DƏRBAN** – Qapıçı.

**DƏRBAR** – Padşah sarayı.

Dəccal-dəcəl

**DƏCCAL –** Dini etiqadlara görə, guya qiyamətdə zühur edərək adamları azdırıb dindən uzaqlaşdıracaq əfsanəvi şəxsiyyət.

**DƏCƏL –** Dinc oturmayan, rahat durmayan, nadinc.

Dəfinə-dəfnə

**DƏFİNƏ –** Xəzinə.

**DƏFNƏ (bot.) –** Yarpaqları yeyinti və konserv sənayesində istifadə olunan həmişəyaşıl ağac və ya kol.

Dəhnə-dəhrə-dəhri

**DƏHNƏ –** Yüyənin və ya cilovun atın ağzına salınan dəmir hissəsi, cövzə.

**DƏHRƏ –** Ağac budamaq, yaxud çox qalın olmayan ağacları kəsmək üçün burnuəyri kəsici alət.

**DƏHRİ –** Axirətə inanmayan və hər şeyin bu dünyada olduğunu iddia edən adam.

Dəkkə-dəqiqə

**DƏKKƏ** – İri heyvanların aşığı; maça.

**DƏQİQƏ** – Bir saatın altmışda birinə bərabər və ya 60 saniyədən ibarət olan vaxt ölçüsü.

Dələ-dəli

**DƏLƏ** –Yırtıcılar dəstəsindən xəzdərili kiçik heyvan

**DƏLİ** – Ağlı və şüuru yerində olmayan, dəli divanə.

Dəlicə-dəlici

**DƏLİCƏ** – 1. Dəli kimi, dəlisoy; 2. Çox bərk, hədsiz, son dərəcə, dəlicəsinə; 3. Qoyun beynində əmələ gələn qurd.

**DƏLİCİ** – Dələn (deşən) alət, deşici alət.

Dəlil-dəllal

**DƏLİL** – Hər hansı bir şeyi sübut etmək üçün əsas, sübut

**DƏLLAL** – Alverdə alanla satan arasında vasitəçilik edən şəxs.

Dəm-dən

**DƏM –** 1. Qısa vaxt, an, ləhzə; 2. Od üstündə aramla dəm alma**.**

**DƏN –** Dənli bitkilərin məhsulunun hər bir dənəsi, ayrı-ayrı toxumu, tumu.

Dəmək-dəmələk-dümbələk

**DƏMƏK –** Heyvanların torpaq altında qazıdıqları yuva**.**

**DƏMƏLƏK –** Yemliyəoxşar, südlü və çox acı bir bitki.

**DÜMBƏLƏK** – Dumbul.

Dəmin-dərin-dərun

**DƏMİN –** Bir az əvvəl, indicə, bayaq.

**DƏRİN** – 1. Səthindən, yaxud ağzından dibinə qədər məsafə olan, böyük dərinliyi olan; 2. Çox uzaqlara gedən, çox uzaqlarda olan, gözlə görünə bilən, hüdudu olmayan.

**DƏRUN** – 1. İç, daxil; 2. Qəlb, ürək.

Dəmir-təmir

**DƏMİR –** Təbiətdə çox yayılmış, karbonla birləşdikdə polad və çuqun əmələ gətirən boz rəngli ağır kimyəvi element.

**TƏMİR** – Bir şeyin xarab olmuş, sınmış, dağılmış, sökülmüş yerini düzəltmə, qaydaya salma.

Dərbəst-dərdəst

**DƏRBƏST –** Qapısı bağlı.

**DƏRDƏST –** Tutmaq, ələ keçmək, yazalamaq, həbs etmək.

Dərhal-dərkal-dərkar

**DƏRHAL –** O saat, tez, əlüstü, fövrən, gecikmədən.

**DƏRKAL –** Çətin keçilə bilən yer, dar keçid.

**DƏRKAR –** İşlətmək, istifadə etmək, faydalanmaq.

Dəri-dəro

**DƏRİ** – 1. İnsan və heyvanın üstünü örtən mikroskopik məsaməli ət örtüyü; 2. Heyvanın tüklə örtülü dərisi; 3. Gön; 4. Dəridən qayrılmış, düzəldilmiş, dəridən tikilmiş.

**DƏRO** – Ləkdən ləkə keçən su yolu.

Dərs-dərz-dərzi

**DƏRS –** Müəyyən bir fənni öyrənmək üçün daimi, müntəzəm təlim**.**

**DƏRZ –** Biçilmiş taxıl bağlaması.

**DƏRZİ –** Paltar biçib-tikən usta.

Dərzilik-dərzlik-dərslik

**DƏRZİLİK** – Dərzinin peşəsi, sənəti, işi.

**DƏRZLİK** – Dərz bağlamağa yarayan, dərz bağlamaq üçün hazırlanmış.

**DƏRSLİK** – Hər hansı bir fənnə dair dərs kitabı.

Dəsgah-dəzgah

**DƏSGAH –** Cah-cəlal, həşəmət, dəbdəbə, təntənə, büsat, böyük şənlik.

**DƏZGAH** – 1.Ağac, metal və başqa materialları emal edən və müxtəlif şeylər hazırlayan maşın; 2. Üzərində ustaların iş gördükləri böyük masa; 3. Xalça, palaz və s. toxumaq üçün qurğu.

Dəsgirə-təzkirə

**DƏSGİRƏ** – Qarğı və ya incə çubuqdan hörülmüş kiçik səbət.

**TƏZKİRƏ –** Görkəmli şəxsiyyətlərin, xüsusilə şair, rəssam və b-nın həyatı haqqında qeydlər və əsərlərindən nümunələr verilən əsər.

Dəst-dəşt

**DƏST –** Bir adamın geyimini təmin edəcək paltar kompleksi.

**DƏŞT –** Çöl, səhra, biyaban.

Dəstar-dəstur-düstur

**DƏSTAR** – Əmmamə, çalma.

**DƏSTUR –** 1. Təlimat, göstəriş; 2. Düstur; 3. Dəstur aşı: ər evinə köçəndən sonra qıza atası evindən göndərilən plov.

**DÜSTUR** – 1. Qanun, qayda, əsas, üsul; 2. Hər cür tərkiblərin, kəmiyyətlərin, ünsürlərin və s.-nin məcmusunun şərti ifadəsi; formul.

Dəşnə-təşnə

**DƏŞNƏ** – Kiçik xəncər, yaxud silah kimi işlədilən kiçik bıçaq.

**TƏŞNƏ** – Susamış, susuzluqdan yanan, susuz.

Dəyənək-döyənək

**DƏYƏNƏK** – Bir başı toppuz çomaq əl ağacı.

**DÖYƏNƏK** – Çox sürtülməkdən, toxunmaqdan, bir şeyə dəyməkdən, yaxud döyülməkdən dəridə əmələ gələn sərtlik, qalınlıq, qabar.

Dıbır-dibir

**DIBIR –** Erkək keçi; təkə.

**DİBİR –** Təsbehlərdə olan uzunsov muncuq dənəsi.

Dığır-dılğır-dilgir

**DIĞIR** – 1. Keçi aşığı; 2. Düyü xırdası.

**DILĞIR** – 1. Tükü tökülmüş, qotur; 2. Boş, avara, lüt, yaramaz.

**DİLGİR** – Ürəyisınıq, incik, dolxor, pərt.

Diamant-diamat

**DİAMANT –** 1. Almazın köhnəlmiş adı; 2. Tipoqraffik şrift.

**DİAMAT –** Dialektik materializm.

Dibçək-dibək-dilçək-dirsək

**DİBÇƏK –** İçinə torpaq tökülərək gül, kol və başqa bitkilər əkilən qab.

**DİBƏK –** Daş, ya ağacdan böyük həvəng.

**DİLÇƏK** – Ağız boşluğunda üst damağın dal tərəfində konusşəkilli çıxıntı.

**DİRSƏK** – Qol ilə bilək arasında olan büküyün bayır hissəsi.

Didar-dildar

**DİDAR** – 1. Görünüş, üz, sifət, zahiri sima; 2. Görüş görmə.

**DİLDAR** – Gözəl, sevgili, canan.

Dik-tik

**DİK –** Aşağıdan yuxarıya doğru şaquli vəziyyətdə duran.

**TİK –** Tik ağacı, tik ağacının kömürü, kətan parçası, ərazi seçmə komandası.

Diktant-diktat

**DİKTANT –** İmla.

**DİKTAT**– Zalım, diktator adam.

Diktator-diktor

**DİKTATOR –** Dövləti idarə etməkdə qeyri-məhdud hüquqa, ixtiyara malik şəxs.

**DİKTOR –** Radio və televiziya verilişlərini mikrofon qarşısında oxuyan işçi.

Dilov-tilov

**DİLOV** – Divar şkafı, taxça, caxmudan.

**TİLOV** – Balıq tutmaq üçün ucu iti çəngəl, qarmaq.

Dilsiz-dilsuz

**DİLSİZ** –Dili olmayan, lal.

**DİLSUZ –** Ürəkyandıran, çox təsirli.

Dingə-dingi

**DİNGƏ** – 1. Hündür yer; 2. Qadın baş geyimi.

**DİNGİ** – Şitil, qələm.

Diplomant-diplomat

**DİPLOMANT –** Diplom işi yazan tələbə.

**DİPLOMAT –** Xarici dövlətlərlə əlaqə saxlamaq və yaxud müzakirələr aparmaq üçün bir dövlət tərəfindən vəkil edilmiş vəzifəli şəxs.

Dirilik-dirrik

**DİRİLİK** – 1. Diri, canlı cismin halı, diri halda olma; sağlıq; 2. Həyat, yaşayış, güzəran.

**DİRRİK** – 1. Səbzəvat, göyərti və s. əkilən yer, bostan; 2. Ev müxəlləfatı, ev şeyləri.

Diskant-diskont

**DİSKANT –** Zil uşaq səsi.

**DİSKONT –** Satıcı tərəfindən alıcıya təqdim olunan ərzaq və ya xidmət haqqının ucuzlaşdırılması.

Disket-diskret

**DİSKET –** Kompüterdə yazı diski.

**DİSKRET –** Ətraf aləmi məntiqlə qəbul edən xüsusi tip insanlar.

Dişək-dişdək-dişlək

**DİŞƏK –** Bir şeyin üzərində, kənarında olan dişlər, oyuqlar, çıxıntılar.

**DİŞDƏK** – Həsir toxunmasında işlədilən dişli ağac alət.

**DİŞLƏK –** Dişlənmiş bir parça.

Dol-döl

**DOL –** Keçmişdə quyudan su, neft çəkmək üçün mal dərisindən, yaxud brezentdən və s.-dən tikilən tuluq.

**DÖL** – Rüşeym, maya, cins, nəsil.

Dolab-dolaq

**DOLAB** – Evin divarında düzəldilən rəf, şkaf.

**DOLAQ –** Qılçaya sarınan, yundan və s.-dən toxunma sarğı, yaxud parça zolağı.

Dolamaq-dolanmaq

**DOLAMAQ – 1.** Sarımaq, sarıqlamaq; 2. Lağa qoymaq, ələ salmaq.

**DOLANMAQ –** Bir şeyin ətrafında fırlanmaq, hərlənmək, dövr eləmək, gəzmək, həyatını təmin etmək və s.

Dolça-donca

**DOLÇA –** Su içmək üçün qab.

**DONCA –** Kiçik paltar.

Dombra-domra

**DOMBRA** – Gövdəsi üçbucaq, yaxud yarımoval şəklində olan, ikisimli qazax xalq musiqi aləti.

**DOMRA** – Mandolinaya oxşar rus xalq musiqi aləti.

Don-dor

**DON –** Qadınların, yaxud kişilərin üstdən geydikləri uzunətəkli, belibüzməli, ya büzməli paltar.

**DOR –** Keçmişdə cinayətkarları asmaq üçün işlədilən ağac**.**

Donos-donuz

**DONOS** – Birisi haqqında hökumət idarələrinə və ya nümayəndələrinə gizli olaraq verilən məlumat, xəbər.

**DONUZ** – 1. Vəhşi və əhli növləri olan irigövdəli, qısaayaqlı, qoşadırnaqlı, məməli ətlik heyvan; 2. Çox pinti, çirkin, səliqəsiz adam haqqında.

Dost-dust-tost

**DOST –** Birisi ilə dostluq münasibəti olan adam, yaxın yoldaş, arxadaş.

**DUST –** Toz halında dezinfeksiya maddəsi.

**TOST** – Süfrə başında birinin ünvanına deyilən xoş arzu, xoş sözlər; bir adamın sağlığına şərab və s. içmək təklifi; sağlıq.

Dovla-tövlə

**DOVLA –** Kəklik və turacı aldadıb ovlamaq üçün ovçuların istifadə etdikləri şux rəngli parçadan bürüncək; tələ.

**TÖVLƏ –** At, inək və s. heyvanların saxlandığı bina.

Döngə-döngəl

**DÖNGƏ** – Küçənin, yolun, arxın və s.-nin dönən, burulan yeri.

**DÖNGƏL** – Cır əzgil.

Döşək-döşənək

**DÖŞƏK –** Davamlı parçadan hazırlanmış və üzərində yatmaq üçün yun, pambıq və s. yumşaq şeylə doldurulmuş uzun yastı kisə.

**DÖŞƏNƏK –** Yerə, alta salına biləcək hər şey.

Döycə-döyəc-döyməc

**DÖYCƏ –** Peyvənd, qələm.

**DÖYƏC –** Keçmişdə: kələğayı və ya bezi üzüsığallı daş üstündə ağac çəkiclə döyəcləyib şax və sığallı hala salma işi.

**DÖYMƏC –** Yaş meyvənin döyülməsi ilə hazırlanan yemək.

Drap-trap

**DRAP –** Üst paltarı üçün qalın yun parça növü.

**TRAP–** Gəmidə pilləkən, sanitar texniki ləvazimat.

Drezina-drujina

**DREZİNA** – Rels üzərində motor və əllə hərəkətə gətirilən kiçik dəmiryol arabası, vaqonu.

**DRUJİNA** – Qədim Rusiyada: knyazların yaxın xidmətçiləri və qoşunu.

Dublet-dublikat

**DUBLET –** Hər hansı bir şeyin ikinci nüsxəsi; iki eyni şeydən biri.

**DUBLİKAT –** Əsil sənədi əvəz edən ikinci nüsxəsi, surəti.

Duel-duet

**DUEL –** Qabaqcadan müəyyən edilmiş şərtlərlə iki nəfərin bir-biri ilə vuruşması və ya atışması.

**DUET –** Hər biri müstəqil olmaq üzrə ikilikdə oxunan və ya çalınan musiqi əsəri.

Duz-düz-diz

**DUZ** – 1. Xörəyi dada gətirmək üçün ona qatılan kəskin dadlı, şor ağ kristal maddə; 2. Turşu hidrogeninin bütünlüklə, ya qismən metalla əvəzlənməsi məhsulundan ibarət olan kimyəvi birləşmə, maddə.

**DÜZ** – 1. Enişi, yoxuşu, çuxuru, təpəsi olmayan, hamar; 2. Düzən, çöl, düzəngah, düzənlik.

**DİZ** – Qıçın diz oynağı olan hissəsi, bükülən yeri.

Dübənd-dübərd

**DÜBƏND** – Ayaqqabı növü.

**DÜBƏRD** – Divan tutmaq

Dügah-dümgah

**DÜGAH** – Musiqi muğamlarından birinin adı.

**DÜMGAH** – Quşqunun atın quyruğu altından keçən hissəsi.

Dümük-dümsük

**DÜMÜK**–Məşğələ, məşğuliyyət.

**DÜMSÜK**–Dirsək, yumruq, yaxud burunla, ya da başqa bir şeyin ucu ilə vurma, itələmə, dürtmələmə.

Dürcək-dürək-

**DÜRCƏK –** Dəri. ya qumaş üzərində çıxıntılar, qabarıqlar, habelə onlardan hər biri.

**DÜRƏK –** Müxtəlif cinslərdən əmələ gəlmiş, mələz, qarışıq**.**

Dürgə-dürəng

**DÜRGƏ –** Dəstə, yığın, toplu; yığılıb bağlanmış şey.

**DÜRƏNG –** İki cür rəngi olan, ikirəngli.

Dürmək-dürtmək

**DÜRMƏK** – 1. Bükülmüş, dürmələnmiş şey, bağlama; 2. İçinə yağ, pendir və s. bükülüb lülə şəklində dürmələnmiş lavaş.

**DÜRTMƏK** – Zorla soxmaq.

Düşəlgə-düşərgə

**DÜŞƏLGƏ –** Düşüləcək yer**.**

**DÜŞƏRGƏ** – Müvəqqəti yaşayış, yurd yeri, mənzil.

**E**

Edadi-ədədi

**EDADİ –** Edadi məktəb – 1917-ci il aprel inqilabından sonra ibtidai və rüşdiyyə məktəblərindən sonra gələn və şagirdləri ali məktəbə hazırlayan məktəbin köhnə adı.

**ƏDƏDİ** – Ədədlərlə ifadə olunan.

Ehtimam-ehtiram-ehtişam

**EHTİMAM** – Səylə çalışma, səy göstərmə.

**EHTİRAM** – Dərin hörmət, sayğı.

**EHTİŞAM** – Gözqamaşdırıcı təmtəraq, dəbdəbə, cəlal, əzəmət.

Ehtiras-ehtizaz-etiraz

**EHTİRAS –** Coşqunluq, vəcd, həyəcan; həvəs, şövq, şəhvət, hərislik.

**EHTİZAZ –** Ehtirasa gəlmə**.**

**ETİRAZ –** Bir fikir və ya qərarın əleyhinə çıxma, qəti narazılıq bildirmə.

Ekker-ekler

**EKKER** – Yerdə müəyyən dərəcəli bucaqlar qurmaq üçün geodeziya aləti; künyə.

**EKLER** – Yumşaq xəmirdən hazırlanan şirniyyat olub, üstü şokoladla bəzənir.

Ekskavator-eskalator

**EKSKAVATOR –** Yer qazıyan və torpağı götürüb başqa yerə tökən maşın.

**ESKALATOR –** Hərəkət edən pilləkən.

Ekskurs-ekskursiya

**EKSKURS –**Köməkçi məsələni aydınlaşdırmaq üçün əsas mövzudan haşiyəçıxma.

**EKSKURSİYA –** Elmi və ya əyləncə məqsədi ilə təşkil edilən səyahət.

Eksponat-eksponent

**EKSPONAT –** Muzey və sərgilərə qoyulan əşyalar**.**

**EKSPONENT –** Hər hansı əşyanı sərgiyə qoyan şəxs; müəssisə, idarə.

Ekspromt-eksternat

**EKSPROMT** – Hazırlaşmadan, sinədən söylənilən nitq, şeir və tərif edilən və ya çalışan musiqi əsəri və s.

**EKSTERNAT** – Məktəb proqramı kursunu ekstern üsulu ilə keçmə sistemi.

Ekstrakt-ekstrat

**EKSTRAKT –** Bitki və ya heyvan mənşəli maddədən konsentrə olunmuş maddə.

**EKSTRAT –** Maye halında dərman.

Elektrik-eklektik

**ELEKTRİK** – 1. Materiyanın, yüklü hissəciklərdən: elektronlardan, pozitronlardan, protonlardan və s.-dən ibarət forması; 2. Xalq təsərrüfatının bütün sahələrində və məişətdə işlədilən enerji növlərindən biri; 3. Elektrotexnika sənayesində işləyən, elektriki tədqiq edən şəxs.

**EKLEKTİK**– Ekletizmdən ibarət olan, ekletizmin mahiyyətində olan.

Elam-elan

**ELAM** – Bildirmə, anlatma, xəbərdarlıq etmə.

**ELAN** –Yazılı, çap olunmuş bildiriş, xəbər, məlumat.

Elat-elit

**ELAT** – Bir yurdda, bir yerdə yaşayan camaat, xalq, el.

**ELİT** – 1. Bitki və heyvanların ən yaxşı, ən seçmə nüsxələri; 2. Cəmiyyətin yüksək təbəqəsi.

Elektrofon-elektrofor

**ELEKTROFON –** Qramplastinkaların səsinin yazılması üçün aparat olub, öz tərkibində elektron ifadə edən ləvazimat saxlayır, akustik sistemi əhatə edən və siqnalın tam gücünü  əhatə edən cihazdır.

**ELEKTROFOR –** Elektrik alınması üçün cihaz.

Elektronoqram-elektroorqan

**ELEKTRONOQRAM –** Difraksion təsvirin fotoqrafik şəkli, obyektin elektronlarının səpilməsi ilə yaranır.

**ELEKTROORQAN –** Elektron klavişli və musiqili alət.

Emiqrant-immiqrant

**EMİQRANT –** Bu və ya digər ölkəyə müəyyən səbəblə əlaqədar köçüb gedən adam; mühacir.

**İMMİQRANT –** Daimi yaşamaq üçün başqa ölkəyə köçüb gedən adam.

Emissiya-emosiya-emulsiya

**EMİSSİYA** – Qiymətli kağızlar və kağız pullar buraxılması.

**EMOSİYA** – Həyəcan, təəssürat.

**EMULSİYA** – 1. Bir mayenin başqa maye içərisində əriməyib qalan mikroskopik zərrələri; 2. Foto kağızı, ya lövhəcikləri üzərinə çəkilən fotokimyəvi maddələrə həssas jelatin məhlulu.

Entomologiya-etimologiya

**ENTOMOLOGİYA** – Zoologiyanın həşəratlar (böcəklər) bəhsi.

**ETİMOLOGİYA** – 1. Dilçiliyin, sözlərin qohumluq əlaqələri və mənşəyindən bəhs edən şöbəsi; 2. Sözün mənşəyi və onun eyni dildə, yaxud başqa dillərdəki sözlərlə qohumluq münasibəti.

Eretizm-erotizm

**ERETİZM –** Əsəbilik.

**EROTİZM –** Şəhvətpərəstlik, şəhvət düşkünlüyü.

Eskimo-eskimos

**ESKİMO** – Üstü şokoladlı dondurma.

**ESKİMOS** – Şimali Amerikanın qütb sahilində, Qrenlandiyada və Asiyanın şimal-şərq qurtaracağında yaşayan xalq və bu xalqa mənsub adam.

Etalon-etanol

**ETALON –** Ölçü vahidinin vəsaiti.

**ETANOL –** Etil spirti

Etan-metan

**ETAN –** İşıq və neft qazlarından olan rəngsiz, yanar qaz.

**METAN –** Bataqlıq qazı, karbon və hidrogen birləşməsi.

Etiqad-etimad

**ETİQAD –** İnam, əqidə, qənaət.

**ETİMAD** –Etibar.

Etiraf-ehtiram

**ETİRAF** – İqraretmə, qəbuletmə, təsdiqetmə, boynuna alma.

**EHTİRAM –** Dərin hörmət, sayğı.

Evakuasiya-evakuator-eyakulasiya

**EVAKUASİYA –** Əhalinin fövqəladə həyat şəraitində qorunması, yerləşdirilməsi.

**EYAKULASİYA (tibb.) –** Tez boşalma**.**

Even-evenk

**EVEN –** Yakutiyada, Oxot dənizi sahillərində və Kamçatkada yaşayan xalq.

**EVENK –** Şərqi Sibirdə yaşayan xalq; tunqusların keçmiş adı.

Eymən-eynən

**EYMƏN**– Arxayın, qorxusuz, təhlükəsiz, salamat.

**EYNƏN**– Bir biri ilə tam oxşar, bir cür, tam bənzər, oxşarı, tayı, bərabəri tamamilə özü.

## Ə

Əbcəd-əcdad-əzdad

**ƏBCƏD –** Qədim ərəb əlifbasında ilk dörd hərf.

**ƏCDAD –** Ata-babalar, ulu babalar.

**ƏZDAD** – 1. Zidd sözünün cəmi; 2. Rəqiblər.

Əbəda-əbədi

**ƏBƏDA** – Heç vaxt, heç bir zaman, əsla, qətiyyən.

**ƏBƏDİ** – Daimi, həmişəlik.

Əbədi-ədəbi

**ƏBƏDİ –** Daimi, həmişəlik, ölməz, sonsuz.

**ƏDƏBİ –** Ədəbiyyata aid olan.

Əbədiyyət-ədəbiyyat

**ƏBƏDİYYƏT** – Əbədilik, daimilik, həmişə var olan şey.

**ƏDƏBİYYAT** – Hər hansı bir xalqın, dövrün və ya bütün bəşəriyyətin yaratdığı

elmi, bədii, fəlsəfi və s. əsərlərin məcmusu.

Əbir-əbr

**ƏBİR** – Xoş qoxu, ətir.

**ƏBR** – Bulud.

Əbləh-əbləq

**ƏBLƏH** – 1. Axmaq, səfeh, gic, sarsaq, başıboş; 2. Söyüş kimi işlədilir.

**ƏBLƏQ** – Ala, ala-bula, alabəzək, alaca.

Əcəb-əcib

**ƏCƏB –** 1**.**Təəccüblü, qəribə; 2. Çox yaxşı, gözəl, əla.

**ƏCİB –** Çox qəribə, çox təəccüblü, qeyri-adi, görünməmiş.

Əcəl-əcələ

**ƏCƏL** – Hər bir canlının, xüsusən insanın qabaqcadan qədərlənmiş ölüm vaxtı.

**ƏCƏLƏ –** Tələsmə, bir işi tez-tələsik görməyə çalışma, səbirsizlik göstərmə.

Əcər-əcr

**ƏCƏR**–Təzəlik, işlənməmiş olma.

**ƏCR** – Bir iş müqabilində verilən əvəz, qarşılıq.

Əcuzə-əcza

**ƏCUZƏ** – Pisxasiyyətli və bədləkər arvad.

**ƏCZA** – Bir şeyin tərkibini təşkil edən xırda hissəciklər, cüzlər.

Əda-ədə

**ƏDA –** Tərz, tövr, üslub, naz, qəmzə, işvə, şıltaq.

**ƏDƏ –** Kişilərə müraciət formalarından biri.

Ədalət-ədavət-ətalət

**ƏDALƏT** – 1. Haqq və düzgünlük prinsiplərinə riayət; 2. İnsaf, mürüvvət.

**ƏDAVƏT** – Ürəkdə saxlanılan düşmənçilik hissi, kin, küdurət, qərəz, birinə qarşı qəzəb hissi.

**ƏTALƏT –** Hərəkətsizlik.

Ədat-ədəd

**ƏDAT –** Müstəqil mənası olmayan, lakin cümlədə müxtəlif məna çalarları əmələ gətirən söz, hissəcik.

**ƏDƏD –** Say, hesab**.**

Ədəb-ədib

**ƏDƏB –** Əxlaq qaydalarına riayət; əxlaq və hərəkətdə, danışıqda nəzakət; incəlik, tərbiyə.

**ƏDİB** –Yazıçı, naşir.

Ədyal-ədyan

**ƏDYAL** – Yataq ləvazimatı, yüngül yorğan.

**ƏDYAN** – Dinlər.

Əfə-əfi

**ƏFƏ –** Qoçaq, igid.

**ƏFİ –** Başı üçbucaq şəkilli, rəngi sarı iri zəhərli ilan.

Əfkar-əflak

**ƏFKAR** – Fikir.

**ƏFLAK** – Fələk, göy.

Əfsun-əfzun-əfyun

**ƏFSUN –** Ovsun, sehir.

**ƏFZUN –** Çox, daha artıq.

**ƏFYUN** – Tiryək.

Əfzəl-əzəl-əzl

**ƏFZƏL** – Daha artıq, daha qiymətli, daha üstün tutulan.

**ƏZƏL** – Əvvəli, ibtidası olmayan keçmiş zaman.

**ƏZL** – İşdən çıxarma, vəzifədən kənar etmə.

Əğləb-əqrəb

**ƏĞLƏB** – Çox, ən çox, əksəriyyət.

**ƏQRƏB** – 1. Quyruğunun ucunda zəhərli iynəsi olan onurğasız həşərat; 2. Saat, kompas və s.-də öz oxu ətrafında fırlanıb müəyyən işarəni göstərən mil; 3. Bürclərdən birinin adı.

Əhd-əhəd

**ƏHD** – Öhdəsinə alma, söz vermə, üzərinə götürmə, and.

**ƏHƏD** – Əhədi kəsilmək; bərk yorulmaq, əldən düşmək, gücdən düşmək, taqətdən

düşmək, üzülmək.

Əhmər-əxtər

**ƏHMƏR** – Qırmızı.

**ƏXTƏR** – Bəxt, tale, bəxt ulduzu.

Əhsən-ehsan

**ƏHSƏN –** Bəyənmə, tərif.

**EHSAN –** Ölmüş adamın adına, xatirəsinə verilən yemək, xeyrat.

Əknaf-əsnaf

**ƏKNAF –** Ətraf, tərəf, cəhət, ətrafdakı yerlər.

**ƏSNAF –** Sənətkarlar, peşəkarlar**.**

Əqsa-əqsam-əqvam

**ƏQSA** – Uzaqda olan, çox uzaq.

**ƏQSAM** –Növlər, cinslər.

**ƏQVAM** – Tayfalar, qövmlər.

Əlhal-əlhan

**ƏLHAL** – İndi, bu halda, bu anda.

**ƏLHAN** – Gözəl səslər, gözəl nəğmələr, təranə.

Əlik-ənik-ərik

**ƏLİK** –Vəhşi keçi, keyik.

**ƏNİK** –Yırtıcı, sərt heyvan balası.

**ƏRİK** – Sarı, ətli, şirin birçəyirdəkli meyvə və bu meyvənin ağacı.

Əməçi-əməkçi

**ƏMƏÇİ** – Loğman, həkim.

**ƏMƏKÇİ** – Öz əlinin zəhməti ilə dolanan, öz əməyi ilə yaşayan, zəhmətkeş.

Əməli-əməlli

**ƏMƏLİ –** İcrası lazım olan, həyata keçirilməsi lazım olan; işgüzar, praktik.

**ƏMƏLLİ** –Yaxşı, layiqli, ləyaqətli.

Əmin-ənin-amin

**ƏMİN** – Qorxusuz, xətərsiz, etibarlı, dinc, sakit.

**ƏNİN** – İnləmə, inilti, zarıltı.

**AMİN** – Qəbul olsun, arzun yerinə yetsin, olsun.

Əmr-əmir-imir

**ƏMR** – Bir işin görülməsi üçün verilən hökm, göstəriş.

**ƏMİR** – Bir tayfanın və ya ölkənin başçısı.

**İMİR** – Şah arı.

Ənbər-ənbir-ənvər

**ƏNBƏR** – 1. Kaşalota oxşar bir balığın mədəsindən çıxarılan gözəl qoxulu maddə; 2. Xoş qoxu, ətir.

**ƏNBİR** – Dəmirçi tutğacı, maşası.

**ƏNVƏR** – Çox nurlu, çox işıqlı.

Əncir-incil

**ƏNCİR** – İçində xaş-xaş kimi xırda tumları olan, ətli, şirin, yumşaq qabıqlı, yumru meyvə.

**İNCİL** – Bibliyanın, İsanın həyat və təlimi haqqındakı əfsanələrdən bəhs edən və xristian dininin əsasını təşkil edən hissəsi.

Əndazə-əndərz

**ƏNDAZƏ** – 1. Kağızdan, krtondan kəsilmiş ülgü; 2. Ölçü, miqyas, ölçü vahidi; 3.Hədd, hüdud, norma.

**ƏNDƏRZ** – Nəsihət, vəsiyyət.

Ənək-ələk

**ƏNƏK** – 1.Yük atı, qoşqu atı, minik atı; 2. Heyvanın qulağına vurulan nişan.

**ƏLƏK** – Unun kəpək və qeyri zibillərini təmizləmək üçün sağanağa keçirilmiş sıx tordan ibarət alət.

Ənhar-ənzar

**ƏNHAR** – Çaylar.

**ƏNZAR** – Nəzərlər, baxışlar.

Ənik-ənlik

**ƏNİK** – Yırtıcı, sərt heyvan balası.

**ƏNLİK** – 1. Qadınların yanaqlarına sürtdükləri toz və yağ halında olan kosmetik maddə; al boya; 2. Kökü tünd-qırmızı bir bitki.

Əraq-ərəq-araq

**ƏRAQ** – Azərbaycan klassik muğamlarından birinin adı.

**ƏRƏQ** – Tər.

**ARAQ** – Meyvələrdən və s.-dən çıxarılan spirtli içki.

Ərən-ərgən-əringən

**ƏRƏN** – 1. Ər, qoçaq, igid; 2. Dünyagörmüş, müdrik, ağıllı adam.

**ƏRGƏN** – Həddi-büluğa çatmış, lakin hələ evlənməmiş və ya ərə getməmiş.

**ƏRİNGƏN** –Tənbəl, kahal, başısoyuq, canını işə verməyən.

Ərkəvan-ərqəvan-ərməğan

**ƏRKƏVAN** – Paxlaya oxşar meyvəsi, parlaq çəhrayı çiçəkləri olan, qışda yarpağı tökülən ağac və ya kol.

**ƏRQƏVAN** – Qırmızı rəngli gözəl bir gül.

**ƏRMƏĞAN** – Hədiyyə, bəxşiş, pay, sovqat, töhfə.

Ərş-ərəş-əriş

**ƏRŞ** – Göy, asiman.

**ƏRƏŞ** **–** Dirsəkdən barmaqların ucuna qədər olan uzunluq ölçüsü**.**

**ƏRİŞ** – Toxuculuqda əriş və arğac.

Əsəl-əsən

**ƏSƏL** – Bal.

**ƏSƏN** – Sağ-salamat.

Əsər-əsr-əsir

**ƏSƏR** – 1. İz, nişanə, əlamət, bir şeyin varlığına dəlalət edən hal; 2. İnsan əməyi, insan yaradıcılığı; 3. Təsir.

**ƏSR** – Yüz illik dövr.

**ƏSİR** – Müharibədə ələ keçirilən düşmən əsgəri, zabit.

Əsgi-əski

**ƏSGİ** – Körpə uşaqları bələmək üçün parça.

**ƏSKİ** – Keçmiş, köhnə.

Əsl-əzl-əsil-əsli

**ƏSL** – Əsas, təməl, özül, həqiqi, təbii, mahiyyət, oriqinal.

**ƏZL** – İşdən çıxarma, işdən kənar etmə.

**ƏSİL** – Əsas, təməl, özül, bünövrə, əsilli-nəcabətli

**ƏSLİ** – İbtidai, ən əvvəlki, qədim, ilk, başlıca.

Əsla-əsna

**ƏSLA** – Heç, heç bir vaxt, qətiyyən.

**ƏSNA** – Vaxt, zaman, an.

Əspək-əspərək

**ƏSPƏK** – Aşırımlı dağ, keçidli dağ. İspik variantı Quba rayonunda kənd adı.

**ƏSPƏRƏK** – Bitki.

Əşar-əşər

**ƏŞAR** – Şeirlər.

**ƏŞƏR** – Keçmişdə müəyyən məqsədlər üçün gəlirin onda bir miqdarında verilən vergi.

Əşk-eşq

**ƏŞK** – Göz yaşı.

**EŞQ** – Sevgi, məhəbbət, sevda, böyük istək hissi, sonsuz bağlılıq.

Əşraf-əşrəf-əşrəfi

**ƏŞRAF** – Əyanlar, nüfuzlu adamlar, kübarlar.

**ƏŞRƏF** – Ən şərafətli, ən əziz, çox hörmətli.

**ƏŞRƏFİ** – Beş manatlıq qızıl pul (keçmişdə).

Ətcə-ətəc

**ƏTCƏ** – Çılpaq uşaq bədəni.

**ƏTƏC (alət)** – Yun təmizləyən alət.

Ətf-əvf

**ƏTF**– Əymə, çevirmə, meyl etdirmə, yönəlmə.

**ƏFV** – Günah və qürur nəzərə almama, günah və təqsirlərdən keçmə, günahı bağışlama.

Ətər-ətir

**ƏTƏR** – İz, əsər, əlamət, xəbər.

**ƏTİR** – Gözəl iy, rayihə.

Ətiq-əqiq-əntiq

**ƏTİQ** – Qədim, köhnə, əski.

**ƏQİQ** – Müxtəlif rənglərə çalan laylardan ibarət olan, qiymətli daş kimi müxtəlif bəzək şeylərinin hazırlanmasında və s.-də istifadə edilən bərk mineral.

**ƏNTİQ** – Qiymətli, dəyərli, nadir tapılan, çox gözəl, görünməmiş, hamının marağına səbəb olan.

Əttar-ətvar

**ƏTTAR** – Ətirli şeylər, ədəvat və s. satan adam.

**ƏTVAR** – Davranış, adamlarla münasibət.

Əyal-əyan

**ƏYAL** – Ailə, külfət.

**ƏYAN** – Gözlə görünən, açıq-aydın, aşkar.

Əyar-əyər-əyyar

**ƏYAR** – Qiymətli metalın saflıq və xalislik dərəcəsi.

**ƏYƏR –** Şərt bildirən söz.

**ƏYYAR** – Hiyləgər, kələkbaz, çoxbilmiş, fırıldaqçı, dolandırıcı.

Əzdad-əcdad

**ƏZDAD** – 1. Zidd sözünün cəmi; 2. Ziddlər, rəqiblər.

**ƏCDAD** – Ata-babalar, ulu babalar.

Əzəl-əzəm

**ƏZƏL –** Birinci, ilk, əvvəl.

**ƏZƏM** – Ən böyük, ulu, daha böyük, çox iri.

Əzgən-əzgil-əzgin

**ƏZGƏN –** Yem bitkisi.

**ƏZGİL** – Qoz iriliyində, ətli, çəyirdəkli, sarı rəngli, tpli pipikli bir meyvə və onun ağacı.

**ƏZGİN** – Əzinik, yorğun, halsız, taqətsiz.

Əzim-əzm

**ƏZİM** – Böyük, iri, yüksək, ali.

**ƏZM** – Qəti niyyət, qəti qərar, qəsd.

**F**

Fabrikant-fabrikat

**FABRİKANT** – Fabrik sahibi olan, fabrikçi

**FABRİKAT** – Tez hazırlanan yeməklər.

Fağır-faxir-fakir-fəqir

**FAĞIR** – Aciz, yazıq, məzlum, dinc, sakit.

**FAXİR** – Fəxr edən, öyünən, lovğalanan.

**FAKİR** – Fokus göstərən sehirbaz.

**FƏQİR** – Aciz, yazıq, məzlum, dinc, sakit.

Fakt-faks

**FAKT** – Həqiqətən olmuş hadisə, əhvalat, qəziyyə.

**FAKS –** Telefonla ötürülən və ya alınan xəbər.

Faqot-fəqət

**FAQOT** – Konusvarı kanalı və ikiqat qamış dilçəyi olan nəfəsli musiqi aləti.

**FƏQƏT** – Lakin, amma.

Falaqqa-falanqa

**FALAQQA** – Molla məktəblərində şagirdləri cəzalandırmaq üçün alət.

**FALANQA** – 1. Fransız utopik sosialisti Şarl Furyenin (1772-1837) layihəsində: ideal cəmiyyətin ilkin özəyi olan əmək icması, kollektiv təsərrüfat; 2. Franko İspaniyasında hakimiyyət başında olmuş faşist partiyasının adı.

Faner-fənər

**FANER** – Yaraşıq üçün taxta şeylərin üstünə yapışdırılan nazik taxta təbəqəsi.

**FƏNƏR** – Ətrafı və ya bir qismi şüşə, yaxud başqa şəffaf materialla örtülü işıq cihazı; fanus.

Faraş-farş-faş

**FARAŞ –** Vaxtından, mövsümündən qabaq, tez əkilən.

**FARŞ** – Döyülmüş ət, qiymə, iç.

**FAŞ** – Meydana çıxan, faş olan, üstü açılan, ifşa olunan, büruzə verilən.

Fasad-fəsad-fasid-fassit

**FASAD (memar.)** – Binanın çölə baxan əsas qabaq tərəfi, ön tərəf.

**FƏSAD –** Nifaq, qarışıqlıq, fitnə, intriqa.

**FASİD** – Pozğun, pozulmuş.

**FASSİT** – Daban ağrısı**.**

Fasilə-fəsilə-fəsil

**FASİLƏ** – İşin, fasilənin müvəqqəti dayandırılması, işin, fəaliyyətin müvəqqəti dayandığı, ara verildiyi vaxt.

**FƏSİLƏ** – Quruluşca oxşar, mənşəcə bir-birinə yaxın bir neçə heyvan və ya bitki cinsinin əmələ gətirdiyi qrup.

**FƏSİL** – İlin bölündüyü dörd mövsümdən hər biri.

Fason-fazon-fazor

**FASON** – 1. Ölçü, biçim, model; 2. Fors, əda, təşəxxüs, şıq.

**FAZON** – Elektron vasitəsilə yaranan kvazi hissənin tərkib hissəsi.

**FAZOR** – Üçfazalı gərginliyin vektorları ağırlıq mərkəzindən çıxır.

Federasiya-fiderasiya

**FEDERASİYA** – İttifaq, birləşmə.

**FİDERASİYA** – İttifaq.

Feldeger-feldyeger

**FELDEGER** – Bəzi ordularda hərbi polis üzvü, Rusiyada hərbi və ya dövlət kuryeri.

**FELDYEGER** – Hərbi polis.

Ferma-firma

**FERMA** – Heyvandarlığın müəyyən sahəsi ilə məşğul olan ixtisaslaşdırılmış ayrıca təsərrüfat.

**FİRMA** – Rəsmi hüquqa malik olub, markası ilə mal satılan və ya məmulat buraxılan ticarət və ya mal müəssisəsi.

Fəhm-vəhm

**FƏHM** – Anlama, anlaq, dərrakə.

**VƏHM** – Əsli-əsası olmayan fikir, xəyal. Yersiz qorxu, vahimə, şübhə.

Fənd-fənn

**FƏND** – Hiylə, kələk, fırıldaq, dolab, qurğu, biclik.

**FƏNN** – Elm, bilik sahəsi, tədris obyekti.

Fərari-ferrari

**FƏRARİ** – Hərbi xidmətdən boyun qaçırmaq məqsədilə hərbi hissədən özbaşına gedən, fərar edən əsgər.

**FERRARİ** – Avtomobil növü.

Fərasət-vərasət

**FƏRASƏT** – Dərhal anlama, başa düşmə, dərk etmə, qavrama bacarığı, zehin itiliyi, ayıqlıq.

**VƏRASƏT** – Bir adamın ölümündən sonra yaxın qohumluq və ya vəsiyyətə görə onun malına, mülkünə və s.-yə sahib olmaq hüququ.

Fərəx-fərəh-fərsəx

**FƏRƏX** – Təxminən 6 km-ə bərabər olan uzunluq vahidi.

**FƏRƏH** – Sevinc, şadlıq, könül açıqlığı.

**FƏRSƏX –** Ağac (uzunluq ölçüsü); təxminən 5-6 km-lik məsafə.

Fibrin-fibrion

**FİBRİN** – Fiziologiyada qanın laxtalanmış zülalı.

**FİBRİON** – İpək sapların əsas tərkib hissəsini təşkil edən zülal maddə.

Filan-final

**FİLAN** – Bir adamın, bir şeyin, yaxud bir yerin adını çəkmək istəmədikdə onun əvəzinə işlədilən söz.

**FİNAL** – 1. Sonuncu, axırıncı; 2. Musiqi, teatr və ədəbi əsərin sonu.

Fitnə-fitrə-fitri

**FİTNƏ** – Qarışıqlıq, ara pozma, ara qarışdırma; adamları, camaatı və s. bir-birilə vuruşdurmaq, aralarını pozmaq üçün gizlincə hazırlanan qəsd, xəyanət, fitnə-fəsad, provokasiya.

**FİTRƏ** – İslamiyyətdə ailə üzvlərinin sayına görə orucluq ayında yoxsullara,

yetimlərə verilməli olan sədəqə.

**FİTRİ** – Xilqətində, təbiətində, yaradılışında olan, təbii.

Fleş-flyaş

**FLEŞ** – Çay kolunun təzə yarpağı.

**FLYAŞ** – İnternetdə, kompüterdə yazılan materialları özündə saxlayan kiçik dəmir parçası.

Formant-format

**FORMANT** – Sözdüzəldici və sözdəyişdirici şəkilçilərin ümumi adı.

**FORMAT** – Kitabın, səhifənin kartoçkanın  və s.-nin ölçüsü, əndazə.

Fosfat-fosfid

**FOSFAT** – Gübrə kimi, habelə tibbdə, texnikada işlədilən fosfor turşusu duzu.

**FOSFİD** – Fosforun metallarla birləşməsi, habelə qeyri-metallarla birləşməsi, fosfora nisbətən daha elektromüsbət metallarla birləşməsi.

Fövc-fövq

**FÖVC** –  Camaat, kütlə, dəstə.

**FÖVQ** – Yuxarı, üst.

Frak-frank

**FRAK** – Qabaq ətəkləri kəsik, dal tərəfdən isə uzun dar ətəkləri olan kişi kostyumu – sürtuk növü.

**FRANK** – Fransada pul vahidi.

Fraksiya-friksiya

**FRAKSİYA** – Distillə edilən maye qarışığının ayrıldığı hissəsi.

**FRİKSİYA** – Cinsi əlaqə zamanı hərəkət aktı.

Fransız-franşiz

**FRANSIZ** – Fransanın əsas əhalisini təşkil edən xalq və bu xalqa mənsub ada.

**FRANŞİZ (iqt.)** – Françayzinqin müqavilə obyekti, biznesin inkişafı üçün müqavilə obyekti.

Frez-friz

**FREZ** –1. Metalı, ağacı və s. bərk materialları işləmək üçün fırlanan çoxtiyəli kəsici alət; 2. Torpaq qazımaq, eyni zamanda onu yumşaltmaq, torf doğramaq və s.

üçün irəli çıxmış fırlanan barabanda xüsusi tiyələri olan maşın.

**FRİZ** – Ornamentli bəzək.

Ftalazon-ftalazol

**FTALAZON** – Kimyəvi preparat olub, elmi-tədqiqat və müxtəlif tədqiqat işlərində tətbiq olunur.

**FTALAZOL** – Sulfanilamidlərə aid olub, göbələk əleyhinə vasitədir.

Fulyar-futlyar

**FULYAR (parça)** – Zərif ipək baş və cib yaylıqları.

**FUTLYAR (əşya qabı)** – Saxlamaq və ya xarab olmaqdan, zədələnməkdən və s.-dən qorunmaq üçün içinə şey qoyulan qutu və ya çexol, qutu.

Füsun-füzul-füzun

**FÜSUN** – Sehir, əfsun.

**FÜZUL** – Uzunçu, çox danışan, naqqal, artıq söz danışan adam.

**FÜZUN** – Artıq, çox.

## G

Gahı-kahı

**GAHI** – Cümlənin həmcins üzvlərini və tabesiz mürəkkəb cümlənin tərkib hissələrini bölüşdürmə əsasında birləşdirən gah bağlayıcısı.

**KAHI** – Yaşıl-ağımtıl yarpaqları və kökü çiy yeyilən kələmə oxşar birillik tərəvəz bitkisi.

Gap-gop

**GAP** – Söhbət, danışıq.

**GOP** – 1. Mübaliğəli danışıq; şişirdilmiş, uydurma söhbətlər; 2. Yalan, uydurma, mübaliğə, şişirdilmiş şey.

Genə-gənə

**GENƏ** – Yenə.

**GƏNƏ** – Xırda caynaqları ilə heyvanların, bəzən də insanların bədənlərinə yapışıb onların qanını soran buğumayaqlı parazit.

Genosid-geoid

**GENOSİD** – Milli və ya dini səbəblərə görə əhalinin ayrı-ayrı qruplarının məhv edilməsi.

**GEOİD** – Qabarıq sakit torpaq. Dənizlərdə və okeanlarda suyun üst hissəsinə uyğun gəlir və ağırlığını istənilən nöqtəyə perpendikulyar ötürür.

Geometr-geoterm

**GEOMETR** – Geometriya ilə məşğul olan adam.

**GEOTERM** – İstiliyin açaq potensiallı mənbəyindən, kollektordan istilik ötürücüsü buxar maşınına ötürülür.

Gerze-gürz-gürzə-kirza

**GERZE** – 1. Türkiyədə şəhər; 2. Qədim Misirdə qəbiristan.

**GÜRZ** – Müxtəlif işlərdə işlədilən çox ağır çəkic.

**GÜRZƏ** – Daşlıq, qayalıq, kolluq yerlərdə yaşayan boz rəngli, arxasında əyri parlaq zolaqlar olan zəhərli ilan.

**KİRZA** – Dəri və rezini əvəz edən maddə; dəri əvəzi.

Gəbə-gəvə

**GƏBƏ** – Böyük xalça, xalı.

**GƏVƏ** – 1. Gəvələmək, könülsüz, iştahsız çeynəmək; 2. Çoxdanışan, boşboğaz.

Gəbr-qəbir

**GƏBR** – Atəşə sitayiş edən.

**QƏBİR** – Ölüləri basdırmaq üçün xüsusi şəkildə qazılan çuxur, məzar, gor.

Gəc-kəc

**GƏC** – Gillə gipsin qarışığından hazırlanan al-sarımtıl rəngli maddə.

**KƏC** – 1. Əyri; 2. Tərs, höcət.

Gələsər-gülüzar

**GƏLƏSƏR** – Gəlirli, gəliri, verimi, barı çox olan.

**GÜLÜZAR** – Çoxlu gül olan yer, gülüstan, çiçəklik, güllük.

Gəlim-gəlin

**GƏLİM** – Artım, məhsul artımı, qazanc, gəlir.

**GƏLİN** – 1. Toyu keçirilən, ərə gedən qız; 2. Qaynataya, qaynanaya görə oğlun arvadı.

Gəmə-qəmə

**GƏMƏ** – Dərzin yarısı, yarımdərz.

**QƏMƏ** – Kiçik xəncər.

Gənəcik-gənəşik

**GƏNƏCİK** – 1.Kiçik gənə, balaca gənə; 2. Ziyanverici uğumayaqlı parazit.

**GƏNƏŞİK** – Məsləhət müşavirəsi.

Gəngiz-gənzik

**GƏNGİZ (ot)** – Şoran torpaqlarda bitən kol bitkisi.

**GƏNZİK** – Damağın arxa hissəsi, boğaz boşluğunun ağızla birləşən hissəsi.

Gərd-gərdə

**GƏRD** – Dərd, hüzn, ələm.

**GƏRDƏ** – Sünbül döyümündən qalan saman qırıntıları.

Gərdək-gərək

**GƏRDƏK** – Toyda oğlan evində gəlin üçün pərdə ilə ayrılmış xüsusi yer.

**GƏRƏK –** Gərəkdir, lazımdır.

Gərdən-gərdun

**GƏRDƏN** – Boyun.

**GƏRDUN** – Göy qübbəsi.

Gərzəx-gəzdək

**GƏRZƏX** – Təzə qoz, fındıq kimi meyvələrin dəydikcə yarılıb tökülmüş yumşaq üst qabığı.

**GƏZDƏK (coğr.)** – Dağ təpəsində çökək yer.

Gəzəngi-gəzərgi

**GƏZƏNGİ** – Əsasən badam ağacının tutulduğu xəstəlik; pas.

**GƏZƏRGİ** – Başqa yerlərdə gəzərək işləyən, gəzərək özünə iş tapan; səyyar.

Gigiyena-giyena

**GİGİYENA** – Xarici mühitin müxtəlif amillərinin insan orqanizminə təsirini və sağlamlığı qoruma tədbirlərini öyrənən elm.

**GİYENA** – Vəhşi çaqqal, kaftar.

Gilə-gillə-güllə

**GİLƏ** – Üzümün, narın və s.-nin hər bir dənəsi.

**GİLLƏ** – Təndirdə alma və ya armud qaxı qurutmaq üçün dayaz palçıq qab.

**GÜLLƏ** – Top, tüfəng, tapança kimi odlu silahlardan atmaq üçün qurğuşundan düzəldilmiş girdə və uzunsov mərmicik.

Giliz-giriz-gizir

**GİLİZ** – Odlu silahlarda: alt hissəsində barıt və yandırıcı maddə, yuxarı hissəsində isə güllə və mərmi yerləşən altı bağlı silindrik borucuq.

**GİRİZ** – Qaçma, qaçış.

**GİZİR** – 1. Aşağı rütbəli inzibat işçisi; 2. Köməkçi, əlaltı.

Gimnast-gimnazist

**GİMNAST** – Gimnastika ilə məşğul olma, gimnastikada mahir olan idmançı.

**GİMNAZİST** – 1917-ci il inqilabından əvvəl: gimnaziya şagirdi.

Gineya-genuya

**GİNEYA** – İngiltərə, daha sonra Britaniya qızıl pulu.

**GENUYA** – İtaliyanın əsas şəhərlərindən biri.

Gips-girs

**GİPS** – Ağ və ya sarı rəngli mineral; kirəc.

**GİRS** – Daşlıq, qayalıq, kolluq yerlərdə yaşayan boz rəngli, arxasında parlaq əyri parlaq zolaqlar olan zəhərli ilan.

Gir-kir

**GİR** – Güc, qüvvət, taqət.

**KİR –** Çirk.

Girvə-girəvə-kirvə

**GİRVƏ (keçid)** – Keçidlərdə, yollarda qar yığını.

**GİRƏVƏ** – Gizli yer, pusqu, marıq, əlverişli vəziyyət, fürsət, imkan.

**KİRVƏ** – Uşaq sünnət olunarkən onu tutan adam.

Girov-giyov

**GİROV** – Borc alınan pul və s. müqabilində təminat üçün verilən şey.

**GİYOV** – Kürəkən.

Gizlənc-gizlinc

**GİZLƏNC** – Gizlədilmiş, gizli saxlanılan hər hansı bir şey.

**GİZLİNC** – Heç kəs görmədən, gözə görünmədən, xəlvəti.

Goda-gorda-qada

**GODA** – Ağacdan, taxtadan qayrılmış taxta kukla, gəlincik.

**GORDA –** Birağızlı, əyri qılınc; yatağan.

**QADA** – Bəla, dərd, müsibət, fəlakət.

Godul-gonbul

**GODUL** – 1. Ağacdan, taxtadan qayrılmış kukla, gəlincik; 2. Kök və kiçikboylu adam haqqında.

**GONBUL** – Kök, toppuş, ətli, tosqun.

Gor-kor-gör

**GOR** – Gözləri ilə qavramaq.

**KOR** – Görmək qabiliyyətini itirmiş, kor.

**GÖR** – Qəbir, məzar.

Göbək-gödək

**GÖBƏK** – Göbəkbağı düşdükdən sonra qarnın ortasında qalan kiçik çuxur, batıq.

**GÖDƏK** – Qısa.

Görək-görənək

**GÖRƏK** – Nəticəsi bəlli olmayan bir işə başlarkən deyilir.

**GÖRƏNƏK** – Sıra ilə otlama (qoyun otlama).

Gövər-gövhər

**GÖVƏR** – Yevlax rayonunun Malbinəsi i.v.-də kənd. Yuxarı Qarabağ knaının sahilində, Qarabağ düzündədir. Oykonim "mal-qara üçün ayrılmış yer" mənsındadır. Kövər variantında da qeydə alınmışdır.

**GÖVHƏR** – Qiymətli daş, cavahir.

Gövşək-göyçək

**GÖVŞƏK** – Yemi gövşəməklə ikinci mədədə həzm edən.

**GÖYÇƏK** – Gözəl, qəşəng.

Göyənək-döyənək

**GÖYƏNƏK** – Göynəyən yer.

**DÖYƏNƏK** – Çox sürtülməkdən, toxunmaqdan, bir yerə dəyməkdən, yaxud döyülməkdən dəridə əmələ gələn sərtlik, qalınlıq, qabar.

Göyərtə-göyərti

**GÖYƏRTƏ** – Gəmi gövdəsinin üst hissəsindəki açıq sahə.

**GÖYƏRTİ** – Ümumiyyətlə göyərti (ot, ağaclar, yarpaqlar).

Gözək-gözəl

**GÖZƏK** – 1. Bağ, ip; 2. Toxunma şeyin yırtılmış, çürümüş və ya yanmış yerinə toxunmaqla salınan yamaq.

**GÖZƏL** – 1. Sifətinin cizgiləri, bədəninin tənasübü, qaş-gözü qüsursuz olan; göyçək. 2. Gözə xoş gələn, gözü oxşayan, xoşa gələn, qəşəng.

Güləş-küləş

**GÜLƏŞ** – 1. Bir-birinin kürəyini yerə vurmağa çalışan iki nəfərin qurşaq yapışmasından ibarət idman növü, güləşmə; 2. Gülər.

**KÜLƏŞ** – 1. Taxıl döyüldükdən sonra qalan quru çöplər, iri saman; 2. Taxıl əkilmiş yer, zəmi.

Gülgəz-gülgöz

**GÜLGƏZ** – Qırmızı, al.

**GÜLGÖZ** – Əngəlsiz, gülən gözlər.

Gülzar-güzar

**GÜLZAR** – Çoxlu gül olan yer, gülüstan, çiçəklik, güllük.

**GÜZAR** – Yol, keçid, keçmə.

Gümrah-günah

**GÜMRAH** – Qıvraq, möhkəm, sağlam, qüvvətli.

**GÜNAH** – Dini-əxlaqi normaların pozulması, dincə qəbahət sayılan iş.

Günyə-künyə

**GÜNYƏ** – Düzbucaqlı və şaquli xətlər çəkmək üçün üçbucaq formalı xətkeş.

**KÜNYƏ** – Bir şəxsin adı, əsil-nəsəbi və s. kimi xüsusiyyətlərini göstərən qeyd.

Gürdək-güzdək-gərdək-cürdək

**GÜRDƏK** – Taxtadan, kağızdan  və ya başqa bir şeydən qayrılmış qapaq, tıxac.

**GÜZDƏK –** Payızda göyərən ot, payız otu.

**GƏRDƏK –** Toyda oğlan evində gəlin üçün ayrılmış xüsusi yer.

**CÜRDƏK** – Su yığmaq üçün ucu dar ağızlı mis qa

Güvəc-güvənc

**GÜVƏC** – Gildən qayrılan (bəzən içində xörək bişirilən) boğazı dar qab.

**GÜVƏNC** – Arxalanmalı, etibar olunmalı, güvəniləsi adam və ya şey.

Güzəm-cüzam

**GÜZƏM** – Yayın ikinci yarısında qırxılanqoyun yunu.

**CÜZAM**  – Mərkəzi sinir sistemi və dəri başda olmaqla bir çox orqana təsir edən yoluxucu xəstəlik.

**H**

Hacət-höcət

**HACƏT** – Ehtiyac, lüzum.

**HÖCƏT** – Öz dediyndən, əməlindən, xasiyyətindən əl çəkməmə, inad, inadkarlıq, tərslik.

Hafiz-haiz

**HAFİZ** –1. Qoruyan, saxlayan, mühafizə edən; 2.Quranı əzbər bilən adam.

**HAİZ** – 1.Sahib, yiyə; 2.Əhatə edən.

Hakim-həkim-həkəm

**HAKİM** – Məhkəmə orqanlarında baxılan iş haqqında hökm və ya qərar çıxaran vəzifəli şəxs.

**HƏKİM** – Ali tibb təhsili olan adam, təbib, doktor

**HƏKƏM** – İki tərəf arasında mübahisəni həll etmək üçün seçilən adam; münsif, jüri.

Hamam-haman

**HAMAM –** Çimmək üçün isti və soyuq suyu olan xüsusi bina**.**

**HAMAN** – 1. Göz önündə olmayan və ya uzaqda olan bir şeyi və ya şəxsi göstərmək üçün işlədilən əvəzlik – o, özü; 2. Əlüstü, dərhal, o saat, tez.

Hamar-haram

**HAMAR** – 1. Girintisi-çıxıntısı, kələ-kötürü olmayan; düz; 2. Əziyyətiz, rahat.

**HARAM**–İslam dininin ehkamlarına görə yeyilməsinə, işlədilməsinə icazə verilməyən.

Hamı-hami

**HAMI** – Bir nəfər də kənara qalmayaraq, hamı, bütün adamlar.

**HAMİ** – Birini himayə edən, himayəsi altına alan, qoruyan, himayəçi, arxa, havadar.

Hana-həna

**HANA** – Əllə xalça, palaz və s. toxumaq üçün yerdə qurulan dəzgah; xana

**HƏNA** – Xına.

Hasar-həsir

**HASAR** – Daşdan, kərpicdən və s.-dən tikilən hasar, barı, sədd;

**HƏSİR** – Bəzi ağacların liflərindən, küləşdən, qamışdan və s.-dən toxunan məmulat.

Heliport-heliotrop

**HELİPORT** – Helikopterlərin qalxması məqsədilə hazırlanmış bir sahə. Helikopter limanı.

**HELİOTROP** – Pişikotu, günəş çiçəyi, vanil otu, bambukotu.

Helmintologiya-hematologiya

**HELMİNTOLOGİYA** – Tüfeyli bağırsaq qurdlarından və onların törətdiyi xəstəliklərdən bəhs edən elm.

**HEMOTOLOGİYA** – Qanın tərkibini və xüsusiyyətini öyrənən elm sahəsi.

Hemafit-hematit

**HEMAFİT** – Dəmirkimilər.

**HEMATİT** – Dəmir filizinin çox geniş yayılmış qırmızı və qəhvəyirəngli dəmir növü.

Heybə-heyva

**HEYBƏ** – Çiyindən, bəzən də atın tərkindən aşırılan kiçik xurcun.

**HEYVA** – Sarı rəngli, turşməzə, üstü tüklü, xırda çəyirdəkli meyvə.

Heybət-heyət-heyhat-heyrət

**HEYBƏT**– Qorxu və eyni zamanda hörmət hissi oyandıran hal, görkəm.

**HEYƏT** – Hər hansı bir kollektivin, təşkilatın tərkibini təşkil edən adamlar toplusu, tərkib.

**HEYHAT**– Əfsus, təəssüf, heyif.

**HEYRƏT** – Qeyri-adi, gözlənilməz, təəccüb, çaşqınlıq.

Heyran-heyvan

**HEYRAN –** Gözəl və ya əzəmətli bir şey qarşısında vurulmuşcasına çaşıb qalma; valeh olma.

**HEYVAN** – İnsanı çıxmaqla hər cür canlı məxluq.

Həcz-həzəc

**HƏCZ** – 1.Tutub saxlama, tutma; 2. Müsadirə.

**HƏZƏC** – Əruz vəzninin bəhrlərindən biri.

Hədik-həvik

**HƏDİK** – Qarğıdalı, buğda, noxud, lobya, mərci və s.-dən suda bişən yemək.

**HƏVİK –** Hayıf.

Həf-hərf-hərif

**HƏF** – Kəpənək kimilər fəsiləsinə aid həşərat.

**HƏRF** – Hər hansı bir dilin əlifbasında adətən müəyyən bir səsə uyğun gələn yazı işarəsi, əlifbanı təşkil edən yazılardan biri.

**HƏRİF** – Gözə tanış gəlməyən, şübhəli görünən tip, subyekt.

Həfçi-həcvçi

**HƏFÇİ** –1. Kiçik bir şeyi böyüdən; 2. Bir şey haqqında yerli-yersiz danışan; 3.Qadın xasiyyətli; 4. Xəbərçi; 5. Arvad işlərinə qarışan.

**HƏCVÇİ** – Həcv yazan, həcvgu.

Həkkak-həlak

**HƏKKAK** – Metal, daş və s. üzərində polad qələmlə yazı və s. nəqşlər oyan sənətkar; qravüra ustası, qravüraçı, oymaçı.

**HƏLAK** – Ölmə, məhv olma, ölüm, məhv, tələf.

Hələ-halə

**HƏLƏ** – İndi, indi də, indiyədək, hələ də.

**HALƏ** – Ayın və bəzi iri ulduzların ətrafında bəzən görünən işıq dairəsi.

Həməl-həmən

**HƏMƏL** – Ərəb astronomiyasında Qoç bürcünün adı.

**HƏMƏN** – Həmin, haman, o.

Həmhüdud-həmhüquq

**HƏMHÜDUD** – Sərhədləri bir olan, yan-yana, bitişik, yapışıq olan, həmsərhəd.

**HƏMHÜQUQ** – Eyni hüquqa, bərabər hüquqa malik olan; bərabərhüquqlu.

Həmraz-həmsaz

**HƏMRAZ** – Sirr yoldaşı, sirdaş.

**HƏMSAZ** – Bir-birinə uyğun gələn, uyan, münasib gələn, uyğun.

Həmsin-həmsir

**HƏMSİN** – Həmyaş, yaşıd, bir yaşda olan.

**HƏMSİR** – Sirdaş.

Hənir-həpir

**HƏNİR** – Yavaş səs.

**HƏPİR** – Çürümüş, xarab olmuş.

Hərbə-hərbi

**HƏRBƏ** – Qısa süngü, balaca nizə.

**HƏRBİ** – Hərbə, müharibəyə aid olan, müharibə ilə əlaqədar olan.

Hərdəm-hərdən

**HƏRDƏM** – Hər nəfəsdə, hər an, hər dəqiqə, həmişə, daim.

**HƏRDƏN** – Həmişə deyil, bəzən, arabir.

Hərəkat-hərəkət

**HƏRƏKAT** – Müəyyən məqsəd güdən ictimai fəaliyyət.

**HƏRƏKƏT** – Bir şeyin v ya onun hissələrinin sabit bir nöqtəyə görə öz yerini və ya vəziyyətini dəyişməsi.

Hərəkə-hərəki-hərki

**HƏRƏKƏ** – Ərəb əlifbasında saitləri necə oxumaq lazım gəldiyini göstərmək üçün hərflərin üstünə və ya altına qoyulan diakritik işarə.

**HƏRƏKİ** – Gözün hərəki siniri bir başlanğıc nöqtəyə malikdir. Onun nüvəsi beyin ayaqcıqları qapağında yerləşmişdir.

**HƏRKİ** – Özbaşnalıq.

Hərləc-həllac-hərrac

**HƏRLƏC** – Hərlənən hər hansı bir əşyanın əl tutulan yeri.

**HƏLLAC** –Pambıqatan, yun atan usta.

**HƏRRAC** –Bir mülkün, şeyin ən çox pul verənə verilmək üçün açıq satışa qoyulması, auksion, müzaidə.

Həsir-həsr

**HƏSİR** – Bəzi ağacların liflərindən, küləşdən, qamışdan və s.-dən toxunan məmulat (yerə sərmək və s. məqsədlər üçün işlənir).

**HƏSR** – Yalnız bir işə, bir şəxsə və s. vermək, onun üçün ayırmaq, ona sərf etmək.

Həşir-həşr

**HƏŞİR** – Qiyamət.

**HƏŞR** – Hayında, qayğısında, fikrində, qeydində olmaq.

Həvalə-həvali

**HƏVALƏ** – Birinin üzərinə, öhdəsinə buraxma, qoyma, tərk etmə, birinə tapşırma.

**HƏVALİ** – Ətraf, ətraf yerlər, civar.

Həya-həyə

**HƏYA** – Abır, ar, ismət, namus, utanma hissi.

**HƏYƏ** – Astronomoiyada ilandaşıyan bürc.

Həyat-həyət

**HƏYAT** – Materiyanın hərəkətinin müəyyən inkişaf mərhələsində əmələ gələn xüsusi forması, varlıq, dirilik.

**HƏYƏT** – Adətən evin qabağında ətrafı hasar və ya başqa binaların divarları ilə əhatə olunmuş sahə.

Hibrid-hidrid

**HİBRİD** – Müxtəlif cinsdən, növdən olan bitki və heyvanların hibridləşdirilməsi nəticəsində əmələ gələn yeni orqanizm, mələz.

**HİDRİD** – Hidrogenin başqa elementlərlə kimyəvi birləşməsi.

Hicri-hücrə

**HİCRİ** – Hicrətə aid, hicrətə mənsub. Hicri təqvim.

**HÜCRƏ** – Məscid, təkyə, karvansara və s. yanındakı kiçik otaqlardan hər biri.

Hidayət-hiddət

**HİDAYƏT** – İslam dininə görə doğru yol, düz yol, haqq yol.

**HİDDƏT** – Qəzəb, acıq, qeyz, hirs, sərtlik.

Hidrant-hidrat

**HİDRANT** – Su kəməri kranı.

**HİDRAT** – Metal oksidlərinin su ilə kimyəvi birləşməsi.

Hidrofil-hidrofit

**HİDROFİL** – Suyu sevən.

**HİDROFİT –** Yalnız aşağı ətrafları və kökü ilə suya yerləşən su bitkisi.

Him-himn-hin-hil

**HİM** – Birinə gözlə edilən işarə.

**HİMN –** Dövlət və ya sinfi birlik rəmzi kimi qəbul olunmuş təntənəli mahnı; təntənəli mədhiyyə, birinin və ya bir hadisənin şərəfinə ifa edilən təntənəli musiqi əsəri.

**HİN** – Bəzi ev heyvanları və quşların saxlandığı kiçik tikili.

**HİL** – Zəncəfil ailəsindən tropik bitki və bu bitkinin ədviyyat kimi işlədilən toxumu.

Hipertonik-hipertrofik

**HİPERTONİK** – Hipertoniyaya, qan təzyiqinin artmasına aid olan, onunla bağlı olan.

**HİPERTROFİK** – Ürəyin hər hansı toxumasının, orqanının hipertrofiyası, həcminin böyüməsi.

His-hirs-hiss

**HİS** – Yanan bir şeydən çıxan kəsif tüstü.

**HİRS** – Qəzəb, hiddət, acıq, qeyz.

**HİSS** – Duyğu, sevgi, məhəbbət, qavrama, dərketmə bacarığı.

Hoy-hov

**HOY** – Hoydu.

**HOV** – 1. Kömək; 2. Şişmə, iltihab.

Höl-hör

**HÖL** –Kəllə.

**HÖR** – Kərpici, daşı müəyyən qaydada palçıqla bir-birinə yapışdırmaq.

Hövsər-kövsər

**HÖVSƏR** – Dəni hövsəmək və s. üçün alət.

**KÖVSƏR** – Dini əfsanəyə görə guya cənnətdə olan bir bulağın adı.

Höyüş-göyüş

**HÖYÜŞ** – Bir qədər yaş, nəm çəkmiş, nəm, nəmli.

**GÖYÜŞ** – 1.Gömgöy, tünd göy, göy təhər; 2.Şəxs adı.

Hüdhüd-hüdud

**HÜDHÜD (quş)** – Şanapipik.

**HÜDUD** – Hədd, sərhəd.

Hüsn-hüzn

**HÜSN –** 1. Gözəllik, camal; 2. Ləzzət, dad.

**HÜZN**–Kədər, qəm, qüssə.

Hüzr-hüzur

**HÜZR** – 1.Üzr sözünün canlı dildə işlənən forması; 2. Yas.

**HÜZUR** – Ön, qabaq, pişgah.

## X

Xab-xub

**XAB** – 1. Yuxu; 2. Qəflət yuxusu, cəhalət, avamlıq.

**XUB** – 1. Yaxşı, gözəl, xoş; 2. Gözəl, dilbər.

Xadimə-xatimə

**XADİMƏ** – Xidmətçi qadın, qulluqçu.

**XATİMƏ** – 1. Son, axır; 2. Kitabın sonuna əlavə olunan və əksərən onun xülasə və nəticəsini təşkil edən hissə.

Xal-xar

**XAL** –Ya anadanglmə, ya sonradan dəri üzərində əmələ gələn xırda, dəyirmi ləkə.

**XAR** – 1. Tikan; 2.Zəlil, üzüqara, xəcalətli.

Xalq-xaliq

**XALQ** –1. Ölkənin, dövlətin sakinləri, əhalisi; 2. Millət.

**XALİQ** – Xəlq edən, yaradan (Allahın adlarından biri).

Xaldar-xalvar-xalyar

**XALDAR** – Xallı, xalı olan.

**XALVAR** – Azərbaycanın müxtəlif yerlərində müxtəlif ağırlıqda olan köhnə çəki ölçüsü.

**XALYAR** –Yabanı bitki adı.

Xalı-xali

**XALI** – Böyük xalça.

**XALİ** – 1. Boş, adamsız, tənha; 2. Sahibsiz, yiyəsiz, tutulmamış, boş.

Xam-xan

**XAM** – 1. Ələ öyrəşməmiş, əhilləşməmiş; 2. Əkilməmiş, əkinə düşməmiş, şumlanmamış, işlənməmiş, əl dəyməmiş.

**XAN** – Orta əsrlərdə Şərq ölkələrinin əksəriyyətində feodal titulu və bu titulu daşıyan şəxs.

Xama-xamna-xana-xanə

**XAMA** – Çiy südün üzü, qaymağı, smetan.

**XAMNA** – Xam, işlənməmiş ipək.

**XANA** – Xırda dördbucaqlılara bölünmüş bir şeyin qisimlərindən hər biri; dama, kvadrat, göz, bölgü.

**XANƏ** – 1. Ev, məskən; 2. Takt.

Xara-xarı

**XARA** – Özündən naxışları olan parlaq ipək parça.

**XARI** – Tikan.

Xaral-xardal

**XARAL** – İri torba, kisə, bordan.

**XARDAL** – Xaççiçəklilər fəsiləsindən olan xırda sarı çiçəkləri və meyvəsi olan ot bitkisi.

Xaric-xərac-xərc

**XARİC** – Bayır, dışarı, bayır tərəf.

**XƏRAC** – Vergi, bac.

**XƏRC** – İşlənən, sərf olunan pul, məsarif, məsrəf, məxaric.

Xariqə-xirqə

**XARİQƏ** – İnsanlıq, heyranlıq doğuran şey; hadisə.

**XİRQƏ** – Cübbənin altından geyilən içi pambıqlı qısa geyim.

Xaş-xış

**XAŞ** – Kəlləpaçadan hazırlanıb sarımsaqla yeyilən xörək.

**XIŞ** – Yer şumlamaq üçün ibtidai kənd təsərrüfatı aləti.

Xaşal-xəşil-xəşin

**XAŞAL** – Sallaq qarın, şişman.

**XƏŞİL** – Suda bişirilib  yağ və doşabla yeyilən xəmir yeməyi.

**XƏŞİN**– Sərt, qaba, nahamar, cadar-cadar.

Xatəm-hatəm

**XATƏM** – Sonuncu, axırıncı, ən sonuncu.

**HATƏM** – Əliaçıq, səxavətli, comərd adam haqqında.

Xaylaq-xeylaq

**XAYLAQ** – İnsan, qadın və ya kişi xaylağı.

**XEYLAQ** – "Xeyli" sözünün canlı dildə işlənən forması.

Xeyr-xeyir

**XEYR** – Bir şeylə razı olmadıqda və ya verilən suala mənfi cavab üçün işlənir.

**XEYİR** – Fayda, mənfəət.

Xeyrə-xeyri

**XEYRƏ** – Misdən, alüminiumdan, saxsıdan və s.-dən qayrılan dəyirmi qab.

**XEYRİ** – Qırmızı rəngli, topləçəkli gül, məxmərgülü.

Xəcil-xəlic

**XƏCİL** – Xəcalətli, üzüqara.

**XƏLİC** – Körfəz.

Xəfənək-xəfənk

**XƏFƏNƏK** – At və başqa heyvanlarda ciyər xəstəliyi, təngnəfəslik.

**XƏFƏNG** – Pəncərənin və ya qapının üst hissəsi.

Xəfif-xərif

**XƏFİF** – Mülayim, yüngül, yumşaq.

**XƏRİF** – Qocalıqdan ağlı zəifləmiş, xərifləmiş, səfehləmiş, sərsəmləmiş.

Xələf-xəlfə-xəlifə

**XƏLƏF** – Sonradan gələn, birinin yerinə keçən, onun işini davam etdirən, onu əvəz edən adam.

**XƏLFƏ** – Köhnə məişətdə: toy və yas məclislərini idarə edən şəxsə verilən ad.

**XƏLİFƏ** – Bəzi müsəlman ölkələrində Məhəmməd peyğəmbərin vəkili və bütün müsəlmanların hamisi və başçısı sayılan şəxslərə verilən yüksək dini ünvan.

Xəmsə-xəmsi

**XƏMSƏ –** Beşlik.

**XƏMSİ –** Siyənəyə oxşar dəniz balığı.

Xəmsin-həmsin

**XƏMSİN** – Ərəblərdə qışın 40 günündən sonra gələn 50 günlük mövümünün xalq təqvimində adı, habelə bu dövrdə əsən küləyin yerli adı.

**HƏMSİN** – Həmyaş, yaşıd, bir yaşda olan.

Xərək-xörək

**XƏRƏK** – Daş, qum və s. şeyləri daşımaq üçün taxtadan və s.-dən düzəldilmiş alət.

**XÖRƏK** – Bişirilib yeyilən şey, yemək, bişmiş.

Xəritə-xəlitə

**XƏRİTƏ** – Yer səthinin coğrafi vəziyyətinin kağız və s. üzərində təsviri.

**XƏLİTƏ** –1. Metaləridən sobalarda əridilən metalların müəyyən qatışığı;

2. Külçə.

Xətər-xətir

**XƏTƏR** – Təhlükə, qorxu.

**XƏTİR** – Hörmət, ehtiram, qayğı.

Xəttat-xəyyat

**XƏTTAT**– Gözəl xətti olan adam.

**XƏYYAT** – Dərzi.

Xəzər(lər)-xəzəl-xəsil-xəzri

**XƏZƏR**(lər) – V-X əsrlərdə Aşağı Volqadan Qafqaza və Qara dənizin şimal hissəsinə qədər dövlət quran türk dilli xalq.

**XƏZƏL** – Payız fəslində budaqlardan tökülən sarı yarpaqlar.

**XƏSİL –** Göy taxıl.

**XƏZRİ**– Abşeron yarımadasında şimaldan əsən şiddətli külək.

Xırıp-xırp

**XIRIP**– Heyvanların otu dişləri ilə qırparkən çıxardıqları səs.

**XIRP** – Adətən feillərdən sonra gələrək onların ifadə etdiyi işin, prosesin birdən, qəfildən, ani olaraq kəsilməsini bildirir.

Xıs-xış

**XIS** – Yavaş-yavaş, gizli, xəlvəti, altdan-altdan.

**XIŞ** – Yer şumlamaq üçün ibtidai kənd təsərrüfatı aləti.

Xilqət-xislət

**XİLQƏT** – Yaradılma, yaradılış.

**XİSLƏT** – İnsanın təbiətinə məxsus sifət, xasiyyət, təbiət.

Xloforos-xloroz

**XLOROFOS** – Mal-qaranın, paltarların, əşyaların çüçülərdən təmizlənməsi, dezinfeksiya edilməsi üçün işlənilən kimyəvi maddə.

**XLOROZ** – Bitkilərdə: yarpaqlarda və zoğlarda yaşıl rəngin çatışmazlığından törəyən xəstəlik halı.

Xonça-xonsa

**XONÇA** – Şirniyyat, meyvə və s. yeməli və başqa hədiyyələr qoyulmuş bəzəkli podnos, tabaq və s.

**XONSA** – Hər iki cinsin əlamətləri olan canlı.

Xoral-xural

**XORAL** – Katoliklərdə və protestantlarda xor şəklində oxunan dua; bu səpkidə yazılmış musiqi əsəri.

**XURAL** – Monqolustanda ali dövlət hakimiyyəti orqanı.

Xorey-xoreya

**XOREY** – 1. Vurğusu I hecada olan iki hecalı şeir təqtisi; şeir vəznlərindən biri; 2. Xizəyə qoşulmuş maralları sürmək üçün uzun çubuq.

**XOREYA** – Əl-ayağın qeyri-ixtiyari titrəməsindən ibarət əsəb xəstəliyi.

Xorvat-xoryat

**XORVAT** – Yuqoslaviyanın tərkibinə daxil olan Xorvatiyanın əsas əhalisini təşkil edən cənub slavyan xalqı və bu xalqa mənsub adam.

**XORYAT (ədəb.)** – İraqda kərkük bayatısı.

Xunxar-xunkar

**XUNXAR** – Qaniçən, zalım, cəllad, qandan doymayan, yırtıcı.

**XUNKAR**– Sultan.

## İ

Iadə-ianə-iena

**İADƏ** – Vaxt çıxmadan hər hansı bir xətaya görə namazın təkrar qılınmasına iadə deyilir.

**İANƏ** – Bir xeyir iş üçün, yaxud ehtiyacı olan bir adam və ya cəmiyyət üçün yığılan və ya toplanılan pul, maddi yardım, kömək.

**İENA** – Yaponiyada pul vahidi.

Ianət-inayət

**İANƏT** – Bir xeyir iş üçün, ehtiyacı olan bir adam və ya cəmiyyət üçün verilən və toplanılan pul.

**İNAYƏT** – Mərhəmət, rəhm, iltifat, şəfqət, yaxşılıq.

İbadət-ibdət

**İBADƏT** – Dua oxuma, namaz qılma şəklində icra olunan dini ayin; sitayiş, pərəstiş.

**İBDƏT** – Pis, yaramaz, çirkin.

Ibarə-idarə-iradə

**İBARƏ** – Kəlam; İki və ya bir neçə kəlmədən ibarət olanb tərkib.

**İDARƏ** – Hər hansı bir iş sahəsinə baxan, müəyyən ştatı, müdiriyyəti olan təşkilat.

**İRADƏ** – İnsan psixikasının, insanın öz qarşısına qoyduğu məqsədə nail olmaq, arzu və istəklərini həyata keçirmək qabiliyyətində təzahür edən xüsusiyyətlərindən biri; irəli çıxan maneə və çətinlikləri aradan qaldırmaqda dözümlü olan.

İbarət-ibrət

**İBARƏT** – Mütəşəkkil, düzəlmiş, təşkil olunmuş.

**İBRƏT** – Ağır, pis bir hadisədən, işdən alınan dərs.

Iblis-ilbiz

**İBLİS** – Şeytan.

**İLBİZ** – Əksərən balıqqulağına oxşar bərk çanaq içərisində yaşayan yumşaq bədənli molyusk.

İbraz-iflas-ifraz

**İBRAZ (etmək)** – Büruzə vermək, aşkar etmək, üzə çıxarmaq, meydana çıxarmaq, göstərmək.

**İFLAS** – Bankın, tacirin və s.-nin borc iltizamlarını vaxtında ödəyə bilməməsi nəticəsində müflis olması, sınıq çıxması.

**İFRAZ** – Orqanizmin bir yerindən maye çıxma, axma.

Icab-hicab-icad

**İCAB** – Lazım olmaq, lazım gəlmək.

**HİCAB –** 1.Pərdə, örtük; 2.Utanma, utancaqlıq.

**İCAD** – Vücuda gətirmə.

Icrət-hicrət

**İCRƏT** – Görülən iş üçün verilən haqq, muzd, zəhmət haqqı.

**HİCRƏT** – Öz vətənini tərk edib başqa bir yerə getmə, köçmə, mühacirət.

Ideal-ideya

**İDEAL** – Ən yüksək məqsəd, qayə, amal.

**İDEYA** – İnsan şüurunda varlığı əks etdirən və onun bizi əhatə edən mühitə münasibətini ifadə edən anlayış, təsəvvür.

Ifadə-iftadə

**İFADƏ** – Anlatma, izah etmə, izhar etmə.

**İFTADƏ** – Düşkün, mübtəla.

Ifraq-ifrat-iftar

**İFRAQ** – Qəlibə tökmə, qəlibə axıtma.

**İFRAT** – Bir şeyin son həddi, bir şeyi son həddə çatdırma, mübaliğəyə varma, həddi keçmə.

**İFTAR** – Oruc açma, oruc açdıqda yeyilən yemək.

İfrit-iprit

**İFRİT** – 1.İblis, şeytan, cin; 2. Çox sərt, amanız adam haqqında.

**İPRİT** – 1. Belçikada İprit şəhərinin adı; 2.Xardal qoxuyan zəhərli qaz; dəridə irinli yara əmələ gətirən və orqanizmi bütünlükdə zəhərləyən davamlı zəhərləyici maddələrdən biri.

İxlas-iclas

**İXLAS** – Səmimi və qərəzsiz məhəbbət, ürəkdən gələn sədaqət, səmimiyyət, sidq.

**İCLAS** – Bir məsələni müzakirə etmək üçün hər hansı bir təşkilat üzvlərinin bir yerə yığılması; yığıncaq.

Ixlat-ixtilat

**İXLAT** – Orta əsr tibb əlyazmasında bədəndə olan bəlğəm, irin, sevda artıqlığı.

**İXTİLAT** – Oturub-durma, qaynayıb qarışma, görüşüb əlaqə saxlama.

İxtilaf-ixtilal

**İXTİLAF** – Fikir ayrılığı və bunun nəticəsində doğan ziddiyyət, uymamazlıq, mübahisə.

**İXTİLAL** – Qarışıqlıq, qarğaşalıq, hərc-mərclik, iğtişaş.

İxtisar-ixtiyar

**İXTİSAR** – Qısaltma, azaltma.

**İXTİYAR** – 1.Öz arzusu və iradəsi ilə hərəkət etmə; 2. Qoca, yaşlı, pirani.

İhanət-inayət

**İHANƏT** – Xəyanət.

**İNAYƏT** – Mərhəmət, rəhm, iltifat, şəfqət, yaxşılıq.

İkrah-ikram

**İKRAH** – İyrənmə, çimsinmə, diksinmə, nifrət.

**İKRAM** – Hörmət, sayğı, əzizləmə, ehtiram, hörmət göstərmə.

İqrar-ilğar-ilqar

**İQRAR –** Dil ilə söyləmə, ifadə etmə, təsdiq etmə, etiraf.

**İLĞAR** – Ansızın hücum, basqın, düşmən torpağına süvari hücumu.

**İLQAR** – Söz vermə, əhd, vəd, vəfa.

İqtibas-iltimas

**İQTİBAS** – Bir sözü, cümləni və ya fikri eynilə və ya məzmunca başqasının əsərindən alma, götürmə.

**İLTİMAS** – Xahiş, rica.

İlgək-ilmək

**İLGƏK** – Paltarın yaxasında, qolunda, cibinin ağzında və ya başqa yerində düyməni və ya qarmağı keçirmək üçün sapdan, qaytandan düzəldilən balaca yarıq

və ya halqa; düymə yeri.

**İLMƏK** – Asanlıqla açılan düyün.

Ilk-ılıq-ilik

**İLK** – Birinci, əvvəlinci, ən əvvəldə olan, ən qabaq.

**İLIQ –** Azacıq isti, nə soyuq, nə isti, hərarətcə mülayim.

**İLİK** – İnsanların, habelə onurğalı heyvanların sümüyü içərisində olan yağaoxşar yumşaq maddə.

İltizam-intizam

**İLTİZAM** – Bir işin yerinə yetirilməsini lazım bilmə, özü üçün borc hesab etmə, boynuna götürmə, öhdəsinə götürmə.

**İNTİZAM** – Nizam və qayda, səliqə, tərtib.

Imam-iman-inam

**İMAM** – Müsəlmanlarda: camaat namazına başçılıq edən, habelə bir məhəllədə nikah, ölüm və s. dini işlərə baxan ruhani.

**İMAN** – İnanma, dərin inam.

**İNAM** – İnanma, etibar.

Imamət-imarət

**İMAMƏT** – İmamlıq.

**İMARƏT**– Böyük və qəşəng bina.

Imperativ-iterativ

**İMPERATİV** – İdealist fəlsəfədə qəti tələb; qrammatikada feilin əmr forması.

**İTERATİV** – Çoxdəfəli, işin, hərəkətin dəfələrlə təkrar olunmasını göstərən feillər.

Import-eksport

**İMPORT** – Bir ölkəyə başqa ölkədən gətirilən mal, məhsulat, idxalat.

**EKSPORT** – İxracat, bir ölkədən başqa ölkəyə göndərilən mal.

Incə-inci

**İNCƏ** – Zərif işlənmiş, qəşəng, nəfis.

**İNCİ**– Bəzi molyuskların balıqqulaqlarından çıxarılan ağ və çəhrayı rəngli dənələr şəklində qiymətli sədəf maddəsi, mirvari, dürr.

Inersiya-inversiya

**İNERSİYA** – Düz xətt üzrə hərəkətdə olan cismin öz müntəzəm hərəkətini, sükunətdə olan cismin isə öz sükunətini xarici bir qüvvə müdaxilə etmədikcə mühafizə etmə xassəsi, ətalət.

**İNVERSİYA** – Qrammatik hadisə və ya üslubi üsul olaraq cümlədə sözlərin adi sırasının dəyişdirilməsi.

Infiltryasiya-inflyasiya

**İNFİLTRYASİYA** – Yeraltı suların mənşəyi haqqında nəzəriyyə. Süxurların kapillyar məsamələri vasitəsilə suyun yeraltı sular səviyyəsinə doğru hərəkəti.

**İNFLYASİYA**– Kağız pulların əmtəə tədavülü tərəfindən artıq buraxılması nəticəsində qiymətdən düşməsi.

İnhilal-inhina

**İNHİLAL** – 1. Açılma (düyün); 2. Dağılma, bir-birindən ayrılma.

**İNHİNA** – Əyilmə, bükülmə. Birinə baş əymə, yumşaqlıq göstərmə.

Inhisar-inkisar

**İNHİSAR** – Bir malı istehsal etmək və ya satmaq, yaxud ondan istifadə etmək hüququnun bir şəxsə, müəssisəyə, dövlətə məxsus olması, monopoliya.

**İNKİSAR –** Qırılma, sınma.

Internat-internet

**İNTERNAT** – Məktəb yanında şagirdlər üçün ümumi yataqxana.

**İNTERNET** – Bütün dünyada milyonlarla kompüter vahid informasiya sisteminə birləşdirilən, elmi bilgilərin, işgüzar, əyləncəli və başqa məlumatların azad mübadiləsi üçün ən geniş imkanlara malik olan qlobal kompüter şəbəkəsi.

İntəha-intihal-intixab

**İNTƏHA** – Son, axır, nəhayət, qurtaracaq.

**İNTİHAL** – Başqasının əsərini mənimsəmə, plagiatlıq.

**İNTİXAB** – Seçmə, seçib ayırma.

Intiba-intibah

**İNTİBA** – Bir şeyin zehində buraxdığı iz, təəssürat.

**İNTİBAH**– Oyanış, oyanma, canlanma, dirçəlmə, yenidən yüksəliş.

İntihar-intişar-intizar

**İNTİHAR**– Özünü öldürmə, özünə qəsd etmə.

**İNTİŞAR** – Yayma, yayılma.

**İNTİZAR**– Həsrət içərisində gözləmə, səbirsizliklə gözləmə.

Intizam-iltizam

**İNTİZAM**– Nizam və qayda, səliqə, tərtib.

**İLTİZAM** – Bir işin yerinə yetirilməsini lazım bilmə, özü üçün borc hesab etmə, boynuna götürmə, öhdəsinə götürmə.

İrad-iradi

**İRAD** – Söyləmə, demə, danışma.

**İRADİ** – İradəyə aid, iradədən asılı olan, iradə ilə bağlı olan, ixtiyari.

Irbis-iris

**İRBİS (zool.)** – Qar bəbiri, yırtıcı heyvan.

**İRİS** – Şokolad rəngli kubiklər şəklində konfet növü.

Irmaq-irmək

**İRMAQ** – Çay.

**İRMƏK** – Adətən mal-qaraya verilən iri və yaxşı, əzilməyən buğda, arpa unu.

Irradiasiya-irriqasiya

**İRRADİAİSİYA**– 1. İşıqlı fiqurların qara fonda ölçüsünün böyüməsi; 2. Mərkəzi sinir sisteminin oyanma və tormozlanma prosesi; zədələnmiş orqan və hissədə ağrı hissi.

**İRRİQASİYA** – Rütubəti az olan torpaqların məhsuldarlığını artırmaq üçün onların süni surətdə suvarılması.

İsabət-isbat

**İSABƏT** –Hədəfə çatma, hədəfə dəymə, hədəfə yetişmə.

**İSBAT** – Sübut.

İshal-islah

**İSHAL** – Mədə pozğunluğu, qarın işləmə, ayaqyoluna düşmə.

**İSLAH** – Qüsur və nöqsanlarını aradan qaldırıla yaxşı hala salma, düzəltmə.

İskəncə-işgəncə

**İSKƏNCƏ** – Xışı boyunduruqla birləşdirən ağac.

**İŞGƏNCƏ** – Vəhşi və amansız üsullarla verilən cismani cəza.

İsgənə-iskələ-işgənə

**İSGƏNƏ** – Dayaz oyuqlar açmaq, kəsmək, yonmaq və təmizləmək üçün yastı polad alət.

**İSKƏLƏ –** Dənizdə, göldə gəmilərin yanaşması üçün körpü

**İŞGƏNƏ (xörək)** – Yarıbişmiş yağlı ətin, toyuğun suyu.

Israf-isrif

**İSRAF** – Artıq və lazımsız yerə xərcləmə, sərf etmə, işlətmə, puç etmə.

**İSRİF** – Qənaətcillik, haqq-hesabını bilmək.

Istibdad-istibdal

**İSTİBDAD** – Özbaşnalığa və zorakılığa əsaslanan idarə üsulu, zülm, mütləqiyyət.

**İSTİBDAL** – Dəyişiklik, təbəddülat.

İstiğfar-istiqrar

**İSTİĞFAR** – Allaha yalvararaq günahlarının bağışlanmasını istəmək.

**İSTİQRAR –** 1. Qərar tutma, yerləşmə; 2. Sabitləşmə, aydınlaşma**.**

İstiqbal-istiqlal

**İSTİQBAL** – Gələcək, qarşılaşma.

**İSTİQLAL –** Müstəqillik, istiqlaliyyət**.**

İstihalə-istixarə

**İSTİHALƏ** – Bir haldan başqa hala keçmə.

**İSTİXARƏ** – Görüləcək bir işin qabaqcadan uğurlu olub-olmadığını bilmək üçün Quran və ya təsbehlə yoxlama ayini.

Istimdad-istinad

**İSTİMDAD** – İmdad istəmə, yardıma çağırma.

**İSTİNAD** – Dayanma, əsaslanma.

İstismar-istisna

**İSTİSMAR** – Hər hansı bir əməli məqsəd üçün sistematik istifadə etmə.

**İSTİSNA** – Ümumi qaydadan çıxarma, ayırma.

İşdək-işlək

**İŞDƏK** – İş, əməl, gizli iş, kələk.

**İŞLƏK** – Zəhməti, işləməyi sevən, çox işləyən, daim işləyən, fəal, çalışqan.

Iştibah-iştihab

**İŞTİBAH** – Şübhə, şəkk.

**İŞTİHAB** – Ağarma, bəyazlaşma.

İştiqaq-iştiyaq

**İŞTİQAQ** – Qədim ərəb poetik şeirində istifadə edilən üslubi vasitələrdən biri.

**İŞTİYAQ** – Şövqündə olma, həsrətində olma, həsrətini çəkmə; şövq, həvəs, şiddətli arzu, həsrət.

İtgə-itki

**İTGƏ** – Qızılquş və qırğı balalarına xalq arasında verilən ad.

**İTKİ** – 1. İtirilmiş şey; 2. Ölüm.

İttihad-ittiham

**İTTİHAD** – Birləşmə, birlik, ittifaq.

**İTTİHAM** – Birisinə qarşı irəli sürülən təqsir, günah, suç.

Iycal-iycil

**İYCAL –** İyə sahib.

**İYCİL** – İyi tez hiss edən, iyi tez duyub ov dalınca düşən.

## K

Kabarqa-qabırğa

**KABARQA** – Cütdırnaqlı ceyranabənzər heyvan olub, kaberqalar ailəsindəndir. “Muskus gəzdirən” deməkdir.

**QABIRĞA** – Fəqərələri döş qəfəsi ilə birləşdirən qövsşəkilli sümük.

Kabel-qabil

**KABEL** – Elektrik enerjisini, səs siqnallarını nəql etmək üçün üstü hermetik örtülü məftil.

**QABİL** – İstedadlı, qabiliyyətli. Hər şeyi tez qavrayan, zehinli, zəkalı.

Kadet-katet-kotlet

**KADET**– 1905-ci ildə çar Rusiyasında yaradılmış, imperialist burjuaziyanın başlıca partiyası olan konstitusion-demokratik partiyanın üzvü, ya tərəfdarı.

**KATET** – Düzbucaqlı üçbucaqda düz bucağı əmələ gətirən tərəflərdən biri.

**KOTLET**– Döyülmüş və ya əzilmiş ətdən girdə və ya uzunsov, yastı şəkildə hazırlanan yemək.

Kafe-kofe

**KAFE** – Qəhvə, çay, qəhvəaltı və s. satılan kiçik restoran.

**KOFE**– Qəhvə.

Kafir-kafur

**KAFİR** – Müsəlman olmayan, islam dininə etiqad etməyən, qeyri-müsəlman.

**KAFUR (kimy.)** – Həmin adda ağacın kitrəsindən alınan, təbabətdə və texnikada işlədilən kəskin və spesifik qoxulu maddə.

Kaftan-kaftar

**KAFTAN** – Uzunətəkli qədim kəndli paltarı, don.

**KAFTAR** – Səhra və yarımsəhra yerlərdə yaşayan və başlıca olaraq leş yeməklə keçinən məməli heyvan; goreşən.

Kaha-kahı

**KAHA** – Qayalıqda, dağda təbii və süni oyuq.

**KAHI** – Yaşıl-ağımtıl yarpaqları və kökü çiy yeyilən birillik tərəvəz bitkisi.

Kahıl-kahin

**KAHIL** – Başısoyuq, tənbəl, işə can yandırmayan.

**KAHİN** – Qədim misrlilərdə, israillilərdə qeybdən xəbər verən ruhani.

Kal-kar

**KAL** – 1. Dəyməmiş, yetişməmiş, göy; 2. Kütbeyin, gec anlayan.

**KAR** – 1. Eşitmək qabiliyyətini tamamilə və ya qismən itirmiş; 2. İş, peşə, məşğələ; 3. Təsir.

Kalafa-kalava

**KALAFA** – Dağılmış tikintinin qalığı, dağılmış yer, xaraba.

**KALAVA –** Dərə.

Kalım-kilim

**KALIM (başlıq)** – Orta Asiyada: evlənərkən oğlanın qızın ata-anasına verməli olduğu pul, mal, başlıq və s.; bu adətin özü.

**KİLİM** – Yun və ya pambıqdan toxunan zolaqlı, xovsuz palaz növü.

Kamal-kaman-kamil

**KAMAL** – Kamillik, yetkinlik.

**KAMAN** – Alt tərəfi düz üstünə qoyulub yayla çalınan musiqi aləti; kaman.

**KAMİL** – Nöqsansız, qüsursuz, bitkin, tam, mükəmməl.

Kameliya-kameya

**KAMELİYA (bitki)** – Tüklü yarpaqları və iri gözəl gülləri olan ağac; gül adı.

**KAMEYA** – Daş və ya balıqqulağından qayrılmış bəzək.

Kampaniya-kompaniya

**KAMPANİYA** – Ümumiyyətlə, bir cəbhədə keçirilən hərbi əməliyyat, müharibə, hərbi yürüş, hərbi səfər.

**KOMPANİYA** – 1.Şirkət; 2. Məclis, qonaqlıq.

Kamvol-kamzol

**KAMVOL** – Zərif daranmış. Kamvol yun. Kamvol parça.

**KAMZOL**– Kişi geyimi olub, dizə qədər olan, bəzən qolsuz, kaftan altından geyilən geyim.

Kanton-kanyon

**KANTON**–Bəzi xarici ölkələrdə inzibati ərazi bölgüsü.

**KANYON**–Sıldırımlı dağ-dərə.

Kaper-kapers

**KAPER** – Dəniz quldurluğu ilə məşğul olan gəmi; bu cür gəminin sahibi.

**KAPERS**– Çöl bitkisi, yerqulağı.

Kapital-kapitan-kapitel

**KAPİTAL** – Sahibinə muzdlu fəhlələri istismar yolu ilə izafi dəyər gətirən dəyər (sərmayə, istehsalat vasitələri və s.).

**KAPİTAN –** Orduda baş leytenant rütbəsindən sonra gələn zabit rütbəsi**.**

**KAPİTEL** – Kiçik başlıqlar (şrift).

Kapron-karbon-karbol

**KAPRON** – Süni lif növü.

**KARBON** – Təbiətdə bütün üzvi maddələrin ən mühüm tərkib hissəsi olan element.

**KARBOL** – Spesifik iyi olan zəhərli dezinfeksiya maddəsi –fenol karbol məhlulu.

Kaptal-kapital-kapral

**KAPTAL(poliq.)** – Kitab cildlənmənin elementi.

**KAPİTAL** – 1.Əsas, dominant, başlıca; 2.Muzdlu fəhlələrin zəhmətinin istismarından alınan dəyər.

**KAPRAL** – Bəzi ölkələrin ordularında və XVII əsrdən XIX əsrin I yarısına qədər rus ordusunda kiçik komanda heyətinə məxsus hərbi rütbə və bu rütbəni daşıyan şəxs; onbaşı.

Karaib-karaim

**KARAİB** – Cənubi Amerikada yaşayan hindlilərin bir qrupu.

**KARAİM** – Krımda və Litvada, habelə Polşada yaşayan türkdilli xalq və bu xalqa mənsub adam.

Kargər-kargir

**KARGƏR** – Fəhlə, əmələ, işçi.

**KARGİR** – Təsir, əlac.

Karteç-katric

**KARTEC** – İçi xırda güllələrlə doldurulmuş top gülləsi.

**KATRİC –** Yazıları çap vərəqində çıxardan cihaz.

Karter-krater

**KARTER** – Mexanizmi zədədən və tozdan qoruyan qurğu.

**KRATER** – Vulkan zirvəsində: püskürtü zamanı lavanın çıxdığı kasa və ya qıf şəklində çökəklik.

Karton-kərdan-kordon

**KARTON –** Xüsusi qaydada hazırlanmış qalın bərk kağız.

**KƏRDAN** – Edən.

**KORDON** – 1. Sərhəd mühafizə dəstəsi, qarovul xətti; 2. Meşə gözətçisinin postu.

Karyer-karyera

**KARYER** – Karxana.

**KARYERA** – Xidməti və ya başqa fəaliyyət sahəsində irəliləmə; şöhrətlənmə, tanınma; mənsəb, şöhrət.

Katarsis-katarsus

**KATARSİS (ədəb.psix.)** – Tərbiyəvi məna ifadə edən faciədə həyəcanın yüksək harmoniyası.

**KATARSUS** –Təmizlənmə, mənəviyyatca pak olma.

Keçəl-köçəl

**KEÇƏL**– Baş dərisinin xəstəliyi nəticəsində başının tükü tökülən şəxs.

**KÖÇƏL** – Xırman sovrulanda taxılla saman arasında qalan çör-çöp, iri saman, sünbül və s.

Keçilmək-keçinmək

**KEÇİLMƏK** – Hərəkət edərək, yeriyərək, adlayaraq irəliləmək, yer dəyişmək, ötüb getmək.

**KEÇİNMƏK** – Ölmək.

Ked-kelt-ket

**KED** – Parça və rezindən tikilmiş idman ayaqqabısı.

**KELT** – Qədim zamanlarda Qərbi Avropada yaşamış xalqlardan biri.

**KET** – Almaniyada yaşayan xalq.

Kefir-kifir

**KEFİR** – Qatığa oxşar, süddən qatı qidalı içki.

**KİFİR** – Çirkin, eybəcər.

Keramit-keratin-keratit

**KERAMİT** – Küçələrə döşəmək üçün dördguşəli şalban başı şəklində kərpic.

**KERATİN** – Buynuz, yun, saç və s.-də olan zülali maddə.

**KERATİT** – Gözün buynuz qişasının iltihabı.

Keşkə-keşkəl-kəşkül

**KEŞKƏ** – Dərinin üzərində əmələ gələn ərp.

**KEŞKƏL** – Əkin yerinə çəkilən kiçik su arxı.

**KƏŞKÜL** – Hind qozunun qabığından qayrılıb dərviş və qələndərlərin əllərində gəzdirdikləri və diləndikləri şeyləri içinə qoyduqları qab.

Keşniş-kişmiş

**KEŞNİŞ** – Yeyilən, xörəyə tökülən xoş iyli göyərti növü.

**KİŞMİŞ**– Üzüm qurusu.

Kəbin-kəbir

**KƏBİN**– 1.Başlıq; 2.Südpulu, cehiz.

**KƏBİR** – Böyük.

Kəc-kəç

**KƏC** – Əyri.

**KƏÇ** – Suvaqda işlədilən yandırılmış ağ torpaq.

Kəf-kif

**KƏF** – 1. Köpük; 2. Əlin içi, ovuc.

**KİF** – Çürüyən və ya nəm şeylərin üstündə nazik qat şəklində əmələ gələn yüngül, yumşaq mikroskopik göbələkciklər.

Kəfə-kəfən

**KƏFƏ** – Ovuc, əlin içi, aya.

**KƏFƏN** – Meyitin sarındığı ağ, bez.

Kələk-külək

**KƏLƏK** – Hiylə, fırıldaq, badalaq, biclik, fənd, aldatma.

**KÜLƏK** – Havanın üfüqi istiqamətdə hərəkətindən ibarət təbiət hadisəsi; yel.

Kəm-gəm

**KƏM –** Az, pis, qaba, kobud, aşağı, əskik, xoşagəlməz.

**GƏM** – Vəl; sünbülü döymək üçün ata, öküzə qoşulan alət.

Kəndçi-kəndiçi

**KƏNDÇİ** – Kənddə yaşayan və əsas peşəsi kənd təsərrüfatı olan adam; kənd əhli, kəndçi.

**KƏNDİÇİ** – Kəndin iç sahəsi.

Kənək-kənik-kəlik

**KƏNƏK** – Ləpəsi çətin çıxan.

**KƏNİK –** Oyuq.

**KƏLİK** – Dəyməmiş, yetişməmiş kal qovun, yemiş.

Kəpək-köpük

**KƏPƏK** –Un ələndiyi zaman ələk üstündə qalan buğda və s.-nin qabıq qırıntıları.

**KÖPÜK** – Yırğalanan , hərəkət edən maye və yarımmaye kütlə üzərində əmələ gələn içərisi hava və ya qazla dolu girdə qabarcıqlar yığını.

Kərəm-kərən

**KƏRƏM** – Lütf, mərhəmət, inayət.

**KƏRƏN** – Yonulmamış yoğun ağac dirək, iri kötük.

Kəsb-kəsəb

**KƏSB** – Çalışıb qazanma və bunun nəticəsində əldə edilən qazanc, gəlir.

**KƏSƏB** – Müxtəlif alətləri qoymaq üçün dəridən və s.-dən düzələn xüsusi gözləri olan qab, alət.

Kəsək-kəsik

**KƏSƏK** – Quruyub bərkimiş palçıq qurusu.

**KƏSİK** – Kəsilmiş halda olan, iti bir şeylə kəsilib yaralanmış, cızılmış.

Kəsif-kisif

**KƏSİF** – Qalın, qəliz, qatı, qeyri-şəffaf, tutqun

**KİSİF** – 1.Kiflənmiş, kifsəmiş; 2. Tovuz, Gədəbəy, Salyan dialektlərində gəlir, qazanc deməkdir; 3. Müharibədə və ya başqa döyüşdə əldə edilən qənimət (Tovuz dialekti).

Kəsmət-kəsrət

**KƏSMƏT** – Təqaüd, pensiya.

**KƏSRƏT** – Çoxluq.

Kəsr-kəsir

**KƏSR** – Vahidin müəyyən hissəsini göstərən ədəd.

**KƏSİR** – Nöqsan, çatışmazlıq, çatışmayan cəhət, şey, naqislik, əgər-əskik.

Kəvər-kəvir

**KƏVƏR** – Nazik, uzun yarpaqları olan, yeyilən və acıtəhər göyəti.

**KƏVİR** – Səhra.

Kəviz-kərəviz

**KƏVİZ** – 32 kq taxıl tutan ölçü qabı.

**KƏRƏVİZ** – Çətirçiçəklilər fəsiləsindən 1-2 illik ot bitkisi.

Kilə-gilə

**KİLƏ** – 6 kq-a bərabər köhnə ağırlıq ölçüsü.

**GİLƏ –** Üzümün, narın və s. meyvələrin hər bir giləsi.

Kinetik-genetik

**KİNETİK** – Hərəkətə aid olan, hərəkətlə bağlı olan.

**GENETİK** – Genezisə aid olan, bir şeyin mənşəyini, inkişafını öyrənən.

Kinetika-genetika

**KİNETİKA** – Nəzəri mexanikanın dinamikanı və statikanı qavrayan şöbəsi.

**GENETİKA** – Biologiyanın, orqanizmlərin irsiyyətini və dəyişkənliyini öyrənən bəhsi.

Kipkəc-kirəc

**KİPKƏC** – Mexanizmin hərəkət edən hissələrinin ətrafında açıq qalan yerləri sıx-sıx qapayan və mayenin, buxarın, ya qazın sızıb çıxmasının qarşısını alan detal.

**KİRƏC** – Tikintidə, heykəltəraşlıqda, cərrahlıqda və s.-də işlənən ağ və ya sarı rəngli əhəngli mineral maddə; gəc.

Kiplik-kirlik

**KİPLİK** – Kip şeyin halı; sıxlıq, yaxınlıq.

**KİRLİK** – Bir şeyin çirklənməməsi üçün onun üzərinə çəkilən parça.

Kir-gir

**KİR** – Çirk.

**GİR** – Güc, qüvvət, taqət.

Kirpik-kirtik

**KİRPİK** – Göz qapaqlarının kənarlarındakı tükcüklər.

**KİRTİK** – Sabun işləndikdən sonra qalan kiçik hissəsi.

Kiriş-giriş

**KİRİŞ** – Möhkəm ip.

**GİRİŞ** – Girləcək yer, daxil olmaq üçün yol, yer.

Kirli-girli

**KİRLİ** – Kir tutmuş, çirk basmış.

**GİRLİ** – Güclü, qüvvətli, giri olan.

Kirvə-girvə

**KİRVƏ** – Uşaq sünnət olunarkən onu tutan adam.

**GİRVƏ** – Keçidlərdə, yollarda qar yığını.

Kist-kista

**KİST (fırça)** – Bir şeyə rəng və ya yapışqan sürtmək, yaxud sulu və ya yağlı boya ilə şəkil çəkmək üçün ucuna cod tük topası bağlanmış alət, fırça.

**KİSTA (tibb.)** – Köpük, orqan və toxumalarda patoloji hissə, müəyyən divara və şeyə malik.

Kiş-giş

**KİŞ** – Toyuqları, quşları və s. qovmaq üçün çıxarılan səs.

**GİŞ** – Alçaq növlü kəndir və ya kətan lifindən toxunmuş cod parça.

Kiver-kliver

**KİVER** – Keçmişdə hündür, təpəsi yastı, bərk hərbi papaq.

**KLİVER** – Gəminin qabaq tərəfindəki üçbucaq çəp yelkən.

Klarnet-kornet

**KLARNET** – Ağacdan qayrılmış, üstündən qapaq və deşikləri olan nəfəsli musiqi aləti.

**KORNET** – Çar süvari qoşununda birinci zabit rütbəsi. Misdən hazırlanmış nəfəsli musiqi aləti.

Klassik-klastik

**KLASSİK –**Klassik tərəfindən yaradılmış ən nümunəvi, nümunə ola biləcək klassik ədəbiyyat.

**KLASTİK** – Qırıntılı, çöküntülü şuxur.

Klavir-klavis-klaviş

**KLAVİR**–Simli klavişli musiqi alətlərinin ümumi adı.

**KLAVİS –**Açar, kilid.

**KLAVİŞ** – Fortepiano, bayan və başqa musiqi alətlərində basılmaqla səs çıxaran lövhəcik, dil.

Klem-krem-kren-kreml

**KLEM** – 1. Klem Con Linkoln; 2. Ən gənc əsgərlərdən biri. ABŞ-da vətəndaş müharibəsində iştirak edən və ABŞ hərbi tarixində ən gənc unter zabit.

**KREM** – 1.Şəkərlə çalınmış süd, yağ, qaymaq, yumurta və s.-dən ibarət qatı maddə, mət; 2.Üzə, ələ sürtmək üçün yumşaldıcı kosmetik yağ.

**KREN** – 1. Gəminin sualtı hissəsi; gəmini yanakı qoyma; 2. Siyasi mövqenin dəyişməsi.

**KREML** – Rus feodal şəhərlərinin bürclü qala divarları ilə əhatələnmiş və möhkəmlənmiş hissəsi.

Kley-kleyn

**KLEY** – Ağac, dəri, kağız, parça, şüşə və müxtəlif materialları birləşdirmək üçün orqanik və qeyri-orqanik maddələrdən düzələn çoxkomponentli qarışıq.

**KLEYN (tex.)** – 1.Ayın görünən tərəfində krator; 2. Antroponim və toponim kimi işlənir.

Klif-kif

**KLİF(coğr.)** – 1.Dəniz sularının dəyməsi nəticəsində yaranan yarğan; 2.Uçurum.

**KİF**– 1.Həşiş; 2.Bitkilərin nəmişliyi nəticəsində yaranan çürüntü

Kliker-kliper

**KLİKER**– 1. Odadavamlı kərpic; 2. İdman qayığı; 3.İstifadə zamanı çırtma səsi verən istənilən cihaz.

**KLİPER** – 1.İti gedən yelkənli gəmi; 2. Suyu yaran iti korpusa malik yelkənlə əhatə olunmuş gəmi və ya qayıq,

Klub-klupp

**KLUB** – Müəyyən ictimai qrupa, peşəyə, sənətə mənsub şəxslərin birgə istirahətini, əyləncəsini, idman məşğələlərini və s. təşkil edən ictimai təşkilat.

**KLUPP (alət) –** Dəmiri və yivi kəsici əllə və ya dəzgahla kəsmə.

Klüz-şlüz

**KLÜZ** – Gəminin burnunda lövbər zəncirinin keçdiyi deşik.

**ŞLÜZ** – Çayda, kanalda suyu saxlamaq və lazım olduqda buraxmaq üçün mütəhərrik qapı; suyu müxtəlif səviyyədə olan çaya buraxmaq üçün xüsusi qurğu. dil.

Kodein-kofein

**KODEİN** – Toz şəklində öskürək dərmanı.

**KOFEİN** – Qəhvənin, çay yarpaqlarının tərkibində olan, təbabətdə işlənən maddə.

Koğuş-kovuş

**KOĞUŞ** – Böyük ağacların gövdəsi içindəki boşluq.

**KOVUŞ** – Qovma, kiçik taxta.

Kolektor-kollektor-korrektor

**KOLEKTOR**– Silindr.

**KOLLEKTOR** –1.Bir şeyi öz tabeliyində olan təşkilatlardan toplamaq, habelə onların arasında paylaşdırmaqla məşğul olan idarə; 2. Başqa kanal və ya borulardan gələn maye və qazları toplayıb aparan böyük kanal və ya boru; 3. Dinamomaşının dəyişən elektrik cərəyanını daimi cərəyana çevirən hissəsi; 4. Faydalı qazıntı, torpaq və s. nümunələrini toplayan, onların təsvirini verən və qoruyub saxlayan adam.

**KORREKTOR** – Korrektura oxuyan və düzəldən mətbəə və ya nəşriyyat işçisi, müsəhhih, təshihçi.

Komitent-komitet

**KOMİTENT** – Komisyonerə iş tapşıran adam.

**KOMİTET**– 1. Ayrı-ayrı sahələrdə rəhbərlik etmək üçün dövlət və partiya tərəfindən yaradılmış orqan; 2. İclas, sovet.

Komissar-emissar

**KOMİSSAR** – Keçmiş SSRİ-də: üzərinə ictimai-siyasi, təşkilati və inzibati həvalə olunmuş rəhbər şəxs.

**EMİSSAR** – Hər hansı bir siyasi təşkilat və ya dövlət təşkilatı tərəfindən məxfi tapşırıqla başqa bir ölkəyə göndərilən şəxs.

Kommunar-kommunal

**KOMMUNAR** – 1871-ci ildə Paris Kommunası iştirakçısı.

**KOMMUNAL** – Şəhər təsərrüfatına aid olan.

Kompakt-kontakt

**KOMPAKT** – Sıxılmış, həcmcə az yer tutan, miqyasca kiçilmiş, yığcam.

**KONTAKT** – Elektrik xətlərinin bir-birinə toxunması.

Komparator-komprador

**KOMPARATOR** – Analoji siqnalları fərqləndirən cihaz.

**KOMPRADOR** – Xarici kapitalla yerli bazar arşında alıcı, yerli sahibkar, iş adamı.

Kompas-kompost

**KOMPAS** – Maqnitləşdirilmiş əqrəbi həmişə şimalı göstərməklə dünyanın cihazlarını təyin edən cihaz.

**KOMPOST** – Heyvan, mineral və ya bitki tullantılarının torf, yaxud torpaqla qarışığından alınan üzvi gübrə.

Kompleks-komplekt

**KOMPLEKS** – Bir vəhdət təşkil edən şeylərin və ya hadisələrin məcmusu.

**KOMPLEKT** – Tam təşkil edən şeylərin toplusu.

**KOMPRES** – Müalicə məqsədi ilə ağrıyan yerə qoyulan yaş sarğı.

Kompressiya-kompressor

**KOMPRESSİYA** – Sıxma, qazın motor silindrində sıxılması.

**KOMPRESSOR** – Havanı, buxarı, qazı sıxmaq üçün maşın.

Konkret-konqruent

**KONKRET –** Tam, dəqiq, aydın, müəyyən real mövcud olan, qəti.

**KONQRUENT** – Bərabər.

Konsepsiya-konsessiya

**KONSEPSİYA**– Hər hansı bir hadisə haqqında əsas fikir; görüşlər sistemi.

**KONSESSİYA** – Ölkə daxilində sənaye müəssisələri təşkil etmək, faydalı qazıntıları çıxarmaq və s. üçün müəyyən şərtlərlə dövlətlə və ayrı-ayrı kapitalistlər arasında bağlanan müqavilə.

Konservatoriya-observatoriya

**KONSERVATORİYA** – Ali musiqi məktəbi.

**OBSERVATORİYA**– Bir və ya bir neçə teleskopa malik ulduzları müşahidə etmək məqsədilə astronomik abservotoriya.

Konsol-konsul

**KONSOL** – Konstruksiya elementi olub, özlüyündə ya divara bərkidilən taxtanı ifadə edir ki, onun bir ucu möhkəm bərkidilir, digər hissəsinin sonuna yük qoyulur; ya da iki taxta üzərində dayanan körpüdür ki, mərkəzdə birləşdirici elementlə bərkidilib və dayaqlara söykənərək yükü saxlayır.

**KONSUL** – Bir dövlətin başqa bir dövlətin məntəqəsində öz dövlətinin və onun vətəndaşlarının hüquqlarını təmsil və müdafiə edən vəzifəli şəxs.

Konsonans-konsonant- kosmonavt

**KONSONANS** – Musiqidə səs uyğunluğu, ahəng.

**KONSONANT** – Samit səs.

**KOSMONAVT** – Kosmik fəzaya uçan adam.

Kontingent-kontinent

**KONTİNGENT** – Hər hansı bir kollektivi təşkil edən adamlar heyəti.

**KONTİNENT** – Ölkə, materik.

Kontakt-kontrakt-kontrast

**KONTAKT** – Elektrik xətlərinin bir-birinə toxunması.

**KONTRAKT** – Müqavilə, bağlaşma.

**KONTRAST** – Təzad, ziddiyyət.

Konkret-konqruent

**KONKRET** – Tam, dəqiq, aydın, qəti, müəyyən, real, mövcud olan.

**KONQRUENT**– Müxtəlif ekzemplyarların birliyi, adekvatlığı.

Konveksiya-konvensiya-konversiya-konfessiya

**KONVEKSİYA**– Enerjinin maye və qaz axını (maddə daşınması) ilə köçürülmə prosesi konveksiya adlanır. Bəzən konveksiya prosesində yaranan maye və qaz axını konvektiv axın da adlandırılır. Hərəkət edən mühitin, məsələn, havanın, buxarın və ya mayelərin hərarətini özləri ilə aparması.

**KONVENSİYA** – Xüsusi bir məsələyə dair beynəlxalq saziş, müqavilə.

**KONVERSİYA** – 1. Vaxtilə buraxılmış dövlət istiqraz şərtlərinin dəyişməsi; 2. Sözün öz morfoloji və fonetik tərkibini saxlamaqla bir nitq hissəsindən başqasına keçməsi.

**KONFESSİYA** – Rəsədxana.

Konvent-konfet-konvert-korvet

**KONVENT** – Bəzi ölkələrdə: xüsusi qanunvericilik hüququna malik olan seçkili orqanların adı, şura, məclis.

**KONFET**– Adətən kiçik piltə, yastı həb, kiçik şar və s. şəklində şirniyyat məmulatı.

**KONVERT** – Zərf, məktub.

**KORVET** – Qədim üçmaçtlı hərbi gəmi.

Konveyer-konteyner

**KONVEYER**– İşlənib hazırlanan şeyləri bir yerdən başqa yerə ötürmək və ya nəql etmək üçün arasıkəsilmədən hərəkət edən qurğu.

**KONTEYNER** – Rezervuar, bak.

Konyektura-konyuktura

**KONYEKTURA**– Filologiyada pozulmuş mətnin zənnə görə bərpa edilməsi.

**KONYUKTURA** – Vəziyyət, şərait.

Konyuktiva-konyuktivit

**KONYUKTİVA** – Gözün, göz qapağının içəridən üstünü və göz almacıqlarının qabaq hissəsini örtən selikli qişası.

**KONYUKTİVİT** – Konyuktivin iltihabı.

Kor-gor

**KOR** – Görmək qabiliyyətini itirmiş, gözü görməyən.

**GOR**– Qəbir, məzar.

Kord-korda

**KORD** – Çox möhkəm parça növü, qabarıq zolaqlı yun parça.

**KORDA** – At təlimində işlənən uzun ip, qırmanc.

Kordoba-Kordova

**KORDOBA** – Pul vahidi.

**KORDOVA** – Əndəlus əməvi dövləti.

Korrekt-korset

**KORREKT** – Ədəbli, nəzakətli, ətrafdakılara qarşı hörmət gözləyən.

**KORSET** – Bədəni şax saxlamaq, beli sıxmaq üçün paltarın altından bağlanan enli elastik kəmər.

Korrida-korrido

**KORRİDA** – İsp. qaçış, cəld hərəkət, yaxud öküz döyüşdürülməsi.

**KORRİDO** – 1. Meksika mahnı janrı; 2. İtaliyada kommuna.

Kortizon-kurtizan

**KORTİZON (tibb.)** – Kortizon hormonu. Kortizon hormonu ağrı, qəza, yaralanma, infeksiya, həddən artıq isti, həddən artıq soyuq, allergiya, oksigensiz qalmaq, aclıq, atəş yüksəldən faktorlara qarşı insan bədəni içində, bir çox fərqli cəbhədə insan üçün mübarizə aparır.

**KURTİZAN**– Yüksək cəmiyyətdə yüngül əxlaqlı qadın.

Kotul-kotur-kontur

**KOTUL** – Kobud, nəzakətsiz.

**KOTUR**– İncəlikdən məhrum, qaba, kobud, əziyyətlə dolu, ağır.

**KONTUR** – 1. Bir şeyin qrafik xətlərə xarici təsviri; bir şeyi çevrələyən xətt, çevrə, elektrik və radius. Keçiricilərin qapalı dövrəsi; 2. Kontur xəritə – coğrafi adlar yazılmamış tədris xəritəsi; 3. Kontur xətt – qırıq xətt, nöqtələrdən ibarət olan xətt.

Köbər-kövər-kövsər

**KÖBƏR** – Dik yer, dikdir, dik torpaq qalağı, hündür yer.

**KÖVƏR – 1.** Mal-qara üçün ayrılmış örüş yeri mənasındadır; 2.Yevlax rayonunun Malbinəsi i.ə.v.-də kənd. Gövər variantı da mövcuddur. Qarabağ kanalının sahəsində, Qarabağ düzündədir.

**KÖVSƏR–** Dini əfsanəyə görə cənnətdə olan bulağın adı.

Köpək-köpük

**KÖPƏK** – İt.

**KÖPÜK** – Qəpik, pul.

Körpə-körpü

**KÖRPƏ** – Südəmər, çağa.

**KÖRPÜ** – Çay, dəmiryol və s. üzərindən keçmək üçün daşdan, taxtadan, dəmirdən qurulan tikinti, keçid.

Köy-göy

**KÖY** – Kənd.

**GÖY** – 1.Yaşıl; 2. Simic, xəsis; 3. Kürəkən.

Köz-göz

**KÖZ** – Od yandıqdan sonra qalan alovsuz, qızmar kömür.

**GÖZ** – İnsan və heyvanda görmə orqanı.

Közəl-gözəl

**KÖZƏL** – Xırman sovrulanda taxılla sünbül arasında qalan çör-çöp, qırıntı.

**GÖZƏL** – Sifətinin cizgiləri, bədəninin tənasübü, qaş-gözü qüsursuz olan, göyçək.

Kral-kran-kron

**KRAL** – Bəzi feodal və burjua dövlətlərində: hökmdarın titulu; padşah, habelə həmin titulu daşıyan şəxs.

**KRAN** – Çən, boru və s.-də maye və ya qazları açıb buraxmaq və qapamaq üçün boru şəklində lüləyi olan cihaz.

**KRON** – Bəzi Avropa ölkələrində pul vahidi, metal pul.

Kraker-kreker-kvaker

**KRAKER** – 1. Barıt; 2. Biskvitin bir növü; 3. Qırılan şey və ya qıran alət.

**KREKER –** Buğda unu və yağdan hazırlanan qənnadı məmulatı.

**KVAKER** – Mövcud xristian təriqətlərindən və dinlərindən məmnun olmayanlar tərəfindən 17-ci əsrin ortalarında İngiltərənin şimal-qərbində ortaya çıxan məzhəb.

Kreatin-kreativ

**KREATİN –** Azot tutumlu karbon turşusu olaraq orqanizmdə onurğada müşahidə olunur**.**

**KREATİV** – Yaradıcı.

Kredo-kredit-krevo

**KREDO** – Məslək, əqidə.

**KREDİT** – Borc alaraq pul və ya mal vermə.

**KREVO** – Belorusiyada aqroşəhərcik. Qrodnen vilayətinin Smorqonsk rayonunun kənd sovet mərkəzi.

Kreozol-kreozot

**KREOZOL** – Orto, meta və paraizomerlər olub rəngsiz kristallar və ya mayedir. Zəif kislota olub suda, asetonda, benzolda, etanolda yaxşı qarışır.

**KREOZOT** – Rəngsiz, tez alışan, suda çətin həll olunan, yağlı maye. Güclü iyə və yandırıcı dada malikdir. Daş və ağac qətrandan alınır.

Kreol-krol

**KREOL** – Latın Amerikasında ilk məskən salan ispan və portuqalların nəsli. Avropalılardan doğulan ispan və portuqalların nəsli.

**KROL** – Qarın üstə üzmə növü. Üzməyin daha sürətli növü.

Krem-kreml-kren

**KREM (soda) –** İçinə vanilli dondurma qatılmış şəkərli içki**.**

**KREML –** Yuxarı şəhər və ya iç qala.

**KREN (dəniz)** – Gəminin suyun altında olan hissəsi və yan-yana qoyulan hissə.

Kriket-kroket

**KRİKET**– Ağacla oynanılan top oyunu.

**KROKET** – Şarları taxta çəkiclərlə vurub məftil qapılardan keçirməkdən ibarət oyun.

Kriofil-kriolit

**KRİOFİL** – Nisbətən alçaq temperaturda yaşayan və çoxalan orqanizm.

**KRİOLİT** – Təbii ftoridlərdən olan nadir mineral.

Kriosar-kruasan

**KRİOSAR** – Elektrik şəbəkəsinin söndürülməsi üçün tez təsir edən cihaz.

**KRUASAN** – Qat-qat xəmirdən olan yarımçıq ay formasında, tərkibində 82% yağ olan kiçik qənnadı məmulatı.

Kubik-kubok

**KUBİK** – Kub şəkilli kiçik şey. Üzərinə şəkillər yapışdırılmış kiçik kub şəklində taxta parçalarından ibarət uşaq oyuncağı.

**KUBOK** – İdman yarışlarında qalib gələnə priz kimi verilən qiymətli vaz, qab.

Kuful-kuluf-qıfıl

**KUFUL** – Ağacın qurumuş yerlərində əmələ gələn boşluq; koğuş.

**KULUF –** Tənə, sərki.

**QIFIL** – Qıfıllamaq üçün açarla bağlanıb açılan alət; kilid.

Kuza-kuzə

**KUZA** – Ban.

**KUZƏ** – Darboğazlı, aşağısı enli, qulplu saxsı su qabı, balaca səhəng, bardaq.

Küçə-küçü

**KÜÇƏ** – Nəqliyyatın və adamların hərəkəti üçün yaşayış məntəqələrində iki sıra tikililər arasındakı açıq sahə, boş yer, yol.

**KÜÇÜ (xalç.)** – 1.İpək qozası; 2. Xalçaçılıqda işlənən alət.

Küdül-kühül

**KÜDÜL** – Quyruğu olmayan, quyruqsuz.

**KÜHÜL** – 1.30-50 yaş arasında olan şəxslər, orta yaşlı adamlar; 2. İpək qozası.

Küflə-külfə-külüf

**KÜFLƏ** – Təndirin hava sorduğu deşik.

**KÜLFƏ** – Tikilinin damında işıq düşmək üçün baca, işıq yeri.

**KÜLÜF** – Daş, qaya dibində oyuq yer, balaca mağara.

Kül-gül

**KÜL** – Yanmış şeylərdən qalan boz-qara rəngli toz.

**GÜL** –Çiçək.

Küləş-güləş

**KÜLƏŞ** – Taxıl döyüldükdən sonra qalan quru çöplər, iri saman.

**GÜLƏŞ** – 1. Bir-birinin kürəyini yerə vurmağa çalışmaq; 2. Üzü gülər.

Külxan-gülxar

**KÜLXAN** – 1. Odunla qızdırılan hamamın odluğu, ocağı; 2. Hamamın ocaqxanası.

**GÜLXAR** – Tikanlı gül, çiçək, zilli gül.

Kür-gur

**KÜR** – Ağlayan, qışqırıqçı, şıltaq.

**GUR** – Güclü, qüvvətli, şiddətli.

Kürd-kürt

**KÜRD** – Azərbaycan, Türkiyə, Suriya, İraq, İran, Türkmənistan, Əfqanıstan və Pakistanda yaşayan irandilli xalq və bu xalqa mənsub adam.

**KÜRT** – Quşların bala çıxarma zamanındakı vəziyyəti, halı.

Kürdi-kürdü

**KÜRDİ** – Əsasən kamançada ifa olunan lirik musiqi.

**KÜRDÜ** – Boynuna, ətəyinə, yaxasına və qol yerlərinin kənarlarına xəz və s. tikilmiş qolsuz üst geyimi.

Küz-güz

**KÜZ** –1. Quzu saxlamaq üçün alçaq, ensiz tikili; 2. Əkin yerini hissələrə bölmək üçün cüt və ya kotanla açılan şırım.

**GÜZ** – Payız.

Kvadrant-kvadrat

**KVADRANT(riyaz.)** – Dairənin dörddə bir hissəsi.

**KVADRAT** – Dörd tərəfi bərabər düzbucaq.

Kvaker-kreker

**KVAKER –** Hakimiyyətə qarşı çıxan aristokratlar.

**KREKER** – Şəkərsiz, kiçik, duzlu biskvit.

Kvas-kvars

**KVAS** – Çörəkdən, undan və s.-dən hazırlanan turşməzə içki.

**KVARS** – Kristallar, yaxud başdan-başa kristal kütlələr halında təsadüf edilən rəngsiz mineral, silisium oksidi.

Kvartet-kvintet

**KVARTET** – Dörd musiqi aləti və dörd səs üçün yazılmış musiqi əsəri.

**KVİNTET(mus.)** – Beş musiqi aləti və ya beş səs üçün yazılmış musiqi əsəri.

Kvirit(lər)-kvit

**KVİRİT(lər)** – Respublika dövründə qədim Romanın tam hüquqlu vətəndaşlarının rəsmi adı.

**KVİT** – 1. Hesablaşma; 2. Borc, müqavilə, hesablaşma.

Kvorum-forum

**KVORUM (hüq.)** – Yetərsay, yetərsəs.

**FORUM** – Qədim Romada: şəhərin ictimai həyatının mərkəzləşdiyi yer; meydan.

## Q

Qabaq-qabıq-qapaq

**QABAQ** – 1. Əvvəl, irəli; 2. Qarpız, qovun və xiyar cinsindən yerə yayılan iriyarpaqlı bir bitkinin uzunsov, ya girdə sarımtıl meyvəsi, balqabaq, kudu.

**QABIQ** – Bir şeyin üstünü örtən sərt örtü.

**QAPAQ** – Hər hansı bir şeyin üstünü örtən hissəsi.

Qabar-qubar

**QABAR** – Bədəndə dərinin altında əmələ gələn sulu qabarcıq.

**QUBAR** – 1. Toz, torpaq; 2. Dərd, kədər, qəm, qüssə.

Qabil-kabel

**QABİL** – İstedadlı, qabiliyyətli.

**KABEL** – Elektrik enerjisini, səs siqnallarını nəql etmək üçün üstü hermetik örtülü məftil.

Qaboy-kovboy

**QABOY –** Nəfəsli ağac musiqi aləti**.**

**KOVBOY** – Amerikanın qərbində xüsusi geyimdə və at belində mal-qara otaranlara verilən ad.

Qac-qaç

**QAC** – 1. Düşmən, zidd, əks, müxalif; 2. Yer sulamaq üçün ayrılan kiçik arx.

**QAÇ –** İti, cəld addımlarla getmək, çox iti getmək, yüyürmək.

Qaçaq-qoçaq

**QAÇAQ** – Çarlıq dövründə hökumətin zülüm və ədalətsizliyinə dözməyərək həbsdən və ya sürgündən qaçan adam.

**QOÇAQ** – İgid, şücaətli, rəşadətli, qorxmaz, mərd.

Qadaq-qədək

**QADAQ** – Bıçaq, qayçı, kəlbətin kimi alətlərin tiyəsini canına bərkidən bənd, ox.

**QƏDƏK** – Pambıqdan toxunan sadə və ucuz parça, tünd göy rəngə boyanmış bez.

Qadir-qədir

**QADİR** – Qüdrətli, böyük qüvvət və qüdrət sahibi olan.

**QƏDİR** – Dəyər, qiymət, etibar.

Qafil-qafilə-qafiyə

**QAFİL –** Nə edəcəyini, başına nə gələcəyini qabaqcadan düşünməyib, işini boş tutan; qəflətdə olan, ehtiyatsız, diqqətsiz, xəbərsiz.

**QAFİLƏ –** Birlikdə yol gedən atlılar və s. dəstəsi; karvan.

**QAFİYƏ –** Şeirdə: beytlərin və ya beytlərin son söz və ya səslərinin uyğunluğu, həmahəngliyi.

Qaxac-qaxınc

**QAXAC** – 1. Günəşdə və ya başqa üsul ilə qurudulmuş ət; 2. Çox quru və ya qurudulmuş şey haqqında.

**QAXINC** – Edilən yaxşılığı adamın üzünə vurma, minnət qoyma, tənə etmə.

Qaib-qalib

**QAİB** – Hazır olmayan, gəlməmiş, gözdən uzaqda olan.

**QALİB** – Üstün gələn, qələbə çalan.

Qail-qaim

**QAİL** – İnanan, razı olan.

**QAİM** – Sabit, davamlı, möhkəm.

Qalac-qallac-qolac

**QALAC** – Kömbə (çörək).

**QALLAC** – Əliaçıq, səxavətli.

**QOLAC** – Qolları hər iki tərəfə açdıqda bir əlin barmaqları ucundan o biri əlin barmaqları ucuna qədər olan məsafə, ara.

Qalaq-qalıq

**QALAQ** – Bir neçə qalanmış, üst-üstə yığılmış, yığın halında olan şey; yığın, topa.

**QALIQ** – Bir şeyin işləndikdən sonra yerdə qalan hissəsi, parçası.

Qalet-qələt

**QALET** – Peçenye növü.

**QƏLƏT** – Səhv, xata, yanlış, yanılma.

Qalib-qaliba

**QALİB** – Üstün gələn, qələbə çalan.

**QALİBA** – Çox ehtimal ki, zənnimcə, yəqin ki, mənə görə.

Qalpaq-qaltaq

**QALPAQ** – Mahuddan, keçədən, bezdən və yaxud dəmirdən hazırlanan baş örtüsü, papaq.

**QALTAQ** – Yəhərin ağacdan olan hissəsi.

Qammaz-qanmaz

**QAMMAZ** – Müxtəlif ağac və bitkilərdə xəstəlik.

**QANMAZ** – Anlamaz, anlaqsız, düşüncəsiz, qanacaqsız, ədəbsiz, tərbiyəsiz.

Qanbir-qanbur

**QANBİR** – Bir qandan, bir nəsildən, bir soydan olan.

**QANBUR** – Döş və ya arxa sümüklərinin əyilməsi nəticəsində beli qoz kimi qalxıq; donqar, qozbel.

Qandal-qanqal

**QANDAL** – Keçmişdə ağır cinayət işləmiş məhbusların əl və ayaqlarına keçirilən dəmir halqalı zəncir.

**QANQAL** – Yarpağı tikanlı, özəyi yeyilən alaq bitkisi; qalağan.

Qantar – qan-tər

**QANTAR** – Ağır şeyləri çəkmək üçün böyük tərəzi.

**QAN-TƏR** – Çox ağır, əziyyətli, yorucu iş nəticəsində bərk tərləmə.

Qapçaq-qıpçaq

**QAPÇAQ** – Taxtadan qayrılmış su və ya şərab qabı; çəllək.

**QIPÇAQ** – XI-XII əsrlərdə qədim rus torpaqlarını tutmuş, peçeneqlərə yaxın türkdilli xalq.

Qarabaşaq-qarabaş

**QARABAŞAQ** – Toxumundan un, yarma hazırlanan tarla bitkisi.

**QARABAŞ** – Qulluqçu, kəniz.

Qaraca-qaraçı

**QARACA** – 1. Qara rəngli, qaramtıl; 2. Dəyərsiz, qiymətsiz mənasında; 2. Dəni qara toz halına salan taxıl xəstəliyi.

**QARAÇI** – 1. Avropa, Asiya və Afrikada köçəri və yarımköçəri qruplar halında yaşayan və əslən hindistanlı olan bir xalq; 2. Qışqırıqçı, küy-kələkçi, həyasız adam mənasında; 3. Xəsis; 4. Yolçu, dilənçi.

Qaramal-qaranal

**QARAMAL** – Buynuzu iri ev heyvanı (öküz, camış, inək).

**QARANAL** – Nalsız, nallanmamış.

Qarət-qiraət

**QARƏT** – Bir ölkəni, xalqı, camaatı soyma, var-yoxunu zorla əlindən alma; çapqın, çapovul, talan.

**QİRAƏT** – Müəyyən üsul və qayda ilə oxuma.

Qarğa-qarğı-qırğı

**QARĞA** – Leş və böcəklərlə qidalanan iri, döşü boz-qara quş.

**QARĞI** – Sulaq yerlərdə bitən uzun, içi boş gövdəli, buğumlu bir bitki, qarğı.

**QIRĞI** – Balaca quşları ovlayan iti və uzun caynaqlı, qısa qarmaq dimdikli yırtıcı quş.

Qasib-qasid

**QASİB** – Qəsb edən, zorla alan.

**QASİD** – Xəbər və ya məktub aparıb-gətirən adam, çapar, elçi.

Qatar-katar-qatır

**QATAR** – 1. Bir-birinin ardınca sıralanmış heyvanlar düzümü; qafilə, karvan; 2. Klassik muğam; 3. Dəmiryol vaqonlarının düzülüşü.

**KATAR** – Hər hansı bir bədən üzvünün selikli qişasının iltihabı.

**QATIR** – Eşşəklə madyanın cütləşməsindən törəyən yük heyvanı.

Qayıq-qıyıq-qiyaq

**QAYIQ** – Su nəqliyyat vasitəsi.

**QIYIQ** – 1. Gözlərinin ucu dar, qıyılmış; 2. Torba, çuval və s. tikməyə məxsus iri iynə, çuvalduz.

**QİYAQ** – Nazik şüy şəklində bitən yarpaqsız ot, bitki.

Qayım-qayın

**QAYIM** – 1. Uca, bərk, zil; 2. Bərk, möhkəm, ağır, tutarlı; 3. Simic, xəsis, bərk.

**QAYIN** – Ər və ya arvadın qardaşı.

Qaymaq-quymaq-qaynaq

**QAYMAQ** – Bişirilən, ya sərilən südün, yaxud qatığın üzünə yığılan yağ kütləsi.

**QUYMAQ –** Yağla bişirilərək bal və şəkərlə yeyilən xəmir yeməyi.

**QAYNAQ** – 1.Hər şeyin qaynayıb çıxdığı yer; 2. Metalda qaynayıb bitişən yer.

Qaysar-kövsər

**QAYSAR**–1. Hökmdar, padşah; 2. Roma, Bizans və Osmanlı imperiyasının titulu.

**KÖVSƏR** – Dini əfsanəyə görə cənnətdə olan bir bulağın adı.

Qazı-qazi

**QAZI** – Müsəlmanlarda dini məhkəmə işlərnə baxan ruhani, şəriət hakimi.

**QAZİ** – Qəza edən, düşmənə qarşı müharibə edərək qalib gələn.

Qazmaq-qaznaq

**QAZMAQ** – 1. Hər hansı bir alət ilə torpağı qaldırıb oymaq, dərinləşdirmək, oyuq açmaq, çuxurlamaq; 2. Aşın qazmağı.

**QAZNAQ** – Qazılmış yer, çuxur yer; qazıq, çuxur.

Qeyb-qeyd

**QEYB** – 1. Hazır və göz önündə olmama, qaiblik; 2. Dinə görə gözəgörünməz olan ruhi aləm.

**QEYD** – 1. Qısa surətdə yazma; 2. Bir şey haqqında yazılı və şifahi fikir.

Qəbalə-qəbilə

**QƏBALƏ** – Bir mülkün və s.-nin alınıb-satılması haqqında rəsmi sənəd.

**QƏBİLƏ** – İbtidai cəmiyyətdə: bir soydan törəmiş və bir rəisin idarəsi altında birlikdə yaşayan köçəri tayfa, nəsil; əşirət, oymaq.

Qəbil-qəbul

**QƏBİL** – Cür, növ, kimi, cins.

**QƏBUL** – Verilən, tənzim edilən, göndərilən, təklif edilən şeyi alma.

Qəbir-qədir

**QƏBİR** – Ölüləri basdırmaq üçün xüsusi bir şəkildə qazılan çuxur.

**QƏDİR** – Dəyər, qiymət, etibar, hörmət, heysiyyət, ləyaqət.

Qəbz-qəbiz

**QƏBZ** – Pul, qiymətli şey və s.-nin alınması, qəbul edilməsi haqqında verilən kağız, sənəd.

**QƏBİZ** – Qarnı bağlanma, mədəsi işləməmə.

Qəcələ-qəcərə

**QƏCƏLƏ** – Sağsağan.

**QƏCƏRƏ** – Yəhərin üstündən salınan bəzəkli örtü, cecim.

Qədəh-qədək

**QƏDƏH** – Şərab, su və s. içməyə məxsus qab, piyalə, kasa.

**QƏDƏK** – Pambıqdan toxunma sadə və ucuz parça, tünd göy rəngli bez.

Qədəm-qədim

**QƏDƏM** – 1. Addım; 2. Ayaq.

**QƏDİM** – 1. Çox köhnə zamana, çox uzaq keçmişə məxsus və aid olan; 2. Köhnə, təcrübəli, əski.

Qədər-kədər

**QƏDƏR** – 1. Miqdar, say, kəmiyyət; 2. Tale, qismət, müqəddərat, alın yazısı.

**KƏDƏR** – Qəm, qüssə, dərd, ruhi iztirab.

Qəflət-qəhət

**QƏFLƏT** – Qafillik, xəbərsizlik.

**QƏHƏT**– Qıtlıq, yoxluq, quraqlıqdan məhsulun azlığı, tapılmaması.

Qəhər-qəhmər

**QƏHƏR** – Hiddət, qəzəb, acıq.

**QƏHMƏR** – Tərəfdar, arxa, kömək, havadar.

Qəlb-qəlib-qəlp

**QƏLB** – Ürək.

**QƏLİB** – Bir şeyə bu və ya digər şəkil vermək üçün onun içinə keçirilən alət.

**QƏLP**– Saxta, yalançı, yapma, qayırma.

Qələbə-Qəbələ-qələmə

**QƏLƏBƏ** – Qalibiyyət, müharibədə, döyüşdə tam müvəffəqiyyət.

**QƏBƏLƏ** – İsmayıllı rayonunda kənd.

**QƏLƏMƏ** – Düz uzanıb qalxan uca ağac.

Qəllə-qüllə

**QƏLLƏ** – Taxıl, məhsul, arpa-buğda.

**QÜLLƏ** – Sütunşəkilli uca tikili, bina və s.; 2. Hərb gəmisində, tankda və s.-də topların yerləşdiyi zirehlənmiş hündür yer.

Qərb-qərib

**QƏRB** – Dünyanın, günəşin batdığı cəhəti, ölkələr.

**QƏRİB** – Yad yerdə olan, qürbətdə yaşayan, özgə yerli, gəlmə.

Qəsabə-qəsəbə

**QƏSABƏ** – Köhnə zamanlarda qadın paltarının yuxarısından aşağıya doğru uzanan bəzəkli yaxalıq.

**QƏSƏBƏ** – Şəhər tipli yaşayış məntəqəsi.

Qəsb-qəsd

**QƏSB** – Zorla alma, qapma, zəbt etmə, tutma, zorla mənimsəmə.

**QƏSD** – Niyyət, məqsəd, məram.

Qəzəl-qəzil-gəzəl gəzəl

**QƏZƏL** – Eşq və məhəbbəti tərənnüm edən, beytlərinin qafiyəsi bir olan 5-`0 beytli lirik şeir.

**QƏZİL** – Keçi qılı.

**GƏZƏL** – Nar qabığı.

Qıc-qıç

**QIC** – Keyləşmək, heysizləşmək, cəng olmaq.

**QIÇ** – İnsan bədəninin ombadan başlamış ayağa qədər olan və insanın yeriməyinə xidmət edən üzvü.

Qıcıq-qıdıq-qılçıq-qolçaq

**QICIQ** – Xarici mühitin orqanizmə, yaxud onun bir hissəsinə təsiri nəticəsində əmələ gələn təxərrüş halı.

**QIDIQ** – Bədənin bir yerinə əl və s. ilə toxunmaqla həmin yerin qıcılanmasına səbəb olma.

**QILÇIQ** – Sünbüldə dənin qişası ucundakı uzun qıl kimi nazik, iti, diş-diş tikan.

**QOLÇAQ** – İş zamanı qola taxılan qalın parçadan və s.-dən hazırlanan xüsusi qol geyimi və sarğı.

Qılıq-qıpıq-qırıq

**QILIQ** – Xasiyyət, yaxşı rəftar.

**QIPIQ** – Yarıyumulu, yarıyumulu, tam açıq olmayan (göz)

**QIRIQ** – 1. Qırılmış, kəsilmiş; 2. Rabitəsiz, əlaqəsiz; 3. Sınıq, sınmış. Qılov-qırov

**QILOV** – Kəsər alətləri itilədikdə onların ağzında əmələ gələn tük kimi qırıntılar.

**QIROV –** Payızın axırlarında soyuqlar düşəndə gecələr yerə, yarpaqlar və s. üzərinə kristallar şəklində qonan qar kütləsi.

Qımız-qırmız

**QIMIZ** – Turşumuş at südündən hazırlanan qidalı içki.

**QIRMIZ** – Qırmız böcəyi. Bu böcəkdən alınan qırmızı boya.

Qınaq-qıraq-quraq

**QINAQ** – Qınama, danlama, məzəmmət, töhmət, danlaq.

**QIRAQ –** Bir şeyin kənarı, həddi, son xətti, yan tərəfi, yanı**.**

**QURAQ** – Havaların isti keçməsi ilə bərabər, uzun müddət yağış yağmaması üzündən torpaqda rütubətin çatmaması və bunun nəticəsində əkin və bitkilərin ya qismən, ya tamamilə məhv olması.

Qırğın-qırxıq

**QIRĞIN** – Heyvanların, ev quşlarının kütləvi surətdə qırılıb məhv olmasına səbəb olan yoluxucu xəstəlik.

**QIRXIQ** – Qırxılmış.

Qırlanğıc-fırlanğıc

**QIRLANĞIC** – Qaranquş.

**FIRLANĞIC**– Üfqi və ya şaquli fırlanan attraksion növü.

Qısqac-qısqanc

**QISQAC** – 1.Rütubətli yerlərdə daşların altında yaşayan sarı rəngli, haçaquyruqlu uunsov bir cücü; 2.Sıxıcı alət.

**QISQANC** – 1.Çox qısqanan; 2.Paxıl, qibtə edən; 3. Xəsis, acgöz.

Qısnaq-qısraq

**QISNAQ** – 1. Çox çətin girilə bilən yer; 2. Tələsik, təcili, təxiredilməz.

**QISRAQ** – Doğmayan, qısır.

Qiyaq-qıyıq

**QİYAQ (bot.)** – Qıyaq otu. Taxılların arasında bitən alaq otu.

**QIYIQ** – Torba, çuval və s. tikməyə məxsus iri iynə, çuvalduz.

Qıymaq-quymaq-qıynaq

**QIYMAQ** – Heyfi gəlməmək, əsirgəməmək.

**QUYMAQ –** Yağda bişirilərək bal və şəkərlə yeyilən xəmir xörəyi.

**QIYNAQ** – Yırtıcı quş çəngəli, caynaq.

Qibtə-qibti

**QİBTƏ** – 1. Başqalarının üstünlüyünü, müvəffəqiyyətini, xoşbəxtliyini və başqa üstün cəhətlərini görüb, bunların özündə də olmasını arzulama, bunların həsrətini çəkmə; 2. Kompas, qibləni göstərən.

**QİBTİ** – 1. Qibt qövmünə mənsub olan adam; 2. Misirdən keçərək Avropanın bir sıra ölkələrinə yayılmış qaraçılara verilən ad.

Qissə-qüssə

**QİSSƏ** – Rəvayət edilən doğru və ya uydurma hekayə, əhvalat; nağıl, hadisə, vaqiə, qəziyyə.

**QÜSSƏ** – Qəm, kədər, hüzn, ürək sıxıntısı, fikir, dərd.

Qişa-qişai

**QİŞA** – Canlı orqanizmin hər hansı bir hissəsinin üstünü örtən bəzi toxumaların adı, örtü, pərdə, təbəqə.

**QİŞAİ** – Pərdə kimi olan, pərdəyəbənzəyən.

Qiyafət-qiyamət-qiymət

**QİYAFƏT** – Paltar, geyim, üst-baş.

**QİYAMƏT** – Dini etiqadlara görə axır zamanda aləm dağılandan sonra bütün ölülərin dirilib qalxması; məşhər günü.

**QİYMƏT** – Bir şeyin pul vahidləri ilə ifadə olunan dəyəri.

Qliserid-qliserin

**QLİSERİD** – Qliserin və yağ turşularının mürəkkəb efirləri.

**QLİSERİN** – Yağlardan hasil edilən, texnikada, ətriyyat istehsalında və s.-də işlədilən dadlı şirintəhər qatı maye.

Qolbaq-qolçaq

**QOLBAQ** – Qadınların biləklərinə taxdıqları qızıl, gümüş və s.-dən düzəldilmiş, halqa, bəzək, bilərzik.

**QOLÇAQ** – İş zamanı qola taxılan, dəri parçadan və s.-dən hazırlanan xüsusi qol geyimi və ya sarğı.

Qondara-qondola

**QONDARA** – Ayaqqabı.

**QONDOLA** – Yastıdibli, biravarlı qayıq.

Qoşaq-qovşaq

**QOŞAQ** – Qoşa halda, ikisi bir yerdə olduğu yerdə, birgə.

**QOVŞAQ** – Bir neçə şeyin (rabitə xətlərinin, çayların, kanalların və s.-nin) qovuşduğu, birləşdiyi yer, nöqtə.

Qoşqu-quşqu-quşqun

**QOŞQU** – Arabaya və s. qoşulan at və ya başqa heyvan.

**QUŞQU – Şübhə.**

**QUŞQUN** – Atın belində yəhərin qabaq tərəfə sürüşməməsi üçün quyruğu altından keçirilən qayış.

Qovaq-qovuq

**QOVAQ** – Söyüd fəsiləsindən müxtəlif növləri olan qollu-budaqlı ağac.

**QOVUQ** – İçi hava ilə dolu qabarcıq, köpürcək. İnsan və heyvan bədənində içi maye ilə dolu kisəcik.

Qovurğa-qovurma

**QOVURĞA** – Qovrulmuş buğda, düyü, darı və s. dənələri.

**QOVURMA** – Susuz olaraq yağda bir şeyi od üzərində qabda qızartmaq, bişirmək.

Qoza-qozla

**QOZA** – Palıd, şam və qayın ağaclarının qoza oxşayan yeyilməyən meyvəsi;

**QOZLA** – Araba və fayton kimi miniklərdə sürücü oturan yer.

Qönçə-qönsə

**QÖNÇƏ** – Açılmamış qızılgül və ya başqa çiçək; gül və ya başqa çiçəyin tumurcuğu.

**QONSƏ** – Quş qursağı.

Qövl-qövr

**QÖVL** – Söz, danışıq.

**QÖVR** – Narahat etmək, incitmək, daim özünü hiss etdirmək.

Qrafa-qrafik

**QRAFA** – Cədvəllərdə iki vertikal xətt arasındakı sütun, bölmə.

**QRAFİK** – Qrafika mütəxəssisi olan rəssam.

Qranat-qranit-qrant

**QRANAT (hərb.)** – Partlayıcı top gülləsi.

**QRANİT** – Çox bərk süxur.

**QRANT** – 1.Krant sözünün danışıq dili forması. 2. Mükafat.

Qravüra-qvayula

**QRAVÜRA** – Hər hansı bir bərk materialın (metal, ağac, şüşə və s.) hamar üzündə qazılmış və ya aşındırılmış şəkil, naxış.

**QVAYULA** – İlk vətəni Şimali Amerika olan, Orta Asiya və Qafqazda bitən və kökündə kauçuk maddəsi olan həmişəyaşıl, alçaq kol bitkisi.

Qrenaj-drenaj

**QRENAJ** – Barama toxumu tədarükü.

**DRENAJ** – Arxlar və ya borular sistemi vasitəsilə torpağın suvarılması. Bu məqsəd üçün işlənən arx və borular sistemi.

Qrif-qrip

**QRİF** – 1. Şahinkimilər ailəsinə mənsub quşlardan bəzilərinin adı; 2. Uydurma varlıq, yarı şir, yarı qartal; 3. Musiqi elementinin detalı; 4. Parça; 5. Nəşriyyatda işlənir; 6.Gerb; 7. Güləş; 8. Silah.

**QRİP** – Nəfəs yollarının iltihabı, qol və qıçların ağrısı, əzginlik və s. şəklində təzahür edən çox yoluxucu xəstəlik.

Ququrd-kükürd

**QUQURD**(qönçə)– Açılmamış qızılgül, qönçə.

**KÜKÜRD** – Sənayedə, kənd təsərrüfatında, tibdə işlənən tez alışan kimyəvi maddə.

Qulam-qulan

**QULAM** – Qədim zamanlarda qul, nökər, xidmətçi.

**QULAN** – Bir yaşar at.

Qulança-qulançar

**QULANÇA** – Yeni doğulmuş at balası.

**QULANÇAR** – Bişirilib yeyilən zoğlu yabanı bitki.

Quldar-quldur

**QULDAR** – Quldarlıq cəmiyyətində qullara sahib olan adam.

**QULDUR** – Quldurluqla məşğul olan adam, çapqınçı, soyğunçu, yolkəsən.

Qulunc-qunc

**QULUNC** – Soyuqdəymə nəticəsində əsasən kürək əzələlərində əmələ gələn ağrı.

**QUNC** – Corabın, uzunboğaz çəkmənin və s. ayaqqabıların dizə qədər qalxan hissəsi.

Qunduş-qunduz

**QUNDUŞ (bot.)** – Zəhərli yabanı ot, bitki.

**QUNDUZ (zool.)** – Qiymətli dərisi olan yırtıcı heyvan.

Qurab-quraq

**QURAB** – Tarlalarda torpaq altında bitən kartofa bənzər kök bitki.

**QURAQ** – Yağmursuz, quru, rütubətsiz.

Qurd-qurt

**QURD** – Canavar.

**QURT** – Su və s. içərkən boğazda çıxarılan səs.

Qurma-qurna

**QURMA** – Qurulan, yaylı.

**QURNA** – 1. Çeşmə, hamam və s. kranı altında suyun tökülüb yığılması üçün daşdan və s.-dən tikilmiş kiçik hovuz; 2. Kran.

Quşbaxışı-quşbaşı

**QUŞBAXIŞI** – Ötəri, ani baxış, gözünün ucu ilə baxış.

**QUŞBAŞI –** İri parçalar şəklində, quş başı böyüklüyündə (yağan qar haqqında)

Qübbə-qüddə

**QÜBBƏ** – Yarımkürə şəklində evin damı.

**QÜDDƏ (anat.)** – Vəzi.

Qüllə-qünnə

**QÜLLƏ** – Sütun şəkilli uca tikili.

**QÜNNƏ –** Burun səsi, burunda tələffüz olunan səs.

Qürbət-qüdrət

**QÜRBƏT** – Yad ölkədə, yad yerdə olma, qəriblik.

**QÜDRƏT** – Böyük qüvvət, güc.

Qürə-qürrə

**QÜRƏ** – Püşk.

**QÜRRƏ** – Məğrur, kibrli, iddialı, təşəxxüs satan, lovğa.

Qürub-qübur

**QÜRUB** – Batma, üfüqün altına keçib görünməz hala gəlmə.

**QÜBUR** – Qəbir, qəbirlər.

Qürur-qüsur

**QÜRUR** – İftixar, mənlik hissi, təmkin.

**QÜSUR** – Eyib, nöqsan, çatışmayan cəhət, çatmazlıq.

## L

Labirint-laborant

**LABİRİNT** – 1. Qədim Yunanıstanda və Misirdə: çıxılması çətin, dolanbac və dolaşıq yolları olan böyük bina, tikili; 2. Dolaşıqlıq, qarışıqlıq, dolanbaclıq.

**LABORANT** – 1. Laboratoriyada çalışan elmi və ya texniki işçi; 2. Laboratoriya məşğələlərində müəllimə, professora kömək edən işçi.

Lafet-lafit

**LAFET** – 1. Top altlığı, top qundağı; 2. Traktor və başqa nəqliyyatın arxasına qoşulan yük arabası.

**LAFİT** – Fransa qırmızı şərabı.

Lağ-lığ

**LAĞ**– Rişxənd, istehza, ələ salma, masqara.

**LIĞ** – Yağmurdan, sulu qardan yerdə əmələ gələn duru palçıq; batdaq, lehmə.

Lax-lak

**LAX**– Çürüyüb pis qoxu verən, qoxumuş, xarab olmuş.

**LAK** –1. Parıltı vermək, habelə korlanmaqdan qorumaq üçün əşyanın üzərinə çəkilən spirtdə, skipidarda, yağda həll olunmuş qətran; 2. Dağıstanda yaşayan Qafqaz xalqlarından biri və bu xalqa mənsub olan adam.

Laqqıltı-laqqırtı

**LAQQILTI** – Laqqıldayaraq axan və ya tökülən mayedən çıxan səs.

**LAQQIRTI** – Söhbət, danışıq, laf.

Lampa-rampa

**LAMPA** – Müxtəlif növ və quruluşlu, işıq verən cihaz.

**RAMPA** – Səhnəyə yönəldilmiş işıqlandırıcı cihazları tamaşaçıdan gizlədən, səhnə boyu uzanan yastı sipər.

Lanolin-linoleum

**LANOLİN** – Qoyun yununun yuyulması vasitəsilə alınan qatı yağ, sabun, yağ, kosmetik maddələr və s. hazırda işlədilir.

**LİNOLEUM** – Döşəmə üçün polimer örtük materialı.

Lanset-langet

**LANSET** – Cərrah aləti bıçağı, neştər.

**LANGET** – “Ətdən olan dilcik” deməkdir. Ətin dil formasında qızardılması.

Lap-laf

**LAP** – Sözlərin qabağına gələrək onların mənasını daha da şiddətləndirir, dəqiqləşdirir.

**LAF** – Mükalimə, söhbət, danışıq, söz.

Larqa-larqo

**LARQA** – Adi suitinin Sakit okeanda olan alabəzək növü.

**LARQO** – Musiqinin çox geniş, çox sakit, uzun tempi və xarakteri.

Laringit-faringit

**LARİNGİT** – Qırtlağın selikli qişasının iltihabı.

**FARİNGİT** – Udlağın selikli qişasının iltihabı.

Las-laz

**LAS** – 1. Toyuğu tutmaq istərkən çıxarılan səs; 2. Süst qalmaq.

**LAZ** – Abxaziya, Acarıstan və Türkiyədə yaşayan Cənubi Qafqaz xalqlarından biri və bu xalqa mənsub adam.

Latın-latun

**LATIN** – Hind-Avropa dillərindən biri. Qədim Roma ərazisində işlədilmişdir. İndi “ölü dil” sayılır. Əksər elmi terminlər bu dildən götürülmüşdür. Hazırda Vatikanda latın dili dövlət dilidir.

**LATUN** – Mis və sinkin qızıl rəngli xəlitəsi.

Lava-lavra

**LAVA** – Vulkanın ağzından çıxan ərgin odlu kütlə.

**LAVRA** – Bəzi iri kişi pravoslav monastrlarının adı, xüsusi tarixi və ruhi məna kəsb edir.

Lazaret-lazurit

**LAZARET** – Hərbi hissələrdə təşkil olunmuş müalicə məntəqəsi.

**LAZURİT** – Əhəngdaşının digər minerallarla birləşməsi nəticəsində meydana gələn qiymətli bir daşdır. Əgər lazuritin ləkəsi yoxdursa, deməli, saxtadır.

Lebedin-lederin

**LEBEDİN** – Ukraynanın Xarkov quberniyasında əyalət.

**LEDERİN (poliq.)** – Dəriyə bənzər, kağız və parça əsaslı kitab cildləmək üçün material.

Lekal-lokal-leqal

**LEKAL** – Əyri cizgiləri çəkmək üçün fiqurlu xətkeş.

**LOKAL** – Yerli əhəmiyyətli, müəyyən yerə mənsub olan.

**LEQAL** – Qanuni, qanunla icazə verilən, açıq.

Leysan-leysin

**LEYSAN** –Gur yağış.

**LEYSİN** – 1.Keçici otlaq, torpaq parçası, çamur; 2. Qab, zərf; 3. Roma pul vahidi.

Lepka-leyka

**LEPKA**– Plastik materiala (plastilin, gil, plastik, plastmas) əlin və alətlərin köməyi vasitəsilə forma verilməsi.

**LEYKA** – Dar plyonkalı kiçik fotoaparat.

Ləhcə-ləhzə

**LƏHCƏ** – Ümumi dialekt xüsusiyyətlərinə malik olan hər hansı bir dilin yerli şivələr qrupu; dialekt.

**LƏHZƏ** – Ən cüzi bir zaman, bir göz qırpımı, vaxt, an, dəm.

Ləlöyün-lüləyin

**LƏLÖYÜN** – Acgöz, tamarzı, görməmiş.

**LÜLƏYİN** – Misdən, saxsıdan, plastik külədən və s.-dən qayrılan xüsusi biçimli lüləkli və qulplu suqabı.

Ləpik-ləpir

**LƏPİK** –1. Yastı, dəyirmi balaca daş; 2. Evdə geyilən yüngül yaqqabı: şapşap.

**LƏPİR** – Torpaq, qar və s. üzərində insan və ya heyvan ayağının izi, nişanı.

Lətif-lütf

**LƏTİF** – Yumşaq, mülayim, xoş, incə, zərif, qəşəng.

**LÜTF** – İltifat, mərhəmət; mehribanlıq, yumşaqlıq, xoş, alicənab münasibət.

Lif-lift

**LİF** – 1.Pambığın, baramanın incə sapları, ipliyi; 2. Bədəni sabunlayıb çirkini aparmaq üçün nazik parçadan tikilmiş kisəcik.

**LİFT** – Çoxmərtəbəli binalarda, şaxtalarda adamları və əşyaları qaldırıb düşürtmək üçün elektriklə işləyən maşın.

Likör-linkor

**LİKÖR** – Tünd, şirin, ətirli spirtli içki.

**LİNKOR** – Dəniz döyüşündə müxtəlif gəmi növlərini məhv etmək və düşmənin sahil obyektlərinə artilleriya zərbəsi endirmək üçün güclü silahlarla silahlanmış iri hərb gəmisi.

Liqa-liqab-liqaf

**LİQA** – Üz, çöhrə, sima, sifət.

**LİQAB** – Üz örtüyü.

**LİQAF** – Heyva və s. meyvələrin toxumunun üzərində olan yumşaq və ağ maddə.

Liman-limon

**LİMAN** – Sahil boyunda qurunun tədricən çökdüyü yerlərdə dəniz suyunun geniş çay mənbələrini basması nəticəsində əmələ gələn dayaz dəniz körfəzi.

**LİMON** – Subtropik yerlərdə bitən həmişəyaşıl sitrus ağacı.

Linc-linç

**LİNC** –Dəm almayıb bir-birinə yapışan düyü.

**LİNÇ** – Linç məhkəməsi – ABŞ-da adətən zəncilərə və inqilabçı fəhlələrə vəhşicəsinə divan tutma, məhkəməsiz cəza vermə (XVIII əsrdə yaşamış C.Linçin adından).

Lira-lirə

**LİRA** – Barmaqla çalınan qədim yunan simli musiqi aləti; rübab.

**LİRƏ** – Türkiyədə, İtaliyada və bəzi başqa ölkələrdə pul vahidi.

Liter-lüter

**LİTER (hüq.) –** Dəmir yolu və başqa nəqliyyat vasitələrində pulsuz və ya güzəştlə getmək üçün sənəd.

**LÜTER** – Lüteran dininə mənsub adam; Xristian ruhanisi, Bibliyanın alman dilinə tərcüməçisi; reformasiyanın təşəbbüsçüsü, protestantizmin istiqamətlərindən biri onun adı ilə bağlıdır.

Livr-liver-liveriya

**LİVR** – 1.Qədim Fransada gümüş pul; 2. Qədim Fransada 0,5 kq çəki vahidi.

**LİVER** – Ətlik malın, qoyunun yeməli içalatı.

**LİVERİYA** – Keçmişdə qapıçıların, xidmətçilərin və faytonçuların geydikləri xüsusi biçimli zərbaftalı paltar.

Lokaut-nokaut

**LOKAUT** – Burjuaziyanın fəhlə sinfinə qarşı mübarizə üsullarından biri olaraq müəssisələrin bağlanması və fəhlələrin kütləvi surətdə işdən çıxması.

**NOKAUT** – Boksçunun aldığı zərbə nəticəsində huşunu itirməsi.

Losiya-losyon

**LOSİYA–**Dənizdə üzənlərə dəniz, okean və ətraf sahələrin xəritəsini göstərən cədvəl.

**LOSYON** – Kosmetik gigiyenik spirtli sulu məhlul olaraq üzü təmizləmək üçün istifadə olunur.

Lornet-lünet

**LORNET** – Dəstəli qatlama eynək.

**LÜNET (hərb)** – Dəzgah ləvazimatı.

**M**

Maaş-maş

**MAAŞ –**Əmək, iş əvəzində alınan pul, haqq; aylıq, donluq, məvacib.

**MAŞ –**Lobya.

Mabəd-məbəd

**MABƏD –** Ard, dal, davam**.**

**MƏBƏD** – İbadətgah, ibadət yeri.

Macal-macar

**MACAL** – İmkan, fürsət, vaxt.

**MACAR** – Macarıstanın əsas əhalisini təşkil edən və dil cəhətdən fin-uqor qrupuna daxil olan xalq və bu xalqa mənsub olan adam

Macəra-məcra

**MACƏRA –** Başa gələn həyəcanlı hadisə; qəziyyə, sərgüzəşt.

**MƏCRA –** Suyun axdığı yataq**.**

Madar-madera-madər-mədar

**MADAR –** Ən istəkli, ən əziz, arxa, ümidgah (övlad haqqında).

**MADERA** – Tünd üzüm şərabı növü.

**MADƏR** – Ana.

**MƏDAR –** Orbit.

Madyan-madyar

**MADYAN –**Dişi at.

**MADYAR** – Macarların özlərinə verdikləri ad.

Maddə-maddi

**MADDƏ** – Rəsmi bir sənəddə, siyahıda, lüğətdə və s.-də müstəqil bölgü, bənd, paraqraf.

**MADDİ** – Şüurdan asılı olmayaraq mövcud olan, cismani, fiziki.

Mağara-mağar-maxara

**MAĞARA** – Dağ və qayanın içinə doğru uzanan, yaxud yer altında olan geniş oyuq, zağa, kaha.

**MAĞAR –** Toy, yas və s. məclislər üçün qurulan böyük çadır**.**

**MAXARA** – Un, yağ və şəkərdən hazırlanaraq sacda bişirilən avar yeməyi.

Mağul-mahur

**MAĞUL** – Heç olmasa, nə yaxşı ki, əcəb ki mənalarında işlənən ara söz.

**MAHUR** – Azərbaycan klassik muğamlarından birinin adı.

Mafə-mafiya

**MAFƏ –**İçərisinə tabut qoyulub aparılan xərək.

**MAFİYA –** Terror yolu ilə məqsədini həyata keçirən gizli təşkilat və ya cəmiyyət.

Magistrant-magistrat

**MAGİSTRANT** – 1. İnqilabdan əvvəl magistr elmi dərəcəsi almağa namizəd olan adam; 2. Hazırda təhsili təkmilləşdirmək üçün magistr pilləsi yaradılmışdır.

**MAGİSTRAT** – Bəzi ölkələrdə şəhər idarəsi; dövlət vəzifəsi, bu vəzifəni daşıyan adam.

Magiya-makkiya

**MAGİYA** – Fövqəladə yolla müəyyən məqsədə nail olaq üçün simvolik hərəkət və ya fəaliyyətsizlik.

**MAKKİYA (bot.)** – Həmişə yaşıl kol və ağacların cəngəlliyi, pöhrəlik, çox bitki bitən yer.

Mahal-məhəl

**MAHAL** – 1. Dövlət idarəçiliyinin müəyyən sahə üçün ayrılan hissəsi; 2. Çətin əmələ gələn, mümkün olmayan, qeyri-mümkün.

**MƏHƏL** – 1.Etina etməmək, saymamaq; 2. Yer.

Mahna-mahnı

**MAHNA** – Bəhanə.

**MAHNI** – Nəğmə, hava, şərqi.

Makara-məkərə

**MAKARA** – Cisimləri hərəkət etdirməklə qüvvəyə gətirən, qüvvənin yolunu dəyişdirən sadə mexanizm. Sabit və hərəkətli makaralar var.

**MƏKƏRƏ** – 1917-ci il inqilabından sonra azərbaycanılar hər il Nijni-Novqorod şəhərində keçirilən yarmarkanı bu cür adlandırırdılar.

Makkiya-magiya

**MAKKİYA** – Həmişəyaşıl möhkəm və ya kiçik tikanlı kolluqlar, cəngəllik.

**MAGİYA** – Uydurma, xəyali məharətin və yaxud ağlasığmaz manipulyasiyanın köməyilə ətraf aləmə təsir etmək.

Makler-makrel

**MAKLER** – Fond və əmtəə birjalarında, o cümlədən ev alqı-satqısında, sövdələşmələrin bağlanmasında vasitəçi dəllal.

**MAKREL** – Balıq növü.

Makrofon-mikrofon

**MAKROFON** – Səsli hava fiti.

**MİKROFON** – Elektrik aparatında akustik titrəyişləri yaradan elektroakustik cihaz (kiçik səs).

Maqmat-maqnat-maqnit

**MAQMAT** – Maqmadan ibarət olan.

**MAQNAT** – Avropanın bəzi ölkələrində iri feodal, mülkədar. İri sənaye və maliyyə kapitalisti.

**MAQNİT** – Bəzi cisimləri özünə çəkmək və itələmək xüsusiyyətinə malik olan cisim, ahənrüba.

Maqnetit-maqnezit

**MAQNETİT** – Maqnitli dəmir daşı, qiymətli dəmir filizi.

**MAQNEZİT** – Maqnezium karbonat mineralı.

Maqneton-maqnetron

**MAQNETON** – Atom fizikasında maqnit momentinin vahidi.

**MAQNETRON** – Güclü elektrik cihazı olub, burada maqnit sahəsi elektrik sahəsinə həmişə perpendikulyar olur.

Malik-məlik

**MALİK** – Sahib, yiyə.

**MƏLİK** – Hökmdar, padşah.

Mandal-məndil

**MANDAL (məh.)** –1. Cəftə, siyirtmə; 2. Sanskrit dilindən tərcümədə "dairə" deməkdir. 3.Şərqdə "ictimai məhkəmə" mənasında işlənmişdir.

**MƏNDİL** – Cib dəsmalı, yaylıq.

Mandant-mandat

**MANDANT** – Mandat verilən şəxs, tapşırıq verilən şəxs.

**MANDAT** – Təqdim edənin bu və ya digər vəkalətini təsdiq edən sənəd.

Manqal-manqan

**MANQAL** – İçində od qalamaq üçün dəmirdən, misdən və ya gildən düzəldilmiş müxtəlif biçimli qab.

**MANQAN** – Çətin əriyən, kövrək, gümüşü-ağ rəngli kimyəvi maddə.

Manqır-manqurt-manqust

**MANQIR –** Xırda pul**.**

**MANQURT** – Düşünmək qabiliyyətini itirmiş adam.

**MANQUST** – Yekə siçovula bənzər, yumşaq quyruqlu vəhşi, yırtıcı.

Manor-major

**MANOR** – Orta əsr İngiltərə və Şotlandiyada iqtisadiyyatın əsas təsərrüfat vahidi və bu dövlətlərdə məhkəmənin təşkili.

**MAJOR** – Səsin şən çalğısını verən yeddi pilləli musiqi; şən əhval-ruhiyyə.

Mansar-mantar

**MANSAR** – Binaların üstündə çatı tavanlı otaq.

**MANTAR** – Probka, şüşənin mantarı.

Mansıra-mansırı

**MANSIRA** – Əhatə, mühasirə.

**MANSIRI (musiqi) –** Xalq mahnısı.

Mantilya-mantiya

**MANTİLYA** – İspan qadınlarının ağ və qara tor örpəyi.

**MANTİYA** – Ayağın üzünə qədər olan gen, uzun, plaşaoxşar geyim.

Marabu-marabut

**MARABU** – Hind leyləyi və onun lələyi.

**MARABUT** – Zahid, tərki-dünya. Müsəlman dini qardaşlığının üzvü.

Maraq-marıq

**MARAQ** – Bir şeyə diqqət, bir şeyi bilmək, öyrənmək həvəsi, meyli, arzusu.

**MARIQ** – Pusqu.

Maral-maran(lar)

**MARAL** – Buynuzları budaq kimi şaxələnən, gövşəyən haçadırnaqlı heyvan.

**MARAN**(lar) – Orta əsrdə İspaniyada və Portuqaliyada rəsmi olaraq xristianlığı qəbul edən yəhudilər.

Marğız-markiz

**MARĞİZ** – Tarlanın əkinə hazırlanmasında işlədilən kənd təsərrüfatı aləti.

**MARKİZ** – Fransada, İtaliyada, İngiltərədə zadəgan rütbəsi alan şəxs.

Mars-marş

**MARS** – 1.Nərd oyununda ikiqat uduzma; 2. Qədim romalılarda müharibə allahı; Günəş sisteminin dördüncü planeti.

**MARŞ** – Sırada bir qaydada ritmik yürüş tərzi.

Marten-marti

**MARTEN** – Polad əritmək üçün xüsusi quruluşlu soba.

**MARTİ(quş)** – Qağayı.

Masal-məsəl

**MASAL** – Nağıl, hekayə.

**MƏSƏL** – Zərb-məsəl, atalar sözü, hekayə.

Masaj-mesaj

**MASAJ** – Müalicə və ya kosmetik məqsədlə bədəni və ya onun bir yerini əllə sığallama, sürtmə, ovuşdurma.

**MESAJ** – Məktub, iltimas, xəbərdarlıq.

Maskon-məskun

**MASKON** – Ay səthində yerləşib kütlə sıxlığı böyük olan hissələr.

**MƏSKUN** – İnsan yaşayan, sakin olan yer.

Mason-musson

**MASON** – 18-ci əsrin əvvəllərində Fransada yaşamış dini-etik hərəkatın üzvü. 18-ci əsrdə Fransada yaranan fəlsəfi gizli təşkilat olub, beynəlxalq səciyyə daşıyır.

**MUSSON** – Qışda qurudan dənizə, yayda dənizdən quruya doğru vaxtaşırı əsməklə istiqamətini dəyişən külək.

Matah-matan

**MATAH** – Qiymətli, az tapılan şey.

**MATAN** – Kök, ağ, göyçək, koppuş.

Material-materiya

**MATERİAL** – Bir şey qayırmaq, istehsal etmək, qurmaq üçün işlənən cisim, şey, maddə, ləvazimat, xammal.

**MATERİYA** – İnsan şüurundan kənarda və ondan asılı olmayaraq mövcud olan obyektiv varlıq; maddə.

Matras-matris-matrisa-matros

**MATRAS** – İdman döşəyi.

**MATRİS (riy.) –**1. Xətti cəbr anlayışı olub, *n* sayda sıra və *m* sayda sütundan ibarət olan rəqəmlər cədvəlidir. Matris sıra vektorları və sütun vektorları yaradır. Matris cədvəlinin hər bir komponentinə *matris komponenti* deyilir; 2. Metal çuxur qəlib.

**MATRİSA –** 1. Metal lövhələrini basqı üsulu ilə işləmək, tökmə üsulu ilə literləri və s.-ni hazırlamaq üçün tətbiq edilən metal çuxur qəlib; 2. Mətbəədə yığılmış mətnin əks surəti olan karton qəlib.

**MATROS** – Hərbi donanmada: komanda heyətin mənsub olmayan sıravi xidmətçi, mülki donanmada adi dənizçi.

Maşın-meşin

**MAŞIN** – Enerjini bir şəkildən başqa bir şəklə salmaq yolu ilə hər hansı bir faydalı iş görən mexanizm.

**MEŞİN** – Aşılama yolu ilə hazırlanan ən sadə yumşaq qoyun və s. dərisi.

Maşallah-inşaalah

**MAŞALLAH** – Allah gözdən saxlasın, afərin, mərhəba kimi mənalarda tərif bildirir.

**İNŞAALLAH** – Allah qoysa.

Maya-mayya-maye

**MAYA** – 1. Bəzi qidalarda qıcqırma əmələ gətirən maddə; 2. Rüşeym, döl; 3. Səbəb, əsas, kök, səbəbkar; 4. Bəzi xəstəliklərə qarşı peyvənd maddəsi; 5. Gəlir əldə etmək üçün bir şeyə qoyulan sərmayə, pul.

**MAYYA –** Qədim və orta əsr hind fəlsəfəsində universal anlayışlardan biri.

**MAYE** – Axmaq və kəmiyyətini dəyişmədən olduğu qabın şəklini almaq xassəsinə malik olan maddə.

Mazarat-mazat-mazut

**MAZARAT** – Ziyan, zərər.

**MAZAT** – Naz eləmək, təşəxxüs satmaq.

**MAZUT** – Neftdən ağneft, benzin və qazolin ayrıldıqdan sonra qalan yağlı qatı

maddə.

Mazer-mauzer

**MAZER** – Radiodalğalar diapazonunda işləyən kvant generatorunun adı.

**MAUZER** – Silah növü.

Mazı-mazi

**MAZI** – Bəzi ağacların üzərində həşəratların yumurtacıqlarından əmələ gələn yumru fır.

**MAZİ** – Keçmiş zaman, keçmiş.

Mehtər-mehvər

**MEHTƏR** – Ata qulluq edən, ata baxan.

**MEHVƏR** – Öz ətrafında fırlanan bir şeyin ortasından keçən mil, ox.

Meqabayt-meqabit

**MEQABAYT** – Mətndən asılı olaraq informasiyanın çoxluğunu ifadə edən vahid.

**MEQABİT** – 1000000(milyon) bit. İnformasiyanın miqdarı.

Meqavat-meqavolt

**MEQAVAT** – Milyon vata bərabər ölçü vahidi.

**MEQAVOLT** – Milyon volta bərabər elektron ölçü vahidi.

Mediana-medianta

**MEDİANA** – Üçbucağın təpəsini onun qarşısındakı tərəfin ortası ilə birləşdirən düz xətt.

**MEDİANTA** – Diatomik qammanın üçüncü və altıncı pilləsi.

Mediya-medye

**MEDİA** – Dövrü mətbuat.

**MEDYE –** Macarıstanda inzibati-ərazi vahidi.

Meliya-meriya

**MELİYA** – İkiləpəli bitki fəsiləsindən ağac və ya kol cinsi.

**MERİYA** – İcra hakimiyyəti, bələdiyyə şurası.

Mental-mentol

**MENTAL** – 1.Ağıllı, fikirləşən, intellektual, psixi; 2. Dəyərlər.

**MENTOL (kimy.)** – Kəskin nanə qoxusu verən şəffaf kristal maddə.

Menzula-menzura

**MENZULA** – Bir yerin topoqrafik planını çəkmək üçün geodezik alət.

**MENZURA** – Musiqi alətlərində səs mənbəyi ölçülərini hesablamaq üçün məlumat.

Messa-messo

**MESSA** – Xristianlarda sübh və günorta ibadəti.

**MESSO –** Musiqidə səs dinamikası.

Metal-metil

**METAL** – İstiliyi və elektriki yaxşı keçirmə qabiliyyətinə malik olan, döyülüb yastılana bilən, spesifik parıltısı olan bəsit kimyəvi maddə (ərinti).

**METİL** – Bir sıra üzvi birləşmələrin tərkibinə daxil olan bir karbon və üç hidrogen atomundan ibarət qrup.

Mentol-metol-meton

**MENTOL**(kimy.) – Kəskin nanə qoxusu verən şəffaf kristal maddə.

**METOL** – Rəngsiz üzvi kristal maddə.

**METON** – Günəş-Ay təqvimində zaman intervalı.

Meynə-meyvə

**MEYNƏ** – Üzüm tənəyi.

**MEYVƏ** – Bəzi ağacların, kolların yeməli, şirin məhsulu.

Məal-məlal

**MƏAL** – Bir yazı və ya söz ilə anladılmaq istənilən fikir; məna.

**MƏLAL** – Ürək sıxıntısı, usanma, bıqma.

Məbhut-məbut

**MƏBHUT –** Heyran-heyran, çaşmış halda, heyrət içində**.**

**MƏBUD –** İbadət, sitayiş edilən şey.

Məcaz-məzac

**MƏCAZ** – Həqiqi mənada işlənməyib, oxşarlığı və münasibəti olan başqa bir mənaya oxşadılaraq işlədilən söz və ya ifadə, metafora.

**MƏZAC** – Xasiyyət, təbiət, temperament.

Məcmu-məcmuə

**MƏCMU** – Bütün, tamam, hamı.

**MƏCMUƏ** – Məqalə, hekayə, şeir və s. toplusu, jurnal.

Məcnun-məcun

**MƏCNUN** –Dəli, divanə.

**MƏCUN** – Xalq təbabətində xəstə və zəif adamlara vermək üçün xüsusi hazırlanmış xəmirvari bir dərman.

Mədə-mədən

**MƏDƏ** – İnsanlarda və heyvanlarda qarın boşluğunun yuxarı hissəsində yerləşən həzm orqanı.

**MƏDƏN** – Yer altından çıxarılan faydalı qazıntıların olduğu məkan.

Məfhum-mövhum

**MƏFHUM** – Bir şey haqqında məntiqi cəhətdən formalaşmış ümumi fikir, anlayış.

**MÖVHUM** – Əslində olmayıb, xəyalda törəyən, xəyala gətirilən.

Məhbəs-məhbus

**MƏHBƏS** – Həbsxana.

**MƏHBUS** – Həbs olunmuş, dustaq.

Məhbub-məhcub-məhdud

**MƏHBUB** – Sevgili, məşuq, istəkli.

**MƏHCUB –** Utanmış, utancaq**.**

**MƏHDUD** – Əhatə olunmuş, dövrələnmiş, hüdudlanmış.

Məhəl-məhfəl-məşəl

**MƏHƏL –** 1. Məhəl qoymamaq, etina etməmək, saymamaq, maraqlanmamaq; 2. Yer.

**MƏHFƏL** – Yığıncaq yeri, toplantı, dərnək.

**MƏŞƏL** – Ətrafı işıqlandırmaq üçün ağac və s. başına sarınaraq, yaxud xüsusi bir alət içərisinə qoyularaq yandırılan yağlı əsgi, cındır parçası, yaxud ağac başına keçirilmiş içində yanar maddə olan qab.

Məhəllə-məhəlli

**MƏHƏLLƏ** – Bir şəhər və ya qəsəbənin bölündüyü hissələrdən hər biri.

**MƏHƏLLİ** – Yalnız bir məhəllə, bir yerə məxsus və aid olan, ümumxalq mahiyyəti daşımayan, yerli.

Məhlul-məhsul

**MƏHLUL** – Bərk və ya duru maddənin suda və ya başqa bir mayedə həll olunması nəticəsində alınan eynicinsli duru maddə.

**MƏHSUL** – Torpaqda yetişdirilən taxıl, meyvə, tərəvəz və s.

Məhrəba-mərhəba

**MƏHRƏBA** – Dəsmal.

**MƏRHƏBA** – Bəyənmə, tərif bildirir.

Məhrum-mərhum

**MƏHRUM** – Nəsibi, hissəsi, payı olmayan.

**MƏRHUM** – Ölmüş, vəfat etmiş, rəhmətə getmiş.

Məhşər-məhzər

**MƏHŞƏR** – Dini etiqadlara görə axır zamanda aləm dağıldıqdan sonra bütün ölülərin dirilib qalxması; məhşər günü.

**MƏHZƏR** – 1. Hazır olma; 2. Yığıncaq; 3. Cəmiyyət; 4. Akt, protokol.

Məxəz-məxləs

**MƏXƏZ** – Bir şeyin alındığı yer, əsl yeri, mənbə, sənəd, əsər və s.

**MƏXLƏS** – Müxtəsər, sözün qısası, xülasə.

Məxluq-məxlut

**MƏXLUQ** – Canlı varlıq, canlı vücud.

**MƏXLUT** – Qarışıq, xəlitə.

Məxsus-məxşuş

**MƏXSUS** – Yalnız birinə aid olan.

**MƏXŞUŞ** – Qarma-qarışıq, hərc-mərc, iğtişaşlı.

Məkə-məkkə

**MƏKƏ** – Qarğıdalı, peyğəmbəri.

**MƏKKƏ**– İraqda Kəbənin olduğu yer.

Məktəb-məktub

**MƏKTƏB** – Yetişməkdə olan nəslə təlim və tərbiyə verən təlim-tərbiyə müəssisəsi.

**MƏKTUB** – Hər hansı bir məqsədlə, yaxud bir şeyi xəbər vermək, bildirmək üçün yazıb poçt və ya başqa vasitə ilə birinə göndərilən kağız.

Məqalat-mülaqat

**MƏQALAT** – 1. Sözlər, söhbətlər; 2. Mövzular; 3.Atalar sözləri, məsəllər.

**MULAQAT** – Reportaj. Hər hansı ictimai danışıq və söhbətlər üzərində yaxşı mütəxəssislərlə aparılan söhbəti göstərən yazı növü.

Məqbul-məqtul-məqul-məqdur

**MƏQBUL** – Qəbul olunan, bəyənilən, xoşa gələn, yaxşı.

**MƏQTUL** – Öldürülmüş, qətl olunmuş.

**MƏQUL** – Ağıllı, ağlabatan, ağlauyğun.

**MƏQDUR –** İmkan daxilində, vəziyyətdən asılı olaraq.

Məqsəd-məqsud-məsud

**MƏQSƏD** – 1. Əldə edilməyə, nail olmağa çalışan; 2. Qəsd olunan şey, məram, niyyət, arzu.

**MƏQSUD** – İstənilən, arzu edilən şey; məram, niyyət, qəsd.

**MƏSUD –** Şad, məramına çatan.

Məlal-məlul

**MƏLAL –** Ürək sıxıntısı: usanma, bıqma**.**

**MƏLUL** – Məlallı, qəmgin, məyus, məhzun, bezgin, usanmış.

Məlhəm-məhrəm

**MƏLHƏM** – Yaraya və ya ağrıyan yerə sürtülən yağlı dərman.

**MƏHRƏM** – Çox yaxın sayılan, yaxın dost sayılan.

Məlum-məlun

**MƏLUM** – Bilinən, bilinmiş, bəlli, aydın, aşkar, hamıya bəlli olan.

**MƏLUN** – Lənətə gəlmiş, lənətlənmiş, mürtəd. Söyüş, qarğış mənasında işlədilir.

Məlumat-məmulat

**MƏLUMAT** – Bir şey haqqında bilik, xəbərdarlıq.

**MƏMULAT** – Fabrik və ya başqa vasitələrlə istehsal olunmuş, hazırlanmış şeylər, məhsullar.

Məmul-məmur

**MƏMUL** – Hazırlanmış, düzəldilmiş.

**MƏMUR** – Dövlət idarələrində çalışan qulluqçu, dövlət xidmətçisi; çinovnik.

Məngəl-məngir

**MƏNGƏL** – Kol-kosları kəsib-doğramaq üçün çapacaq, dəhrə.

**MƏNGİR** – Tez qarmalamaq, ələ keçirmək.

Mənhus-mənfur

**MƏNHUS** – Uğursuz, bədbəxt, nəhs.

**MƏNFUR** – Nifrət olunan, nifrətə layiq, nifrətli, çox pis.

Mənsəb-mənsub

**MƏNSƏB** – Yüksək vəzifə, böyük məqam; ümumiyyətlə, vəzifə.

**MƏNSUB** – Nisbəti və mənsubiyyəti olan, əlaqəsi olan, aidiyyəti olan.

Mərcək-mərcimək

**MƏRCƏK** – Qulağın aşağı ətli hissəsi.

**MƏRCİMƏK** – 1. Paxlalılar fəsiləsindən dənli bitki; 2. Həmin bitkinin xörəkdə işlədilən toxumu.

Mərək-mərəkə

**MƏRƏK**–Saman, alaf və başqa heyvan yemlərini yığmaq üçün örtülü yer; anbar, samanlıq.

**MƏRƏKƏ**–Səs-küy, qışqırıq-bağırıq, qalmaqal, hay-küy, qovğa, qiyamət.

Mərhəm-məhrum

**MƏRHƏM** – 1. Bir yaraya və ya ağrıyan yerlərə sürtülən yağlı dərman; 2. Yaxın dost, əziz.

**MƏHRUM** – Ölmüş adam, rəhmətə getmiş, vəfat etmiş.

Mərz-mərzə

**MƏRZ** – Tarla, bağ, bostan və s. sahəsini bir-birindən ayıran xətt, sərhəd.

**MƏRZƏ**– Müxtəlif xəstəliklərin müalicəsi üçün istifadə edilən ətirli bir tərəvəz bitkisi.

Məraz-məriz

**MƏRƏZ** – Xəstəlik, naxoşluq.

**MƏRİZ** – Xəstə, naxoş, azarlı.

Məruz-məruzə

**MƏRUZ** – Bir şeyə düçar olan, ona qarşı müqavimət edə bilməyən, bir şeyə qarşı qoruyucusu olmayan.

**MƏRUZƏ** – Bir mövzu haqqında irəlicədən hazırlanıb söylənilən nitq.

Məs-məst

**MƏS** – Dəridən və ya başqa yumşaq materialdan tikilən yüngül ayaqqabı.

**MƏST** – 1. Sərxoş, kefli; 2. Ayaqqabı.

Məsələ-məsələn

**MƏSƏLƏ** – Həll olunması, yerinə yetirilməsi lazım olan iş.

**MƏSƏLƏN** – Cümlədə bir şeyin şərhinə dair misallar vermək üçün işlədilir.

Məskən-məskun

**MƏSKƏN** – İnsanın yaşadığı yer, yurd.

**MƏSKUN** – İnsan yaşayan, sakin olan yer.

Məsul-məhsul

**MƏSUL** – Üzərinə məsuliyyət qoyulan, cavabdeh olan, cavabdeh.

**MƏHSUL** – Torpaqda yetişdiriləməyən meyvə, tərəvəz və s.

Mətin-mətn

**MƏTİN** – Bərk, möhkəm, sarsılmaz.

**MƏTN** – Yazılmış və çap edilmiş halda olan hər hansı nitq.

Mətləb-mətlub

**MƏTLƏB** – Arzu, istək, dilək, istənilən şey, məqsəd.

**MƏTLUB** – Tələb olunan, arzulanan, istənilən şey, arzu, istək.

Məzkur-məzur

**MƏZKUR** – Zikr olunmuş, adı çəkilmiş, haqqında danışılmış; yuxarıdakı.

**MƏZUR** – Üzrü olan, üzürlü, səbəbli.

Məzlum-müzlim-müslüm

**MƏZLUM** – Zülm çəkmiş, zülm olunmuş, zülmə məruz qalmış, zülm altında olan.

**MÜZLİM** – Qaranlıq, zülmətli.

**MÜSLÜM** – İslam dininə mənsub adam.

Məzul-məzun

**MƏZUL** – İşdən, ya qulluqdan çıxarılmış, vəzifəsi alçaldılmış.

**MƏZUN** – Hər hansı bir məktəbi bitirmiş tələbə, şagird.

Məzur-müzür

**MƏZUR** – Üzrü olan, üzürlü, səbəbli.

**MÜZÜR** – Zərərli, ziyan verən, ziyankar, zərər verən, zərəri toxunan.

Mikser-mikşer

**MİKSER** – Krem, kokteyl və s. düzəltmək üçün cihaz.

**MİKŞER** – Səs siqnallarının ötürülməsi üçün təyin olunan elektron cihaz.

Miksin-miskin

**MİKSİN** – Qığırdaqlılar sinfindən olub yumruağız su heyvanıdır. Bu balıq hər iki yarımkürənin dənizlərində yaşayır.

**MİSKİN** – Fağır, biçarə, bədbəxt, yazıq.

Miladi-miledi

**MİLADİ** – İsanın anadan olduğu gündən başlayaraq hesablanan vaxt.

**MİLEDİ** – İngiltərədə imtiyazlı sinifdən olan ərli qadına müraciət forması.

Milçə-milçək

**MİLÇƏ** – Kiçik mil, balaca mil.

**MİLÇƏK** – Bəzi yoluxucu xəstəlik mikroblarını yayan qoşaqanadlı həşərat, çibin.

Milord-milyard

**MİLORD** – İngilis lordu.

**MİLYARD** – 1.000.000.000. sayı miqdarında.

Minarə-minbər

**MİNARƏ** – Azan vermək üçün məscidlərin yanında və ya üstündə ucalan qüllə.

**MİNBƏR** – Məscidlərdə: vaizin, xətibin çıxıb vəz, xütbə oxuduğu pilləli kürsü.

Minbaşı-mirbaşı

**MİNBAŞI** – Türkiyə və İranda yüzbaşıdan sonra gələn zabit rütbəsi.

**MİRBAŞI** –Çempionlar oyununda başçı.

Minik-minlik

**MİNİK** – Bir yerə getmək üçün nəqliyyat vasitələrinin birinə minmiş adam.

**MİNLİK** – Min vahidlə ölçülən.

Minimal-minimum

**MİNİMAL** – Başqaları arasında ən az, ən kiçik, ən xırda.

**MİNİMUM** – Ən kiçik miqdar, ən az miqdar.

Minyon-milyon

**MİNYON** – 16-cı əsr Fransada yüksək rütbəli şəxsin əzizi, dostu.

**MİLYON** –1.000.000.miqdarında.

Mis-miss-miz

**MİS** – Qırmızımtıl kimyəvi element.

**MİSS** – İngiltərə və Amerikada ərə getməmiş qadına müraciət forması.

**MİZ** – Stol, masa.

Misra-misri

**MİSRA** – Şeirin ayrılıqda götürülmüş bir sətri.

**MİSRİ** – 1. Misirə məxsus, Misirə aid; 2. Yoluxucu, keçici.

Mizrab-mizraq

**MİZRAB** – Bəzi simli musiqi alətlərinin simlərini ehtizaza gətirmək üçün sümükdən, mal buynuzundan və ya plastik maddədən qayrılan nazik plastinka.

**MİZRAQ** – Sivriuclu dəmirdən, poladdan düzəldilmiş saplı qədim döyüş aləti, nizə.

Modal-model-modul

**MODAL –** Modallıq ifadə edən, modallıq bildirən**.**

**MODEL** – Bir şeyin nümunə nüsxəsi, habelə bir şeyi hazırlamaq üçün nümunə.

**MODUL** – 1. Riyaziyyatda hər hansı mühüm bir əmsalın və ya kəmiyyətin adı; 2. Bina və tikilinin hissələrini uzaqlaşdırmaq və ona mütənasiblik və ahəngdarıq vermək üçün inşaatda və memarlıqda qəbul edilmiş şərti ölçü vahidi.

Modem-modern

**MODEM** – Hesablayıcı elektron maşının və ya abonent məntəqələrinin ikilik siqnallarınn rabitə kanallarına göndərilən siqnallara və ya əksinə çevirmək üçün qurğu.

**MODERN** – 1.XIX əsrin sonu, XX əsrin əvvəllərində əsasən memarlıq və tətbiqi incəsənətdə formalizmi, təmtəraqlılığı, süniliyi, ekletizmi ilə fərqlənən bədii üslubun adı; 2. Müasir.

Monax-monarx

**MONAX** – Rahib.

**MONARX** – Mütləq hökmdar. Monarxiya quruluşu mövcud olan dövlətlərdə vərasət, yaxud seçki yolu ilə seçilən dövlət başçısı.

Monetar-monitor

**MONETAR (sistem)** – Monetar siyasət zamanı iqtisadiyyat pul və onun alətləri vasitəsilə idarə edilir və tənzimlənir.

**MONİTOR** – 1. Orta və ali məktəblərdə sinif nümayəndəsi; 2. Video nəzarət qurğusu.

Mototrek-mototrük

**MOTOTREK** – Universal idman profili, stadion.

**MOTOTRÜK** – Motsikletdə riskli hərəkətlər etmək.

Möhlət-möhnət

**MÖHLƏT** – Vaxt vermə, icazəli vaxt.

**MÖHNƏT** – Zəhmət, əziyyət, qayğı, ağırlıq, dərdi-sər.

Möhtəməl-möhtərəm-möhtəşəm

**MÖHTƏMƏL** – 1.Ehtimal olunan, mümkün olan, fərz edilən; 2. Dözülən, təhəmmül olunan.

**MÖHTƏRƏM** – Hörmətli, əziz, ehtirama layiq.

**MÖHTƏŞƏM** – Öz əzəməti, böyüklüyü, həşəməti ilə insanı valeh edən əzəmətli, ehtişamlı.

Mövcib-mövcud-mövüc

**MÖVCİB** – Səbəb, bais.

**MÖVCUD** – Var olan, göz qabağında olan, hazırda olan.

**MÖVÜC** – Qurudulmuş üzüm.

Mövqif-mövquf

**MÖVQİF** – Duracaq yer, dayanacaq, stansiya.

**MÖVQUF** – Vəqf olunmuş, vəqf üçün ayrılmış.

Muslin-müsinn

**MUSLİN** – Yüngül, yumşaq və nazik parça.

**MÜSİNN** – Sinli, yaşlı, yaşı ötmüş, qoca.

Muss-must

**MUSS** – Meyvə, süd və şokoladdan çalınıb hazırlanan şirin yemək.

**MUST** – Formalaşmamış təzə çaxır.

Mutant-muton

**MUTANT** – Dəyişiklik nəticəsində yaranıb normal tipdən irsiyyətə görə fərqlənən forması.

**MUTON** – Genin ən kiçik hissəsi.

Mutasiya-nutasiya

**MUTASİYA** – Dəyişkənlik nəticəsində əmələ gələn və hər hansı əlamətə görə normal tipdən fərqlənən, irsiyyətcə dəyişmiş orqanizm.

**NUTASİYA** – Presləmə işini yerinə yetirən fırlanan bərk cismin zəif ardıcıl olmayan hərəkəti.

Müadilə-müamuiə

**MÜADİLƏ**–Bir və ya bir neçə məchul kəmiyyəti olan və həmin məchul kəmiyyətlərin müəyyən qiymətləri zamanı öz bərabərliyini saxlayan riyazi bərbərlik. Tənlik.

**MÜAMİLƏ** – Rəftar, münasibət, davranış.

Müariz-mübariz-müasir

**MÜARİZ** – Əks olan, zidd olan, qarşı olan, müxalif olan.

**MÜBARİZ** – Hər hansı iş və s. uğrunda mübarizə aparan, çalışan adam.

**MÜASİR** – Başqaları ilə bir zamanda, bir əsrdə, bir dövrdə yaşayan və yaşamış olan, həməsr.

Müayinə-müalicə

**MÜAYİNƏ** – Hərtrəfli yoxlama, nəzərdən keçirmə, baxma.

**MÜALİCƏ** – Xəstəni sağaltmaq üçün tibbi vasitələr tətbiq etmə.

Mübahisə-müsahibə

**MÜBAHİSƏ** – Bir işi, məsələni və s. müzakirə etdikdə öz fikrini qoruyan, sübut etməyə çalışanlar arasında başlanan bəhs, deyişmə.

**MÜSAHİBƏ** – Bir məsələ haqqında iki və bir neçə adam arasında gedən söhbət, danışıq.

Mübaliğə-mübəlliğ

**MÜBALİĞƏ** – Bir şeyi həddindən artıq şişirtmə, böyütmə, artırma.

**MÜBƏLLİĞ** – Təbliğ edən, təbliğatçı.

Mücavir-müşavir

**MÜCAVİR** – Daim ibadətxana və ya türbə yanında yatıb vaxtını ibadətlə keçirən adam.

**MÜŞAVİR** – Müxtəlif vəzifə sahiblərinin adı.

Müctəhid-müstəid

**MÜCTƏHİD –** Şəhərdə dini qanunları təfsir və şərh edən baş ruhani.

**MÜSTƏİD** – Qabiliyyətli, istedadlı, bacarıqlı.

Müddəa-müddəi

**MÜDDƏA** – Bir şeyə əsaslanaraq irəli sürülən fikir, iddia, tezis.

**MÜDDƏİ** – İddia edən, tələb edən, tələbkar, iddiaçı.

Müəssir-müqəssir-müdərris

**MÜƏSSİR** – Təsir edən, təsirli. Dərin təsir bağışlayan.

**MÜDƏRRİS** – Müəllim, dərs verən adam.

**MÜQƏSSİR** – Təqsiri olan, günahı olan; təqsirkar, günahkar.

Müəşşər-müəttər

**MÜƏŞŞƏR** – Onluq.

**MÜƏTTƏR** – Ətirli, ətirlənmiş.

Müəzzəm-müəzzin

**MÜƏZZƏM**–Əzəmətli, böyük, cəsamətli, möhtəşəm.

**MÜƏZZİN**–Azançı.

Müftə-müfti

**MÜFTƏ** – Pulsuz, havayı, əvəzinə heç bir şey verilməyən; məccani.

**MÜFTİ** – Sünnilərin dini işlərinə rəhbərlik edən baş ruhani.

Müharibə-müxabirə

**MÜHARİBƏ** – Dövlətlər arasında mütəşəkkil silahlı mübarizə, hərb, dava.

**MÜXABİRƏ –** Xəbərləşmə, yazışma**.**

Mühazirə-mühasirə-mübarizə

**MÜHAZİRƏ** – Ali məktəbdə hər hansı bir fənnin professor və ya müəllim tərəfindən şifahi şərhi, leksiya.

**MÜHASİRƏ** – Hər tərəfdən əhatə olunma, dövrələnmə, araya alınma.

**MÜBARİZƏ** – Bir-birinə zidd ictimai qrupların, əqidələrin, mənafelərin və s.-nin hakim mövqe tutmaq uğrunda bir-birilə fəal toqquşması.

Mühərrik-mühərrir-mütəhərrik

**MÜHƏRRİK** – Hər hansı enerjini mexaniki enerjiyə çevirən maşın. Bir şeyi hərəkətə gətirən maşın, motor.

**MÜHƏRRİR** – Jurnalist.

**MÜTƏHƏRRİK** – Hərəkət edən, bir yerdə qərar tutmayan oynaq.

Müxatəb-müxatib

**MÜXATƏB** – Söz söylənilən şəxs, sözlə müraciət olunan adam, dinləyən.

**MÜXATİB** – Birinə sözlə müraciət edən, söz söyləyən şəxs, söyləyən.

Müxəmməs-müxənnəs-müənnəs

**MÜXƏMMƏS** – Hər biri beş misradan ibarət klassik şeir forması.

**MÜXƏNNƏS** – Alçaq, namərd, qorxaq.

**MÜƏNNƏS** – Ərəb qrammatikasında qadın cinsi.

Mükəddər-mükərrər

**MÜKƏDDƏR**– Kədərli, qəmli, qüssəli, məhzun, qəmgin.

**MÜKƏRRƏR**–Çox dəfə, dəfələrlə, təkrar-təkrar, təkrarlanan.

Müqabilə-müqavilə-mübadilə

**MÜQABİLƏ** – Qarşı durmaq, müqavimət göstərmək, əleyhinə çıxmaq, mane olmaq.

**MÜQAVİLƏ** – Qarşılıqlı təhəddüdlər haqda yazılı saziş, bağlaşma.

**MÜBADİLƏ**– Bir şey verib əvəzində başqa bir şey alma, dəyişmə.

Müqəddəm-müqəddər

**MÜQƏDDƏM** – Qabaq, əvvəl, irəli.

**MÜQƏDDƏR** – Miqdarı müəyyən edilmiş, təyin edilmiş.

Müqəllid-münəqqid

**MÜQƏLLİD** – Təqlid edən, təqlidçi.

**MÜNƏQQİD** – Tənqidçi.

Müqəssir-müəssir

**MÜQƏSSİR** – Təqsiri olan, günahı olan.

**MÜƏSSİR** – Təsir edən, təsirli, dərin təsir bağışlayan.

Müncər-mündər

**MÜNCƏR** – Bitmək, sona çatmaq, tamamlanmaq, nəticələnmək.

**MÜNDƏR** – Kitabın və ya əsərin içində olan məsələlərin qısa başlıqlarla verilməsi.

Mürəbbe-mürəbbə-mürəbbi

**MÜRƏBBE** – Dörd misralıq bənd; bu bənd əsasında yazılmış şeir.

**MÜRƏBBƏ** – Qənd, şəkər şərbətində bişirilmiş meyvə və ya giləmeyvə.

**MÜRƏBBİ** – Keçmişdə: dövlətli ailələrində uşaqların təlim və tərbiyəsi ilə məşğul olan şəxs; tərbiyəçi, xüsusi müəllim.

Mürəttəb-mürəttib

**MÜRƏTTƏB** – 1. Tərtib olunmuş, sıralanmış; 2. Qaydaya salınmış, nizamlanmış; 3. Tərtibli, müntəzəm.

**MÜRƏTTİB** – Mətbəədə hərf düzən işçi, düzücü.

Mürid-mürşid

**MÜRİD** – Keçmişdə: bir müsəlman təriqət şeyxinə və ya mürşidə beyət edərək ondan təriqətin üsul və mərasimlərini öyrənən adam, şagird.

**MÜRŞİD** – Əsil mənası “doğru yol göstərən” olub, keçmişdə təriqətə başçılıq edən şeyxə deyilirdi.

Müsabiqə-müsamirə

**MÜSABİQƏ** – İştirakçılar içərisindən ən yaxşılarını seçib ayırmaq üçün keçirilən yarış, konkurs

**MÜSAMİRƏ** – Konsert.

Müsaid-müsaidə

**MÜSAİD** – Uyğun, əlverişli, münasib, hər şeyə imkan verən.

**MÜSAİDƏ** – İzin, icazə, rüsxət.

Müstəid-müctəhid

**MÜSTƏİD** – İstedadlı, qabiliyyətli, fəhmli, tez görüb-götürən.

**MÜCTƏHİD** – Dini qanunları və ehkamları təfsir və şərh etmək səlahiyyətinə malik ruhani şəxs.

Müstəqim-müstəqil

**MÜSTƏQİM** – Düz, rast.

**MÜSTƏQİL** – Başqasından asılı olmayan; başqasına tabe olmayan, sərbəst

Müşairə-müşavirə

**MÜŞAİRƏ** – Şeirləşmə, şeir yarışı.

**MÜŞAVİRƏ** – Hər hansı bir məsələnin birlikdə müzakirəsi, iclas.

Müştaq-müştük

**MÜŞTAQ** – Candan istəyən, həsrətində olduğu bir şeyə can atan, arzusunda olan.

**MÜŞTÜK** – Papiros gilizinin içində tütün olmayan, çəkərkən ağıza salınan bərk hissəsi, papiros kötüyü.

Müzayidə-müzayiqə

**MÜZAYİDƏ** – Hərrac, auksion.

**MÜZAYİQƏ** – Əsirgəməmə, qıymama.

Müzəyyən-müəyyən

**MÜZƏYYƏN** – Zinətlənmiş, bəzək verilmiş, bəzənmiş, bəzəkli, zinətli.

**MÜƏYYƏN –** 1. Qəti olaraq təyin edilmiş, müəyyənləşmiş; 2. Dürüst, aydın, dəqiq, qəti.

Müvərrix-mərrix

**MÜVƏRRİX** – Tarixçi.

**MƏRRİX** – Zöhrə ulduzu, Venera, dan ulduzu.

**N**

Nabud-məbud

**NABUD** – Olmayan, mövcud olmayan.

**MƏBUD** – İbadət, sitayiş edilən şey.

Nacaq-naçaq

**NACAQ** – Kefsiz, xəstə kimi, süst, əzgin, xəstəhal.

**NAÇAQ** – Enliağızlı, qısasaplı balta.

Nacins-naçiz

**NACİNS** – Cinsi təmiz olmayan, cinsi pozuq, cinssiz.

**NAÇİZ** – Heç nəsiz.

Naftalan-naftalin

**NAFTALAN** – Yumşaq kütlə halında olan, dezinfeksiyaedici, ağrıkəsici dərman preparatı.

**NAFTALİN** – Kəskin iyli ağ kristallik maddə.

Nağıl-noğul-naqil

**NAĞIL** – Adətən əfsanəvi, fantastik qüvvələrin iştirakı ilə cərəyan edən uydurma şəxslər və hadisələr haqqında cərəyan edən hekayə, rəvayət.

**NOĞUL** – İçərisinə keşniş toxumu qoyulmuş xırda, üstü kələ-kötür, yumru şirni növü.

**NAQİL –** Elektrik cərəyanını, səsi, istiliyi və s.-ni öz daxilindən keçirən cisim; naqil.

Naxah-nahaq

**NAXAH** – İstəmədən, istəməyərək, istəməyə-istəməyə.

**NAHAQ** – Haqsız, ədalətsiz, haq və insafa müğayir, qanunsuz.

Naxış-naxoş

**NAXIŞ** – Rənglərin, cizgilərin, kölgələrin kombinasiyasından ibarət şəkil, çəki, bəzək və s.

**NAXOŞ** – Xəstə, azarlı.

Naqabil-naqafil

**NAQABİL – 1.**Nalayiq, yersiz, münasibətsiz**;** 2. İmkansız, mümkün olmayan; çətin, mahal; 3. Əxz etməyə, götürməyə istedadı, qabiliyyəti olmayan; qeyri-qabil.

**NAQAFİL –** Qəfildən, birdən, nagahan, gözlənilmədən, xəbərsiz.

Naqis-naqus

**NAQİS** – 1. Tam və mükəmməl olmayan, yarımçıq, natamam, əskik; 2. Eyib və qüsuru olan, nöqsanlı, əskik; 3. Çıxma əməli.

**NAQUS** – Kilsə zəngi.

Nam-nan-nəm

**NAM** – Ad.

**NAN –** Çörək**.**

**NƏM** – Yaşlıq, islaqlıq, rütubət.

Namdar-nimdər

**NAMDAR** – Çörək verən.

**NİMDƏR**– Balaca döşək, döşəkçə.

Nanay-noqay

**NANAY** – Uzaq Şərqdə yaşayan adam, həmin xalqa mənsub adam.

**NOQAY** – Şimali Qafqazda yaşayan türk xalqlarından biri və həmin xalqa mənsub adam.

Narınca-narıncı

**NARINCA** – Son dərəcədə narın. Çox xırda; xırdaca

**NARINCI** – Narınc rəngli, qırmızıya çalar sarı, portağal rəngində.

Nasir-naşir-naşur

**NASİR** – Nəsr yazan, nəsr əsərləri müəllifi, ədib.

**NAŞİR** –1.Kitab və s. nəşr edən adam; 2. Nəsr yazan, nəsr əsərləri yazan; 3. Kömək edən, köməkçi, yardımçı.

**NAŞUR** – Parça növü.

Navaha-navaxa-Nəvahi

**NAVAHA** – Balıq növü.

**NAVAXA** – İslamlarda qatlama uzun bıçaq.

**NƏVAHİ** – Hacıqabul rayonunun inzibati ərazi vahidində qəsəbə.

Nefrit-nevrit

**NEFRİT –** Beyrəklərin iltihabı xəstəliyi.

**NEVRİT –** Mərkəzi sinir sistemi xəstəliyi.

Nefroz-nevroz

**NEFROZ** – Bəzi böyrək xəstəliklərində bədəndə su toplanması.

**NEVROZ** – Daxili üzvlərin funksiyalarının, mübadilə prosesinin pozulması və s. şəklində təzahür edən mərkəzi sinir sistemi xəstəliyi.

Nereid-nerit

**NEREİD**(lər) – Qədim yunan allahları Nereid və okeanid Doridanın qızları.

**NERİT** – 1. Praktik; 2. Tətbiq etmək, uyğulamaq.

Neybət-niyabət-niyyət

**NEYBƏT** – Çirkin, kifir, eybəcər.

**NİYABƏT** – Vəkillik, naiblik.

**NİYYƏT** – Məqsəd, məram, qəsd.

Neylon-neyron-neytron

**NEYLON** – Süni lif növü, habelə lifdən toxunmuş parça.

**NEYRON** – Sinir sisteminin əsas funksional və quruluş vahidi.

**NEYTRON** – Atomun nüvəsinin tərkibinə daxil olan elektrik yükündən məhrum olan hissəcik.

Nəfəs-nəfis

**NƏFƏS** – Ciyərlə havanı içəri alıb buraxma.

**NƏFİS** – Son dərəcə zərif, incə, gözəl, qəşəng.

Nəfs-nəhs

**NƏFS** – Ehtiras, şiddətli istək, arzu, məram.

**NƏHS** – Uğursuz, məşum, ağır, tərs gətirən.

Nəhv-nəhy

**NƏHV** – Sintaksis.

**NƏHY** – Qadağan, qadağan etmə.

Nəqahət-nəqarət

**NƏQAHƏT** – Xəstəlikdən təzə qalxıb özündə əzginlik hiss edən, hələ sağalmamış adamın halı; zəiflik, süstlük, əzginlik, nasazlıq.

**NƏQARƏT** – Nəğmənin hər bəndindən sonra təkrarlanan beyt və misralar.

Nəsb-nəsəb-nəsib

**NƏSB** – Rəbt etmək, bağlamaq, bənd etmək.

**NƏSƏB** – Mənşə, nəsil, soy, əcdad silsiləsi.

**NƏSİB** – Qismət, hissə, pay, bəxtə çıxan hər şey, bəxt.

Nəsihət-vəsiyyət

**NƏSİHƏT** – Öyüd, yol göstərici sözlər.

**VƏSİYYƏT** – Ölənin son sözü, tapşırığı, məsləhəti.

Nəsil-nəsr

**NƏSİL** – Əcdadı bir olan qohumlar silsiləsi; soy.

**NƏSR** – Roman, hekayə, novella tərzində yazılmış ədəbiyyat.

Nəşat-nəşət

**NƏŞAT** – Sevinc, şadlıq, kef.

**NƏŞƏT** – Nəşət etmək: törəmək, əmələ gəlmək, hasil olmaq, vücuda gəlmək, zahir olmaq, irəli gəlmək.

Nəzafət-nəzakət-nəzarət

**NƏZAFƏT** – Təmizlik, paklıq.

**NƏZAKƏT** – Tərbiyə, ədəb, mərifət, ədəb qaydaları.

**NƏZARƏT**– Yoxlama məqsədilə baxma, göz qoyma, nəzər yetirmə, diqqət yetirmə.

Nəzər-nəzir-nəzirə

**NƏZƏR**– Baxma, baxış, baxış tərzi, gözlərin ifadəsi.

**NƏZİR** – Dindar, mövhumatçı adamların istək və arzu etdikləri bir şeyin yerinə yetirilməsi ümidi ilə yoxsullara və ya din xadimlərinə verdikləri pul və s.

**NƏZİRƏ** – Bir şairin bir şeirinə təqlidən yazılan, ya söylənən şeir, bənzətmə.

Nigah-nikah-nagah

**NİGAH** – Baxış, baxma, nəzər.

**NİKAH**– Kəbin, izdivac, evlənmənin qanuni şəklə salınması.

**NAGAH** – Qəfildən, birdən, gözlənilmədən, xəbərsiz, ansızın.

Nikel-nikol

**NİKEL** – Gümüşü ağ rəngli, parıltılı, çətin əriyən metal, kimyəvi element.

**NİKOL** – İsland mineral maddəsindən düzəldilmiş prizma.

Nmcan-nimçə

**NİMCAN** – Çox zəif, yarımcan.

**NİMÇƏ** – 1. Boşqab; 2. Balaca mis sini.

Nisvan-nisyan-niysan

**NİSVAN** – Qadın.

**NİSYAN** – Unutma, yaddan çıxarma.

**NİYSAN** – Aprel.

Not-nota

**NOT(mus.) –** Hər hansı musiqi səsinin şərti qrafik işarəsi.

**NOTA** – Bir hökumətin başqa bir hökumətə rəsmi yazılı diplomatik müraciəti.

Nov-növ

**NOV** – Su və s. axıtmaq üçün dəmirdən, ağacdan, daşdan və s.-dən yarımdairə şəklində düzəldilmiş axıntı yolu; su yolu, arx, kanal.

**NÖV** – Dürlü, cür, təhər, çeşid.

Novbar-novbahar

**NOVBAR –** İlk yetişən meyvə, təzə meyvə.

**NOVBAHAR**–Yazın əvvəli**.**

Nöqtə-nüktə

**NÖQTƏ** – Qələm, karandaş, iynə və s. bu kimi şeylərin ucunun bir yerə batmasından və ya toxunmasından qalan girdə xalcıq, iz, ləkə.

**NÜKTƏ** – 1.Bir sözdən, ifadədən, ibarədən dolayısı ilə çıxarılan gizli, incə məna, incə məzmun; 2.Lətifə.

Növhə-lövhə

**NÖVHƏ–**Hava ilə ölüyə oxunan hüzünlü şeir, matəm nəğməsi; mərsiyə.

**LÖVHƏ–**Üzəri tabaşirlə yazıla bilən qara taxta, yazı taxtası.

Nüfus-nüfuz

**NÜFUS(əhali)** – Əhali, camaat.

**NÜFUZ** – Bir adamın sözü keçmə, hörməti, etibarı, təsiri olma.

**O**

Obaşdan-başdan

**OBAŞDAN** – Alaqaranlıq, səhər tezdən, hava açılmamış.

**BAŞDAN** – Əvvəlcədən.

Ofert-ofort

**OFERT** – Satıcı tərəfindən müəyyənləşdirilmiş kommersiya şərtləri üzrə satıcı obyektin hər hansı aktivin, istehsal olunmuş məhsulun, qiymətli kağızların, intellektual mülkiyyətin və s.-nin reallaşması barədə potensial alıcıya göndərdiyi, istiqamətləndirdiyi yazılı təklif və ya bu təklifi əks etdirən rəsmi sənəd, məktub. Bu halda təklifi həyata keçirən subyekt oferent, təklifin istiqamətləndirdiyi subyekt isə akseptant adlanır.

**OFORT** – Metal, yəni mis üzərində iynə ilə cızılmış və sonra basma üsulu ilə yaradılmış qravürə ofort deyilir.

Ofisiant-ofset

**OFİSİANT** – Restoranda, aşxanada xörək paylayan.

**OFSET** – Çap üsulu: bu üsulda çap qəlibi üzərindəki rəng (şəkil) rezin lövhəyə, ordan da kağız üzərinə keçirilir.

Oğlaq-oğlan

**OĞLAQ** – Körpə, südəmər keçi balası.

**OĞLAN** – Kişi cinsindən olan uşaq.

Ohalama-oxalama

**OHALAMA** – "Oha" edərək inək, öküz və başqa iribuynuzlu heyvanı hərəkətə gətirmək və ya hərəkətini sürətləndirmək.

**OXALAMA –** Bədənin hər hansı bir yerini ovmaq, əzişdirmək, masaj etmək**.**

Oktant-oktet

**OKTANT(astr.) –**1. Küncləri ölçmək üçün astronomik alət; 2. Cənub göyündə ulduzların sayrışması.

**OKTET(mus.) –** 1. Sonetin ilk səkkiz sətri; 2.Səkkiz nəfərlik qrup və ya adam; 3. Musiqi ansamblı.

Omofon-omoform

**OMOFON**– Yarımçıq omonim sayılır və Azərbaycan dili üçün xarakterik deyil. Buna səbəb Azərbaycan dili orfoqrafiyasının fonetik prinsiplər əsasında qurulmasıdır.

**OMOFORM** – Müxtəlif nitq hissələrinə aid olub bəzi qrammatik formalarda eyni cür səslənir. Omonim sözlər olub, səslənməsinə görə ayrı-ayrı formalara uyğun gəlir.

Opal-opel

**OPAL(miner.)** – Bəzi növləri qiymətli sayılan şəffaf şüşəvari daş.

**OPEL** – Alman avtomobil kampaniyası.

Opera-operetta

**OPERA** – Teatrda ifa olunmaq üçün instrumental musiqili dram əsəri.

**OPERETTA** – Musiqili operetta.

Opsiya-opulsiya

**OPSİYA** – Telekommunikasiya texnologiyasında istifadə olunan əlavə imkandır ki, iş rejiminin təchizatını həyata keçirir.

**OPULSİYA** – Kaktuslar ailəsindən olan bitki növü.

Orden-order

**ORDEN** – 1.Hərbi və ya mülki xidmətlərə görə dövlət tərəfindən verilən müxtəlif dərəcəli və adlı fərqlənmə nişanı; 2. Təriqət.

**ORDER** – Yazılı sərəncam, əmr.

Ordinar-ordinat

**ORDINAR** – 1917-ci il inqilabından əvvəl elmi vəzifə adlarının tərkibində “ştatda olan”, “ştatlı” mənasında olan söz.

**ORDINAT** – Nöqtənin fəzadakı vəziyyətini müəyyənləşdirən üç koordinatdan biri.

Orgiya-oriya-ariya

**ORGIYA** – Qədim Şərq, yunan, roma allahlarına sitayişlə keçirilən bayram mərasimləri.

**ORİYA**(lar) – Hindistanda oriya qəbiləsi.

**ARIYA** – Akomponentlə müşayiət olunan bir səs üçün vokal əsər.

Oriyental-oriyentir

**ORİYENTAL** – 1. Şərq musiqiqsi; 2. Pambıq parçanın bir növü.

**ORİYENTİR** – Hərəkətin istiqamətini müəyyənləşdirmək, hədəfi tapmaq üçün açıq yerdə yaxşı görünən hərəkətsiz şey.

Orqan-orman

**ORQAN** – 1.İctimai həyatın hər hansı bir sahəsində müəyyən bir vəzifəni icra edən idarə, təşkilat; 2. Musiqi aləti.

**ORMAN**–Meşə.

Oroç-orok-oruc

**OROÇ**(lar) – Xabarovsk vilayətinin cənubunda yaşayan xalq.

**OROK**(lar) – Saxalin adasında yaşayan xalq.

**ORUC** –Müsəlman dininin təliminə görə ramazan ayında müsəlmanların gün çıxandan gün batana qədər heç bir şey yeyib-içməməsi.

Osman-ostan

**OSMAN(balıq)** –1.Türkiyədə yaşayan türklərin köhnə adı; 2. Balıq növü.

**OSTAN** – İranda inzibati ərazi vahidi.

Osmotik-astmatik

**OSMOTİK** – 1.Osmotik qüvvə, osmotik pərdə, osmotik tarazlıq, osmotik udulma; 2. Digər qarışıqla qarışanda onun konsentrasiyasını azaldan termodinamik parametr.

**ASTMATİK** – Nəfəs orqanlarının xroniki iltihabı xəstəliyi.

Ovqat-ovlaq

**OVQAT** –Vaxt, zaman.

**OVLAQ** – Ov heyvanları və quşları çox olan yer, ov yeri.

Ovsar-ovşar-əfşar

**OVSAR** – Dəvə noxtası.

**OVŞAR** – Sağımdan əvvəl heyvanların, əsasən qaramalın əmcəklərini sığma, ovuşdurma.

**ƏFŞAR** – Nadirqulu xan Əfşar 1736-cı ildə İranla Azərbaycanda hakimiyyətə gələrək əfşarlar sülaləsinin əsasını qoydu.

Oylaq-oyluq

**OYLAQ** – Məskən, yer, meydan.

**OYLUQ –** Oynaq sümüyü.

Oymaq-oynaq

**OYMAQ** – 1. Kənd, el; 2. Tikiş tikərkən iynənin barmağa batmaması üçün ikinci barmağa keçirilən kiçik dəmir alət.

**OYNAQ** – Mütəhərrik, oynaq, daim hərəkətdə olan.

Oyrat-oyrot

**OYRAT** – Oyrat boylarının bir lider ətrafında birləşməklə Çunkar xanlığı qurulmuşdur. 18-ci əsrdə Balxaş gölü ilə Tyan-Şan dağları arasında yerləşən Oyrat dövləti.

**OYROT(xalq)** –Altayların köhnə adı.

Oyum-oyun

**OYUM** –Nəyisə oymaq prosesi.

**OYUN** – Əylənmək və vaxt keçirmək üçün bir neçə adam (uşaq) arasında icra olunan müxtəlif növlü əyləncə, məşğələ.

Ozan-ozon-azan

**OZAN** – El şairi, aşıq.

**OZON –** Ozon təbəqəsi Yer kürəsini Günəşin məhvedici radiasiyasından qoruyur.

**AZAN** – Ərəbcə bildirmək, eşitdirmək, elan etmək. Namaza gedək, qurtuluşa gedək.

## Ö

Ödək-öddək-ördək

**ÖDƏK** – Ödənməli plan, qaytarılmalı borc, pul.

**ÖDDƏK** – Qorxaq.

**ÖRDƏK** – Əti yeyilən vəhşi, ya əhli üçün boğazlı iri su quşu.

Ögəc-ökcə

**ÖGƏC** – Üçyaşar erkək qoyun.

**ÖKCƏ** – Ayaqqabı altının topuq altına düşən hündür hissəsi; daban.

Örən-örkən

**ÖRƏN** – Əkilməmiş sahə.

**ÖRKƏN**– Minik heyvanlarının çulunu səriyib bərkitmək üçün başında doğanaq olan uzun ip, çatı.

Örnək-örpək

**ÖRNƏK** – Nümunə, misal.

**ÖRPƏK** – Qadınların başlarına saldıqları iri ipək və ya başqa parçadan örtük, baş yaylığı.

Övsaf-övza

**ÖVSAF** – 1. Vəsf; 2. Səciyyəvi xüsusiyyətlər, bir şəxsin necəliyini göstərən surətləri.

**ÖVZA** – Vəziyyət.

Öymək-oymaq

**ÖYMƏK** – Tərifləmək.

**OYMAQ** – 1.Ağac, daş, sümük üzərində oyuq açmaq; 2. Tikiş tikərkən barmağa iynə batmamaq üçün barmağa keçirilən qalpaqcıq.

Özək-özəl

**ÖZƏK** – Bitki gövdəsinin və ya kökünün daha yumşaq olan daxili mərkəzi hissəsi.

**ÖZƏL** – Xüsusi, özünəməxsus.

**P**

Padar-pədər

**PADAR**(lar) –Türk tayfalarından birinin adı və həmin tayfaya mənsub adam.

**PƏDƏR** – Ata.

Pafta-bafta

**PAFTA (tex.)** – Karton kağız.

**BAFTA** – Güləbətin, ipək saplardan tikilmiş qəytan.

Paxıl-paxır

**PAXIL** – Başqasının üstünlüyünə, xoşbəxtliyinə, rifahına, müvəffəqiyyətinə, qabağa getməsinə dözməyən, bundan dilxor olan, gözü götürməyən.

**PAXIR** – Pas.

Pakt-fakt-takt

**PAKT(hüq.)** – Adətən böyük siyasi əhəmiyyəti olan beynəlxalq müqavilə.

**FAKT** – Həqiqət, əsas, dəlil, sübut.

**TAKT**– İki hissəli xanə, vəzn.

Paker-paket

**PAKER** – Quyunun neft, qaz və su təbəqələrini bir-birindən ayıran qurğu.

**PAKET** – İçərisinə məktub qoyulmuş konvert, zərf.

Paltava-patava

**PALTAVA** – Doşab, yağ və undan hazırlanan halva növü.

**PATAVA** – Dolaq.

Paltus-pandus

**PALTUS** – Qalxanbalıqlar fəsiləsindən balıq növü.

**PANDUS** – Binalarda pilləkən əvəzinə istifadə edilən maili müstəvi.

Pampers-parpres

**PAMPERS** – Sidikhopduran pambıqdan hazırlanan bez.

**PARPRES** – Avtomobili gündən, yağışdan, küləkdən qoruyan şüşə.

Panel-faner

**PANEL** – Bina quraşdırma işlərində istifadə edilən dəmir beton və ya taxta lövhə – piltə.

**FANER** – Yaraşıq üçün taxta şeylərin üstünə yapışdırılan nazik taxta təbəqəsi.

Pandit-bandit

**PANDİT** – Kəşmir brahmanlarının ümumi adı.

**BANDİT** – Quldur.

Pansioner-pensioner

**PANSİONER –** Pansionatda yaşayan adam**.**

**PENSİONER** – Qocalığa görə pensiyaya çıxıb pul alan adam.

Papiros-papirus

**PAPİROS** – Çəkmək üçün içi tütünlə doldurulmuş kağız lüləsi.

**PAPİRUS** – Tropik qamış bitkisi.

Parabioz-parabüzən

**PARABİOZ –** Toxumanın ölümlə həyat arasındakı sərhədi, vəziyyəti.

**PARABÜZƏN** – Böcəklər fəsiləsindən olan qırmızı bərk qalxanvarı qanadları üzərində yeddi ədəd qara xalı olan böcək növü.

Paraboz-parovoz

**PARABOZ** – Canlı və ölü toxuma arasındakı vəziyyət.

**PAROVOZ** – Dəmir yolunda qatarları çəkib aparmaq üçün buxar mühərrikli lokomotiv.

Paraq-pərək

**PARAQ** – Uzun qulaqları və yekə başı olan it cinsi.

**PƏRƏK** – Girdə yastı metaldan düzəldilmiş yastı, ortası deşik bütöv dəyirmi nazik lövhəciklərdən ibarət qadın bəzəyi.

Parametr-perimetr

**PARAMETR** – Yalnız həmin məsələ şəraitində saxlanılan kəmiyyət.

**PERİMETR** – Yastı həndəsi fiqurun bütün tərəflərinin uzunluğunun cəmi.

Paranomiya-paronimiya-paranoyya

**PARANOMİYA** – 1.Qadağan olunmuş hərəkət; 2.Qanunlara zidd olan hərəkət.

**PARONİMİYA** – Formasına görə oxşar, mənasına görə müxtəlif sözlər.

**PARANOYYA** – Sistematik sayaqlama ilə təzahür edən sabit psixi pozğunluq.

Pardax-pardaq

**PARDAX** – Duz səthi üzərində parıltı, parlaqlıq, cila.

**PARDAQ** – Parıltı.

Parik-park

**PARİK** – Parçaya tikilmiş süni toxunma saç.

**PARK** – Xiyabanları, çiçəklikləri, nohurları olan böyük bağ, ağaclıq.

Parsel-parsial

**PARSEL** – İri ərazinin bölünməsi, parselyasiyası nəticəsində kiçik torpaq sahələri.

**PARSİAL** – Riyazi termin olub, xüsusi, hissəli, ayrı deməkdir.

Pas-paz

**PAS** –Havada və suda oksidləşmə nəticəsində dəmirin üzərində əmələ gələn qırmızı-qonur nazik təbəqə; paxır, çəng.

**PAZ** – Ucu şiş yonulmuş ağac parçasıdır ki, digər ağacları parçalamağa kömək edir.

Pasta-paste

**PASTA** – Kosmetikada, kulinariyada, təbabətdə və s.-də işlədilən müxtəlif xəmirəoxşar üzlü maddələrin adı.

**PASTE (inform.)** –1.Undan uzun halda düzəldilən makaron məmulatı; 2. İnformasiya termini.

Pastel-paster-pastor

**PASTEL (inc.)** – Boya, tabaşir və birləşdirici maddədən düzələn müxtəlif rəngli yumşaq qələmlər.

**PASTER** – Bibliya termini olub, kilsə barədə fikirləşən, insanları duaya dəvət edən şəxs deməkdir.

**PASTOR** – Protestant keşişi.

Penal-penalt

**PENAL** – Qələm və kartı qoymaq üçün qab, qələmdan.

**PENALT** – Futbolda 11 metrlikdən qapıya vurulan cərimə.

Pencər-pencərə-pərəncə-pendir

**PENCƏR** – Müxtəlif yeməli yabanı otların ümumi adı.

**PENCƏRƏ** – İşıq və hava gəlmək üçün evin və s.-nin divarında açılan deşik və həmin deşiyi qapayan şüşəli çərçivə.

**PƏRƏNCƏ** – Yapıncı, çadra. Müsəlman ölkələrində, əsasən Yaxın Şərqdə xalatı xatırladan və yalançı qolları olan, eləcə də üzü örtmək üçün torcuğu olan qadın üst geyimi.

**PENDİR** – Maya vurulmuş süddən xüsusi surətdə hazırlanan bərk və ya yarımbərk kütlə şəklində olan qida məhsulu.

Penni-pennin

**PENNİ(pul v.)**– Fin pulu.

**PENNİN (miner.)** – Alp Pennin dağlarında tapılan kimyəvi madə, mineral.

Penya-piniya

**PENYA** – Borclu tərəf öhdəsinə düşən haqqı vaxtında vermədikdə ödəməli olduğu əlavə haqq.

**PİNİYA** – İynəyarpaqlı italyan küknar ağacı.

Perfekt-prefekt

**PERFEKT** – Qədim Romada, indi Fransada və başqa ölkələrdə müxtəlif mülki, hərbi və polis vəzifələrinin adı.

**PREFEKT** –1.Başçı; 2. Qədim Romada prefekturaya başçılıq edən adam.

Perqament-perqamin

**PERQAMENT** – Kağız icad olunana qədər üstündə yazı yazmaq üçün istifadə olunan xüsusi surətdə işlənmiş heyvan dərisi.

**PERQAMİN** – Perqament kağızına oxşar nazik, şəffaf sarğı kağızı.

Perikeli-perikey

**PERİKELİ** – Planet və ya kometa orbitinin Yerə ən yaxın nöqtəsi.

**PERİKEY** – Günəş orbitinin Yerə ən yaxın nöqtəsi.

Perlin-Berlin-perlon

**PERLİN(dəniz.)** –1.Ruslaşmış yəhudi familiyası, mənası “mirvari” deməkdir; 2. Dənizçilik termini.

**BERLİN –** Almaniyanın paytaxtı.

**PERLON** – Süni lifdən hazırlanmış parça.

Persol-person

**PERSOL** – Paltar yuyulduqda istifadə olunan ağardıcı maddə.

**PERSON** –İnsan, person.

Personaj-personal

**PERSONAJ** – Bədii əsərdə iştirak edən surət, şəxs, tip.

**PERSONAL** – Hər hansı bir idarənin, müəssisənin şəxsi heyəti, bir peşə qrupuna daxil olan işçilər.

Petisiya-petlisa

**PETİSİYA** – Hakimiyyətə ünvanlanan yazılı kollektiv xahiş.

**PETLİSA** – Rəsmi geyimlərin yaxalığına tikilən rəngli fərqlənmə nişanı.

Peykan-peyman

**PEYKAN**– Klassik ədəbiyyatda "kiprik" mənasında işlənmişdir.

**PEYMAN** – Əhd.

Pəltək-pətək

**PƏLTƏK** – Dilini dişlərinin arasına alaraq danışan, buna görə l, r və s. səsləri düzgün tələffüz etməyən şəxs.

**PƏTƏK** – Bir-birinə yapışmış xırda gözcüklərdən ibarət arı yuvası.

Pırtlaq-pıtraq

**PIRTLAQ** – Pırtlamış halda olan.

**PITRAQ** – Alaq otu. Kolluq və zibilliklərdə bitən iki illik , dəydiyi yerə yapışıb qopmayan ot.

Piastr-pilyastr-plastr

**PİASTR** – Qədim  ispan sikkəsi pesonun italyanca adı.

**PİLYASTR** – Divarda şaquli çıxıntı.

**PLASTIR** – Dərmanlı parçadan lent, məlhəm.

Piket-pikrit

**PİKET** – Kiçik qarovul dəstəsi.

**PİKRİT** – Maqmatik vulkanik dağ süxuru.

Pilək-pilik

**PİLƏK** –1.Kiçik yastı düymə; 2.Boyunbağı, qolbaq və s.-də sallanan kiçik hissəcik.

**PİLİK** – Ocaq, tonqal və s.-ni yandırmaq üçün neft hopdurulmuş alışqan.

Piramidal-piramidon

**PİRAMİDAL** – Piramida şəklində olan, piramidaya oxşar.

**PİRAMİDON** – Ağrıkəsən və qızdırmanı salan dərman.

Pişraz-pişvaz

**PİŞRAZ** – Tezyetişən, tezdəyən.

**PİŞVAZ** – Gələn adamı qarşılama, qabağına çıxma.

Piti-pitik

**PİTİ**–Hər adam üçün ayrı-ayrı güvəclərdə bişirilən bozbaş.

**PİTİK**–1.Yazı, kitab, sənəd; 2. Yazımamış dua, yazılı dua.

Plakat-plaket

**PLAKAT** – Küçə və ictimai yerlərdə təbliğat, məlumat və ya reklam məqsədilə asılan qısa mətnli iri şəkil, böyük elan.

**PLAKET(inc.)** – Çoxkünclü formaya malik xatirə və ya dekorativ medal. Suvenir və bəzək işlərində istifadə olunur.

Planer-planet

**PLANER** – Yuxarıya qalxan hava axınının köməyi ilə havada süzən motorsuz uçucu aparat.

**PLANET** – Günəşin ətrafında fırlanan və Günəş işığının inikası ilə işıqlanan göy cismi; səyyarə.

Plank-blank

**PLANK** – 1. Kvant nəzəriyyəsinin əsasını qoyan Berlin universitetinin nəzəriyyəçi fizik alimi; 2. Planka – arıqlamağa kömək edən idman hərəkəti.

**BLANK** – Müəyyən formada sənəd tərtib etmək üçün bir hissəsi çap edilmiş və doldurulmağa görə boş yer qoyulmuş vərəqə.

Plankton-bloknot

**PLANKTON** – Ən kiçik dəniz canlısı.

**BLOKNOT** – Qopardılan ağ kağız vərəqələrindən ibarət dəftər.

Poliarilat-poliartrit-proletariat

**POLİARİLAT** –Dielektrik, polimer.

**POLİARTRİT** – Oynaqların iltihabı.

**PROLETARİAT** – Müasir cəmiyyətdə əsas siniflərdən biri, fəhlə sinfi, muzdlu fəhlə.

Poran-boran

**PORAN** – Külək, çovğun.

**BORAN** – Küləkli qar və yağış; çovğun, qasırğa.

Prefiks-prifiks

**PREFİKS**– Ön şəkilçi.

**PRİFİKS** – Ticarətdə qəti qiymət.

Pres-priz

**PRES** – Materialları təzyiq vasitəsilə işləmək, emal etmək üçün maşın, qurğu, basqı aləti, sıxac, məngənə.

**PRİZ** – Hər hansı bir yarışda qalib gələnə verilən mükafat.

Prezident-rezident

**PREZİDENT** – Cəmiyyət və ya idarələrə rəhbərlik etmək üçün seçilmiş şəxs.

**REZİDENT** – Səfirdən bir rütbə aşağı olan diplomatik nümayəndə, bir ölkənin daim başqa ölkədə yaşayan vətəndaşı.

Propen-propion

**PROPEN** – Kimyəvi element olub, rəngsiz qazdır.

**PROPİON** – Şiş əleyhinə hormonal kimyəvi maddə.

Protein-proton

**PROTEİN** – Sadə zülal.

**PROTON** – Oksigen atomunun nüvəsi olan və bütün maddələrin atom nüvəsinin tərkibinə daxil olan müsbət elektrik yüklü hissəcik.

Protest-protez

**PROTEST** – İctimai vəziyyətə nisbətən açıq reaksiya; çox vaxt qarşı çıxmaq.

**PROTEZ** – Bədənin itirilmiş hissəsini əvəz etmək üçün onun formasında düzəldilmiş süni üzv.

Puanson-puasson

**PUANSON**– Presləmə və ya ştamplama üçün əsas detallardan biri.

**PUASSON** – Məşhur fransız fiziki və riyaziyyatçısının adı. Onun adı ilə əlaqədar riyazi hadisələr.

Puçal-puçur

**PUÇAL** – Cecə, torta.

**PUÇUR** – 1. Tumurcuq; 2. Damcı-damcı axan tər.

Pud-fut-pult

**PUD** – Metrik ölçü sistemindən əvvəl işlənmiş, 16, 4 kq-lıq ağırlıq ölçüsü.

**FUT** – 30,479 sm-ə bərabər rus və ingilis uzunluq ölçüsü.

**PULT –** Uca ayaqlar üstündə duran maili çərçivə şəklində not altlığı.

Pudinq-pudlinq

**PUDİNQ** – Un və ya düyü unu, yumurta, süd, kişmiş və s. ədviyyatdan hazırlanan milli ingilis yeməyi.

**PUDLİNQ** – Çuqundan dəmir hazırlanmasının köhnə üsulu.

Purizm-turizm

**PURİZM**– Dili xarici sözlərdən təmizləmə cəhdi, bu cəhddə ifrata varma.

**TURİZM**– İstirahət və öz vətəninin müxtəlif yerləri ilə və ya başqa ölkələrlə tanış olmaq məqsədilə edilən səyahət; piyada, velosiped, xizək və s. ilə səyahətdən, yürüşdən ibarət idman növü.

Püstə-püştə-püşti

**PÜSTƏ** – 1. Qışda yarpağı tökülən, quraqlığa davamlı, qabıqlı meyvə gətirən subtropik ağac; 2. Həmin ağacın bərk və şəffaf qabıqlı ləpəsi olan yaşılımtıl meyvəsi.

**PÜŞTƏ** – Kiçik təpəcik, torpaq və qum topası, yığımı.

**PÜŞTİ** – Oturub söykənmək üçün divara dayadılan döşək.

## R

Radial-radian

**RADİAL** – Radius istiqamətində yerləşən. Uzunluq radiusa bərabərdir.

**RADİAN (riyaz.)** – Beynəlxalq vahidlər sistemində künclərin radiusunu ölçən.

Radiokonduktor-radiokonstuktor

**RADİOKONDUKTOR** – Dinləyici ilə radio arasında müəyyən vaxt ərzində xərc alan şəxs.

**RADİOKONSTRUKTOR** – Radio cihazlarını bərpa edən adam.

Radist-radius

**RADİST** – Radiotexnika ilə məşğul olan şəxs, radiotexnika mütəxəssisi.

**RADİUS** – Şarın çevrəsinin və ya səthinin hər hansı bir nöqtəsini mərkəzi ilə birləşdirən düz xətt.

Raxit-ratit

**RAXİT** – Böyüməkdə olan orqanizmdə duzların çatmaması nəticəsində sümüklərin qeyri-normal inkişafı maddələr mübadiləsinin pozulması şəkində təzahür edən uşaq xəstəliyi.

**RATİT(mineral)** – Kimyəvi maddə, mineral.

Rakı-raqa

**RAKI** – Türk milli tünd spirtli içkisi.

**RAQA (mus.)** – Qədim Hind klassik musiqi növlərindən biri.

Ranet-raket-rulet

**RANET(alma)** – Qiymətli alma növlərindən biri.

**RAKET** – Atəşfəşanlıq, habelə işıq siqnalları vermək üçün işlədilən içi barıt tərkibli maddələrlə doldurulmuş gilizdən ibarət mərmi.

**RULET**– 1. Döyülmüş ətdən və ya kartofdan iç qoyularaq uzunsov şəkildə hazırlanan yemək; 2. Lay-lay xəmirdən girdə və ya uzunsov şəkildə hazırlanan şirin çörək.

Raut-raund

**RAUT** – Burjua məişətində çox vaxt siyasi məna daşıyan təntənəli gecə.

**RAUND** – Boksda: vuruşun bir hissəsinin davam etdiyi 2 və ya 3 dəqiqəlik müddət.

Razı-razi

**RAZI** – Bir şeydən razı, məmnun olan.

**RAZİ** – 1.Məmnun, razılaşan, sirrə aid olan, sirli; 2.Rey şəhərinin sakini, reyli.

Real-rial

**REAL** – Xəyalda deyil, həqiqətdə mövcud olan.

**RİAL** – İranda pul vahidi.

Redaktor-reduktor

**REDAKTOR** – Hər hansı bir işi redaktə edən adam.

**REDUKTOR** – Maşının təkərləri hərəkətə gətirən hissəsi.

Referat-referent

**REFERAT** – Elmi əsərin, oxunmuş kitabın və s. şifahi və yazılı qısa məzmunu, xülasəsi.

**REFERENT** – Bir idarədə, təşkilatda müəyyən məsələlər üzrə məlumat və məsləhət verən vəzifəli şəxs.

Reflektor-refraktor

**REFLEKTOR** – İşıq mənbəyindən çıxan şüaları əks etdirən.

**REFRAKTOR** – Göy cisimlərini müşahidə etmək üçün linzalı teleskop.

Reqaliya-realiya

**REQALİYA** – Dövlət tərkibində olan və dövlətin gəlir mənbələrinə xidmət edən xidmət sferası.

**REALİYA** – 1.Həqiqi, gerçək, əşyavi, fakt; 2. Sosial proses, hadisə.

Reqressiya-aqressiya

**REQRESSİYA** – Dənizin tədricən geri çəkilməsi halı.

**AQRESSİYA –** Əsəbi hal, vəziyyət.

Relakiya-reaksiya-redaksiya

**RELAKSİYA** – Zəifləmə.

**REAKSİYA** – Hər hansı bir təsirə cavab olaraq əmələ gələn təsir.

**REDAKSİYA** – Mətni işləmə və düzəltmə, redaktə etmə.

Remiz-remiza

**REMİZ** – 1.Qumar oyununda cərimə; 2. Qılınc təlimində xəbərdarlıq zərbəsi; 3. Ödənilmə ; 4. Kolluq yer.

**REMİZA** – 1.Toxucu dəzgahının bir hissəsinin adı; 2. Parça qırıntıları.

Reneqat-generat

**RENEQAT** – İnandığı bir dindən digərinə keçən şəxs; məcazi mənada öz inamlarına xəyanət edən, düşmən tərəfə keçən şəxs.

**GENERAT** – Elektrik generatorudur. Burada enerjinin qeyri-elektrik növləri (mexaniki, kimyəvi, istilik) elektrik enerjisinə çevrilir.

Repressiya-resepsiya

**REPRESSİYA** – Təqib etmə, kütləvi cəzalandırma.

**RESEPSİYA** – Qarşılıqlı əlaqə; hər hansı milli hüquq sistemi prinsiplərinin digər milli hüquq sistemi prinsipləri ilə qarşılıqlı əlaqəsi.

Rep-reps

**REP** – Musiqi altında oxunan ritmik hekayə.

**REPS (parça)** – Xırda qabarıq zolaqlı sıx parça; həmin parçadan tikilmiş.

Revanş-reverans

**REVANŞ** – Məğlubiyyətə görə alınan qisas, əvəzçıxma.

**REVERANS** – Avropanın bəzi ölkələrində incə şəkildə əyilərək salamlaşmaq, ehtiram ifadə etmək, təşəkkür, görüş və yaxud xudahafizləşmək jesti.

Revers-rezerv

**REVERS** – Tərsinə çönmə, geri dönmə, dəri yaxalığının qatlanmış şəkli.

**REZERV** – 1.Ehtiyatda saxlanılmış əşya; 2. Yedək, ehtiyat.

Reyd-reys

**REYD** – Gəmilərin limanın daxilində və ya yaxınlığında lövbərdə durduqları yer.

**REYS** – Müəyyən xətdə işləyən gəmi, maşın, təyyarə və s. hərəkətinin başlanğıcı və sonu arasındakı məsafə, yol.

Rəd-rədd

**RƏD** – Göy gurultusu.

**RƏDD** – Qəbul etməmə, yox cavabı vermə, mənfi cavab vermə.

Rəfaqət-rəqabət-rəvayət

**RƏFAQƏT** – Yoldaşlıq, dostluq.

**RƏQABƏT** – Hər hansı bir sahədə eyni məqsədi əldə etmək üçün ayrı-ayrı şəxslər arasında mübarizə, çəkişmə.

**RƏVAYƏT** – Bir hadisə, əhvalat haqqında qısa nağıl, hekayət.

Rəfiq-rəqib-rəqiq

**RƏFİQ –** Yoldaş, dost, arxadaş**.**

**RƏQİB** – Bir şeyi tələb edən, arzu edən, istəyən şəxslərdən hər biri.

**RƏQİQ** – İncə, nazik.

Rəhm-rəhim-rəhn

**RƏHM** – Acıma, yazığı gəlmə, ürəyi yanma, mərhəmət.

**RƏHİM** –1. Balalıq; 2. Qohumluq; 3. Xüsusi ad;4. Rəhimli.

**RƏHN** – 1. Girov; 2. Kiminsə və ya nəyinsə naminə.

Rəməl-rəml

**RƏMƏL** – Əruz vəznində şeir forması.

**RƏML** – Rəmmalların qum üzərində müxtəlif işarələr çəkərək və ya başqa üsullarla fala baxıb gələcəkdən xəbər verməsi.

Rəmz-rəmzi

**RƏMZ** – Bir fikri və ya anlayışı ifadə edən rəsm, hərf, şəkil və s. işarə.

**RƏMZİ** – Rəmzdə ifadə olunan , işarə ilə, dolayı yolla bildirilən; üstüörtülü.

Rənc-rəng

**RƏNC** – Əziyyət, zəhmət.

**RƏNG** – Bir şeyin işıq tonu.

Rəşə-rişə

**RƏŞƏ** – Titrəmə, titrəyiş, əsmə.

**RİŞƏ** – Kök.

Rif-rift-lift

**RİF** – 1. Mərcan adalarında mərcan rifləri; 2. Dənizdə kiçik səthin qalxması.

**RİFT** – Orta okean dağ silsilələrinin kənarlarında yerləşən dərələr.

**LİFT** – Çoxmərtəbəli binalarda, şaxtalarda adam, yük qaldırıb-düşürmək üçün maşın.

Rinit-rinqgit

**RİNİT(tibb.)** – Müxtəlif səbəblərdən burunun selikli qişasının iltihabı.

**RİNQGİT** – 100 senamdan ibarət Malaziya pulu.

Riza-rizə

**RİZA –** 1.Razılıq, məmnunluq; 2.Süd əmələ gəlmə**.**

**RİZƏ** – 1.Tikə, parça; 2. Xırda, narın.

Riyazət-rəyasət

**RİYAZƏT –** Allahdan qorxaraq özünü dünya nemət və ləzzətlrindən məhrum edib zahidiyə qapılma.

**RƏYASƏT –** Rəislik, başçılıq, rəhbərlik**.**

Rodium-rubidium

**RODİUM** – Kimyəvi elementlər cədvəlində 9-cu qrup elementi. Platinlər qrupundan olub, gümüşü-ağ rəngə çalır.

**RUBİDİUM** – Kimyəvi elementlər cədvəlinin 1-ci qrup elementi olub, gümüşü-ağ rəngli metaldır.

Rol-rul

**ROL** – Artistin səhnədə, kinofilmdə təmsil etdiyi surət.

**RUL** – Avtomobilin, təyyarənin və s.-nin müəyyən istiqamətdə hərəkətini idarə etmək üçün qurğu, sükan.

Rom-rum-romb-rumb

**ROM** – Şəkər qamışı və patkasının qıcqırdılmış şirəsindən haazırlanan içki.

**RUM** – Əslən yunan olub müsəlman məmləkətlərində yaşayan əhaliyə və bu əhaliyə mənsub adamlara verilən ad.

**ROMB** – Tərəfləri bərabər çəp paraleloqram, həndəsi fiqur.

**RUMB (geol.)** – Kompasın dairəsində bölgü.

Rozetka-rozetta

**ROZETKA** – 1. Mürəbbə üçün yumru formalı qab; 2. Elektrik və su cihazlarının tez qapanması üçün işlədilən vasitə.

**ROZETTA** – Divar və tavanın bəzənməsi üçün gül ləçəyi formasında bəzək.

Rutil-ruşul-rüşul

**RUTİL** – Qırmızımtıl rəngdə olan mineral.

**RUŞUL** – Qadınların üzlərinə çəkdikləri əhəngdən düzəlmiş təbaşirə oxşar maddə.

**RÜŞUL** – Elçilər, peyğəmbərlər, nəbilər, rəsullar.

**S**

Sabiq-sadiq

**SABİQ** – Əvvəldə olmuş, keçmişdə olmuş; keçmiş, köhnə, əvvəlki.

**SADİQ** – Sədaqətli olan, sədaqətli, vəfalı.

Səbat-səbət

**SƏBAT** – Axıra qədər sözünün üstündə durma; iqrarında möhkəm olma, dəyanət, sabitlik, davamlılıq, möhkəmlik, mətanət, əzm.

**SƏBƏT** – İçinə meyvə, göyərti və s. yığmaq üçün qarğıdan, qamışdan və s. hörülən uzunsov zənbil.

Sac-saç

**SAC** – Üzərində lavaş, yuxa, bozlamac, qutab və s. bişirmək üçün ortası qalxıq, dairəşəkilli çuqun və ya dəmir lövhə.

**SAÇ** – İnsanın başında bitən tüklər.

Saçaq-saçıq

**SAÇAQ** – 1.Bir şeyin, adətən paltarın, pərdənin və s.-nin kənarları boyunca tikilən çox sıx sallanan sap telləri; 2. Bəzi bitkilərdə nazik telər; 3. Şüa.

**SAÇIQ** – 1. Pərişan, nizamsız, dağınıq; 2.Açıq, ədəb xaricində ; 3. Hər şey olduğu kimi.

Sadağa-sədəqə

**SADAĞA** – Qurban-sadağa getmək.

**SƏDƏQƏ** – . Allah rizası üçün kasıblara verilən şeylər; 2. Doğruluq, düzgünlük.

Sağım-sağın-sığın

**SAĞIM** – Sağma işi, sağım.

**SAĞIN** – Sağılan, südverən heyvan.

**SIĞIN** – 1.Sığınacaq yer, daldalanacaq; 2.Vəhşi maral.

Sağır-sığır

**SAĞIR** – Kar.

**SIĞIR** – Qaramal.

Saxta-şaxta

**SAXTA** – Əsli olmayan, uydurma, yalan, qəlp.

**ŞAXTA** – Çox soyuq, qış havası, bərk soyuq, 0-dan aşağı hava temperaturu.

Sail-sahil

**SAİL** – Dilənçi, yolçu.

**SAHİL –** Dənizin, çayın, gölün quru ilə birləşdiyi yer, dəniz, çay kənarı.

Saqa-saqi-saqo

**SAQA** – Nəsrlə yazılmış qədim island əsərləri; qədim Skandinaviya əfsanəsi.

**SAQİ –** Kef məclisində şərab və s. içki paylayan adam.

**SAQO** – Bəzi palma ağaclarının özəyindən alınan nişasta.

Saqqa-saqqal

**SAQQA –** Keçmişdə dalında, yaxud da araba ilə su daşıyan adam; suçu**.**

**SAQQAL** – Kişilərin üzündə və alt çənlərində bitən tüklər.

Salari-salyari

**SALARİ** – Mərzban İbn Məhəmməd tərəfindən yaradılmış dövlət.

**SALYARİ** – Günəş vannası qəbul edənlər üçün avadanlığı olan yer.

Salat-salavat

**SALAT** – 1.Tərəvəz, yumurta, ət və s. doğranaraq üstünə zeytun yağı, xama və s. töklüərək hazırlanan soyuq yemək; 2. Ölənin üstündə uca səslə oxunan minacat.

**SALAVAT** – Məhəmməd peyğəmbər və imamların şəninə oxunan dua.

Salım-salim

**SALIM** – Bir dəfə tökməyə çatan, az, azacıq.

**SALİM** – Salamat.

Sallaq-şallaq

**SALLAQ** – 1.Sallanmış halda olan, aşağıya tərəf uzanmış, bükülmüş; 2. Mal-heyvan kəsən, sallaqxana fəhləsi.

**ŞALLAQ** – Qırmanc.

Salol-salon

**SALOL** – Bağırsaqları və sidik yollarını dezinfeksiya etmək üçün ağ rəngli kristallik maddə.

**SALON** – Qonaqlar üçün qəbul otağı.

Salar-salur-sanar

**SALAR** – Əvvəllər ərazidən keçən, indi Daşkəndin ərazisinə daxil olan və şəhəri su sistemi ilə təchiz edən kanal; öz mənbəyini Bozsudan, o da Çirçik çayından götürür.

**SALUR** – Oğuzların 24 tayfasından biri.

**SANAR**(lar) – Böyük Qafqaz dağlarının cənub ətəklərində yaşamış tayfa.

Saldo-salto-soldo

**SALDO –** Mühasibatda: mədaxil ilə məxaric arasında olan fərq, qalıq.

**SALTO** – Akrobatika və idman gimnastikasında xüsusi hərəkət növü, mayallaq, mayallaq aşma.

**SOLDO** – İtaliyada mis pul.

Saman-zaman

**SAMAN**– Taxıl döyüldükdən və təmizləndikdən sonra qalan çöpşəkilli hissəciklər, xırda-xırda doğranmış küləş.

**ZAMAN** – Fəlsəfədə baş verən hadisələrin ardıcıllığının insan tərəfindən dərk edilməsidir.

Samba-sambo-sanda

**SAMBA(rəqs)** – Braziliya karnavallarına görə dünyada məşhur olan samba rəqsi.

**SAMBO** –Güləş zamanı şiddətli ağrılara yol verən idman güləşmə üsulu.

**SANDA** – Çin döyüş incəsənətinə əsaslanan idman növü.

Samit-sammit-samnit

**SAMİT** – Səs axınının ağızda bu və ya başqa üzvün maneəsinə rast gəlməsi ilə tələffüz edilən səs.

**SAMMİT** – Dövlət başçılarının iştirakı ilə keçirilən zirvə toplantısı.

**SAMNİT**(lər)**(tayfa)** –1.Roma imperatorluğunda qladiator olub, qalxan ilə qısa qılınc və mizraq daşıyan şəxs; 2. Tayfa adı.

Samoalı-samovarlı

**SAMOALI(tayfa)** – Amerikanın Samoa adasında yaşayan şəxs.

**SAMOVARLI** – Ortasından keçən bir silindrdə manqal kömürü və palıd kötüyü ilə isidilən su ilə dolu metal qazan.

Sancaq-soncuq

**SANCAQ** – 1.Kağız vərəqlərini və s.-ni bir-birinə bəndləmək üçün dəmirdən qayrılmış ucu iti dəftərxana gərəyi; 2. Yaxaya, başa sancmaq üçün adi və qiymətli metaldan qayrılan müxtəlif ölçülü və formalı qadın bəzəyi.

**SONCUQ** – Təpik, şıllaq.

Sap-sarp

**SAP** – Pambıq liflərindən, ipək tellərindən, yaxud süni liflərdən nazik eşilmiş ip.

**SARP** – Keçilməsi, üstünə çıxılması çox çətin olan; çox dik, sıldırım, yalçın.

Sapan-sapand

**SAPAN** – Xış.

**SAPAND** – Daş atmaq üçün qədim silah.

Saplaq-saplıq

**SAPLAQ** – Yarpağı, gülü, meyvəni budaqla birləşdirən nazik bərk hissəscik, bəndəm.

**SAPLIQ** – Sapın bağlandığı kiçik taxta və ya plastmas alət.

Sarıq-sarılıq

**SARIQ –**Yaranı sarımaq, sınığı bağlamaq və s. üçün uzun kəsilmiş tənzif, bez bint.

**SARILIQ** – 1.Sarı şeyin halı, sarı rəngdə olma; 2. Qaraciyər xəstəliyi.

Sarqac-surquc

**SARQAC** – 1. Qapqara, makara;  2. Məftil sarınmış çarx.

**SURQUC** – Asanlıqla əriyən və tez bərkiyən rəngli bərk qətran (və ya mum) (konvertləri möhürləmək, şüşələrin ağzını bərkitmək üçün işlədilir).

Sarsaq-sarımsaq

**SARSAQ** – Səfeh, gic, axmaq, abdal.

**SARIMSAQ**– Soğan cinsindən olub, çox kəskin iyə və dada malik olan tərəvəz.

Savab-savad-savand

**SAVAB –** İslam dininə görə pis deyil, yaxşı iş görmə.

**SAVAD** – 1.Yazıb-oxumağı bacarma; yazı-pozu; 2. Şeylərin üzərinə çəkilən qara rəngli naxış.

**SAVAND** – 1.Savand sindromu – İnkişafdan geri qalan şəxslərin bir neçə sahədə həddən artıq bacarıq xüsusiyyətləri; 2. Alim, hakim, bacarıqlı, mədəni, oxumuş, öyrənmiş.

Saya-sayə

**SAYA** – 1. Bir rəngdə olan, birrəngli; 2. Mürəkkəb olmayan, sadə.

**SAYƏ** – 1. Kölgə; 2. Himayə, mühafizə, qoruma.

Sayaq-sayıq-sıyıq

**SAYAQ** – Bənzərlik bildirir: cür, kimi, tərzdə, öz işində, hərəkətdə, vəziyyətdə, qaydada.

**SAYIQ** – Ehtiyatlı, gözüaçıq, ayıq, sərvaxt.

**SIYIQ** – 1. Yarıduru halda olan, horra; 2. Su ilə və ya süd ilə bişirilən duru xörək.

Sayğac-sayxaş

**SAYĞAC** – 1. Bir şeyi hesablamaq üçün xüsusi quruluşlu cihaz, alət; 2. Dördkünc çərçivədə köndələn millərə keçirilmiş yuvarlaq sümükcüklərdən ibarət riyazi hesablamalar aparmaq üçün alət, çötkə.

**SAYXAŞ** – Sakit, durğun, küləksiz.

Sayra-sayru

**SAYRA** – Balıq növü olub, Hindistanın duzlu dənizlərində yaşayır.

**SAYRU –** Zəif, xəstə.

Sazaq-sızaq

**SAZAQ** – Bərk soyuq, şaxta.

**SIZAQ** – Dəri üzərində əmələ gələn irinli səpgi.

Sekstant-sektant

**SEKSTANT** – Geodeziya və astronomiya müşahidələrində işlədilən bucaq ölçən alət.

**SEKTANT** – Təriqətçi.

Selik-sellik

**SELİK** – Bəzi heyvan və bitki hüceyrələrinin ifraz etdiyi suvaşqan maddə.

**SELLİK** – Selin yuyub gətirdiyi xırda daş, ağac parçaları və s., selinti.

Selsi-selsin

**SELSİ** – Suyun donma nöqtəsindən qaynama nöqtəsinədək 100 dərəcəyədək bölünmüş termometr.

**SELSİN** – Dəyişkən cərəyana malik elektrik mikromaşın.

Seroz-serroz-stenoz

**SEROZ (zərdab)** – Epitel qatı ilə örtülən birləşdirici toxuma.

**SERROZ** – Ciyərin böyüməsi və ya kiçilməsi ilə gedən xroniki xəstəliyi.

**STENOZ** – Boğazın hissəli qapanması xəstəliyi, havanın nəfəs borusuna getməsi çətinləşir.

Serpantin-seerpentin

**SERPANTİN** – Bal, maskarad və karnavallarda oynayanların üstünə tökülən rəngbərəng, uzun kağız lentlər.

**SEERPENTİN (miner.)** –1.Latın sözü olub ilan deməkdir; 2. Su silikatları sinfindən olan mineral.

Servis-serviz

**SERVİS** – 1.Xidmət, xidmət göstərmə; 2. Topu vurub oyuna başlama.

**SERVİZ** – Müəyyən miqdar şəxs üçün xörək və ya çay ləvazimatı (qabları) komplekti.

Seyf-seym-seyr

**SEYF** – Qiymətli kağızları, sənədləri, pul və s. saxlamaq üçün yanmayan metaldan qayrılan şkaf və ya yeşik.

**SEYM** – Bəzi ölkələrdə qanunverici orqan, parlament, məclis.

**SEYR** – Əylənmək və istirahət məqsədilə gəzinti, gəzmə, seyr etmə.

Səba-səda

**SƏBA** – Səhər əsən xəfif yel; meh.

**SƏDA** – Səs, avaz.

Səbzə-səbzi

**SƏBZƏ** – 1. Əla kişmiş növü; 2. Göyərti, göylük, göyərtilik, yaşıllıq, çəmən.

**SƏBZİ** – Göyərti.

Səccadə-səcdə

**SƏCCADƏ** – Mömin müsəlmanların namaz qılanda istifadə etdikləri kiçik xalça və ya parçadan tikilmiş döşənək; canamaz.

**SƏCDƏ** – Namazda alnı möhürə söykəyib Quranın bəzi ayələrini oxuyarkən alnını ona söykəyib dua oxuma.

Səd-sədd

**SƏD**– Yüz (afərin, mərhəba, heyif kimi sözlərin əvvəlinə gətirilərək onların təsir gücünü artırmaq üçün nida məqamında işlənir).

**SƏDD** – Müxtəlif məqsədlər üçün çəkilən divar, hasar.

Səfahət-şəfaət

**SƏFAHƏT – 1.** Səfehlik**;** 2. Zövq, əyləncə, kef düşkünlüyü, vaxtını bu cür işlərdə keçirmə.

**ŞƏFAƏT –** Yardım etmək, kömək göstərmək, şəfa vermək.

Səfalət-səfarət

**SƏFALƏT** – Son dərəcə ehtiyac içində yaşama, sıxıntı çəkmə, yoxsulluq.

**SƏFARƏT –** 1. Səyahət, yola çıxma; 2. Kərə, dəfə; 3. Hicri-qəməri ərəb təqvimində II ay.

Səfeh-səhih

**SƏFEH** – Gic, ağıldan kəm, axmaq, sarsaq.

**SƏHİH** – Düzgün, doğru, gerçək, əsaslı, yalan olmayan.

Səfər-səfil-səfir

**SƏFƏR –** 1. Səyahət, yola çıxma, yol; 2. Dəfə, kərə, yol; 3.Hicri qəməri ərəb təqviminin ikinci ayı.

**SƏFİL** – Daimi yaşayış yeri olmayan, daimi məşğuliyyəti olmayan, səfalət içərisində yaşayan; avara, sərgərdan, sərsəri, veyil.

**SƏFİR** – Bir dövlətin digər dövlətdə olan yüksək dərəcəli diplomatik nümayəndəsi, elçisi.

Səfhə-səhifə

**SƏFHƏ** – 1. Hər hansı bir hadisənin, prosesin və s.-nin inkişafında ayrıca bir mərhələ, dövr, faza; 2. Günəşdən işıqlanma və Yerə görə vəziyyətlərindən asılı olaraq Ay və panetlərin müxtəlif dövrələri.

**SƏHİFƏ** – Kitab, dəftər, qəzet və s. vərəqinin bir üzü.

Səfsəfə-fəlsəfə

**SƏFSƏFƏ** – Boş, anlaşılmaz yazı, danışıq.

**FƏLSƏFƏ** – Varlığın (təbiət və cəmiyyətin), insan təfəkkürünün və idrak prosesinin tabe olduğu ən ümumi qanunauyğunluqlar haqqında elm.

Səhəng-sərhəng

**SƏHƏNG** – Su daşımaq üçün misdən və ya gildən qayrılmış qulplu, qarınlı, darboğaz qab; güyüm.

**SƏRHƏNG** – 1. Qoşun böyüyü, alay komandiri; 2. Polkovnik.

Səhm-zəhm

**SƏHM** – 1. Ayrı-ayrı müəssisənin işində və gəlirində iştirak etməyə hüquq verən pul payı; həmin pula bərabər qiymətli kağız; 2. Faiz, pay, hissə.

**ZƏHM** – 1. Qorxu, vahimə, dəhşət; qorxu, vahimə, dəhşət doğuran hal, görünüş; 2. Qəzəblə, hiddətlə, çox acıqlı halda.

Sələb-sələf-səlib-səlbə

**SƏLƏB** – Tülkü.

**SƏLƏF**–1.Bir işdə başqasından qabaq düşmüş adam; 2.Bir soyda özündən qabaq gələn nəslin nümayəndəsi, ata-baba, əcdad.

**SƏLİB** – Xaç.

**SƏLBƏ**–Ağacdan meyvəni salmaq, heyvanları qovmaq və s. üçün atılan ağac parçası.

Sələf-xələf

**SƏLƏF** – Hər hansı bir sahədə, işdə, mövqedə fəaliyyəti o birindən daha qabaq olmuş, yaxud qabaq yaşamış adam.

**XƏLƏF** – Sonradan gələn, birinin yerinə keçən və ya keçməli olan, onun işini davam etdirən, onu əvəz edən adam.

Sələm-səlim

**SƏLƏM** – Müamilə.

**SƏLİM** – 1. Sağlam; 2. Eybsiz, nöqsansız, doğru, dürüst.

Səma-səmə

**SƏMA** – Göy, asiman.

**SƏMƏ** – Ağıldan kəm, ağlı çatmayan.

Sənəd-sənət

**SƏNƏD** – Bir şeyi, faktı sübut edən, bir şeyə olan hüququ təsdiq edən rəsmi kağız.

**SƏNƏT** – Müəyyən hazırlıq tələb edən və sahibinin yaşaması üçün əsas mənbə sayılan əmək fəaliyyətinin bir növü, peşə.

Səpgi-səpki

**SƏPGİ** – Dəri üzərində əmələ gələn keçici iltihabi qabarcıqlar, sızaq, səpişik.

**SƏPKİ** – Şəkil, biçim, üsul, tərz, qayda.

Sərab-sirab-şərab

**SƏRAB** – İlğım.

**SİRAB** – Doymuş (su və s. mayelərlə); sirab etmək – doydurmaq.

**ŞƏRAB** – Üzümdən hazırlanan spirtli içki, çaxır.

Sərasər-sərbəsər-sərsəri-sərtasər

**SƏRASƏR** – Başdan-başa, bütünlüklə, tamamilə, bütöv, tamam.

**SƏRBƏSƏR**–Başdan-başa, tamamilə.

**SƏRSƏRİ**– İşi-gücü və müəyyən yeri olmayıb orda-burda dolaşan, heç bir işlə məşğul olmayan, avara, veyil.

**SƏRTASƏR** – Başdan-başa, tamamilə.

Sərbəst-sərməst

**SƏRBƏST** – Başqasından asılı olmayan, özü öz ixtiyarında, başqası ilə bağlı olmayan, müstəqil.

**SƏRMƏST** – Məst olan, kefli.

Sərgi-sərki

**SƏRGİ** – Camaata göstərilmək üçün müəyyən qaydada qoyulmuş, ya asılmış şeylər və onların nümayiş etdirildiyi yer.

**SƏRKİ** – Tənə, qaxınc, töhmət, məzəmət, danlaq.

Sərxoş-sərpuş

**SƏRXOŞ** – İçmiş, kefli.

**SƏRPUŞ** – 1. Baş örtüyü, örtük; 2. Soyumamaq üçün xörək çəkilmiş qabın üstünə qoyulan kasayaoxşar mis qab; qalpaq.

Sərinkeş-sərkeş

**SƏRİNKEŞ** – Otaqda, binada sərinlik yaratmaq üçün cihaz, qurğu; ventilyator.

**SƏRKEŞ** – Çox təşəxxüslü, həddindən artıq iddialı (tərs) adam; dikbaş.

Sətin-sətir

**SƏTİN (parça)** – Möhkəm pambıq və ya ipək parça.

**SƏTİR** – Hər hansı bir mətnin bir xətdə yazılmış hissəsi, yazı sırası.

Səyyah-səyyal-səyyar

**SƏYYAH** – Səyahət edən, səyahətə çıxan adam.

**SƏYYAL** – Axıcı, axan, sərbəst.

**SƏYYAR** – Hərəkət edən, gəzən, dolaşan, bir yerdə durmayan.

Sfalerit-sferoid

**SFALERİT(miner.)** – Sulfidlər sinfindən olan tünd-sarı və qırmızı-narıncı mineral. Mənası "aldadan" deməkdir. Mineralı müəyyən etmək çətin olduğu üçün yalançı adlandırılmışdır.

**SFEROİD** – Üfürülmüş şar.

Sıcaq-sucuq

**SICAQ** – İsti.

**SUCUQ** – İçərisinə fındıq, qoz, şabalıd doldurulmuş kolbasa şəkilli şirniyyat növü.

Sığa-siğə

**SIĞA** – 1. Kiçik uşaqlar; 2. Yetimlər.

**SİĞƏ** – Köhnə məişətdə: müvəqqəti nikah, evlənmə (çoxarvadlılığın bir növü).

Sığım-sığın-sığır

**SIĞIM –** Çox incə, yavaş-yavaş.

**SIĞIN –** Cütdırnaqlılar dstsinin maral fəsiləsinə aid olan əməli kövşəyən heyvan.

**SIĞIR** – Qaramal. Belşəkilli buynuzları olan maral fəsiləsindən iri kövşəyən məməli heyvan.

Sığırçı-sığırçın

**SIĞIRÇI** – Mal-qara çobanı; naxırçı.

**SIĞIRÇIN** – Quşların sərçəkimilər dəstəsindən olan, tündtüklü, oxuyan, köçəri quş.

Sınaq-sınıq

**SINAQ** – Sınama işi, imtahan.

**SINIQ** – Sınmış halda olan; qırıq.

Sıpa-zopa

**SIPA** – Bir yaşar qoduq (Bəzən söyüş kimi işlənir).

**ZOPA** – Dəyənək, kötək.

Sıra-sırsıra

**SIRA** – Yan-yana və ya ard-arda düzülən adamlar və ya şeylər düzümü; səf, cərgə.

**SIRSIRA** – Axmaqda olan su damcılarının donması nəticəsində əmələ gələn buz lülələri.

Sırma-sürmə

**SIRMA** – Qızıl kimi parlayan incə gümüş tel.

**SÜRMƏ** – Qadınların qaşlarına, gözlərinə çəkdikləri qara boya, toz.

Sıyrım-sıyrın

**SIYRIM** – Sıyrılmış, sıyrılıb qopmuş, dərisi qopmuş.

**SIYRIN** – Sıyrılmış yer.

Sızaq-sazaq

**SIZAQ –** Üzdə müxtəlif mikroblar nəticəsində yaranan yara.

**SAZAQ** – Soyuq, yel, çovğun.

Sırtıq-sürtük

**SIRTIQ** – Utanmaz, həyasız, arsız, üzlü; özünü hər yerə soxan, heç şeydən utanmayan.

**SÜRTÜK** – 1. Sürtülmüş halda olan, çox sürtülməkdən yazısı, naxışı silinib getmiş, pozulmuş; 2. Sırtıq, üzlü, həyasız, utanmaz; 3. Beli dar, uzun ətəkli, ikibortlu kişi üst geyimi.

Sıf-sırf

**SIF** – Balıq növü.

**SIRF** – Xalis, məhz, ancaq, büsbütün.

Siam-sian

**SİAM**(lar) – Tai tayfalarına verilən ad.

**SİAN (kimy.)** – Kəskin iyli, rəngsiz qaz.

Sianat-sionid

**SİANAT**(lar) – Sianat turşusu.

**SİONİD**(lər) – Acı badam iyli rəngsiz uçucu maye.

Sibilyant-simulyant

**SİBİLYANT**(lar) – Ön dil frikativ samit səs.

**SİMULYANT** – Özünü yalandan xəstəliyə vuran, olduğu kimi görünməyən.

Sifon-silfon-şifon

**SİFON** – Mayeni yuxarı səviyyədə duran borudan aşağı səviyyədə duran boruya axıtmaq üçün əyri boru.

**SİLFON (texn.)** – Paslanmayan polad, bürünc, fosforlu və ya beriliumlu tuncdan hazırlanan nazik divarlı köndələn büzməli borucuq.

**ŞİFON**– Nazik pambıq və ya ipək parça.

Siklon-siklop-siklor

**SİKLON** – Sıx buludlu və yağmurlu havada atmosferin qasırğalı, burulğanlı hərəkəti.

**SİKLOP** – Müxtəlif xalqların folklorunda mifik obraz –Təpəgöz.

**SİKLOR** – Feysbukda açılan profil.

Siqaret-siqlət

**SİQARET** – Kiçik, nazik siqar.

**SİQLƏT** – Ağırlıq.

Siqnal-sinal

**SİQNAL –** Müəyyən məsafədə hər hansı xəbəri bildirmək üçün şərti işarə.

**SİNAL** – Metal ərintisi.

Sil-silə-sillə

**SİLİ** – Sillə.

**SİLƏ** – Qovuşma, əlaqə, bağ, rabitə, hədiyyə, mükafat.

**SİLLƏ** – Açıq əllə, əl ayası ilə üzə vurulan zərbə.

Sin-sinn

**SİN** – Ərəb əlifbasında "s" hərfinin adı.

**SİNN** – Yaş.

Sinel-şinel

**SİNEL** – Qotaz, saçaq qayırmaq üçün məxmər qaytan.

**ŞİNEL –**Xüsusi biçimdə tikilmiş əsgəri qış paltosu.

Sini-süni

**SİNİ** – Misdən, bürüncdən və s.-dən qayrılmış böyük, dəyirmi, dayaz qab.

**SÜNİ** – Təbii deyil, əslində olduğu kimi insan əli ilə düzəldilmiş.

Sintaktik-sintetik

**SİNTAKTİK** – Sintaksisə aid olan.

**SİNTETİK** – Sintez tətbiqinə əsaslanan.

Sirat-sirayət

**SİRAT** – Yol.

**SİRAYƏT** – Yoluxma, keçmə.

Sital-sitat-sütül

**SİTAL** – Sırtıq üzlü, nadinc.

**SİTAT –** Hər hansı mətndən və ya ifadədən mətnin daha ifadəli olması üçün seçilən hissə.

**SÜTÜL** – Hələ yetişməmiş, tamam dəyməmiş.

Sitəm-sitmə

**SİTƏM** – Zülm, əziyyət, cəfa.

**SİTMƏ** – Narın yağma.

Sivil-sivri

**SİVİL** – Mülki, qeyri-hərbi.

**SİVRİ** – İti, şiş.

Skat-skayp-skayn

**SKAT(balıq)** – 1. Balıq növü; 2. Dam örtüyünün konstruktiv elementi.

**SKAYP** – İnternet vasitəsilə videogörüntü və o biri tərəfdə olan şəxslə səsli danışıq.

**SKAYN**– Süni intellekt.

Soba-soda

**SOBA** – Mənzili qızdırmaq, üstündə xörək bişirmək üçün daşdan hörülmüş və ya metaldan qayrılmış qurğu, peç.

**SODA** – Texnikada, təbabətdə və məişətdə geniş işlənən bəzi natrium duzları karbohidratlarının adı.

Sofa-sofi

**SOFA**–Alçaq qoltuğu və söykənəcəyi olan yumşaq divan.

**SOFİ**–Təsəvvüfə mənsub adam, təsəvvüflə məşğul olan adam.

Sövda-sövdə

**SÖVDA** – Ekzema; irinli səpkilər, suluqlar şəklində inkişaf edən dəri xəstəliyi.

**SÖVDƏ** – Alış-veriş.

Spiral-spirant

**SPİRAL** – Buruq məftil.

**SPİRANT(dilç.)** – Nəfəsli samit.

Spirint-spirit-spirt

**SPİRİNT** – Kiçik məsafəyə qaçış, ötmə, üzmə və s.

**SPİRİT** – Ölülərin ruhunu çağıran və onlarla əlaqə yarada bilən adam.

**SPİRT** – Tərkibində çoxlu şəkər və kraxmal olan məhsullardan distillə yolu ilə alınan alışqan maye.

Spidometr-spirometr-spirtometr

**SPİDOMETR** – Avtomobillərdə, motoskiletdə sürəti və keçilən məsafəni göstərən cihaz.

**SPİROMETR** – Ağciyərin tutumunu ölçmə üsulu.

**SPİRTOMETR** – Spirtli mayelərdə spirtin miqdarını göstərən cihaz.

Sporofil-sporofin

**SPOROFİL** – Bəzən fotosintez hadisəsi pozulduğu halda bitkilərin yarpaqlarının şəklini dəyişməsi.

**SPOROFİN** – Bitkilərin yenidən artmaması.

Stasionar-stasioner

**STASİONAR** – Daim, həmişə bir yerdə olan, yerini dəyişməyən, bir yerdən başqa yerə köçməyən idarə, müəssisə.

**STASİONER** – Həkim tərəfindən hərtərəfli müalicə olunan şəxs.

Statik-statistik

**STATİK** – Sabit, hərəkətsiz, inkişafsız.

**STATİSTİK** – İnsan cəmiyyətinin və xalq təsərrüfatının inkişafında kəmiyyət dəyişmələrini öyrənən və bu sahədə əldə etdiyi məlumatı elmi və praktik məqsədlər üçün işləyib hazırlamaqla məşğul olan elm.

Status-statut

**STATUS** – Vətəndaşın, hüquqi şəxsin vəziyyəti.

**STATUT** –Orta əsrlərdə ayrı-ayrı şəhərlərin, korporasiyların və nəsillərin hüquqi vəziyyətini müəyyənləşdirən hüquqi sənəd.

Sten-stend

**STEN(fiz.)** – Güc vahidi olub, bir saniyədə bir tonu bir metrə qaldıran.

**STEND** – Nümayiş etdirmək üçün üzərinə eksponatlar qoyulan lövhə, dəzgah, piştaxta.

Sterilin-sterin-sterlinq

**STERİLİN** – Cinsi yolla ötürülən xəstəliyi müalicə edən dərman.

**STERİN** – Bütün heyvan və bitki toxumalarında mövcud olan steroidlərə aid spirt.

.**STERLİNQ –** İngiltərə qızıl və gümüş pullarının qanuni standart meyarı.

Sulaq-suluq

**SULAQ** – Durğun su, bataqlıq, bataq yer.

**SULUQ** – İçi maye ilə dolu qabarcıq.

Surət-sürət

**SURƏT**– Zahiri görünüş, şəkil.

**SÜRƏT**– Hər hansı bir hərəkətin istiik, tezlik dərəcəsi, çapıqlıq.

Suvand-savad

**SUVAND –** Köpəkbalığının dərisindən hazırlanmış suvandla ağacı, mərməri cilalamaq olur.

**SAVAD**– Təhsil.

Suveren-suverən-suvenir

**SUVEREN** – Daxili və xarici işlərdə tamamilə müstəqil olan, başqa dövlətin hakimiyyətindən asılı olmayan.

**SUVERƏN** – Suverən maşın.

**SUVENİR –** Yadigarlıq hədiyyə, yadigarlıq şeylər.

Suyaran-suayıran

**SUYARAN** – Gəmi burnunun suyu yaran hissəsi.

**SUAYIRAN** – Çay hövzələrini, yəni suların axınını iki hissəyə ayıran təpə, xətt.

Süfle-suflə

**SUFLE –** Un, kərə yağı, yumurta və südlə qarışdırılıb sobada bişirilən fransız yeməyi.

**SÜFLƏ –** Deşilmiş, dəlinmiş**.**

Süfrə-sürfə

**SÜFRƏ** – Yemək stolunun üstünə, yaxud yerə salınmış xüsusi parçadan tikilmiş örtük.

**SÜRFƏ** – Ağac qurdu, qurdun yumurtası və kiçik balaları.

Sükut-süqut

**SÜKUT** – Susma, danışmama, dinməmə.

**SÜQUT** – Düşmə, aşağı enmə, yıxılma, dağılma.

Sülək-sürək

**SÜLƏK** – Yaltaq.

**SÜRƏK** – 1. Bir şeyin sürdüyü, davam etdiyi müddət, davam; 2. Heyvan sürüsü, böyük sürü.

Süni-sünni

**SÜNİ** – 1. Təbii deyil, insan əli ilə düzəldilmiş, əslində olduğu kimi düzəldilmiş; 2. Saxta, uydurma, qeyri-səmimi.

**SÜNNİ** – İslam məzhəblərindən birinin adı.

Sürgəc-sürtgəc

**SÜRGƏC**–Kirşələrin ağac (ya metal) parçasından ibarət olan, qar üzərində sürüşən alt hissələrindən hər biri.

**SÜRTGƏC** – Tərəvəzi və s. xırdalamaq, meyvənin suyunu çıxartmaq üçün iti dişcikləri və deşikləri olan metal və s.-dən alət, lövhəcik.

Sürmə-sürvə

**SÜRMƏ –** Qadınların qaşlarına, gözlərinə çəkdikləri qara toz, sürmə.

**SÜRVƏ** – Dodaqçiçəklilər fəsiləsindən çoxillik və birillik ot və kolcuqlar.

Sürtgü-sürtük

**SÜRTGÜ** – Sürtməyə məxsus maddə.

**SÜRTÜK** – Sürtülmüş halda olan, çox sürtülməkdən yazısı silinmiş.

Süs-süst

**SÜS** – Bəzək, zinət, bər-bəzək.

**SÜST** – Hərəkət etməyə iqtidarı olmayan, halsız, taqətsiz.

Süsən-süzən-süzər

**SÜSƏN** – İri bənövşəyi, göy və ya sarı gülləri olan bitki və bu bitkinin gülü.

**SÜZƏN** – Kiçik deşikləri olan qazanabənzər mətbəx avadanlığı.

**SÜZƏR(quş)** – 1. Uçan quş; 2. Baxan adam.

## Ş

Şahad-şahid

**ŞAHAD** – Dəyirmanda üyüdülən taxıl üçün alınan haqq, dəyirman haqqı.

**ŞAHİD** – Bir hadisəni, əhvalatı öz gözü ilə görmüş və ya görən adam.

Şaxta-şixta

**ŞAXTA** – 1. Çox soyuq, qış havası, bərk soyuq, sıfırdan aşağı hava temperaturu; 2. Faydalı qazıntıların çıxarıldığı və yeraltı işlərin aparıldığı yer.

**ŞİXTA** – Koks almaq üçün müxtəlif metallardan ibarət kütlə.

Şaiq-şəqaiq

**ŞAİQ** – Bir şeyə böyük şövqü, həvəsi, meyli olan; şövqlü.

**ŞƏQAİQ** – Laləgülü, xoruzgülü, gəlincikgülü.

Şair-sair

**ŞAİR** – Şeir yazan sənətkar.

**SAİR** – Başqa, qeyri, digər.

Şam-şan-şən

**ŞAM** – 1. Gündüzün son və gecənin ilk saatları; 2. Gecə; 3. Axşam azanı; 4. Axşam namazı.

**ŞAN** – 1. Ün, şan, şöhrət; 2. Göstəriş, göstərişlilik.

**ŞƏN** – Sevinc, sevincli, şad, məmnun.

Şantaj-şantan

**ŞANTAJ** – İfşaedici məlumat yaymaq hədəsi ilə nə isə tələb etməkdən ibarət cinayət.

**ŞANTAN** – Əyləncə müəssisəsi.

Şatır-şatir-şotur

**ŞATIR** – Çörək bişirən, çörək yapan, çörəkçi.

**ŞATİR –** Şən, şux**.**

**ŞOTUR** – Çox işləyən.

Şef-şeh-şelf

**ŞEF** – 1. Başçı, rəis, rəhbər; 2. Bir şeyə və ya şəxsə hamilik etməyi öhdəsinə götürmüş adam və ya təşkilat.

**ŞEH –** Rütubətli havada gecələr torpaq, bitki və s.-nin üzərinə qonan incə su damcıları, qırov, şəbnəm.

**ŞELF** – Materikin su altında 200 metrə qədər olan hissəsi, davamı.

Şenlik-şənlik

**ŞENLİK** – Abad yaşayış yeri, ümumiyyətlə, məskun yer, məntəqə, qəsəbə.

**ŞƏNLİK** – Şadlıq, sevinc, fərəh.

Şeşbər-şeşpər

**ŞEŞBƏR–**Yoğun, dik bığ.

**ŞEŞPƏR** – Altıdilli toppuz – qədim silah.

Şeştər-şüştər

**ŞEŞTƏR** – 1. Altı qapı (dünya və kainat mənasında); 2. Çıxılmaz vəziyyət. Heyrət doğuran dünya.

**ŞÜŞTƏR** – Azərbaycan klassik muğamlarından birinin adı.

Şevro-şevron

**ŞEVRO(dəri)** – Keçi dərisindən hazırlanan yumşaq, zərif dəri növü.

**ŞEVRON** – Rəsmi geyimin qoluna vurulmuş bucaqşəkilli tikmə.

Şeyx-şeyk

**ŞEYX** – Ərəblərdə qəbilə başçısı.

**ŞEYK** – Rəqs növü.

Şəb-şədd

**ŞƏB** – Gecə.

**ŞƏDD** – 1. Sıxıb bağlama, sıxma; 2. Musiqidə: mahnının ən uca oxunan yeri; zil; 3. Xalça.

Şəbədə-şəbəkə

**ŞƏBƏDƏ** – Rişxənd, ələ salma, araya qoyma, hoqqabazlıq.

**ŞƏBƏKƏ** – Ağacdan, metaldan, daşdan, məftildən qayrılmış tor, hörgü, barmaqlıq; ornament.

Şədid-şərid

**ŞƏDİD** – Şiddətli, sərt, çox ağır.

**ŞƏRİD** – 1. Lent, yastı qaytan; 2. Texniki və hər hansı məqsədlər üçün işlənən hər hansı bir materialdan hazırlanan dar, uzun zolaq; 3. Lent kimi uzanıb gedən şey haqqında.

Şəfa-səfa

**ŞƏFA –**Xəstəlikdən qurtarma, sağalma, yaxşılaşma.

**SƏFA** – Zövq, nəşə, ləzzət, kef; rahatlıq.

Şəfaət-şəfaqət-şəhadət

**ŞƏFAƏT –** Bir günahkarın bağışlanması və ya bir möhtacın ehtiyacının yerinə yetirilməsi üçün başqası tərəfindən edilən vasitəçilik, iltimas.

**ŞƏFAQƏT** – Yazığı gəlmə, ürəyi yanma, mehribanlıq, səmimiyyət, şəfqət.

**ŞƏHADƏT** – Şahidlik.

Şəfəq-şəfiq

**ŞƏFƏQ** – Gün çıxmadan və ya batarkən göydə görünən qızartı.

**ŞƏFİQ –** Şəfqətli, mərhəmətli, ürəyinazik.

Şəlalə-şərarə

**ŞƏLALƏ** – Suyun çay yatağında bərk süxurun əmələ gətirdiyi çıxıntı üstündən dik tökülməsi.

**ŞƏRARƏ** – Qığılcım.

Şəlpə-şəltə

**ŞƏLPƏ** – Pal-paltara, yaxud xırım-xırda şeylərə saymazyana verilən ad.

**ŞƏLTƏ** – Qadın alt tumanı, dizlik.

Şərafət-şərait

**ŞƏRAFƏT –** 1.Şərəfli olma, şərəflilik; 2.Etibar, heysiyyət; 3.Soy, cins, nəsil**.**

**ŞƏRAİT –** Bir şeyin həyata keçməsi üçün lazım olan şərtlərin məcmusu, vəziyyət.

Şərəf-şərif-şərf

**ŞƏRƏF** – İnsanın ictimai və şəxsi davranışında tutduğu mənəvi-əxlaqi prinsiplərin məcmusu; mənəvi yüksəklik, ululuq, heysiyyət.

**ŞƏRİF** – Şərəfli, şərəf sahibi, mübarək, müqəddəs, əziz.

**ŞƏRF** – Başa, boyuna sarımaq, yaxud çiyinə salmaq üçün uzunsov parçadan tikilmiş və ya yundan, iplikdən toxunmuş məmulat.

Şərid-şagird

**ŞƏRİD** – Lent, yastı qaytan.

**ŞAGİRD** – İbtidai və orta məktəbdə oxuyan uşaq; məktəbli.

Şərir-Şərur

**ŞƏRİR** – Şər işlər görən, iblis, fəsadçı, dələduz, yaramaz, pis adam.

**ŞƏRUR** – Yer adı.

Şətəl-şətən

**ŞƏTƏL** –1. Cığal; 2. Yun corab.

**ŞƏTƏN(bitki)** –1.Müxalifət etmək, uzaqlaşmaq; 2. Bitki.

Şəvə-şəvəl

**ŞƏVƏ** –1. Əqiq; 2. Qara.

**ŞƏVƏL** – Şax, ağac qırıntıları, kol-kos.

Şıllaq-şıltaq

**ŞILLAQ** – Ayaqla vurma, təpik atma, təpik.

**ŞILTAQ** – Mənasız tələb, iddia, arzu, istək.

Şiber-şifer

**ŞİBER –** Havanın və ya tüstü axınının havaçəkəndən və ya bacadan çıxması üçün təyin olunan cihaz.

**ŞİFER** – 1.Qara və ya kül rəngli gilli şist; 2. Gildən və ya absest-sementdən plitka şəklində hazırlanan dam örtüyü.

Şikvə-şükufə

**ŞİKVƏ** – Şikayət.

**ŞÜKUFƏ** – Gül, çiçək.

Şilə-şillə

**ŞİLƏ** – 1. Qatı düyü şorbası; 2. Qırmızırəngli sadə pambıq parça, bez

**ŞİLLƏ** – Açıq əllə, əl ayası ilə üzə vurulan zərbə.

Şleyf-şlif-şrift

**ŞLEYF** – Qadın paltarının arxadan sürünən ətəyi.

**ŞLİF** – Mədən süxurunun və ya mineralının yaxşı pardaxlanmış lövhəciyi.

**ŞRİFT** – Müxtəlif ölçü və biçimdə olan mətbəə hürufatı.

Şpion-şpon

**ŞPİON** – Casus.

**ŞPON (poliq.)** – Yığılan mətni səhifələrə ayırarkən sətirlər arasındakı məsafəni artırmaq üçün işlədilən boşluq materialı

Şrift-ştift

**ŞRİFT** – Müxtəlif ölçü və biçimdə olan mətbəə hürufatı.

**ŞTİFT** – Detalları birləşmək üçün işlədilən  silindr mil.

Ştabel-ştapel

**ŞTABEL** – Tikinti materiallarının nizamla yığımı.

**ŞTAPEL (parça)** – Süni və ya sintetik lif və bu lifdən toxunan parça.

Ştrek-ştrix

**ŞTREK** – Yeraltı yol.

**ŞTRİX** – 1. Cizgi; 2. Xüsusiyyət, səciyyəvi cəhət.

Şüar-şüarə

**ŞÜAR** – Siyasi partiyanın müəyyən tarixi şəraitdə kütlələr qarşısında irəli sürdüyü rəhbər ideyanı, vəzifəni və ya tələbi qısa və aydın şəkildə ifadə edən müraciət, çağırış.

**ŞÜARƏ** – Şairlər.

Şükufə-şükuhə

**ŞÜKUFƏ** – Gül, çiçək.

**ŞÜKUHƏ** – Böyüklük, ululuq, əzəmət, cəlal, həşəmət, şan-şərəf.

Şümal-şümar-şümül-şümür

**ŞÜMAL** – Yeni dikəlib göyərən budaq.

**ŞÜMAR** – Say, hesab.

**ŞÜMÜL** – Şamil olma, dəxli olma, aid olma, aidiyyat.

**ŞÜMÜR** – Zalım, qaniçən, qatil, cəllad mənasınd

Şüur-şüar

**ŞÜUR** – Dərrakə, anlaq, düşünmə; dərketmə, anlama qabiliyyəti.

**ŞÜAR** – Siyasi partiyanın müəyyən tarixi şəraitdə kütlələr qarşısında irəli sürdüyü rəhbər ideyanı, vəzifəni və tələbi qısa və aydın şəkildə ifadə edən müraciət, çağırış.

Şüvərə-şüvərək-şüvərən

**ŞÜVƏRƏ** – Şüvərəyə vermək– öz hərəkəti ilə birini ağır, çıxılmaz, qorxulu vəziyyətə salmaq, ümidini puça çıxartmaq, aldatmaq, satmaq, ölümünə və yaxud bədbəxtliyinə səbəb olmaq.

**ŞÜVƏRƏK –** Cavan, cəld, iti hərəkət edən adam.

**ŞÜVƏRƏN (bot.) –** Çəmənlərdə bitən, sarıləçəkli, buynuzşəkilli meyvələri xalq təbabətində dərman kimi istifadə edilən ikiillik bitki.

Şüvül-şüyül-şüyüd

**ŞÜVÜL** – Uzun, düz ağac.

**ŞÜYÜL** – Müvazinət ağacı (ləngər).

**ŞÜYÜD** – Çətirlilər fəsiləsindən yeməli, ətirli bostan bitkisi.

Şverbot-şvervot-şevret

**ŞVERTBOT –** Birdorlu, yelkənli yüngül idman gəmisi.

**ŞVERVOT(idm.)** – Parça növü.

**ŞEVRET(dəri)** – Qoyun dərisindən hazırlanmış yumşaq, zərif dəri növü

**T**

Taam-tam

**TAAM** – Xörək, yemək, bişmiş.

**TAM** – Başdan-başa, bütünlüklə, tamam, bütöv.

Taarüf-tarif

**TAARÜF** – Bir-birini tanıma, bir-biri ilə tanış olma, bir-birini tanıma.

**TARİF** – Rəsmən müəyyən edilmiş ödünc, vergi, rüsum, maaş və s. miqdarı(cədvəli).

Tab-təb-dəb

**TAB** – Güc, qüvvət, taqət.

**TƏB** – Şeir demək, musiqi yazmaq, mahnı oxumaq həvəsi, meyil, ilham.

**DƏB** – Moda.

Taban-tavan

**TABAN** – Parlaq, parıldayan, işıqlı.

**TAVAN** – 1. Binanın daxilinin üst örtüsü; 2. Güc, qüvvət, taqət.

Tabor-tabur-tambur

**TABOR –** 1. Bir yerdən başqa yerə köçən qaraçı dəstəsi, habelə onların düşərgəsi, arabası; 2. Batalyon.

**TABUR**–İslah əmək kaloniyası**.**

**TAMBUR –** Dəmiryol sərnişin vağzalında hər tərəfi bağlı meydança**.**

Tağ-dağ

**TAĞ** – 1.Bəzi binaların yarımdairə şəklində olan damı; qübbə, günbəz; 2.Saçın iki yerə ayrılan yeri; həmin hissələrdən hər biri.

**DAĞ** – Yerin hündür, dik, yamaclı və zirvəli hissəsi.

Tağar-dağar

**TAĞAR** – 83,2 kq ağırlığında çəki vahidi.

**DAĞAR** – Qaramal dərisindən hazırlanan torba.

Taxça-taxta

**TAXÇA** – Şey qoymaq üçün divarda açılan oyuq.

**TAXTA** – Şalbandan mişarla kəsilmiş çox yastı olmayan ağac parçası.

Taksa-taksi

**TAKSA** – 1. Taksalı məktublara ödənilən pul; 2. Poçt tərəfindən alıcıdan alınan cəzalı poçt ödənişi.

**TAKSİ** – Gedilən yolu və onun haqqını hesablamaq üçün sayğacı olan minik və ya yük avtomobili.

Taksin-taksir-toksin-torqsin

**TAKSİN (tibb.)** – 1. Siam şahı; 2. Tisa meyvəsinin yarpaq və kökündə alkaloid, kömür.

**TOKSİN** – Bəzi mikroorqanizmlərdə, eləcə də bəzi heyvanlarda və bitkilərdə əmələ gələn zəhərli maddələr.

**TORQSİN –** Satış üzrə xaricilərlə ümumittifaq birlik. "Valyutası" olan xarici və sovet vətəndaşları ilə mal alveri.

**TAKSİR** – Sayğacı olan minik və ya yük avtomobili.

Takt-fakt

**TAKT** – Vəzn.

**FAKT** – Sübut, dəlil.

Talaq-dalaq-dolaq

**TALAQ** – Boşama, boşanma, nikahı ləğv etmə.

**DALAQ** – İnsan orqanizmində qanyaradıcı üzvlərin ən böyüyüdür. Zahirən qəhvə toxumuna bənzəyir, özü yumşaq, rəngi tünd qırmızıdır.

**DOLAQ –** Qılçaya sarılan, yundan və s.-dən toxunma sarğı, yaxud parça zolağı.

Talan-talant

**TALAN –** Dağıtma, məhv etmə.

**TALANT**– İstedad, bacarıq, qabiliyyət, Allah vergisi.

Talxa-talğa-dalğa

**TALXA** – Sarı və qara xalları olan zəhərli ilan.

**TALĞA** – Medal.

**DALĞA** – 1. Su səthinin hərəkəti nəticəsində əmələ gələn böyük ləpə; 2. Fiziki mühitdə titrəyişli hərəkət.

Talk-tank

**TALK** – Adətən toz halında təbabətdə və tibdə işlədilən ağ və ya göy rəngli yumşaq mineral.

**TANK** – 1. Çətin keçilən yerlərdə hərəkət edə bilən, top və pulemyotlarla silahlanmış tırtıllı zirehli maşın; 2. Mayeləri saxlamaq və daşımaq üçün xüsusi şəkildə düzəldilmiş bak, sistern və s.

Tambur-tənbur

**TAMBUR** – Dəmiryol sərnişin vağzalında hər tərəfi bağlı meydança.

**TƏNBUR** – Armudvarı çanağı olan qədim Şərq simli musiqi aləti.

Tarac-taraş

**TARAC** – Qarət, çapovul, talan, talama.

**TARAŞ** – Qırxma.

Tərif-təhrif

**TƏRİF** – Bir şəxsin və ya şeyin yaxşı cəhətlərini, məziyyətlərini, müsbət xüsusiyyətlərini demə; mədh, vəsf.

**TƏHRİF** – Bir sözün, ifadənin hərflərini dəyişməklə mənasını, mahiyyətini pozma, yanlış şəklə salma.

Tarix-tarik-təriq

**TARİX** – Bir hadisənin baş verdiyi, cərəyan etdiyi vaxt; keçmiş həyata aid olub adamların hafizəsində qalan fakt və hadisələrin məcmusu.

**TARİK** – 1.Tərk edən, gedən, dünyadan əl üzən; 2. Qaranlıq; 3. Qara.

**TƏRİQ** – Yol.

Tarzan-tarzən

**TARZAN** – Yazıçı Edqar Vays Berqouz tərəfindən uydurulmuş personaj və ilk dəfə "Meymunların qəbul etdiyi Tarzan" kitabında verilmişdir.

**TARZƏN** – Tarda çalan şəxs.

Teflon-telefon

**TEFLON** – Qazan və tavada yeməyin yanmaması üçün üzərinə çəkilən xüsusi örtük.

**TELEFON** – Danışığı uzaq məsafəyə verən qurğular sistemi – elektrik rabitə növü.

Telalgiya-teologiya

**TELALGİYA** – Patoloji xəstəlik ocağından kənarda yaranan ağrı.

**TEOLOGİYA** – İlahiyyat, din elmi.

Terabayt-terabit

**TERABAYT** – İnformasiyanın miqdarının ölçülməsi vahidi, elektrik cihazlarında yaddasın müxtəlif növlərinin böyüklüyünü göstərmək üçün işlədilir.

**TERABİT** – İnformasiyanın ölçü vahidi, bitin kiçik vahidi.

Termin-termit

**TERMİN**– Elm, texnika, incəsənət və s. müəyyən ixtisas sahəsinə aid olan anlayışları dəqiq ifadə edən söz; istilah.

**TERMİT** – Həşərat.

Test-teşt

**TEST** – İnsanın zehni inkişafını, bacarığını yoxlamaq üçün standart tapşırıq.

**TEŞT**– İri mis tas.

Təbdil-təbil-təbəddül

**TƏBDİL** – Dəyişmə, dəyişdirmə.

**TƏBİL** – İri nağara.

**TƏBƏDDÜL** – Dəyişmə, başqa bir şəklə düşmə.

Təbiət-təbiyyət

**TƏBİƏT –** Aləm, varlıq**.**

**TƏBİYYƏT –** Təbiətşünaslıq, təbiət elmləri.

Təbir-tədbir

**TƏBİR** – Söz, kəlmə, ifadə, yozma.

**TƏDBİR** – 1. Bir işi həyata keçirmək üçün üsullar, yollar, vasitələr; 2. Təhlükədən qorunmaq üçün görülən hazırlıq.

Təxsis-təxmis-təsis-tərxis

**TƏXSİS** – Müəyyən məqsəd üçün ayırmaq.

**TƏXMİS –** Şərq, o cümlədən Azərbaycan şeirində lirik janrın nisbətən az yayılan şəkillərindən biri.

**TƏSİS** – Əsasını, binasını, təməlini qoyma; qurma, yaratma.

**TƏRXİS** – Ordunun sülh şəraitinə keçdikdən sonra hərbi xidmətdən buraxılması.

Təcrid-tədric-tədris

**TƏCRİD** – Ayırma, təkləmə.

**TƏDRİC** – Dərəcə-dərəcə, yavaş-yavaş irəliləmə, az-az hərəkət.

**TƏDRİS** – Dərs vermə, dərs oxuma.

Təəccüb-təəssüb-təəssüf

**TƏƏCCÜB** – Qeyri-adi, gözlənilməz, qəribə, anlaşılmaz şeydən doğan güclü təəsürat nəticəsində insanda əmələ gələn hal, heyrət.

**TƏƏSSÜB** – 1. Bir fikrə, məsləkə, əqidəyə kor-koranə bağlanıb, başqalarına kin və ədavət bəsləmə; qeyrətkeşlik, fanatizm; 2. Qeyrət, namus.

**TƏƏSSÜF** – Kədərlənmə, acıma, heyfsilənmə, təəssüflənmə.

Təfsil-təfsir

**TƏFSİL** – Bir işin, hadisənin və s.-nin ən kiçik, ən cüzi təfərrüatı.

**TƏFSİR** – Şərh, izah, şərh və bəyan etmə, izah etmə.

Təhlil-təhvil

**TƏHLİL** – Tamı, bütövü tərkib hissələrinə, tərkib ünsürlərinə ayırmaqdan ibarət elmi-tədqiqat üsulu.

**TƏHVİL** – Təzə işə keçərkən və ya işdən çıxarkən tapşırılmış işi, vəzifəni, şeyi başqa adama vermə.

Təhqir-təhrir

**TƏHQİR –** Heysiyyətini alçaltmaq, mənliyinə toxunmaq, şərəfsiz etmək, həqarət etmək, alçaltmaq.

**TƏHRİR** – Yazma, yazı; qələmə alma.

Təhsil-təhsin

**TƏHSİL** – Oxumaqla elm və bilik əldə etmə.

**TƏHSİN** – Bir işi və ya şeyi bəyənib tərifləmə, alqışlama, təqdir, tərif.

Təxəllüs-təxərrüs-təşəxxüs

**TƏXƏLLÜS** – Təxəllüsü olan. Adətən yazıçıların, şairlərin, rəssamların və b.-nın işlətdikləri qondarma ad.

**TƏXƏRRÜS** – Xarici mühitin, bir şeyin orqanizmə və onun bir hissəsinə təsiri nəticəsində əmələ gələn hal, qıcıqlanma, qıcıq.

**TƏŞƏXXÜS** – Lovğalıq, təkəbbür, özünü çəkmə, iddia satma.

Təkan-təkin

**TƏKAN** – Bir şeyi özündən uzaqlaşdırmaq məqsədilə bərk itələmə və ya zərbə.

**TƏKİN** – Sayaq, bənzər, oxşar.

Təkbir-təkəbbür

**TƏKBİR** – Namaz qılınan zaman deyilən "Allahu əkbər!".

**TƏKƏBBÜR** – İddia, təşəxxüs, xasiyyət, lovğalıq, özünü çəkmə, fors.

Təkəllüf-təkəllüm-təkəmmül

**TƏKƏLLÜF** – Zəhmətə, əziyyətə qatlaşma.

**TƏKƏLLÜM** – Meyxanada işlədilən bədihənin bir növü.

**TƏKƏMMÜL** – Kamala çatma, təkmilləşmə, mükəmməlləşmə, bitkinlik.

Təklif-təkfir-təkrif

**TƏKLİF –** Qəbul edilmək üçün irəli sürülən fikir.

**TƏKFİR –** Kafir elan etmə, mürtəd elan etmə, lənət oxuma, küfr, lənət.

**TƏKRİF –** Təşrif gətirmək.

Təknə-təkyə

**TƏKNƏ** – Əsasən xəmir yoğurmaq üçün işlədilən dərin, taxta mətbəx aləti; dərin tabaq.

**TƏKYƏ** – 1. Təriqətçilərin, dərvişlərin ayin icra etdikləri yer; 2. Söykənəcək, dayanacaq.

Təkrar-təkir-təkrir

**TƏKRAR** – Bir işi bir daha, yenidən görmə, bir neçə dəfə etmə, bir sözü bir daha, yenidən söyləmə.

**TƏKİR –** Qırmızı lələkli (quşlar haqqında); qızıl pullu, qırmızı ağçalı (balıqlar haqqında).

**TƏKRİR** – Təkrarlama, təkrar.

Təqdir-təqrir

**TƏQDİR** – Qəbul etmə, bəyənmə, qiymətləndirmə, alqışlama, əhəmiyyətini anlama.

**TƏQRİR** – Yerini təyin etmə.

Təqib-təqrib

**TƏQİB** – İzinə düşmə, ardınca getmə, addımbaaddım dalına düşmə, izləmə.

**TƏQRİB** – Dəqiq deyil, təxmini, təqribi.

Təlif-təltif

**TƏLİF** – Kitab tərtib etmə, əsər yazma.

**TƏLTİF** – Yaxşı xidmətə və bir işdə fərqlənməyə görə orden, medal, fəxri ad, keçici bayraq, qiymətli şey və s. vermə.

Tərif-təhrif

**TƏRİF –** Bir şeyin, ya şəxsin yaxşı cəhətlərini, məziyyətlərini, müsbət xüsusiyyətlərini demə; mədh, vəsf.

**TƏHRİF** – Pozma, dəyişdirmə.

Təmim-təmin

**TƏMİM** – 1. Ümumiləşdirmə; 2. Yayma, paylama.

**TƏMİN** – Adətən “etmək”, “edilmək” köməkçi feilləri ilə bir şeyi lazımınca təchiz etmək, lazım olan bütün şeyləri vermək.

Təmsil-tilsim-timsal

**TƏMSİL** – Bənzətmə, oxşatma, təşbeh.

**TİLSİM** – Mövhumatçılara görə sehirli qüvvəyə malik olan söz və s.; ovsun, sehir.

**TİMSAL**–1.Nümunə, örnək, misal; 2. Misal, zərbi-məsəl.

Tənasüb-tənasül-tənavül

**TƏNASÜB** – Uyğunluq, mütənasiblik, aralarında uyğunluq və mütənasiblik olma, bir-biri ilə tutma.

**TƏNASÜL** – Nəsil yetişdirmə; doğub-törəmə, artma.

**TƏNAVÜL –** Yemək-içmək, qidalanma, xörək.

Tənlik-təntik-tərlik

**TƏNLİK** – Bir və ya bir neçə məchul kəmiyyəti olan və həmin məchul kəmiyyətlərin müəyyən qiymətləri zamanı öz bərabərliyini saxlayan riyazi bərabərlik.

**TƏNTİK** – Sadədil, sadəlövh.

**TƏRLİK** – Yəhər altından atın belinə qoyulan keçə parçası.

Təpəl-təpər

**TƏPƏL** – Qaşqa. 1. Ümumiyyətlə, mal-qaranın, xüsusilə at, inək və öküz kimi iri ev heyvanlarının alnındakı ağ ləkə; 2. Alnın tam ortası.

**TƏPƏR** – Qeyrət, namus, bacarıq.

Təpimək-təpilmək

**TƏPİMƏK** – Qurumaq, qupquru olmaq, suyu çəkilmək.

**TƏPİLMƏK** –Soxulmaq, zorla girmək, dürtülmək, özünü soxmaq.

Tərəddüd-tərəddüm-tərəssüd

**TƏRƏDDÜD** – Bir işi görməkdə, bir məsələni həll etməkdə qətiyyət göstərməmə, qərarsızlıq göstərmə, nə edəcəyini bilməmə, qəti qərara gələ bilməmə, qərarsızlıq.

**TƏRƏDDÜM** – İrəlidə olma, ötmə.

**TƏRƏSSÜD** – 1. Diqqətli baxış; 2. Göz dikmə, arzu etmə.

Tərəhhüm-tərənnüm

**TƏRƏHHÜM** – Rəhm, mərhəmət.

**TƏRƏNNÜM** – Gözəl səslə yavaşdan oxuma, ötmə.

Təsrif-təsvir

**TƏSRİF** – Felin şəxs, kəmiyyət və zamana görə dəyişməsi.

**TƏSVİR** – 1. Şeyin surətini, şəklini çəkmə, şəkil, rəsm; 2. Bir adam və ya şey haqqında yazılı, ya şifahi surətdə danışma, nəql etmə; 3. Elmi məqsədlə bir şeyin xüsusiyyətlərini, əlamətlərini və s.-ni müntəzəm surətdə şərh və ifadə etmə.

Təşbeh-təsbeh

**TƏSBEH** – Zikr edilən duaları saymaq üçün istifadə edilən sapa keçirilmiş muncuq və s. dənələri düzümü.

**TƏŞBEH** – Bənzər, oxşar, məcaz.

Təşəkkül-təşəkkür

**TƏŞƏKKÜL** – İnkişaf prosesində müəyyən xüsusiyyət və şəkil alma, müəyyən bir şəklə girmə; formalaşma.

**TƏŞƏKKÜR** – Edilən yaxşılığa, göstərilən diqqətə görə razılıq, minnətdarlıq.

Təşrif-təşrih

**TƏŞRİF** – Öz gəlişi ilə bir yeri və ya şəxsi şərəfləndirmə; gəlmə, gəliş, buyurub gəlmə.

**TƏŞRİH** – Bədəni müəyyən üsulla kəsib əməliyyat aparmaq.

Təşviq-təşviş

**TƏŞVİQ** – Bir işi görmək üçün dilə tutmaq, həvəsləndirmək, şirnikləndirmək, şövqə, qeyrətə gətirmək, həvəs və arzusunu artırmaq.

**TƏŞVİŞ** – Bir-birinə əks hisslərin mübarizəsindən doğan narahatlıq, təlaş, həyəcan.

Təvazökar-təcavüzkar

**TƏVAZÖKAR** – Öz üstünlüyünü, məziyyətlərini gözə çarpdırmağı, öz xidmətləri ilə qürrələnməyi sevməyən, şöhrətpərəstlikdən, lovğalıqdan uzaq olan, özünü sadə aparan.

**TƏCAVÜZKAR** – Təcavüz edən, qəsbkar, təcavüzçü.

Tıxac-tıxmac

**TIXAC** – Şüşə və s. bu kimi boğazlı qabların ağzını və ya müxtəlif cihazların deşiklərini qapamaq üçün dairəvi mantar, probka.

**TIXMAC** – 1. Dalan; 2. Kiçik saray; 3. Bir neçə dükan, otaqdan ibarət kiçik karvansara.

Tingə-tingi

**TİNGƏ** – Bir şeyin iki xarici tərəfinin birləşdiyi, kəsişdiyi yer.

**TİNGİ** – 1. Ordu, ortaq, təklik; 2. Farağat, dinclik; 3. Ara, aralıq, fasilə.

Tif-tip

**TİF** – Yatalaq.

**TİP**– Şeylərin, hadisələrin məlum qruplarına uyğun gələn nümunə, model və ya variant, forma, növ.

Tipaj-tiraj

**TİPAJ** – Hər hansı məmulat növlərinin, modellərinin məcmusu.

**TİRAJ** – 1. İstiqraz və ya lotereya uduşlarının oyanması; 2. Buraxılmış çap nəşri nüsxələrinin sayı.

Tiran-titan

**TİRAN** – Qədim Yunanıstanda və 13-16-cü əsrlərdə İtaliyada hakimiyyəti zorla ələ keçirən şəxs.

**TİTAN** – Boz-gümüş rəngli bərk metal.

Tire-tirə

**TİRE** – Uzun üfqi xətt şəklində durğu işarəsi.

**TİRƏ** – 1. Nəsil, tayfa; 2. Arx, xəndək və s.-nin yanında tökmə torpaq.

Titr-litr

**TİTR** – Kinolentdə yazı, izahedici və ya danışıq mətni.

**LİTR** – Həcmin metrik ölçü vahidi. 1000 kub santimetrə bərabər maye ölçüsü.

Toxmaq-toxtaq

**TOXMAQ** – Ağacdan yonulmuş iri başlı çəkic; çox yoğun taxta çəkic.

**TOXTAQ** – Sakit, toxtaq, aram, rahat, arxayın.

Torf-tuf

**TORF** – Çürümüş bataqlıq bitkiləri qalıqlarından əmələ gələn bərk kütlə (yanacaq, gübrə kimi və müxtəlif texniki məqsədlərlə istifadə olunur).

**TUF** – Vulkanik və ya çökmə mənşəli məsaməli dağ süxuru (tikinti materialı kimi işlədilir).

Torna-turna-durna

**TORNA** – Metal, ağac və s. materialları yonmaq üçün dəzgah. Tokar dəzgahı.

**TURNA** – Durub-durub işin yaxşısını etmək. Turnaçı əsgər.

**DURNA** –1. Leylək növündən olub, balıq yeyən quşdur. İri, geniş qanadları, uzun dimdiyi var; 2. Durna balığı; 3. Durna qatarı.

Tösbərək-göstəbək

**TÖSBƏRƏK** – Qısaboylu, gödək.

**GÖSTƏBƏK** – Yerin altında yaşayan sünbül yeyən heyvan.

Traktir-traktor

**TRAKTİR** – Ucuz spirtli içkilər satılan meyxana.

**TRAKTOR** – Kənd təsərrüfatı alətlərini və başqa alətləri çəkib aparmaq üçün özüyeriyən maşın.

Transliterasiya-translyasiya

**TRANSLİTERASİYA** – Bir əlifbanın hərflərinin başqa əlifbanın hərfləri ilə verilməsi.

**TRANSLYASİYA** – Səs, musiqi, təsvir və s.-nin televiziya və ya məftil vasitəsilə uzaqlara verilməsi; veriliş.

Trass-trast

**TRASS (geol.)** – Sementə qatılaraq ona plastiklik verən vulkanik dağ mənşəli tuf qrupundan olan maddə, bərk vulkanik tuflardan ibarət süxur.

**TRAST**– Etibarnamə; Sahibkara məxsus əşya etibar olunmuş şəxsə keçir, lakin alınan gəlir mənfəət əldə edənə verilir.

Trassat-trassant

**TRASSAT(iqt.) –** Vekselin adı yazıldığı, verildiyi şəxs.

**TRASSANT** – Sadə və ötürücü vekseli verən şəxs.

Treyler-triyer

**TREYLER** – Yeni filmi reklam edən və bəzi səhnələri göstərən video.

**TRİYER (tex.)** – Kənd təsərrüfat maşını olub, buğdanı sünbüldən ayırır.

Truba-truppa

**TRUBA** – Ucunda ağızlıq olan nəfəsli mis musiqi aləti.

**TRUPPA** – Teatr, sirk artistləri dəstəsi.

Tul-tül

**TUL** – Uzun.

**TÜL** – Çox vaxt güllü naxışları olan yüngül, toraoxşar şəffaf parça.

Tülkü-türkü

**TÜLKÜ** – İtlər ailəsindən, uzunsifət, uzuntüklü yırtıcı məməli heyvan.

**TÜRKÜ** – Mahnı, nəğmə, şərqi.

Tüllü-tülu

**TÜLLÜ** – Tül parçadan tikilmiş paltar.

**TÜLU** – Doğma, çıxma, zühur etmə (günəş haqda).

Türbə-türfə

**TÜRBƏ** – Qəbir, məzar.

**TÜRFƏ** – Zərif, incə, füsunkar, məlahətli, qəşəng.

**U**

Udege-adıgey

**UDEGE**(lər) – Rusiyanın Xabarovsk vilayətində yaşayan xalq.

**ADIGEY** – Rusiya Federasiyası tərkibində, Şimali Qafqazda olan Adıgey Respublikası.

Uçqun-uşqun

**UÇQUN** – Dağlardan, qayalardan, ümumiyyətlə, hündür yerlərdən qopub düşən qar, daş, qaya, torpaq koması.

**UŞQUN** – İkidorlu yelkənli gəmi (qayıq).

Urdu-ordu

**URDU(xalq)–** Pakistanın dövlət dili.

**ORDU** – Bir ölkənin silahlı qüvvələrinin, ya da hər hansı əsgər qüvvələrinin ən böyük birliyi.

Urna-urra-urva

**URNA** – Yandırılmış cənazənin külünü saxlamaq üçün qab.

**URRA** – Hücum zamanı qoşunların döyüş nidası.

**URVA** – Xəmiri kündələyərkən və ya yayarkən ələ yapışmaması üçün onun üstünə səpilən az un.

Util-uti

**UTİL** – İşlətmək üçün yaramayan, lakin xammal kimi istifadə oluna bilən şeylər, faydalı tullantılar (metal tullantıları, əski-üskü, kağız və s.)

**UTİ**(lər) – Alban tayfalarından biri; müasir udinlərin sələfləri.

**Ü**

Üçayaq-üçaylıq

**ÜÇAYAQ** – Üç ayaq üstündə duran şey (stol və s.), üçayaqlı, sacayaq.

**ÜÇAYLIQ** – Üç ay üçün düzəldilmiş, üç aylıq müddətə nəzərdə tutulmuş, yaxud üç ay ərində olmuş; rüblük.

Üçpərdəli-üçpərli

**ÜÇPƏRDƏLİ** – Üç pərdədən ibarət olan dram əsəri.

**ÜÇPƏRLİ** – Üçpərli balta. Pər – qanad, maşın və qurğuların fırlanan hissəsi, qanadı.

Ümərа-ümür

**ÜMƏRA** – Əmirlər, hakimlər.

**ÜMÜR** – İş, vəzifə.

Ünas-üns

**ÜNAS** – Qadın, arvad.

**ÜNS** – İnsan, bəşər, adam.

Ürəfa-ürf

**ÜRƏFA** – Ariflər, mərifətli, ağıllı adamlar.

**ÜRF** – Məcburi olmayıb zamanın tələbindən doğan adət, qayda, üsul, hökm, dəb.

Üstəlik-üstlük

**ÜSTƏLİK** – Bir şeyin üstündə verilən şey; əlavə.

**ÜSTLÜK** – Bir şeyin üstünü örtməyə, üstünə çəkməyə məxsus şey.

Üsrət-işrət

**ÜSRƏT** – 1. Çətinlik, zəhmət; 2. Sıxıntı, ehtiyac.

**İŞRƏT** – Keyf, eyş-işrət, içki içmə.

Üşşaq-uşaq

**ÜŞŞAQ** – 1. Aşiqlər;  2. Azərbaycanın klassik muğamlarından birinin adı.

**UŞAQ** – Azyaşlı oğlan və ya qız, cocuq.

## V

Vakansiya-vakasiya

**VAKANSİYA** – İdarə və müəssisələrdə tutulmamış boş yer, vəzifə yeri.

**VAKASİYA** – Məktəblərdə, idarələrdə tətil.

Vaks-faks

**VAKS** – Ayaqqabını silmək üçün hazırlanan maz, II Karlın dövründə Fransada hazırlanmışdır.

**FAKS** – 1. Elektron rabitə cihazı; 2. Qrafik məmulatın qəbulu və verilməsi üsulu.

Vaqiə-vəqə

**VAQİƏ** – 1. Yuxu; 2. Hadisə, əhvalat, macəra.

**VƏQƏ** – Baş vermiş hadisə, əhvalat, macəra.

Valent-valet

**VALENT** – Kimyəvi elementin neçə atom və ya qrupa birləşə bildiyini göstərən kəmiyyət.

**VALET** – Qumar kağızında: üzərində silahlı adam şəkli olan kart; əsgər.

Valid-vələd-vəlid

**VALİD** – Ata.

**VƏLƏD** – Uşaq, oğul, övlad.

**VƏLİD** – Oğlan uşağı.

Vant-vint

**VANT (dəniz.)** – Dor ağacını və başqa şeyləri gəminin bortlarına bərkitmək üçün takelaj ipləri.

**VİNT** – Qurğulu, burğu şəklində olan mıx.

Variant-varidat-variyyat

**VARİANT** – Bir şeyin başqa bir şəkli.

**VARİDAT** – Bir müəssisənin, idarənin və ya şəxsin bütün gəliri, mədaxili.

**VARİYYAT** – Mal, dövlət, var.

Veteran-veterinar

**VETERAN** – Müharibə iştirakçısı olan qocaman döyüşçü.

**VETERİNAR** – Baytar, mal həkimi.

Vəchlə-vəcihə

**VƏCHLƏ –** Heç bir surətdə, heç bir yolla, qətiyyən, əsla.

**VƏCİHƏ** – Gözəl, qəşəng, gözəl.

Vəd-vədə

**VƏD** – Bir işi yerinə yetirmək üçün qabaqcadan söz vermə, öhdəyə götürmə.

**VƏDƏ** – Bir iş üçün qabaqcadan təyin olunan vaxt, vədə.

Vərasət-fərasət

**VƏRASƏT** – Bir adamın öldükdən sonra yaxın qohumluq və ya vəsiyyətə görə onun malına, mülkünə sahib duran adam.

**FƏRASƏT** – Dərhal anlama, başa düşmə, ayıqlıq, davranış bacarığı.

Vəsait-vəsatət-vəsiyyət

**VƏSAİT –** 1. Ləvazimat; 2. Pul, kredit; 3. Ehtiyat qüvvələri.

**VƏSATƏT –** Arada vasitə olma; vasitəçilik, araçılıq, miyançılıq, rəsmi xahiş.

**VƏSİYYƏT** – Ölərkən bir şəxsin öz övladına, yaxud yaxınlarına verdiyi tapşırıq, göstəriş, sərəncam, məsləhət, son sözü.

Vətən-vətər

**VƏTƏN** – Bir adamın doğulub-böyüdüyü və vətəndaşı olduğu ölkə, məmləkət, doğma yurd.

**VƏTƏR** – Əzələləri sümüklərə bağlayan lent və lövhə şəklində sıx birləşdirici toxumadan ibarət elastik törəmə.

Vəzir-vizr

**VƏZİR** – 1.Dövlət işlərini idarə edən yüksək vəzifəli adam, nazir; 2. Şahmatda: şahın yanındakı boş fiqurlardan biri.

**VİZR –** 1. Yük, ağırlıq; 2. Günah, təqsir.

Vetçina-votçina

**VETÇİNA** – Toyuq, donuz, mal ətindən olub, preslənmiş, hisə verilmiş kolbasa məmulatı.

**VOTÇİNA** – Kiyev rus dövlətində irsi torpaq sahibliyi votçina adlanırdı.

Vüsal-vüsul

**VÜSAL** – Görüşmə, qovuşma, sevgilisinə çatma.

**VÜSUL** – Çatma, yetişmə, varma.

Vüsət-vüs lət

**VÜSƏT** – 1. Genişlik; 2. Bolluq, rifah; 3. Yayılma.

**VÜSLƏT** – Qovuşma, aşiqin öz sevgilisinə qovuşması, vüsal.

**Y**

Yaba-yabı-yava

**YABA** – Ot, saman və bu kimi şeyləri toplayıb atmaq, qaldırmaq, habelə başqa işlər üçün uzun sapı, iki və daha artıq dişi olan kənd təsərrüfat aləti.

**YABI** – Arıq, əldən düşmüş, yaraşıqsız at.

**YAVA** – Pis, xarab olmuş, ədəbsiz, həyasız.

Yaban-yavan

**YABAN** – Çöl, biyaban, insan yaşamayan yer.

**YAVAN** – Təkcə çörəkdən ibarət olan; yavanlığı olmayan.

Yağdan-yaxdan

**YAĞDAN** – Yağ qoyulan və ya içərisinə yağ tökülən qab.

**YAXDAN** – Üzünə dəri çəkilmiş ağac qutu; sandıqça, mücrü.

Yağın-yağır

**YAĞIN** – Yağış, qar, dolu və s. şəklində havadan yerə düşən su qətrələri; yağmur.

**YAĞIR** – Bel sümüyünün üstündə əmələ gələn, gec sağalan yara.

Yaxac-yaxmac

**YAXAC** – Yağ xüsusiyyətləri olan maddə; yaxıla, sürtülə bilən hər cür maddə, sürtkü. Sürtülən, yaxılan dərman.

**YAXMAC** – Üzərinə yağ, bal və s. sürtülmüş çörək parçası; yaxma.

Yaxantı-yağıntı

**YAXANTI** – Yuyulmuş qabın çirkli, bulanıq suyu, qab suyu.

**YAĞINTI** – Yağış, qar, dolu və s. şəklində havadan yerə düşən su qətrələri, yağmur.

Yaldız-yalqız-yalnız

**YALDIZ** – 1. Bir şeyə qızıl və ya gümüş rəng və parlaqlığını vermək üçün onun üzərinə çəkilən qızıl, ya gümüş suyu.

**YALQIZ** –1. Tək, kimsəsiz, tək-tənha; 2. Ancaq, təkcə, müstəsna olaraq.

**YALNIZ** – Məhdudiyyət bildirir; ancaq, təkcə.

Yalman-yaman

**YALMAN** – Atın boynunun üst hissəsində bitən uzun tüklər.

**YAMAN** – Pis.

Yamaq-yanaq-yanşaq

**YAMAQ** – Bir şeyin cırıq və ya yırtıq yerini qoparıb örtmək üçün həmin materialdan oraya tikilən və ya yapışdırılan qumaş və s. parçası.

**YANAQ** – Üzün almacıq sümüyündən çənəyə qədər olan qismi.

**YANŞAQ** – Çoxdanışan, zəvzək, uzunçu.

Yanıq-yanlıq

**YANIQ** – 1. Yanmış şey; 2. Od və ya başqa yanmış şeyin təsiri ilə bədən toxumasında əmələ gələn zədə.

**YANLIQ** – Bir şeyin yan hissəsində olan şey; yan hissə, bir şeyin yanını təşkil edən, yanına qoyulan, əlavə edilən şey.

Yapaq-yapıq

**YAPAQ** – Yazda qırxılan qoyun yunu.

**YAPIQ** – İşlənməkdən yaprıxmış.

Yapalaq-yarpaq

**YAPALAQ** – Bayquşlar fəsiləsindən yırtıcı gecəquşu.

**YARPAQ** – Ağac və bitkilərin yastı və cinslərinə görə müxtəlif şəkildə olan yaşıl rəngli tənəffüs orqanı.

Yaraq-yarıq

**YARAQ** – Yazda qırxılan qoyun yunu.

**YARIQ** – Bir şey üzərində uzununa dərin kəsik.

Yarğan-yorğan

**YARĞAN** – Müvəqqəti su axınlarının əmələ gətirdiyi dik yamaclı çuxur.

**YORĞAN** – Yatanda örtünmək üçün içi yunlu və ya pambıqlı geniş örtü.

Yarışmaq-yarıtmaq

**YARIŞMAQ** – Bir işdə birinciliyi qazanmağa, bir-birini ötməyə çalışmaq.

**YARITMAQ** – Görməli olduğu və ya tapşırılmış bir işi qənaətbəxş, kifayətləndirici dərəcədə yerinə yetirmək.

Yas-yaş

**YAS** – Yaxın bir adamın ölümü münasibətilə hüzn və kədər, matəm.

**YAŞ** – Doğuluş, dünyaya gəlmə vaxtından keçən vaxt, il.

Yasaq-yasalaq

**YASAQ** – 1. Qadağan; 2. Qədimdə Volqaboyu və Sibir xalqlarından alınan vergi, töycü.

**YASALAQ** – Yasaq yeri; qoruq.

Yataq-yatıq

**YATAQ** –1. Yatmaq üçün yorğan-döşək salınmış yer; 2. Faydalı qazıntı yatağı.

**YATIQ** – Əyilmiş, yastılanmış, yatmış.

Yatalaq-yatalğa

**YATALAQ** – Çox yoluxucu bir neçə xəstəliyin ümumi adı; tif.

**YATALĞA** – Düşərgə, yataq, müvəqqəti yaşayış yeri.

Yatım-yatır

**YATIM** – Bir şeyin yataq, əyilmək səmti, qaydası, üsulu.

**YATIR** – Toxunulmayıb saxlanılan qiymətli, dəyərli şeylər, qızıl-gümüş, var-dövlət.

Yaylaq-yaylıq

**YAYLAQ** – Sərinliyinə görə yay istirahəti üçün əlverişli olan dağ yeri.

**YAYLIQ** – 1. Yay fəslinə aid olan, yaya məxsus; 2. Üçkünc və ya dördkünc parçadan ibarət qadın baş örtüsü.

Yeksan-yeksər

**YEKSAN** – Düz, bərabər, tən.

**YEKSƏR** – Başdan-başa, bütün, hamı, tamam.

Yelbə-yelda-yelgə

**YELBƏ** – Çox iti yeriyən balaca köçəri quş.

**YELDA** – Dekabr ayının 21-ə təsadüf edən ən uzun gecə.

**YELGƏ** – Qadın saçı.

Yelən-yelin

**YELƏN** – Haşiyə, qıraq, kənar.

**YELİN** – Məməli heyvanlarda süd yığılan orqan.

Yelpənək-yepələk

**YELPƏNƏK** – Xiyar.

**YEPƏLƏK** – 1. Təzə tutulmuş alıcı quşu ələ öyrədərkən onun qabağına tutulan quş; 2. Qapazaltı.

Yeşik-yetik

**YEŞİK** – Taxtadan və s.-dən qayrılan iri qutu.

**YETİK** – 1. Bələd, tanış, xəbərdar, vaqif; 2. Yetişmiş, yetkin.

Yeyə-yiyə

**YEYƏ** – Metalı yonmaq, təmizləmək üçün üzəri diş-diş olan polad alət; suvand.

**YİYƏ** – Hər hansı bir şey üzərində mülkiyyət hüququ olan adam.

Yezidi-yəzidi

**YEZİDİ** – İraqın Mosul əyalətində yayılmış bir məzhəb və bu mənsəbə mənsub adam.

**YƏZİDİ**– Yaxın Şərqdə əsasən kürdlər arasında yayılmış bir məzhəb.

Yığmaq-yıxmaq

**YIĞMAQ** – Bir yerə toplamaq, cəm etmək.

**YIXMAQ** – İtələyib, vurub, bərk toxunub yerə salmaq, yerə vurmaq, yerə düşmək.

Yoğuruş-yoxuş

**YOĞURUŞ** – Yoğuran adamlar.

**YOXUŞ** – Yolun dağa, təpəyə qalxan hissəsi, getdikcə yuxarı qalxan yer.

Yoxlamaq-yoluxmaq

**YOXLAMAQ** – Bir şeyin varlığı, yoxluğu, yaxud düzgünlüyü, həqiqi vəziyyəti barədə yəqinlik hasil etmək üçün onu gözdən keçirmək.

**YOLUXMAQ** – Sirayət etmək, keçmək (xəstəlik).

Yonqar-yovqar

**YONQAR** – Rəndə və s. yonucu alətlərin ağzından çıxan nazik, ensiz taxta parçaları.

**YOVQAR** – Taxta yonmaq üçün alət, rəndə; ikidəstəli rəndə.

Yula-yura

**YULA** – Fırlanan uşaq oyuncağı.

**YURA** – Yura dövrü, Yura sistemi. Yerin tarixində mezozoy erasının sıra ilə ikinci dövrü.

**Z**

Zabit-zabitə

**ZABİT** – Ordu və donanmada komanda heyətinə mənsub şəxs.

**ZABİTƏ** – Qayda, qanun, nizam, intizam.

Zad-zat

**ZAD** – Şey.

**ZAT** – Əsil, mənşə, kök, nəsil, nəsəb.

Zağa-zaqqa

**ZAĞA** – Heyvan yuvası, mağara.

**ZAQQA** – Cilovun atın çənəsinə bitişən yeri.

Zağar-zağara

**ZAĞAR –** Yoğun, yekəqarın**.**

**ZAĞARA** – Dəri papağın aşağı və yuxarı kənarı, qırağı.

Zahid-zaid

**ZAHİD** – Dünyanın zövq və nemətlərindən əl çəkib vaxtını ibadətlə keçirən dindar adam.

**ZAİD** – Artan, əlavə edilən.

Zahir-zakir

**ZAHİR** – Açıq, aşkar, aydın, meydanda olan.

**ZAKİR** – Zikr edən. Keçmişdə təkyələrdə ilahiyyat oxuyan adam.

Zalım-zalom

**ZALIM** – Zülm edən, zülmkar, qəddar, mərhəmətsiz, insafsız.

**ZALOM** – İri siyənək balığı.

Zamin-zəmin-zəmir

**ZAMİN** – Öhdəsinə zaminlik götürən, zəmanət verən adam.

**ZƏMİN** – Yer, torpaq.

**ZƏMİR** – Köhnə qrammatikada əvəzliyin adı.

Zefir-sapfir

**ZEFİR** – 1. Eşilmiş, ağardılmış iplikdən toxunmuş zərif pambıq parça növü; 2. Yüngül meyvə pastilası (şirniyyat növü).

**SARFİR** – Göy və ya sürməyi rəngdə olan qiymətli daş.

Zəban-zəbun

**ZƏBAN –** Dil.

**ZƏBUN –** Zəif, qüvvətsiz, cansız, aciz, düşkün.

Zəbər-zəbur

**ZƏBƏR** – Ərəb (fars) əlifbasında "ə" səsiini bildirmək üçün saitlərin üzərinə qoyulan "_" işarəsi; fəthə.

**ZƏBUR** – Dini əsatirə görə Allah tərəfindən Davud peyğəmbərə göndərilən kitab.

Zəhər-zəhir-səhər

**ZƏHƏR** – Canlı orqanizmləri zəhərləyə bilən maddə; ağı.

**ZƏHİR** – Yardımçı, köməkçi, arxa.

**SƏHƏR** – Günün başlanğıcı, ilk saatı, sabah açıldığı vaxt, sübh.

Zəhm-zəxm

**ZƏHM** – 1. Qorxu, vahimə, dəhşət; qorxu, vahimə, dəhşət doğuran hal, görünüş; 2. Qəzəblə, hiddətlə, çox acıqlı halda.

**ZƏXM** – Yara.

Zəka-zəki

**ZƏKA** – Bir şeyi tez anlama, tez dərk etmə, ağıl, fəhm, zehin.

**ZƏKİ** – Zəkalı.

Zəkat-zəkavət

**ZƏKAT** – İslam dinində: əldə edilmiş mal və pulun halallığını təmin etməkdən ötrü, onun dini ehtiyaclar və fəqir-füqəraya verilmək üçün ayrılan hissəsi.

**ZƏKAVƏT** – Ağıl.

Zəlalət-zəmanət

**ZƏLALƏT** – Doğru yoldan azma, doğru yoldan sapma (çıxma); sapqınlıq.

**ZƏMANƏT** – Zaminlik, zamin olma.

Zəmir-səmir

**ZƏMİR** – Köhnə qrammatikada: əvəzliyin adı.

**SƏMİR** – Səs-səmir.

Zənbil-zənbur

**ZƏNBİL –** İçinə şey qoymaq üçün küləşdən, qarğıdan, çubuqdan və s.-dən hörülmüş qab.

**ZƏNBUR** – Cır arı.

Zərbə-zərdə

**ZƏRBƏ** – Qolaylayaraq şiddətlə bir şeyə vurma; vuruş.

**ZƏRDƏ** –Yerkökü.

Zərbət-şərbət-zərdab

**ZƏRBƏT** – Zərbə, yara.

**ŞƏRBƏT –** Meyvə şirələrinə və ya adi suya qənd qatmaqla hazırlanan şirin içki.

**ZƏRDAB** – Süd çürüdükdə, qatıq qaldıqda hasil olan sarı, quru, turştəhər maye, su.

Zərf-zəif-zərif

**ZƏRF** – İçərisinə məktub və ya başqa kağız qoyub başqa yerə göndərmək üçün xüsusi biçimli kağız qab, paket, konvert.

**ZƏİF** – Cismən az qüvvətli, gücsüz.

**ZƏRİF** – İncə.

Zılıq-zırıq

**ZILIQ** – Gözdən, ağızdan, burundan axan selik.

**ZIRIQ** – Çox yekə və yöndəmsiz, yekəpər.

Zırı-zırnı

**ZIRI** – Yekə.

**ZIRNI** – Bədəndə olan artıq tükləri aparmaq üçün işlənilən maddə.

Zili-zilli

**ZİLİ** – Xalça növlərindən birinin adı.

**ZİLLİ** – Himayəçi, hami, allahın kölgəsi.

Zirab-sirab

**ZİRAB** – Ayaqyolu.

**SİRAB** – 1. Doymuş (su və s. mayelərlə); 2. Mineral suyun adı.

Zirək-zirincək

**ZİRƏK** – Bacarıqlı, əlindən iş gələn, cəld, çevik, çox diribaş.

**ZİRİNCƏK** – Zirək.

Zond-zont

**ZOND (tibb.)** – Orqanların, toxumaların daxilini tədqiq etmək üçün onların içinə yeridilən borucuq və ya çubuq şəklində tibb aləti.

**ZONT** – Çətir, günlük, yağmurluq.

Zoomorfizm-izomorfizm

**ZOOMORFİZM** – Allahları heyvanlar şəklində təsəvvür edən ibtidai dini etiqad.

**İZOMORFİZM –**Kimyəvi tərkibləri bir-birinə yaxın olan iki və ya bir neçə maddənin bir formada kristallaşması.

Zopa-zopu

**ZOPA** – Dəyənək, kötək.

**ZOPU(rəqs)** – Keçmişdə cavanların cərgə ilə durub uzun çubuqla oynadıqları bir oyun.

Zubr-zubul

**ZUBR –** Boşbuynuzlular fəsiləsindən Avropa vəhşi meşə öküzü.

**ZUBUL** – Odun doğramaqda, bərk materialda deşik açmaqda istifadə olunan mıxça.

Zühur-zükur

**ZÜHUR** – Zahir olma, meydana çıxma.

**ZÜKUR** – Kişilər.

Zumar-zummer

**ZUMAR** – Qış ehtiyatı.

**ZUMMER** – Səs siqnalları vermək üçün radiotexnika və telefoniyada işlədilən elektrik cihazı və cihazda eşidilən qırıq səs.

Zünnar-züvvar

**ZÜNNAR** – Xristian keşişlərinin ibadət zamanı bellərinə bağladıqları ucları aşağı sallanan sərt qurşaq.

**ZÜVVAR** – Zəvvar. Ziyarət edən, ziyarətə gələn və yaxud ziyarətdən qayıdan şəxs; ziyarətçi.

## FRAZEOLOJİ PARONİMLƏR

**abırdan salmaq – abıra salmaq**

abırdan salmaq – rüsvay etmək, biabır etmək, aşağılamaq; – nüfuzdan salmaq, adamlıqdan salmaq, itin sözünü demək.

abıra salmaq – səliqə-sahman yaratmaq, bir şeyin görünən, zahiri tərəfinə daha çox fikir vermək, yaraşığa gətirmək, abıra salmaq.

**abrını almaq – abrını atmaq**

abrını almaq – danlamaq, məzəmmət etmək, töhmətləndirmək, biabır etmək.

abrını atmaq – şərəfini, mənliyini, ləyaqət hissini itirmək.

**ad qoymaq – ad qoşmaq**;

ad qoymaq – 1. Yaxşı işləri ilə adını əbədiləşdirmək, şöhrət qazanmaq; 2. Başqa cür qələmə vermək; 3. Yeni doğulmuş uşağa ad vermək.

ad qoşmaq – hər hansı hərəkətinə görə kiməsə əlavə ad vermək.

**adam salmaq – adam satmaq –adam saymaq**

adam salmaq –1. Vasitəçi göndərmək; 2. Kimi isə axtarmaq üçün bir başqasını yollamaq.

adam satmaq – namərdlik etmək, xainlik etmək, bıçağı kürəyinə saplamaq.

adam saymamaq – saymamaq, hesablaşmamaq, özünü yekəxana aparmaq.

**ağıl vermək –ağıl-ağıla vermək**

ağıl vermək – öyrətmək, izah etmək, yol göstərmək.

ağıl-ağıla vermək – bir yerdə oturub fikirləşmək, düşünmək, məsləhətləşmək.

**ağırlıq salmaq – ağırlıq satmaq**

ağırlıq salmaq – pis nəfsini, niyabətini tökmək.

ağırlıq satmaq – özünü ağır göstərmək.

**ağlar qalmaq – ağlar qoymaq**

ağlar qalmaq – bədbəxt olmaq, qəmə-qüssəyə batmaq.

ağlar qoymaq – bədbəxt etmək, korlamaq, xarab etmək.

**ağlı başında olmaq – ağlı başından oynamaq**

ağlı başında olmaq –ayıq olmaq, ağılla, düşüncəylə iş görmək, ağıllı olmaq.

ağlı başından oynamaq –dəli kimi olmaq, ağlı çaşmaq, ağlı azmaq, ağlı yerində olmamaq.

**Allaha acıq gedər – Allaha ağır gedər – Allaha xoş gedər**

Allaha acıq gedər – gərgin psixoloji vəziyyətdə küfr danışan, naşükürlük edən və ya sair emosional hərəkətlərə yol verən şəxsə müraciətlə söylənilən ifadə.

Allaha ağır gedər – günah, qəbahət, bəd əməl törətməyə hazırlaşan birisini həmin niyyətdən çəkindirmək məqsədilə işlədilən ifadə.

Allaha xoş gedər – birisini xeyirxah və savab əməllərə çağırarkən işlədilən ifadə.

**Allaha pay aparmaq – Allaha pənah aparmaq**

Allaha pay aparmaq – boyu uca olmaq.

Allaha pənah aparmaq – Allaha sığınmaq, Allahdan kömək istəmək, bütün ümidlərini Allaha bağlamaq.

**Allah yar olsun –Allah yol versin**

Allah yar olsun – sağ-salamat get, gəl! Xətalı bir şey olmasın!

Allah yol versin – İşin yaxşı olsun.

**ara vermək – ara vurmaq**

ara vermək – dayanmaq, fasilə etmək.

ara vurmaq – münasibətləri pozmaq, kimləri isə küsdürmək, əlaqələri pozmaq.

**aradan qaldırmaq – aradan qalxmaq**

aradan qaldırmaq – maneəni dəf etmək, qaydaya salmaq.

aradan qalxmaq – yox olmaq, ləğv edilmək.

**bənd almaq – bənd olmaq**

bənd almaq – 1. Bir məkanda, yaxud bir işdə davamlı qalmaq; 2. Rahat olmaq, bir yerdə qərar tutmaq.

bənd olmaq – kimisə sevmək, vurulmaq, aşiq olmaq.

**borcdan çıxmaq – borclu çıxarmaq**

borcdan çıxmaq – əvəzini vermək, qarşılığını vermək, minnətdən çıxmaq.

borclu çıxarmaq – başqasını haqsız yerə günahlandırmaq, haqsız hesab etmək.

**boş damarını tutmaq – boş tutmaq**

boş damarını tutmaq – kiminsə zəif cəhətindən istifadə etmək.

boş tutmaq – məsuliyyətsizlik etmək, ciddi yanaşmamaq.

**boy vermək – boya vermək – boy-boya vermək**

boy vermək – 1. Boyca, yaxud uzunluqca bərabər olmaq; 2. Adam boyundan yuxarı olmamaq.

boya vermək – uzanmaq, boy atmaq.

boy-boya vermək – ayaq üstə yanaşı dayanmaq.

**cındırı çıxmaq – cınqırı çıxmamaq**

cındırı çıxmaq – tamam köhnəlmək, tökülmək, tökülüb itmək.

cınqırı çıxmamaq – səsi çıxmamaq, danışmamaq, susmaq.

**cızdağı çıxmaq – cızığından çıxmaq**

cızdağı çıxmaq – hədsiz pis təsir etmək, güclü mənfi təsirə məruz qalmaq, yanıb tökülmək.

cızığından çıxmaq – qudurmaq, yolunu azmaq, həddini aşmaq, əndazədən çıxmaq.

**çörək kəsmək – çörəyi kəsilmək**

çörək kəsmək – 1. Yoldaşlıq, dostluq etmək; 2. Birlikdə çörək yemək.

çörəyi kəsilmək – Maaşdan, gəlir yerindən məhrum olmaq.

**damarı tutmaq – damarını tutmaq**

damarı tutmaq – inad etmək, tərslik etmək, qəti razılaşmamaq.

damarını tutmaq – xasiyyətini bilmək, zəif yerini bilib ona uyğun hərəkət etmək.

**dara-bara salmaq – dara salmaq**

dara-bara salmaq – səs-küy salıb aranı qarışdırmaq.

dara salmaq – çətin, çıxılmaz vəziyyətə salmaq.

**darda qalmaq – dardan qurtarmaq**

darda qalmaq – çətin vəziyyətə düşmək, çətinlik çəkmək, ehtiyac içiində olmaq.

dardan qurtarmaq – çətin və ağır vəziyyətdən çıxmaq.

**daşı-daş üstə qalmamaq – daşı-daş üstə qoymamaq**

daşı-daş üstə qalmamaq – məhv etmək, xaraba qoymaq.

daşı-daş üstə qoymamaq–tamamilə dağıtmaq, darmadağın etmək, dağıdıb xarabalığa döndərmək.

**dəm almaq – dəm vermək– dəm vurmaq– dəm tutmaq**

dəm almaq – öz kefində olmaq

dəm vermək – hərəkətə gətirmək, işə başlamaq.

dəm vurmaq – 1. Ağızdolusu danışmaq, iddiasında olmaq, bəhs etmək; 2. Özünü təriflək.

dəm tutmaq – 1. Başqasının sözünü, fikrini ona xoş gəlmək xatirinə, yaltaqlanmaq məqsədilə təsdiq etmək; 2. Bir səsi başqa bir səslə uyğunlaşdırmaq, ahəng yaratmaq.

**dərdini almaq – dərdini açmaq – dərdini atmaq**

dərdini almaq – birinə mehribanlıqla müraciət, xitab və ya oxşayıb əzizləmə zamanı işlənən ifadə.

dərdini açmaq – kiməsə dərdini söyləmək.

dərdini atmaq – şadlanmaq, sevinmək.

**dəridən çıxmaq – dəridən-qabıqdan çıxmaq – dərisindən çıxarmaq**

dəridən çıxmaq – dərisini dəyişmək.

dəridən-qabıqdan çıxmaq – həddindən artıq çalışmaq, çox əziyyət çəkmək, çoxlu zəhmət, pul, mal sərf etmək.

dərisini boğazından çıxarmaq – cəzalandırmaq, işgəncə vermək.

**dünyaya gəlmək – dünyaya gətirmək**

dünyaya gəlmək – doğulmaq, anadan olmaq.

dünyaya gətirmək – 1. Törətmək, yaratmaq, vücuda gətirmək; 2. Doğmaq.

**ev yığmaq – ev yıxmaq – evi yıxılmaq**

ev yığmaq – qazandığı pulun qədrini bilmək, pulunu ora-bura dağıtmamaq, sağa-ola xərcləməmək, yığıcı olmaq, bədxərc olmamaq.

ev yıxmaq – birinə pislik etmək, bədbəxt etmək.

evi yıxılmaq – ağır bir fəlakətə düçar olmaq, bədbəxt olmaq.

**əndazəyə salmaq – əndişəyə salmaq**

əndazəyə salmaq – lazımi şəklə salmaq, qaydaya salmaq.

əndişəyə salmaq – narahat etmə, nigaran qoymaq, təşvişə salmaq.

**ərşə çəkilmək – ərşə çıxmaq**

ərşə çəkilmək – qeyb olmaq, yoxa çıxmaq.

ərşə çıxmaq – 1. Ucalmaq, göylərə  qalxmaq, çoxalmaq, artmaq; 2. Yox olmaq.

**ətə gəlmək** – **ətə gətirmək**

ətə gəlmək – kökəlmək, yaxşılaşmaq.

ətə gətirmək –  kökəltmək, yaxşılaşdırmaq.

**fikir götürmək** – **fikrinə gətirmək**

fikir götürmək – qayğılanmaq, narahatlıq keçirmək, bir məsələ ilə bağlı narahatlıq keçirmək.

fikrinə gətirmək – təsəvvür etmək.

**fikrə getmək**– **fikrə gəlmək**

fikrə getmək – fikirləşmək, düşünmək, düşüncəyə, fikrə dalmaq.

fikrə gəlmək–qənaətini dəqiqləşdirmək, konkret qərara, nəticəyə gəlmək.

**fikri dağılmaq** – **fikri dolaşmaq**

fikri dağılmaq – 1. Dərdini, kədərini unutmaq, pis fikirlərdən uzaqlaşmaq, rahatlanmaq; 2. Diqqətini cəm eləyə bilməmək, fikri dağınıq olmaq.

fikri dolaşmaq – yaxşı fikirləşə bilməmək, dalğın olmaq.

**xəmiri haqdan yoğurulmaq** – **xəmiri haramlıqla yoğurulmaq**

xəmiri haqdan yoğurulmaq – taleyi ilahidən gəlmək, haqq adamı olmaq.

xəmiri haramlıqla yoğurulmaq –nadürüst olmaq, halal-haram bilməmək.

**ingilis barmağı** – **ingilis bayrağı**

ingilis barmağı – yerindən və zamanından asılı olmayaraq baş vermiş fitnə-fəsadın arxasında Britaniya hökumətinin dayandığını bildirən ifadə.

ingilis bayrağı – öz fikrində qəti olmayan, daim tərəddüd edən. fikrini, mövqeyini tez-tez dəyişən adam haqqında deyilən ifadə.

**irəli gəlmək** – **irəli getmək**

irəli gəlmək – yaranmaq, qaynaqlanmaq.

irəli getmək – daha mütərəqqi fikirlər irəli sürmək, inkişaf etmək.

**iş almaq – iş açmaq**,

iş almaq –hər hansı bir hərəkətə görə həbsə düşmək.

iş açmaq – 1. Gözlənilmədən problem yaratmaq; 2. Baş vermiş cinayət əməli ilə bağlı təhqiqat aparmaq.

**işə düşmək – işdən düşmək**

işə düşmək – 1. Çətinlik yaranmaq, çətinliklə üzləşmək; 2. Hərəkətə başlamaq.

işdən düşmək – işdən soyumaq, köhnəlmək, xarab olmaq.

**işin içindən çıxmaq – işin içindən iş çıxmaq**

işin içindən çıxmaq – üzləşdiyi çətin, mürəkkəb vəziyyətdən hər hanı bir yolla xilas olmaq.

işin içindən iş çıxmaq – əsas iş həll olunmamış əlavə problemlər üzə çıxmaq.

**kefi qalxmaq – kefi qaçmaq**

kefi qalxmaq – şadlanmaq, kefi açılmaq, əhvalı yaxşılaşmaq, kefi kökəlmək.

kefi qaçmaq – ovqatı təlx olmaq, pərt olmaq, nəşəsi qaçmaq.

**kefi çatlamaq – kefi çırtıq çalmaq**

kefi çatlamaq – halı pozulmaq, pərt olmaq.

kefi çırtıq çalmaq – sevinmək, şadlanmaq.

**kitab bağlamaq – kitabı bağlanmaq**

kitab bağlamaq – kiminsə haqqında söz-söhbət yaymaq.

kitabı bağlanmaq – haqqında mənfi qərar verilmək, məsələsi həll olunmaq.

**kölgəsində daldalanmaq – kölgəsində dolanmaq**

kölgəsində daldalanmaq – kiminsə himayəsində olmaq, öz mövqeyi, qərarı olmamaq, cəsarətsiz olmaq.

kölgəsində dolanmaq – kiminsə himayəsində olmaq.

**könlünü almaq – könlü atlanmaq – könlünü açmaq**

könlünü almaq –incimiş bir adamı ovutmaq, sakitləşdirmək, inciliyini unutdurmağa çalışmaq, yumşaltmaq, acığını unutdurmaq.

könlü atlanmaq – həsrətində olmaq, həyəcanlanmaq.

könlünü açmaq – 1. Sevindirmək, şadlandırmaq; 2. Birisinə inanaraq ürəyindəkiləri açıb söyləmək, sirlərini açıb demək.

**könlünü almaq – könlü atlanmaq**

könlünü almaq – incimiş bir adamı ovutmaq, sakitləşdirmək, incikliyini unutdurmağa çalışmaq, yumşaltmaq, acığını unutdurmaq.

könlü atlanmaq – ürəyi atlanmaq, həsrətində olmaq.

**könlü tutmaq – könlü tutulmaq**

könlü tutmaq – ürəyi tutmaq, xoşuna gəlmək.

könlü tutulmaq – kədərlənmək, qüssəli olmaq.

**qan ağlamaq – qan axıtmaq – qan axtarmaq**

qan ağlamaq – zülm, əzab çəkmək, bezmək, usanmaq.

qan axıtmaq – müharibə etmək, adamların qırılmasına səbəb olmaq.

qan axtarmaq – heç bir səbəb olmadan döyüşməyə, vuruşmağa, qan tökməyə bəhanə axtarmaq

**qan almaq – qanını almaq**

qan almaq – kürəyini çərtib qan çıxartmaq.

qanını almaq – ölmüş əziz adamının intiqamını almaq.

**qan salmaq – qana salmaq**

qan salmaq – dava-dalaş, fitnə-fəsad törətmək, vuruşdurmaq.

qana salmaq – xatalı, təhlükəli bir işə vadar etmək.

**qanı qaralmaq – qanı qaynamaq,**

qanı qaralmaq –əhvalı təlx olmaq, dilxor olmaq, bikefləmək.

qanı qaynamaq – məhrəm saymaq, doğma bilmək, çox bəyənmək.

**qana salmaq – qana susamaq**

qana salmaq – xatalı, təhlükəli bir işə vadar etmək

qana susamaq – dava-dava demək, qan töküb adam öldürməyə can atmaq.

**qanad vermək – qanad-qanada vermək,**

qanad vermək –ruhlandırmaq, canlandırmaq, daha da canlandırmaq.

qanad-qanada vermək – uçmaq.

**qanı qaralmaq – qanı qaynamaq**

qanı qaralmaq – əhvalı təlx olmaq, dilxor olmaq, bikefləmək.

qanı qaynamaq – məhrəm saymaq, doğma bilmək, çox bəyənmək.

**qara basmaq – qaraqapağını basmaq**

qara basmaq – gözünə əcaib, qorxulu, xəyali şeylər görünmək.

qaraqapağını basmaq – qorxusunu götürmək.

**qara yaxmaq – qarayuxu olmaq**

qara yaxmaq – kimisə yanlış olaraq günahlandırmaq, ünvanına yalanlar söyləmək, ləkələmək.

qarayuxu olmaq – həmişə yuxulu olmaq, key kimi gəzmək.

**qəlbi qaralmaq – qəlbi qırılmaq**

qəlbi qırılmaq – incimək.

qəlbi qaralmaq – bikef olmaq, əhvalı pis olmaq.

**qəlbini oxşamaq – qəlbini oxumaq – qəlbini ovlamaq**

qəlbini oxşamaq – məftun etmək, ruhunu oxşamaq.

qəlbini oxumaq – ürəyindən keçənləri duymaq, məqsədini, niyyətini hiss etmək.

qəlbini ovlamaq – xoş sözlərlə dilə tutmaq, şirin sözlərlə razı salmağa, etimadını, məhəbbətini qazanmağa çalışmaq.

**qələm vurmaq – qələmə vermək**

qələm vurmaq – 1. Üz-gözünü bəzəmək; 2. Yazmaq.

qələmə vermək – bir adamın yaxşı və pis cəhətlərini tanıtmaq, təqdim etmək, diqqətə çatdırmaq.

**qiyamət qoparmaq – qiyamət qopmaq**

qiyamət qoparmaq – qışqırmaq, hay-küy salmaq.

qiyamət qopmaq – səs-küy yaranmaq, qarışıqlıq düşmək.

**quş qoymaq – quşu qonmaq – quş qovmaq**

quş qoymaq – yazıda, siyahıda müəyyən məqamları vurğulamaq üçün onun qarşısında xüsusi işarə qoymaq, qeydlər etmək.

quşu qonmaq – **x**oşlamaq, bəyənmək, istəmək, ürəyincə olmaq.

quş qovmaq – **a**varalanmaq, heç bir işlə məşğul olmamaq.

**quyruğu ələ gəlmək – quyruq ələ verməmək**

quyruğu ələ gəlmək – yaxalanmaq, tutulmaq, çətinə düşmək.

quyruq ələ verməmək – ələ keçməmək, tapılmamaq.

**oda yanmaq – oda yaxmaq**;

oda yanmaq –dərd çəkmək, dərd eləmək, dərdə giriftar olmaq.

oda yaxmaq – 1. Çox işləmək, özünü oda-közə vurmaq; 2. Naz etmək.

**söz açmaq – söz atmaq – söz almaq**

söz açmaq –haqqında danışmağa başlamaq.

söz atmaq – hər hansı bir məsələ ilə bağlı rəy öyrənmək və ya fikir formalaşdırmaq.

söz almaq – birindən sirr olan məlumatı öyrənməyə çalışmaq.

**söz kəsmək – söz gəzmək**

söz kəsmək – hansısa işə başlamazdan əvvəl münasibət və davranışların çərçivəsini razılaşdırmaq, uzlaşmaq, şərt kəsmək.

söz gəzmək – xəbər, şayiə yayılmaq.

**sözə gəlmək – söz-sözə gəlmək**

sözə gəlmək – hər hansı bir işi yerinə yetirmək üçün söz qoymaq.

söz-sözə gəlmək – dalaşmaq, qarşılaşmaq, üzləşmək.

**söz qoymaq – söz qoşmaq**,

söz qoymaq –bir qərara gəlmək, bir məsələ haqqında razılığa gəlmək.

söz qoşmaq –1. Şeir demək; 2. Dolamaq, lağa qoymaq, ələ salmaq.

**sual altında qalmaq – sual altında qoymaq**

sual altında qalmaq – həyata keçəcəyi, həll olunacağı şübhə doğurmaq, qeyri-müəyyən vəziyyətdə olmaq, nəticəsi bilinməmək.

sual altında qoymaq – qeyri-müəyyənlik yaratmaq, vəziyyətini ağırlaşdırmaq, mövcudluğuna şübhə və təhlükə yaratmaq.

**tilsimə salmaq – tilsimi sındırmaq**

tilsimə salmaq – öz təsiri altına salmaq, sehrləmək, ovsunlamaq, işi çətinə, düyünə salmaq.

tilsimi sındırmaq – uzun müddət problemə çevrilmiş bir işi həll etmək, müəmmalı və dolaşıq olan bir şeyə aydınlıq gətirmək.

**özünü əldən salmaq – özünü ələ salmaq**

özünü əldən salmaq – özünü yormaq, çox işləmək.

özünü ələ salmaq – özünü gicliyə vurmaq, axmaq hərəkətlər etmək.

**özünü gözdən salmaq – özünü gözə soxmaq**

özünü gözdən salmaq – düşünülməmiş hərəkətlər etmək, hörməti itirmək, rüsvay olmaq.

özünü gözə soxmaq – diqqəti özünə cəlb etməyə çalışmaq, həmişə göz önündə olmağa çalışmaq, yaltaqlanmaq, başqasının hörmətini qazanmağa çalışmaq.

**ulduzu barışmamaq – ulduzu parlamaq**

ulduzu barışmamaq – ünsiyyət qura bilməmək, mehriban olmamaq, bir-biri ilə dil tapmamaq, yola getməmək.

ulduzu parlamaq – məşhurlaşmaq, uğur, müvəffəqiyyət qazanmaq

**üstünü almaq – üstünü açmaq – üstünə atmaq**;

üstünü almaq –haqlamaq, qaçmağa qoymamaq, çatıb dərhal yaxalamaq, özünü tez yetirmək.

üstünü açmaq –ifşa etmək, üzə, aşkara çıxartmaq.

üstünə atmaq – başqasını günahlandırmaq.

**yerində qalmaq – yerində qoymaq**

yerində qalmaq – 1. Olduğu yerdəcə ölmək; 2. İşini, vəzifəsini dəyişməmək, irəliləmək.

yerində qoymaq – çox lovğa, iddialı adama əslində nəyə qadir olduğunu açıqlamaq.

**yola getmək – yola gəlmək – yola gətirmək**

yola getmək – bir-birini anlamaq, güzəştə getmək, bir-biri ilə yaxşı rəftar etmək.

yola gəlmək – xahişdən, nəsihətdən, söhbətdən sonra deyilən fikirlə razılaşmaq.

yola gətirmək – yumşaltmaq, güclə razılığını almaq.

**yoluna qoymaq – yolundan qoymaq**

yoluna qoymaq – nizamlamaq, yerbəyer etmək, sona çatdırmaq, birdəfəlik həll etmək.

yolundan qoymaq – ləngitmək, söhbətə tutub getməkdən saxlamaq.

## SOMATİK FRAZEOLOJİ PARONİMLƏR

**ağız-ağıza vermək – ağzına ağız vermək**

ağız-ağıza vermək – 1. Eyni vaxtda danışmaq, səs-küy yaratmaq; mənasız yerə mübahisə etmək; 2. Əvvəlcədən razılaşaraq eyni mövqedən çıxış etmək.

ağzına ağız vermək – sözünü qüvvətləndirmək, təhrik etmək, coşdurmaq.

**ağız-burnunu əymək – ağız-burnunu əzişdirmək**

ağız-burnunu əymək – bir şeylə razılaşmamaq, narazı olmaq.

ağız-burnunu əzişdirmək – döyülmək, zərbə almaq, məğlub edilmək.

**ağıza düşmək – ağızdan düşmək**

ağıza düşmək – səsi-sorağı hər yana yayılmaq, məşhurlaşmaq, şöhrətlənmək.

ağızdan düşməmək – dili ağzına sığmamaq, tərifləmək.

**ağzı açılmaq – ağzını açmaq**

ağzı açılmaq – 1. Deyinməyə, danlamağa, söyməyə başlamaq, narazılıq bildirmək; 2. Kütləvi halda axıb gəlməyə başlamaq.

ağzını açmaq – danışmağa başlamaq, sərt cavab vermək, ittiham etmək.

**ağzına almaq(götürmək) – ağzına atmaq**

ağzına almaq(götürmək) –hər tərəfi bürümək, çox geniş əhatə etmək, hər tərəfə yayılmaq.

ağzına atmaq – rüşvət vermək, öz məqsədinə nail olmaq üçün kimisə ələ almağa çalışmaq.

**ağzına gəlmək – ağlına gəlmək**

ağzına gəlmək – 1. Ağzına nə gəldi yerli-yersiz danışmaq ; 2. Ürəyi bulanmaq.

ağlına gəlmək – yeni bir fikir düşünmək.

**ağzına təpmək – ağzından dürr tökmək**

ağzına təpmək – 1. Yeməyi güclə ağzına vermək; 2. Tez-tez yemək.

ağzından dürr tökmək – mənalı, hikmətli, rəvan və səlis danışmaq.

**ağzında dili olmamaq – ağzında dili yanmaq**

ağzında dili olmamaq – məzlum, yazıq, aciz olmaq.

ağzında dili yanmaq – 1. Bərk susamaq ; 2. Peşmanlıq çəkmək.

**ağzını aramaq – ağzını aralamaq**

ağzını aramaq – birinin fikrini, məqsəd və niyyətini, mövqeyini öyrənməyə cəhd eləmək.

ağzını aralamaq – təəccüblənmək, heyrətlənmək.

**ağzını qızışdırmaq – ağzını qıfıllamaq,**

ağzını qızışdırmaq – çox danışdırmaq.

ağzını qıfıllamaq – 1. Susmaq, danışmamaq; 2. Susdurmaq, səsini kəsmək, susmağa məcbur etmək.

**ayaq açmaq-ayağı açılmaq – ayaq almaq – ayaq altına almaq**

ayaq açmaq – 1. Tez-tez gəlib getmək; 2. Uşağın ilk yerişi.

ayağı açılmaq – qarnı işləmək.

ayaq almaq - ayaqlanmaq, cəsarətlənmək, kiminsə üzərinə hücum etmək

ayaq altına almaq – saymamaq, döymək.

**ayaq qoymaq –ayaq-ayağa qoymaq**

ayaq qoymaq – harasa ilk dəfə getmək, qədəm basmaq.

ayaq-ayağa qoymaq – kiminləsə bəhsə girmək, paxıllıq etmək.

**ayağa dolaşmaq – ayağa döşənmək**

ayağa dolaşmaq – mane olmaq, əngəl olmaq.

ayağa döşənmək –çox yalvarmaq, bir şeyi təkidlə istəmək.

**ayaq saxlamaq – ayaqdan salmaq**

ayaq saxlamaq – dayanmaq, fikrə getmək, durmaq.

ayaqdan salmaq – 1. Çox gəzdirib yormaq; 2. Üzmək, iztirab, cəfa və əziyyət vermək.

**ayaq sürmək – ayaq sürümək – ayaqlarda sürünmək – ayağı sürüşmək – ayağını sürümək**

ayaq sürmək – kiminsə üstünə təhdidlə getmək, üstünü almaq.

ayaq sürümək – ayağını çəkmək, ayaq-ayaq getmək.

ayaqlarda sürünmək – kiminsə tapdağı altında qalmaq.

ayağı sürüşmək – yanlışlığa yol vermək, düz yoldan çıxmaq, ayağı büdrəmək.

ayağını sürümək – bir yerə könülsüz getmək.

**ayağının altı qaçmaq – ayağının altını qazımaq**

ayağının altı qaçmaq-üzləşdiyi gözlənilməz vəziyyət və ya eşitdiyi xəbərdən bərk təsirlənmək, həyəcanlanmaq, qorxmaq.

ayağının altını qazımaq – əleyhinə xəlvəti iş görmək, zərər vurmaq.

**aynası açıq olmaq – aynası açılmaq**

aynası açıq olmaq – yaxşı əhval –ruhiyyədə olmaq

aynası açılmaq – kökəlmək

**bağrı yanmaq – bağrı yarılmaq – bağrını yarmaq**

bağrı yanmaq – susamaq, ürəyi yanmaq, ciyəri yanmaq.

bağrı yarılmaq – bərk qorxmaq, dəhşətə gəlmək.

bağrını yarmaq – öldürmək.

**bağrına basmaq – bağrına batmaq**

bağrına basmaq – məhəbbətlə, nəvazişlə qucaqlamaq, ürəklə görüşmək.

bağrına batmaq – kədərlənmək, qüssələnmək.

**barmaqla göstərilmək – barmaq göstərmək**

barmaqla göstərilmək – yaxşı və ya pis əməlləri ilə tanınmaq, məşhur olmaq.

barmaq göstərmək – kiməsə həddini bildirmək.

**baş ağartmaq – baş ağrıtmaq**

baş ağartmaq – bir işdə çox çalışıb təcrübə qazanmaq.

baş ağrıtmaq – incitmək, vaxtını almaq, mane olmaq, dəng etmək.

**baş almaq – baş atmaq**

baş almaq – 1. Hara gəldi çıxıb getmək, uzaqlaşmaq; 2. Arzuedilməz dərəcədə çoxalmaq.

baş atmaq – dənizdə çimmək, kiməsə baş çəkmək.

**baş eləmək – baş endirmək**

baş eləmək – kimisə yuxarı vəzifəyə qoymaq.

baş endirmək – təslim olmaq, tabe olmaq.

**baş qaldırmaq – baş qarışdırmaq – baş qatmaq**

baş qaldırmaq – üsyan etmək, kütləvi etiraza qalxmaq, hərəkətə keçmək, dirçəlmək, ortaya çıxmaq.

baş qarışdırmaq – vaxtı uzatmaq, hiylə işlətməklə diqqəti əsas məsələdən yayındırmaq.

baş qatmaq –1. Əhəmiyyətsiz şeylərlə diqqəti əsas məsələdən yayındırmaq, məşğul etmək, diqqəti başqa şeyə yönəltmək; aldatmağa çalışmaq; 2. Girələnmək, vaxtı keçirmək üçün bir işlə məşğul olmaq.

**baş vermək – baş vurmaq**

baş vermək – təzahür etmək, törəmək, ortaya çıxmaq.

baş vurmaq – 1. Müəyyən sahəyə maraq göstərmək, həmin sahədə özünü sınamaq; 2. Baş çəkmək.

**başa gəlmək – başa gətirmək**

başa gəlmək – tamam olmaq, əmələ gəlmək, hasil olmaq, bitmək.

başa gətirmək – işi sona çatdırmaq, tamamlamaq.

**başa mindirmək – başa minmək**

başa mindirmək – həddən çox sərbəstlik vermək, güzəştə gedib üz vermək.

başa minmək – qudurğanlıq etmək.

**başa salmaq – baş salmaq**

başa salmaq – anlatmaq, qandırmaq, izah etmək.

baş salmaq – kimisə yoluxmaq, baş çəkmək.

**başa vermək – baş-başa vermək – başa vurmaq**

başa vermək – işi axıra qədər görmək, tamamlamaq.

baş-başa vermək – birlikdə olmaq, köməkləşmək, birgə iş görmək, bir araya gəlmək.

başa vurmaq – 1. Sona çatdırmaq, bitirmək; 2. Etdiyi yaxşılığı dilə gətirmək.

**başından atmaq – başından açılmaq**

başından atmaq – özündən uzaqlaşdırmaq, rədd etmək, özündən uzaqlaşdırmaq.

başından açılmaq – rədd olmaq, rahat buraxmaq, narahat etməmək.

**başdan çıxarmaq – başına çıxmaq – başdan girib ayaqdan çıxmaq**

başdan çıxarmaq – öz fikrindən danışdırmaq, azdırmaq, aldatmaq.

başına çıxmaq – göstərilən hədsiz qayğıdan sui-istifadə etmək, qudurmaq.

başdan girib ayaqdan çıxmaq – 1. Çox axtarmaq, ələk-vələk etmək, hərtərəfli yoxlamaq, diqqətlə nəzərdən keçirmək; 2. Yaltaqlanmaq, istədiyinə nail omaq üçün kimisə dilə tutmaq, ələ almaq üçün dəridən-qabıqdan çıxmaq.

**başı ayazımaq – başı ayılmaq**

başı ayazımaq – işi azalmaq, asudə vaxt tapmaq, sərbəstləşmək.

başı ayılmaq – qayğıları azalmaq, işi yüngülləşmək, rahat olmaq, əziyyətdən xilas olmaq.

**başı çatlamaq(partlamaq)– başı çatmamaq**

başı çatlamaq(partlamaq) – başı bərk ağrımaq.

başı çatmamaq – ağıldankəm olmaq, sarsaq-sarsaq danışmaq, sözünün yerini bilməmək.

**başına qaxmaq – başına qalxmaq**

başına qaxmaq – edilmiş yaxşılığı üzə vurmaq, elədiyini dilə gətirmək.

başına qalxmaq – həddən çox güzəştə getmək, əzizləmək, səhv hərəkətlərinə göz yummaq nəticəsində qudurmaq.

**başına iş gəlmək – başına iş gətirmək**

başına iş gəlmək – müsibətlə qarşılaşmaq, xoşagəlməz hadisə baş vermək; gözlənilmədən çətin və çıxılmaz vəziyyətə düşmək.

başına iş gətirmək – pislik eləmək, bəlaya, fəlakətə uğratmaq.

**başını bağlamaq – başını batırmaq – başını boşlamaq**

başını bağlamaq – evləndirmək.

başını batırmaq – məhv etmək. Yox etmək.

başını boşlamaq – öz ixtiyarına buraxmaq, sərbəst buraxmaq, mane olmamaq.

**başını dağıtmaq – başından dağılmaq**

başını dağıtmaq – döymək, vurmaq.

başından dağılmaq – hərə bir tərəfə getmək, tərk etmək, bir kəsin yanından getmək.

**başını gətirmək – başına götürmək**

başını gətirmək – öldürmək.

başına götürmək – hər tərəfə dolmaq, yayılmaq, bürümək.

**baş almaq – baş atmaq – baş açmaq,**

baş almaq –axışıb getmək.

baş atmaq – 1. Harasa dəymək, yoxlamaq; 2. Üzmək.

baş açmaq – hər hansı bir məsələni araşdırmaq.

**baş əymək – baş əkmək**.

baş əymək – tabe olmaq, kiminsə iradəsini qəbul etmək.

baş əkmək – 1. Tovlayıb, dilə tutub uzaqlaşdırmaq; 2. Öldürmək, məhv etmək.

**başa batmaq** – **başı batmaq** – **başında bitmək**

başa batmaq –dərk etmək, qəbul etmək, mümkün hesab etmək.

başı batmaq – məhv etmək, aradan götürmək.

başında bitmək – əl çəkməmək, yapışmaq.

**baş qoşmaq – baş qoymaq**,

baş qoşmaq – maraqlanmaq, bir işin arxasınca düşmək. Fikir vermək, əhəmiyyət vermək, bir işə müdaxilə etmək, qarışmaq, münasibət bildirmək.

baş qoymaq –canını fəda etmək, bir işi başa çatdırmaq üçün fədakarlıq göstərmək.

**baş vermək – baş-başa vermək** – **baş vurmaq**

baş vermək – təzahür etmək, törəmək, ortaya çıxmaq.

baş-başa vermək-birlikdə olmaq, köməkləşmək, birgə iş görmək, bir araya gəlmək.

baş vurmaq – 1. Müəyyən sahəyə maraq göstərmək, həmin sahədə özünü sınamaq; 2. Baş çəkmək.

**başa bəla gətirmək – başa bəla kəsilmək**

başa bəla gətirmək – əngəl olmaq, zərər vermək.

başa bəla kəsilmək – hər dəfə problem yaratmaq, daim əngəl törətmək.

**başdan keçmək – başdan getmək**,

başdan keçmək –özünü ölümə vermək, candan keçmək.

başdan getmək – səs küyə dözməmək.

**başı çıxmaq** – **başa çıxmaq,**

başı çıxmaq – bələd olmaq, məlumatı olmaq, dilini bilmək, anlamaq.

başa çıxmaq – işi axıra qədər görmək, tamamlamaq, qurtarmaq.

**başı havalanmaq** – **başı haylanmaq**

başı havalanmaq – Sarsaqlamaq, başına hava gəlmək, başı xarab olmaq, ağlını azdırmaq.

başı haylanmaq – başı gicəllənmək, özünü pis hiss etmək, bir anlığa heç nə görə bilməmək.

**başı küllü** – **başı küylü**

başı küllü – yazıq, bədbəxt.

başı küylü – çox səs-küyə dözməyən.

**başı qarışmaq – başı qızışmaq**;

başı qarışmaq – bir şeylə məşğul olmaq.

başı qızışmaq – çox məşğul olmaq, bir işlə ciddi məşğul olmaq.

**başına bəla gəlmək** – **başına bəla gətirmək**

başına bəla gəlmək – çətin, çıxılmaz vəziyyətə düşmək, əngəl olmaq.

başına bəla gətirmək – əngələ salmaq, çıxılmaz vəziyyətə salmaq, əngəl törətmək.

**başına çəkmək – başına çökmək**,

başına çəkmək – hamısını birdən içmək, acgözlüklə içmək.

başına çökmək – ağlına bir şey gəlmək, bir şeyi israrla istəmək.

**başına dönmək – başına döymək**,

başına dönmək –həddindən artıq əzizləmək, istəmək.

başına döymək – etdiyi əməldən peşman olmaq, təəssüflənmək.

**başına gəlmək** – **başına girməmək**

başına gəlmək – 1. Birinə hadisə üz vermək; 2. Eşqə düşmək.

başına girməmək – başa düşə bilməmək, anlamamaq.

**başına gətirmək** – **başına götürmək**

başına gətirmək – hər hansı bir işə düşmək.

başına götürmək – səsi hər tərəfə yayılmaq.

**başına dolanmaq** – **başını doldurmaq**

başına dolanmaq – həddindən artıq əzizləmək, nəvaziş göstərmək.

başını doldurmaq – birinə bir şey və ya şəxs haqqında deyərək inandırmaq, tez-tez təkrarlayaraq təlqin etmək; beyninə yeritmək.

**başdan keçmək** – **başdan getmək**

başdan keçmək – özünü ölümə vermək, candan keçmək, özünü fəda etmək.

başdan getmək – səs-küydən, danışıqdan və s.-dən dəng olmaq, fikrini cəmləyə bilməmək.

**başı getmək** – **başı gic getmək** – **başı gicişmək**

başı getmək – səs-küydən, danışıqdan və s.-dən dəng olmaq, fikrini cəmləyə bilməmək.

başı gic getmək – işin çoxluğundan, yaxud başqa bir səbəbdən nə edəcəyini bilməmək.

başı gicişmək – hər hansı pis bir hərəkətə başlamaq istəmək.

**başından atmaq – başından açılmaq** – **başdan aşmaq**

başından atmaq – hər hansı fikri yadından çıxartmaq.

başından açılmaq – rədd olmaq, rahat buraxmaq, narahat etməmək.

başdan aşmaq – hədsiz çox olmaq, aşıb-daşmaq.

**başından keçirmək** – **başından keçmək**

başından keçirmək – fikrinə gəlmək, bir hadisə barədə düşünmək.

başından keçmək – bir şey uğrunda özünü fəda etmək, ölümə getmək.

**başını saxlamaq – başını sallamaq** – **başını sığallamaq**,

başını saxlamaq – 1. Birtəhər dolanmaq; 2. Təhlükədən özünü qorumaq.

başını sallamaq – başını aşağı salmaq.

başını sığallamaq – üzgörənlik etmək, güzəştə getmək.

**başını yormaq** – **başını yozmaq**,

başını yormaq – zəhləsini tökmək, çox səs salmaq.

başını yozmaq – aldatmaq, başını piyləmək, tovlamaq.

**başını ağartmaq – başını ağrıtmaq**;

başını ağartmaq – çox zəhmət çəkmək, dünyagörmüş olmaq.

başını ağrıtmaq – 1. Əziyyət vermək, incitmək, mane olmaq; 2. Özünü incitmək, özünə əziyyət vermək.

**başını buraxmaq** – **başını bulamaq**

başını buraxmaq – yüyənini, cilovunu boşaldaraq atın yerişini sürətləndirmək.

başını bulamaq – başını sağa-sola tərpətməklə narazılığını, xoşlamadığını bildirmək, imtina etmək.

**başını dolandırmaq** – **başını doldurmaq**

başını dolandırmaq – öz zəhməti ilə dolanmaq.

başını doldurmaq – 1. Təsir etmək, bir şeyi xırdalıqlarına qədər anlatmaq, şəxsi istəyi üçün hər hansı bir hadisənin mahiyyətini təhrif etmək, kimisə bir hərəkətə təhrik etmək; 2. Ağzına qədər doldurmaq.

**başını yığmaq** – **başını yırğalamaq**

başını yığmaq – saxlamaq, dayandırmaq, nəzarəti ələ almaq.

başını yırğalamaq – başını bulamaq, başını yırğalamaqla narazılığını bildirmək.

**başına döymək** – **başına dönmək**.

başına döymək – etdiyi əməldən peşman olmaq, təəssüflənmək.

başına dönmək – əzizləmək, nəvaziş göstərmək.

**bel bağlamaq** – **beli bağlı olmaq**

bel bağlamaq – güvənmək, inanmaq, etibar etmək, arxalanmaq.

beli bağlı olmaq – 1. Bir şeydən tam əmin olmaq; 2. Kiməsə arxalanmaq, arxasında adamı olmaq, güvənmək.

**beyni dolmaq** – **beyninə doldurmaq**

beyni dolmaq – bir şey və ya şəxs haqqında fikirlərlə yüklənmək.

beyninə doldurmaq – dərk etmək, qavramaq, unutmamaq, yaddaşında saxlamaq.

**beyni yerində olmamaq** – **beyni yerindən oynamaq**

beyni yerində olmamaq – dəliləşmək, ağıldan getmək.

beyni yerindən oynamaq – bir şeydən ani qıcıqlanaraq bərk hirslənmək, əsəbiləşmək.

**bəxti kəsmək** – **bəxti gətirmək**

bəxti kəsmək – müvəffəq olmaq, işi düz gətirmək, taleyi gətirmək.

bəxti gətirmək – şanslı olmaq, çətinə düşmədən uğur qazanmaq.

**bir ayağı burda, bir ayağı orda** – **bir ayağı burda, bir ayağı gorda**

bir ayağı burda, bir ayağı orda – iki yer arasında qalan, tez-tez gedib-gələn insanlar haqqında işlədilən ifadə.

bir ayağı burda, bir ayağı gorda – bir adamın çox yaşlı olduğunu və ölümünün yaxınlaşdığını bildirən ifadə.

**bir köynək ət tökmək** – **bir köynək tər tökmək**

bir köynək ət tökmək – dərin xəcalət hissi keçirmək, çox utanmaq.

bir köynək tər tökmək – çox işləmək, ağır zəhmət çəkmək.

**boğaza gətirmək** – **boğazı gəlmək**

boğaza gətirmək – təngə gətirmək, cana yığmaq.

boğazı gəlmək – boğazında badamcıqların iltihabı.

**boğazı gəlmək – boğaza keçmək**

boğazı gəlmək – xəstələnmək, boğazın iltihabı.

boğaza keçmək – başa bəla olmaq, ilişmək, yapışmaq.

**boğazı əldə qalmaq** – **boğazı əlində olmaq**

boğazı əldə qalmaq – çətin vəziyyətdə qalmaq.

boğazı əlində olmaq – birinin əlinə düşmək, taleyi kimdənsə asılı olmaq.

**boğazını yağlamaq** – **boğazını yaşlamaq**

boğazını yağlamaq – rüşvət vermək.

boğazını yaşlamaq – bir az içki içmək (alkoqol).

**boynuna sarılmaq** – **boynuna sırımaq**

boynuna sarılmaq – qucaqlamaq, boynuna atılmaq.

boynuna sırımaq – elədiyi hər hansı işi başqasının üzərinə atmaq.

**boynundan atmaq** – **boynundan asılmaq** –**boynuna almaq**,

boynuna atmaq –təqsiri başqasında görmək, kimi isə günahlandırmaq

boynundan asılmaq – əl çəkməmək, bir işin görülməsini tələb etmək.

boynuna almaq – bir işi görmüş olduğunu etiraf etmək, açıb söyləmək.

**boynunu burmaq** – **boynunu vurmaq**

boynunu burmaq – bikef olmaq, kədərli, yazıq-yazıq, məzlum-məzlum dayanmaq.

boynunu vurmaq – başını kəsdirməklə edam etdirmək, cəza olaraq öldürtmək.

**can almaq** – **can atmaq**

can almaq – məftun etmək (gözəl qadın haqqında).

can atmaq – bir şeyi əldə etməyə və ya bir işi gerçəkləşdirməyə çalışmaq, davamlı səy göstərmək, cəhd etmək, istəmək.

**can çəkmək** – **canına çəkmək**

can çəkmək – bir işi çox könülsüz görmək, ərinmək, tənbəllik etmək, ölümqabağı əzab-əziyyət çəkmək.

canına çəkmək – tam mənimsəmək.

**can qıymaq** – **can qoymaq**

can qıymaq – öldürmək, intihar etmək.

can qoymaq – əzab, əziyyət, cəfa çəkmək, əlindən gələni əsirgəməmək.

**cana gəlmək** – **cana gətirmək**

cana gəlmək – dirilmək, canlanmaq.

cana gətirmək – diriltmək, canlandırmaq.

**candan keçmək** – **candan getmək**

candan keçmək – bir şey uğrunda özünü fəda etmək, yolunda ölümə getmək.

candan getmək – əldən düşmək, zəifləmək.

**cana doymaq** – **cana dolmaq**

cana doymaq – usanmaq, bezmək, əzab çəkmək, yorulmaq.

cana dolmaq – 1. Kökəlmək, ətə-qana gəlmək; 2. Bezmək

**canı çıxmaq** – **canından çıxmamaq**

canı çıxmaq –1. Ölmək; 2. Çox yorulmaq.

canından çıxmamaq – mübtəla olmaq, qurtula bilməmək.

**canı üzülmək** – **can üzmək**

canı üzülmək – işləməkdən və xəstəlikdən arıqlamaq, zəifləmək.

can üzmək – bezdirmək, çox danışmaq.

**canı yanmaq** – **canına yatmaq**

canı yanmaq – istəmək, acımaq.

canına yatmaq – ürəyincə olmaq, xoşlamaq.

**cana doymaq – cana dolmaq**;

cana doymaq – usanmaq, bezmək, əzab çəkmək, yorulmaq.

cana dolmaq – təngə gəlmək, boğaza yığılmaq.

**canında olmaq – canından olmaq**

canında olmaq – birinə xas olmaq, təbiətində, qanında olmaq.

canından olmaq – ölmək, şəhid olmaq.

**damaq sallamaq – damaqdan salmaq-damağı sazlaşmaq**

damaq sallamaq – qaşqabağını tökmək

damaqdan salmaq – kefini pozmaq, pərt etmək, ruhdan salmaq.

damağı sazlaşmaq – kefi kökəlmək, şənlənmək.

**dil çıxarmaq – dili çıxmaq**

dil çıxarmaq – dilini göstərib şıltaqlıq etmək

dili çıxmaq – ürəklənmək, cəsarətlənmək, etiraz etmək, narazılığını bildirmək, əvvəllər susduğu halda birdən-birə danışmağa başlamaq.

**dildən düşməmək – dildən-dilə düşmək – dilindən düşməmək – dilinə düşmək**

dildən düşməmə – məşhur olmaq, daim xatırlanmaq.

dildən-dilə düşmək – haqqında pis danışılmaq, mənfi mənada məşhur olmaq.

dilindən düşməmək – kiminsə və ya nəyinsə haqqında tez-tez danışmaq.

dilinə düşmək – hansısa bir sözü, adı qeyri-ixtiyari işlətmək, alışdığı bir sözü dilindən tərgidə bilməmək.

**dilə gəlmək – dinə gəlmək – dilə gətirmək – dili gəlməmək**

dilə gəlmək – danışmağa başlamaq, dillənmək, sükutu pozaraq danışmaq, səbri tükənmək, etiraz etmək.

dinə gəlmək – insafa gəlmək, yumşalmaq, pis işlərdən əl çəkmək.

dilə gətirmək – 1. Təsir edərək danışdırmaq, dilləndirmək, etiraz etməyinə səbəb olmaq, qıcıqlandırmaq; 2.Söhbət zamanı hər hansı sözü, kiminsə adını xatırlamaq.

dili gəlməmək – nəyisə isə deməyə çətinlik çəkmək, dilinə gətirə bilməmək.

**dili ağzına sığmamaq – dili boğazına sığmamaq**

dili ağzına sığmamaq – kimisə ürəkdolu, blağətlə tərifləmək.

dili boğazına sığmamaq – çox danışmaq, fasilə vermədən, təkrar-təkrar danışmaq.

**dilinə gəlmək – dilinə gətirmək**

dilinə gəlmək – bir şeyi qeyri-ixtiyari olaraq demək.

dilinə gətirmək – danışmaq, söyləmək, söyləməyi münasib bilmək

**dilindən qıfıl açmaq – dilindən qıfıl asmaq**

dilindən qıfil açmaq – danışmaq, dillənmək, sükutu pozmaq

dilindən qıfil asmaq – dinməyə, danışmağa qoymamaq, susmağa məcbur etmək.

**dişinə dəymək – dişini dəyişmək**

dişinə dəymək – yeməli, yeməyə yararlı bir şeyi yemək.

dişini dəyişmək –yeni dad hiss etmək və zövq almaq üçün vərdiş edilmiş ənənəvi bir şeyi yenisi ilə əvəz etmək.

**əl açmaq – əl atmaq**

əl açmaq – istəmək, dilənmək.

əl atmaq – 1. Əlini uzadıb götürmək; 2. Sataşmaq, namusuna toxunmaq.

**əl-ayaq oynatmaq – əl-ayaqda olmaq**

əl-ayaq oynatmaq – hədələmək, xəbərdarlıq etmək.

əl-ayaqda olmaq – yanında olmaq, yan-yörədə dolaşmaq.

**əl tutmaq – əli tutmaq**

əl tutmaq – kömək etmək, yardım etmək.

əli tutmaq – mane olmaq, təşəbbüsünün qarşısını almaq.

**əli gətirmək – əli getməmək – əli gəlməmək**

əli gətirmək – qazanc əldə etmək.

əli getməmək – müəyyən işə könlü, həvəsi olmamaq, istəməmək.

əli gəlməmək–qıymamaq, rəva görməmək, çəkinmək, razı olmamaq, istəməmək.

**əlindən gəlmək – əlindən getmək – əldən getmək**

əlindən gəlmək – bacarmaq, imkanı, iqtidarı olmaq.

əlindən getmək – əldə saxlaya bilməmək, itirmək, yox olmaq, məhrum olmaq.

əldən getmək – 1.Kiməsə hədsiz sevgi və rəğbət bəsləmək; can-başla qulluğunda durmaq; 2.Məhv olmaq, xarab olmaq; 3.İtirmək, yox olmaq.

**əli yanmaq – əli yatmaq**

əli yanmaq –səhv etmək, etdiyi səhvə görə hədsiz peşman olmaq.

əli yatmaq – alışmaq, bacarmaq, öyrəşmək.

**əl-ayaq açmaq – əl-ayaq atmaq**

əl-ayaq açmaq – sərbəst, azad, istədiyi kimi hərəkət etmək

əl-ayaq atmaq – 1. Vuruşmaq, dava etmək; 2. Çırpınmaq

**əl çalmaq** – **əl çatmaq**

əl çalmaq – ələ salmaq, lağ etmək.

əl çatmaq – görüşmək, yardım etmək, yaxından görmək.

**əl çəkmək** – **əl-ayaq çəkilmək**

əl çəkmək – 1. Vaz keçmək, imtina etmək; 2. Əl götürmək, yaxasını buraxmaq.

əl-ayaq çəkilmək – gediş-gəliş kəsilmək, hərəkət olmamaq, hamı evin çəkilmək.

**əldən-ələ gəzmək** – **əl-əl gəzmək**

əldən-ələ gəzmək – 1. Çox əziz olmaq, istəkli olmaq; 2. Bir-birinə ötürülmək.

əl-əl gəzmək – tapılmayan şeyi axtarmaq.

**əl atmaq** – **əl açmaq**

əl atmaq – 1. Əlini uzadıb götürmək; 2. Birini buraxıb o birisindən yapışmaq; 3. Sataşmaq, namusuna toxunmaq.

əl açmaq – istəmək, dilənmək.

**əl vermək** – **əl vurmaq**

əl vermək –1. Kömək etmək; 2. Üz vermək, olmaq, baş vermək; 3. İşə yaramaq, xeyirli olmaq, əlverişli olmaq.

əl vurmaq – 1. Dəymək, toxunmaq; 2. Əl çalmaq, alqışlamaq.

**ələ vermək** – **əl-ələ vermək**

ələ vermək – təslim etmək, satmaq.

əl-ələ vermək – bir-birinə kömək etmək, köməkləşmək, birlikdə çalışmaq, köməkləşib bir iş görmək.

**ələ salmaq** – **əldən salmaq**

ələ salmaq – lağa qoymaq, araya qoymaq, masqaraya qoymaq, oynatmaq.

əldən salmaq – yormaq, taqətdən salmaq, gücdən salmaq.

**əl uzatmaq** – **əl üzmək**

əl uzatmaq –köməyinə çatmaq, yardım etmək.

əl üzmək – çarssi qalmaq, məhrum olmaq.

**gözləri alacalanmaq** – **gözü almaq** – **gözləri açılmaq**

gözləri alacalanmaq – təəccüblənmək, heyrətlənmək.

gözü almaq – dərhal görmək, diqqətini cəlb etmək, diqqət yetirmək.

gözləri açılmaq – dərk etməyə başlamaq, ayılmaq, hərəkətə gəlmək, yaxşı-yamanı ayırd etmək.

**gözünü oxlamaq – gözünü oxşamaq**

gözünü oxlamaq – daim nəzərində saxlamaq; diqqətlə baxmaq.

gözünü oxşamaq –gözəllik duyğusu bəxş etmək, zövq vermək.

**gözdən qaçmaq – gözdən qapmaq**

gözdən qaçmaq – diqqətdən kənarda qalmaq, əhəmiyyət verməmək.

gözdən qapmaq – zirəklik etmək, tez götürmək.

**gözündən gəlmək – gözündən getmək – gözündən gətirmək**

gözündən gəlmək – haram eləmək, əhvalını korlamaq.

gözündən getmək – xəlvət keçmək, diqqətsiz olmaq.

gözündən gətirmək – peşman etmək, haram etmək.

**gözünə dönmək – gözünü döymək**

gözünə dönmək – nəvaziş, əzizləmə ifadə edir.

gözünü döymək – mat-məəttəl qalmaq, heyrətlə baxmaq

**göz dəymək – göz dəlmək – göz dikmək**

göz dəymək – inanca görə kiminsə baxışından zərər görmək, ziyan çəkmək.

göz dəlmək – bir şeyə israrla baxmaq.

göz dikmək – 1. Bir şeyi ələ keçirmək arzusunda olmaq, sahib olmağa çalışmaq; 2. Yeganə ümid yeri olmaq, arxayın olmaq; 3. Diqqətlə baxmaq.

**göz qaytarmaq – göz qoymaq**

göz qaytarmaq – pis nəzərlərdən, bəd niyyətlərdən qorunmaq üçün özünü, imkanlarını olduğundan daha zəif, solğun təqdim etmək.

göz qoymaq – hiss etdirmədən diqqətlə baxmaq, müşahidə etmək, nəzarət etmək.

**göz kəsilmək – göz kəsməmək**

göz kəsilmək – dayanmadan baxmaq

göz kəsməmək – uzun müddət baxmaqla gözlərini ayıra bilməmək.

**göz atmaq – gözə almaq**

göz atmaq – nəzər salmaq, diqqət yetirmək, nəyisə yüngülvarı nəzərdən keçirmək.

gözə almaq – kimisə nəzarətdə saxlamaq, həbs etmək, tutmaq.

**gözü atmaq – gözü almaq**

gözü atmaq – 1. Kimin üçünsə darıxmaq; 2. Gözü səyrimək.

gözü almaq – kimisə qaralamaq, xoşu gəlmək, ürəyinə yatmaq.

**gözünün altına almaq – gözünün acısını almaq**

gözünün altına almaq – ölümünü yada salmaq

gözünün acısını almaq – azacıq yataq, bir az yatıb dincəlmək.

**gözü qalmaq – gözü qaralmaq – gözü qaynamaq**

gözü qalmaq – baxa-baxa qalmaq, bir şeyin həsrətində olmaq, itmək, unuda bilməmək.

gözü qaralmaq – özünü pis hiss etmək, halı pisləşmək, bir anlığa heç nə gör bilməmək.

gözü qaynamaq – şux, coşqun ruhlu görünmək, baxışları ilə daim nə isə axtarmaq.

**gözü doymaq – gözü dolmaq**

gözü doymamaq – Həris olmaq, tamahkarlıq etmək, hər şeydə gözü qalmaq; acgözlük etmək, gözü yemək dalınca qalmaq.

gözü dolmaq – 1. Qəhərlənmək, ağlamaq, kədərlənmək; 2. Sevincdən ağlamaq.

**gözündə qalmaq – gözündə qoymaq**

gözündə qalmaq – istəyinə, arzusuna nail olmamaq.

gözündə qoymaq – reallaşmağa, həyata keçməyə imkan verməmək.

**gözündən yağmaq – gözündən yayınmaq**

gözündən yağmaq – xarakteri baxışlarından bilinmək, necə adam olduğu üzündən hiss edilmək, nəyə qadir olduğu sir-sifətindən görünmək.

gözündən yayınmaq – 1. Xəlvət keçmək; 2. Diqqətsiz olmaq, nəyisə unutmaq.

**gözünün qarasını yedirtmək – gözünün qorasını axıtmaq**

gözünün qarasını yedirtmək – çox qayğı göstərmək, əzizləmək, qulluğunda durmaq.

gözünün qorasını axıtmaq – dayanmadan ağlamaq.

**kəlləni ağartmaq – kəlləsini atmaq**

kəlləni ağartmaq – qocalmaq.

kəlləsini atmaq – yatmaq, tez yuxuya getmək.

**qarın açmaq – qarnı açılmaq**

qarın açmaq – çox yemək, doymaq bilməmək, süfrədən əl çəkməmək.

qarnı açılmaq – ishal olmaq, mədə-bağırsaq sistemində problem olmaq

**qol-qanad atmaq – qol-qanad açmaq**

qol-qanad atmaq – çırpınmaq, uçmağa hazırlaşmaq.

qol-qanad açmaq – şaxələnmək, yayılmaq, inkişaf etmək, böyümək.

**qulaq çəkmək – qulağı çəkilmək**

qulaq çəkmək – tənbeh etmək, nəsihət vermək.

qulağı çəkilmək – kimsəsiz və uzaq bir yerdə tənha qalıb darıxmaq, qribsəmək.

**qulağı döyənək olmaq – qulağını dəng eləmək**

qulağı döyənək olmaq – eyni şeyi təkrar-təkrar eşidib bezmə.

qulağını dəng eləmək – çox danışmaqla bezdirmək.

**qulağı doymaq – qulağı dolmaq – qulağı dörd olmaq**

qulağı doymaq – eyni fikirləri eşitməkdən bezmək.

qulağı dolmaq – bir fikri və s.-ni daim birinə təlqin etmək, beyninə yeritmək, inandırmağa çalışmaq.

qulağı dörd olmaq – çox söz eşitməyə çalışmaq.

**qulağına deyil – qulağına dəymək**

qulağına deyil – dünya-aləm vecinə olmamaq.

qulağına dəymək – ötəri eşitmək.

**qulaq kəsilmək – qulaq kəsmək**

qulaq kəsilmək – diqqətlə dinləmək, diqqətlə qulaq asmaq, diqqət etmək.

qulaq kəsmək – aldatmaq, aldadıb pulunu və ya başqa bir şeyini əlindən almaq, aldadıb hiylə ilə birindən bir şey qoparmaq.

**quru yerdə qalmaq – quru yerdə qoymaq – quruyub qalmaq**

quru yerdə qalmaq – müflisləşmək, hər nəyi varsa əlindən almaq, kasıblaşmaq.

quru yerdə qoymaq – var-yoxunu əlindən almaq, müflis etmək.

quruyub qalmaq – gözlənilməz bir xəbərdən və ya hərəkətdən bərk təsirlənmək, heyrətlənmək, təəccüblənmək.

**quş qondarmaq – quşu qonmaq – quş qoymaq**

quş qondarmaq – aldatmaq, yalan demək.

quşu qonmaq – xoşlamaq, bəyənmək, istəmək, ürəyincə olmaq.

quş qoymaq – yazıda, siyahıda müəyyən məqamları vurğulamaq üçün onların qarşısında xüsusi işarə qoymaq, qeydlər etmək.

**özünü dilə-dişə salmaq – özünü dağa-daşa salmaq**

özünü dilə-dişə salmaq – özü haqqında mənfi və ya müsbət rəy yaradaraq dillərdə dolaşmaq.

özünü dağa-daşa salmaq – öz məqsədinə çatmaq üçün hər cür çətinliyə qatlaşmaq, yorulmaq bilmədən çalışmaq.

**ürəyini almaq – ürəyini açmaq – ürək atmaq**

ürəyini almaq –incimiş bir adamı ovutmaq, sakitləşdirmək, incikliyini unutdurmağa çalışmaq, yumşaltmaq, acığını unutdurmaq.

ürəyini açmaq – 1. Sirrini demək, ürəyindən keçənləri söyləmək, etiraf etmək; 2. Sevindirmək, şadlandırmaq, qəmini, qüssəsini unutdurmaq.

ürək atmaq – həsrətində olmaq, istəmək.

**ürəyi çəkilmək – ürəyi çəkməmək**

ürəyi çəkilmək – gözləməkdən yorulmaq, son dərəcədə üzülmək, aclıq hiss etmək, çox acımaq.

ürəyi çəkməmək – istəməmək, arzu etməmək.

**ürəyini qırmaq – ürəyini qısmaq-ürək qızmaq**

ürəyini qırmaq –küsdürmək, inciməsinə səbəb olmaq.

ürəyini qısmaq – qüssələnmək, kədərlənmək, qəmlənmək.

ürək qızmaq – inanmaq, etibar etmək, güvənmək.

**ürəyi yanmaq –ürəyi yaralanmaq – ürəyi yatmaq**

ürəyi yanmaq –yazığı gəlmək, rəhmi gəlmək, acımaq.

ürəyi yaralanmaq – birindən acıqlı, qəzəbli, kinli olmaq.

ürəyi yatmaq – xoşlamaq, sevmək, bəyənmək.

**ürəyi dolmaq – ürəyi donmaq**

ürəyi dolmaq – ürəyində çoxlu sözü olmaq, kiminləsə bölüşmək istəyi.

ürəyi donmaq – qorxmaq, həyəcanlanmaq, stress keçirmək.

**ürəyinə salmaq – ürəyinə xal salmaq – ürəyinə rəhm salmaq – ürəyinə od salmaq**

ürəyinə salmaq – bir şeyi özünə dərd eləmək.

ürəyinə xal salmaq – şübhələndirmək.

ürəyinə rəhm salmaq – sözü, hərəkəti, yalvarışı ilə rəhmə gətirmək, qəlbində mərhəmət hissi oyatmaq.

ürəyinə od salmaq – kiminsə sevgisindən alışıb-yanmaq.

**ürəyini oxşamaq – ürəyini oxumaq**

ürəyini oxşamaq – məftun etmək, xoşuna gəlmək, ürəyinə yatmaq.

ürəyini oxumaq – ürəyindən keçənləri duymaq, məqsədini, niyyətini hiss etmək; ürəyindən xəbər vermək.

**ürəyini vermək – ürəyini vurmaq**

ürəyini vermək –bütün varlığı ilə bağlanmaq, ürəkdən, qəlbən sevmək.

ürəyini vurmaq – doymaq, istəməmək, bir şeydən və ya bir kəsdən bezmək, usanmaq; gözünə pis görünmək.

**ürəyi qızmaq – ürəyi qısılmaq**

ürəyi qızmaq – inanmaq, etibar etmək, güvənmək.

ürəyi qısılmaq – kədərdən, qəmdən, yorğunluqdan, yaxud cıncaqlı bir işdən üzülmək, qüssələnmək, darıxmaq.

**ürəyi çatlamaq – ürəyi çatmamaq**

ürəyi çatlamaq – ürəyi partlamaq, ürəyin fəaliyyətinin dayanması nəticəsində ölmək.

ürəyi çatmamaq – nəfəs almaqda çətinlik çəkmək, xırıldamaq.

**ürəyi əsmək – ürəyi əzilmək**

ürəyi əsmək – 1. Həyəcanlanmaq, qorxmaq; 2. Həddən çox istəmək.

ürəyi əzilmək – ürəyi çəkilmək, son dərəcə üzülmək.

**ürəyi getmək – ürəyi gəlmək**

ürəyi getmək – 1. Bayılmaq, huşunu itirmək; 2. Həddən çox istəmək.

ürəyi gəlmək – 1. Qıymaq; 2. Qorxmamaq, ehtiyat etməmək, çəkinməmək.

**ürəyini açmaq – ürəyini almaq**

ürəyini açmaq –1. Sirrini demək, içindən keçənləri söyləmək, etiraf etmək; 2. Sevindirmək, şadlandırmaq, qəmini, qüssəsini unutdurmaq.

ürəyini almaq – nazını çəkmək, yalvarmaq, dilə tutmaq.

**ürəyini yarmaq – ürəyini yaralamaq**

ürəyini yarmaq – kimisə çox sevmək

ürəyini yaralamaq – pis bir əhvalda olmaq.

**üz vermək – üz vurmaq**

üz vermək – 1. Nazı ilə oynamaq, üzünə xoş baxmaq, başına çıxarmaq; 2. Vaqe olmaq, ortaya çıxmaq, təsadüf etmək, birinin başına iş gəlmək.

üz vurmaq – bir şeyi təkidlə xahiş etmək, boğaz çəkmək.

**üz olmaq – üz-göz olmaq**

üz olmaq – sırtıqlıq etmək, üzlü olmaq

üz-göz olmaq – münasibəti pozulmaq, narazılıq yaranmaq.

**üzə düşmək – üzərinə düşmək**

üzə düşmək – bir iş görməyi və ya görməməyi xahiş etmək.

üzərinə düşmək – yerinə yetirmək məcburiyyətində qalmaq, müəyyən öhdəlik götürmək.

**üzə salmaq – üzdən salmaq**

üzə salmaq – həyasızlıqla, sırtıqlıqla kimisə, nəyəsə məcbur etmək.

üzdən salmaq – bir şeyi çox demək, nəyəsə məcbur etmək.

**üzü gəlməmək – üzü gülmək – üzə gülmək – üzdən gülmək**

üzü gəlməmək – bir şeyi deməyə, istəməyə utanmaq.

üzü gülmək – çox sevinmək, şad olmaq.

üzə gülmək – yaxşı əhval-ruhiyyədə, təmiz yerdə olmaq.

üzdən gülmək – yalandan deyib-gülmək.

**üzdən getmək – üzdən keçmək**

üzdən getmək – mahiyyətinə varmamaq, çox dərinə getməmək, səthi yanaşmaq.

üzdən keçmək – hər hansı bir hadisənin üstündən keçmək, əhəmiyyət verməmək.

**üzünü görək – üzünü görmə**

üzünü görək – xoş gəlmisən.

üzünü görmə – hirslənmiş bir adam haqqında deyilir.

## Ədəbiyyat


1. Azərbaycan dilinin izahlı lüğəti. I cild, B., Şərq-Qərb, 2006, 744 səh.
2. Azərbaycan dilinin izahlı lüğəti. II cild, B., Şərq-Qərb, 2006, 792 səh.
3. Azərbaycan dilinin izahlı lüğəti. III cild, B., Şərq-Qərb, 2006, 672 səh.
4. Azərbaycan dilinin izahlı lüğəti. VI cild, B., Şərq-Qərb, 2006, 712 səh.
5. Azərbaycan dilinin orfoqrafiya lüğəti. VI nəşr, B., Şərq-Qərb, 2013, 840 səh.
6. H. Həsənov. Azərbaycan dilinin paronimiya və paronimaziya lüğəti. B., Maarif, 1991, 108 səh.
7. Q.Məhərrəmli, R.İsmayılov. Azərbaycan dilinin frazeologiya lüğəti. B., Altunkitab, 2015, 288 səh.
8. N. Seyidəliyev. Frazeologiya lüğəti. B., Çıraq, 2004, 272 səh.